بسم الله الرحمن الرحيم

Bismillahirrahmanirrahim

(Yaxşılığı sonsuz, ehsanı bol Allahın adı ilə)

كِتَابٌ اَنْزَلْنَاهُ اِلَيْكَ مُبَارَكٌ لِيَدَّبَّرُوا اَيَاتِهِ

وَلِيَتَذَكَّرَ اُولُوا الْاَلْبَابِ

**Bu bərəkətli bir kitabdır. Onu sənə nazil etdik ki, ayələrindəki əlaqələr şəbəkəsini görsünlər və daxili təmiz olanlar onu başlarına yerləşdirsinlər!**

(«Sad» surəsi, 38/29).

## QURANIN AYDINLIĞINDA VASİTƏÇİLİK və ŞİRK

Müəllif: Professor, dr. Abdulaziz BAYINDIR
Tərcümə edən: Həmzə HAŞİMİ
Nəşrə hazırlayan: Elşad MİRİ
Redaktor: Məhəbbət SEYİDOVA
Korrektor: Şəlalə ARİFQIZI
Dizayner: Elşad PAŞAOĞLU

Professor, dr. **Abdulaziz BAYINDIR**
«QURANIN AYDINLIĞINDA VASİTƏÇİLİK və ŞİRK»,
Bakı, avqust 2011, 200 səhifə

**QURANIN AYDINLIĞINDA**

# VASİTƏÇİLİK
# və ŞİRK

Əlinizdə tutduğunuz bu kitabda insanları aldatmaq üçün dindən istifadə edənlərdən bəhs edilir. Allaha şirk qoşmaq Ona məxsus xüsusiyyətlərdən birini və ya bir neçəsini başqa məxluqda görmək mənasına gəlir. Bu məxluq daha çox Allaha yaxın sayılan dini rəhbərlər arasından seçilir. Bəzi insanlar həmin varlıqların Allahın dostları olduqlarını, Allahla olacaq işlərdə dəstək verəcəklərini, vasitəçi və şəfaətçi olacaqlarına inanırlar və onlara tabe olmağın zəruriliyini qəbul edirlər. Uca Allah belə buyurur: **«Allah bir camaatı doğru yola yönəltdikdən sonra qorxub çəkinməli olduqları şeyləri özlərinə bildirmədən onları yoldan çıxartmaz!»** («Tövbə» surəsi, 9/115). «Quranın aydınlığında Vasitəçilik və Şirk» kitabı insanların, xüsusilə də özünü müsəlman adlandıranların Allah ilə aralarına qoyduqları vasitəçilərdən bəhs edərək bunlardan uzaqlaşmağın vacibliyini Quranın aydınlığında çatdırmağa çalışır.

Kitab Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 20 aprel 2011-ci il tarixli, DK-123/M saylı müsbət rəyi əsasında çap edilmişdir!

«Şərq-Qərb» Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur.

**QURANIN AYDINLIĞINDA**

# VASİTƏÇİLİK

# və ŞİRK

İnternet saytlarımız

www.muselmanlar.com

www.islam.com.az

www.din.az

www.suleymaniyevakfi.org

www.kurandersi.com

www.hablullah.com

www.musulmanlar.com

www.koranika.com

www.islamandquran.org

www.islamundkoran.com

www.kuranformu.com

Professor, dr. **Abdulaziz BAYINDIR**

**Bakı - 2011**

# İÇİNDƏKİLƏR


ÖN SÖZ ..................................................................... 9
GİRİŞ ..................................................................... 14

**BİRİNCİ FƏSİL**
**DİN ..................................................................... 16**
A. ALLAHLA ALDANMAQ **..................................... 23**
ŞİRK VƏ KÜFR............................................................ 38
1. Özünü Tanrı qəbul edənlər ........................................ 41
2- Vasitəçi Tanrı axtaranlar .......................................... 45

**İKİNCİ FƏSİL**
**A - VASİTƏÇİLİK İNANCI........................................ 60**
1 - Allah.......................................................................... 64
2 - İsa (Oğul).................................................................. 65
3 - Müqəddəs Ruh........................................................... 69
4 - Məryəm Ana.............................................................. 70
5 - Həvarilər.................................................................... 71
6 - Kilsə .......................................................................... 73
7 - Rahiblər ..................................................................... 73
8 - Vəftiz......................................................................... 75
9 - Günahlardan təmizləmək ........................................... 76
10 - Tanrılar piramidası ................................................... 76

**B - TAOİZMDƏ VASİTƏÇİLİK......................................79**
1 - Tao ..................................................................................80
2 – Te.....................................................................................81
3 - Əbədi ruhlar və incə güclər.........................................82
4 - Ataların (əcdadların) ruhları .......................................82
5 - Müdriklər, mələkvari ustadlar....................................83
6 - Rabitə (Əlaqə)..............................................................84

**ÜÇÜNCÜ FƏSİL**
**ƏHLİ-KİTABIN ARDINCA GEDƏN**
**MÜSƏLMANLAR.............................................................85**
**A - ŞİRKİ RƏDD ETMƏ TƏƏSSÜRATI........................85**
**B - PEYĞƏMBƏRİ TANRILAŞDIRMAQ ......................87**
**C - DİNİ RƏHBƏRLƏRİ MÜ**
**QƏDDƏSLƏŞDİRMƏK...............................................90**
**D - DİN BÖYÜKLƏRİNİN TANRILAŞDIRILMASI....94**
**E- İNSAN SÖZÜNÜ ALLAHIN SÖZÜ HESAB**
**ETMƏK..........................................................................95**
**F - VASİTƏÇİLİK İNANCI............................................ 101**
**G - TƏRİQƏTLƏRDƏKİ VASİTƏÇİLƏR.................. 102**
1 - Həqiqəti Muhəmmədiyyə (Muhəmməd Həqiqəti)... 103
2 - Kamil insan (İnsanı kamil)....................................... 104
3 - Qutbul-irşad (Doğru yol rəhbəri)............................. 106
4 - Ricalul-Ğayb (Bilinməyən şəxslər).......................... 108
5 - Qütb (rəhbər)............................................................. 109
6 - Qavs ........................................................................... 109

7 - Rəvasi ........................................................................ 109
8 - Təriqət şeyxi ................................................................. 110

**H - VASİTƏÇİLƏRİN QEYBİ BİLDİYİ İNANCI ...... 113**
1 - Katoliklərdə qeyb məlumatı ..................................... 115
2 - Təriqət və camaatlarda qeybi bilmə düşüncəsi ....... 116

**İ - VASİTƏÇİLƏRİN ŞƏFAƏT EDƏCƏYİ İNANCI . 121**
1 - Katoliklərdə şəfaət inancı ......................................... 121
2 - Təriqətlərdə şəfaət inancı ......................................... 121

**J - ÖLÜDƏN YARDIM İSTƏMƏK ............................. 125**
1 - Katoliklərin ölüdən kömək istəməsi ........................ 126
2 - Təriqətlərdə və camaatlarda ölüdən kömək istəmək .......................................................................... 130
**K - CAMAAT YARATMAQ VƏ NUR CAMAATI .... 151**
**L - CAMAATI ARTIRMAĞIN ƏSAS OLMASI ........ 177**
**M - BƏŞƏRİYYƏTƏ QUCAQ AÇMAQ İDDİASI ..... 180**

**DÖRDÜNCÜ FƏSİL**
**SAİD NURSİ VƏ QURAN ............................................ 182**
**A - ƏBCƏD VƏ CİFR ................................................... 182**
**B - RİSALEYİ NURLARLA BAĞLI İŞARƏLƏR ..... 184**
**C - SAİD NURSİ İLƏ BAĞLI İŞARƏLƏR ................. 188**
**D - RİSALEYİ-NURUN YAZILMASINA İŞARƏLƏR ........................................................... 191**

**E - RİSALEYİ-NURLARIN DƏYƏRİNƏ İŞARƏLƏR .................................................................. 192**
**F - RİSALEYİ-NURLARI OXUYANLARA İŞARƏLƏR .................................................................. 193**
BİBLİOQRAFİYA ........................................................... 196

بسم الله الرحمن الرحيم

# AZƏRBAYCAN ÜÇÜN ÖN SÖZ

الحمد لله رب العالمين و الصلاة و السلام على رسولنا
محمد و على آله و صحبه أجمعين

Mən Türkiyənin Ərzurum şəhərindənəm. İbtidai sinifdə oxuyarkən Azərbaycanı yuxumda görmüşdüm. Görürdüm ki, İstanbulun hündür bir yerindən Azərbaycana və Dağıstana baxıram. İnsanlar səcdə edirdilər. Bu yuxu mənə də hələ də təsir edir. Hər dəfə Azərbaycanda ağlını işlədən və doğru dini öyrənmək arzusunda olanları görəndə yuxumun çin olduğunu fikirləşirəm. Bu kitab da həmin böyük hədəf yolunda bir cəhd olarsa, məni xoşbəxt edəcəkdir.

Ateistlər də daxil olmaqla hər bir insan Allahın mövcudluğunu və təkliyini bilir. Hər insan öz din anlayışına görə özünü dindar hesab edir. Mühüm olan Allahın dininin dindarı olmaqdır. Allah ilə öz aralarına vasitəçilər qoyanlar Allahdan əvvəl həmin vasitəçilərin qulu olur və azadlığını itirir.

Bizi yaradan, yaşadan, öldürəndən sonra təkrar diriləcək ancaq Allahdır. İstəyib-istəməməyimizdən asılı olmayaraq biz onun quluyuq. Əgər istəyərək ona qul olar, başqasına qulluğu qəbul etməsək, bu zaman hürriyyətin kulminasiyasına çatarıq. Beləliklə, həm özümüzə, həm ətrafımıza, həm də bütün bəşərə faydalı olarıq.

Bizi qul etmək istəyənlər daha çox dindən istifadə edirlər. Şeytan Allaha belə demişdi: «**... Onlar üçün sənin düz yolunun üstündə oturacağam. Sonra onların qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm. Görəcəksən**

**ki, onların əksəriyyəti sənə təşəkkür etməyəcəkdir!»** («Əraf» surəsi, 7/16-17).

Doğru yolda oturan şeytan insanı azdırmaq üçün həmişə dindən istifadə edir. Ağlını işlətməyənləri də çox sevir. Azərbaycanlı dostlarımın dini mövzularda ağıllarını axıra işlədərək şeytanın hiylələrinə aldanmamalarını ümid edirəm.

Həqiqəti başa düşmək asan, qəbul etmək çətindir. Uca Allah belə buyurur:

**«Allah bir camaatı doğru yola yönəltdikdən sonra qorxub çəkinməli olduqları şeyləri özlərinə bildirmədən onları yoldan çıxartmaz!»** («Tövbə» surəsi, 9/115).

**«Allaha qarşı yalan uyduran, ya da özünə o haqq gəldikdə onu təkzib edən kəsdən daha zalım kim ola bilər?! Məgər nankorlar üçün Cəhənnəmdə yer yoxdur?**

**(Allah deyir ki,) kim bizim uğrumuzda cəhd göstərərsə, onları Öz yollarımıza qovuşdurarıq. Şübhəsiz ki, Allah yaxşı əməllər edənlərlədir!»** («Ənkəbut» surəsi, 29/68-69).

Cəhd göstərmək bizdən, müvəffəqiyyət Allahdandır.

Bakı, aprel 2011

Abdulaziz BAYINDIR

بسم الله الرحمن الرحيم

# ÖN SÖZ

الحمد لله رب العالمين و الصلاة و السلام على
رسولنا محمد و على آله و صحبه أجمعين.

Şeytan Allaha belə demişdi:

قَالَ فَبِمَا اَغْوَيْتَنِي لَاَقْعُدَنَّ لَهُمْ صِرَاطَكَ الْمُسْتَقِيمَ (16) ثُمَّ لَاٰتِيَنَّهُمْ مِنْ بَيْنِ اَيْدِيهِمْ وَمِنْ خَلْفِهِمْ وَعَنْ اَيْمَانِهِمْ وَعَنْ شَمَائِلِهِمْ وَلَا تَجِدُ اَكْثَرَهُمْ شَاكِرِينَ (17)

**“...Nə olursa-olsun, onlara görə sənin düz yolunun üstündə oturacağam. Sonra onların qarşılarından, arxalarından, sağlarından və sollarından gələcəyəm. Sən onların əksəriyyətinin təşəkkür etmədiklərini görəcəksən!”** («Əraf» surəsi, 7/16-17).

Şeytan insandan və cindən olur.[1] Hiyləsini doğru yolun üstündə qurur. Onun ən böyük hiyləsi şirkdir.

Çünki

اِنَّ اللّٰهَ لَا يَغْفِرُ اَنْ يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذٰلِكَ لِمَنْ يَشَاءُ

**“Allah şərik qoşanları bağışlamaz, amma bundan başqa olan günahı sisteminə tabe olan üçün bağışlar…”** («Nisa» surəsi, 4/48).

Şirk «şərik qoşmaq, ortaq etmək» deməkdir. Allaha şərik qoşmaq ona məxsus xüsusiyyətlərdən birini və ya bir neçəsini başqa məxluqda görmək mənasına gəlir. Bu məxluq daha çox Allaha yaxın sayılan dini rəhbərlər arasından seçilir. Şeytanlar

---

[1] «Ənam» surəsi, 6/112; «Nəs» surəsi, 114/6.

həmin varlıqların Allahın dostları olduqlarını, Allahla olacaq işlərdə dəstək verəcəklərini, vasitəçi və şəfaətçi olacaqlarını pıçıldayırlar. Onlara tabe olmağın zəruriliyini təkidlə vurğulayırlar.

Ağıl və Quran bu hiylənin iki böyük maneəsidir. Şeytanlar maneələri aşmaq üçün dinin ağılla deyil, qəlblə olduğunu və Quranın hər kəs tərəfindən başa düşülməyəcəyini təlqin edirlər. İnsanların qarşısına onların müqəddəs hesab etdiyi başqa kitablar qoyur və onları oxumalarını istəyirlər. Bu hiyləyə aldananlar Qurana olan hörmətlərini itirməzlər, amma onu başa düşməyəcəklərini qəbul edərək Quranın onlara bağlı bir kitab olduğunu hesab edərlər. Sonra bu şeytanlar uydurduqları yeni ibadət növlərini araya salaraq çox ibadət etməyi tövsiyə edir və insanlara doğru yolda olmaları ilə bağlı əminlik hissini aşılayırlar. Onlar da şeytanın uydurduqlarını Allahın dostu bilib, onların bəndəsi və qulu olurlar. Nəticədə belə insanların özlərinə olan inamları itər və doğru yolla əlaqələri kəsilər, lakin özlərini həmin doğru yolun ortasında olduqlarını güman edərlər. Uca Allah belə buyurur:

وَمَنْ يَعْشُ عَنْ ذِكْرِ الرَّحْمَنِ نُقَيِّضْ لَهُ شَيْطَانًا فَهُوَ لَهُ قَرِينٌ (36) وَإِنَّهُمْ لَيَصُدُّونَهُمْ عَنِ السَّبِيلِ
وَيَحْسَبُونَ اَنَّهُمْ مُهْتَدُونَ (37)

**“Hər kəs Rəhmanın zikrindən (Qurandan) boyun qaçırsa, Biz ona Şeytanı sararıq və onun (şeytanın) dostu olar.**

**Onlar bunları doğru yoldan çıxardar, amma onlar isə özlərini doğru yola girdiklərini güman edərlər!”** («Zuxruf» surəsi, 43/36-37).

Allahın adından danışmaq da əksər insanların aldandıqları hiylələrdəndir.

Bu mövzuda ya Allahın gücünə, ya böyüklərin sözlərinə, ya da kitablardakı xurafatlara əsaslanırlar. Səhv danışmamaq

üçün Qurana istinad edəcəkləri halda, Quranın bu səhvləri dəstəkləyəcək tərzdə şərh edilməsi, məsələni cizgisindən çıxarır.

Bu kitabın məqsədi yaxşı müsəlman olmaq istəyənlərin asanlıqla aldandığı bu hiylələri Quranın aydınlığında ortaya çıxarmaq və insanları xəbərdar etməkdir. Bizim səhvlərimizi görənlərin də eynilə bizi xəbərdar etmələrini gözləyirik.

Həqiqəti başa düşmək asan, qəbul etmək isə çətindir. Uca Allah belə buyurur:

وَمَا كَانَ اللَّهُ لِيُضِلَّ قَوْمًا بَعْدَ اِذْ هَدَيهُمْ حَتَّى يُبَيِّنَ لَهُمْ مَا يَتَّقُونَ

**“Bir tayfanı doğru yola gətirdikdən sonra qorxub çəkinməli olduqları şeyləri onlara bildirmədən Allahın onları yoldan çıxarmaq ehtimalı yoxdur!”** («Tövbə» surəsi, 9/115)

وَمَنْ اَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللَّهِ كَذِبًا اَوْ كَذَّبَ بِالْحَقِّ لَمَّا جَاءَهُ اَلَيْسَ فِىجَهَنَّمَ مَثْوًى لِلْكَافِرِينَ
(68) وَالَّذِينَ جَاهَدُوا فِينَا لَنَهْدِيَنَّهُمْ سُبُلَنَا وَاِنَّ اللَّهَ لَمَعَ الْمُحْسِنِينَ (69)

**“Allaha qarşı yalan uyduran, ya da özünə haqq gəldikdə onu təkzib edən kəsdən daha zalım kim ola bilər?! Məgər kafirlər üçün Cəhənnəmdə yer yoxdur?**

**(Allah deyir ki,) kim Bizim uğrumuzda cəhd göstərərsə, onları öz yollarımıza qovuşduracağıq. Şübhəsiz ki, Allah yaxşı davrananlarla bərabərdir!”** («Ənkəbut» surəsi, 29/68-69)

Səy göstərmək bizdən, müvəffəqiyyət isə Allahdandır.

May 2006, İstanbul

Professor, dr. Abdulaziz BAYINDIR

# GİRİŞ

Allah Təala belə buyurur:

قُلْ اِنَّمَا حَرَّمَ رَبِّىَ الْفَوَاحِشَ مَا ظَهَرَ مِنْهَا وَمَا بَطَنَ وَالْاِثْمَ وَالْبَغْىَ بِغَيْرِ الْحَقِّ وَاَنْ تُشْرِكُوا بِاللّٰهِ مَا لَمْ
يُنَزِّلْ بِهِ سُلْطَانًا وَاَنْ تَقُولُوا عَلَى اللّٰهِ مَالَا تَعْلَمُونَ

**“De: “Rəbbim ancaq bunları haram buyurdu: «İstər aşkar, istərsə də gizli olsun hər cür fühuş[2], ism[3], haqsız hücum, Allahın haqqında heç bir dəlil nazil etmədiyi şeyi Ona şərik qoşmağınız və Allaha qarşı bilmədiyiniz şeyləri deməyiniz”** («Əraf» surəsi, 7/33).

Şirk şərik qoşmaq, ortaq etmək deməkdir. Allaha şərik qoşmaq Ona aid xüsusiyyətlərdən birini və ya bir neçəsini başqa varlığa şamil edərək onu həmin məsələdə Allahla ortaq hesab etməkdir. Bunu qəbul edənə «müşrik» deyilir. Müşrik həmin varlığı Allahla özü arasında vasitəçi edir, onun bəndəsi və qulu olur. Quranın demək olar ki, hər səhifəsində bununla bağlı xəbərdarlıqlar var. Çünki bu, bağışlanmaz cinayətdir.

Uca Allah belə buyurur:

اِنَّ اللّٰهَ لَا يَغْفِرُ اَنْ يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَنْ يَشَاءُ

**“Allah Özünə şərik qoşanları bağışlamaz, amma istədiyi şəxsin bundan başqa olan günahlarını bağışlar...”** («Nisa» surəsi, 4/48).

---

[2] “Fuhuş” sözü Quranda həm zina («İsra» surəsi, 17/32), həm də homoseksuallıq («Nəml» surəsi, 27/54-58) mənasında işlədilmişdir.

[3] Ərəb dilindəki “ism” sözü “günah” kimi tərcümə edilir. “Zənb” və “cunah” sözlərinə də eyni məna verildikdə aradakı fərq itir, bundan yaranan fikir qarışıqlığı ilə, məsələn, Quranda içkinin haram olması haqqında bir hökmün olmadığını deyənlər ortaya çıxır. Halbuki «Bəqərə» surəsinin 2/219-cu ayəsinə görə, içkidə və qumarda böyük “ism” var. Yuxarıdakı ayəyə görə “ism” Allahın haram buyurduğu şeylərdən olduğuna görə içki haramdır. Buna görə sözü tərcümə etmədik.

Müşrik tövbə edərsə, bağışlanır. İlk müsəlmanlar şirkdən tövbə edərək İslama daxil olmuşdular. Elə isə Allaha şərik qoşmaqdan başqa qalan günahları edən insan tövbə etmədən ölsə belə, tamamilə bağışlana bilər.

Şirk mövzusunda peyğəmbərlərə də xəbərdarlıq edilmişdir. Uca Allah belə buyurmuşdur:

وَلَقَدْ اُوحِىَ اِلَيْكَ وَاِلَى الَّذِينَ مِنْ قَبْلِكَ لَئِنْ اَشْرَكْتَ لَيَحْبَطَنَّ عَمَلُكَ وَلَتَكُونَنَّ مِنَ الْخَاسِرِينَ
(65) بَلِ اللَّهَ فَاعْبُدْ وَكُنْ مِنَ الشَّاكِرِينَ (66)

**“(Ey Muhəmməd!) Sənə və səndən əvvəlki elçilərə qəti olaraq bildirilmişdir: “Əgər şərik qoşsan, bütün əməlin puça çıxar və sən itirənlərdən olarsan! Xeyr, yalnız Allaha qulluq et və şükür edənlərdən ol!”** («Zumər» surəsi, 39/65-66)

Hətta peyğəmbərlərin də sərt şəkildə xəbərdarlıq edildiyi şirk mövzusuna lazımi diqqət yetirilməlidir. Yoxsa edilən yaxşı işlərin və ibadətlərin savabı yox olub gedər.

# BİRİNCİ FƏSİL

# DİN

Din mövzusunda insanı ən çox aldadan Allahın mövcud və bir olduğunu qəbul etməyin kifayət edəcəyi kimi səhv düşüncədir. Halbuki onun mövcudluğunu hər kəs qəbul edir. Uca Allah belə buyurur:

وَاِذْ اَخَذَ رَبُّكَ مِنْ بَنِى اٰدَمَ مِنْ ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَاَشْهَدَهُمْ عَلٰى اَنْفُسِهِمْ اَلَسْتُ بِرَبِّكُمْ قَالُوا بَلٰى شَهِدْنَا اَنْ تَقُولُوا يَوْمَ الْقِيٰمَةِ اِنَّا كُنَّا عَنْ هٰذَا غَافِلِينَ (172) اَوْ تَقُولُوا اِنَّمَا اَشْرَكَ اٰبَاؤُنَا مِنْ قَبْلُ وَكُنَّا ذُرِّيَّةً مِنْ بَعْدِهِمْ اَفَتُهْلِكُنَا بِمَا فَعَلَ الْمُبْطِلُونَ (173) وَكَذٰلِكَ نُفَصِّلُ الْاٰيَاتِ وَلَعَلَّهُمْ يَرْجِعُونَ (174)

**“Rəbbin Adəm oğullarından, onların bellərindən nəsillərini çıxardıb onların özlərinə şahid tutdu: “Mən sizin Rəbbiniz deyiləmmi?” - soruşdu, onlar da: “Bəli, Rəbbimizsən! Biz buna şahidik” - dedilər. Artıq qiyamət günü: “Biz bundan qafil idik” və ya: “Daha əvvəllər şərik qoşanlar atalarımız idi. Biz isə onlardan sonra gələn bir nəsil idik. Məgər bizi batilə tabe olanların törətdikləri əməllərə görə məhv edəcəksən?” - deyə bilməzsiniz. Biz həmin sənədləri belə açıq izah edirik ki, bəlkə, dönələr!”** («Əraf» surəsi, 7/172-174)

Xalq arasında “bəzmi ələstdə verilən vəd” və ya “ələstu birabbikum” adlandırılan bu hadisə insanın açıq və qəti şəkildə Allahın varlığını və birliyini qəbul etməsi hadisəsidir. Ayə bu hadisənin Adəm oğullarının “bellərindən nəsillərinin çıxarılması” əsnasında baş verdiyini bildirir. Nəslin beldən çıxarılması nəsli davam etdirəcək toxumun çıxarılmasıdır. İnsan həmin vəziyyətə gəldiyi gün həddi-buluğa çatır.

İnsan dünyaya gözünü açdığı andan etibarən Allahın ayələrini oxumağa başlayır. Çünki Allahın ayələri yalnız Quranda

olanlar deyildir. Bütün varlıqlarda, göylərdə, yerdə, heyvanlarda, bitkilərdə, qısası, hər yerdə onun ayələri var[4]. Uca Allah belə buyurur:

سَنُرِيهِمْ اٰيَاتِنَا فِي الْاٰفَاقِ وَفِي اَنْفُسِهِمْ حَتّٰى يَتَبَيَّنَ لَهُمْ اَنَّهُ الْحَقُّ

**"Biz onlara həm xarici aləmdə, həm də onların öz daxilində olan ayələrimizi göstərəcəyik. Nəticədə onun (Quranın) haqq olduğu onlara bəlli olacaqdır"** («Fussilət» surəsi, 41/53).

İnsanın xarici və daxili aləmində oxuduğu ayələr ona bir yaradanın olduğunu xəbər verir. Buna görə də insan hələ uşaq ikən Allahla maraqlanmağa başlayır, bu mövzu ilə bağlı ətrafındakılara suallar yağdırır. Sonda Allahın mövcud və bir olduğunu tam şəkildə dərk edir. Qarşısına çıxan bu ayələrlə sanki Allah ondan soruşur: "Mən sənin Rəbbin deyiləm?" O da qəti şəkildə deyir: "Bəli, Rəbbimsən, mən buna şahidlik edirəm." İnsan bu ayələri həyatı boyunca oxuduğu üçün onun Allaha olan marağı daima canlı qalır, demək olar ki, hər gün buna bənzər suallarla öz daxilində qarşılaşır.

Müşrik şərik qoşan deməkdir. Şərik qoşmaq üçün ən azı iki varlıq lazımdır. Bunlardan birincisi həmişə Allahdır. Allahın mövcud və bir olduğunun saysız-hesabsız dəlilləri olduğu halda, şərik qoşulan varlıqlarla bağlı heç bir dəlil yoxdur. Buna görə də

---

[4] Maraqlananlar bu ayələrə nəzər yetirə bilərlər: «Bəqərə» surəsi, 2/164; «Ali-İmran» surəsi, 3/190; «Ənam» surəsi, 6/97, 99; «Əraf» surəsi, 7/26, 58; «Yunus» surəsi, 10/5, 6, 67, 92, 101; «Yusuf» surəsi, 12/7, 35; «Rəd» surəsi, 13/2, 3, 4; «Nəhl» surəsi, 16/13, 65, 66, 67, 68, 69, 79; «İsra» surəsi, 17/12; «Kəhf» surəsi, 18/9; «Məryəm» surəsi, 19/10; «Taha» surəsi, 20/128; «Ənkəbut» surəsi, 29/ 24, 33, 34, 35; «Rum» surəsi, 30/21, 22, 23, 24, 28; «Loğman» surəsi, 31/31, 32; «Səcdə» surəsi, 32/26; «Səba» surəsi, 34/15; «Zumər» surəsi, 39/42, 52; «Mumin» surəsi, 40/13; «Casiyə» surəsi, 45/3, 4, 5, 6; «Zariyat» surəsi, 51/22, 23, 35, 36, 37; «Qəmər» surəsi, 54/12, 13, 14, 15.

heç bir müşrik özünü haqlı çıxartmaq üçün heç bir etibarlı dəlil tapmayacaq, bu sözü deyə bilməyəcəkdir:

اِنَّمَا اَشْرَكَ اٰبَاؤُنَا مِنْ قَبْلُ وَكُنَّا ذُرِّيَّةً مِنْ بَعْدِهِمْ اَفَتُهْلِكُنَا بِمَا فَعَلَ الْمُبْطِلُونَ

**Daha əvvəllər şərik qoşanlar atalarımız idi. Biz isə onlardan sonra gələn bir nəsil idik. Məgər bizi batilə tabe olanların törətdikləri əməllərə görə məhv edəcəksən?** («Əraf» surəsi, 7/173).

Yetkinlik dövrü çox mühümdür. Məhz məsuliyyət bu dövrdə başlayır. Ataları əksini desələr belə, yetkinlik yaşına çatan insan Allahın varlığına və birliyinə, onun bütün varlıqların sahibi və Rəbbi olduğuna qəti şəkildə şahid olur. Bəziləri bunu açıq şəkildə ifadə edirlər, bəziləri isə müşahidə etdikləri mühüm hadisələr zamanı büruzə verirlər.

Özlərini tanrıtanımaz kimi qələmə verən ateistlər Allahı öz işlərinə qarışdırmaq istəməyənlərdir. Onlar özlərini tanrılaşdırır, özlərinin sahibi olmağa çalışırlar. Digər müşriklər isə Allahla birlikdə başqa sahiblər tapır, onları Allaha bənzər səviyyəyə gətirir və Allahla olan əlaqələrini onların vasitəsiylə davam etdirməyə çalışırlar.

Quranda tez-tez "zikr" kökündən törəyən sözlər qeyd edilir. Zikr bir məlumatı düşüncədə istifadəyə hazır vəziyyətdə saxlamaq, onu qəlbə, dilə gətirmək və xatırlamaq mənalarına gəlir.[5] Zehində mövcud olan məlumatı üzə çıxarmağa da «təzəkkür» deyilir. İnsan dünyaya gəlişindən ölümünə qədər Allahın ayələri ilə üz-üzə yaşayır. Allahın ayələri yalnız Onun nazil etdiyi kitablarda olanlarla məhdud deyil. İnsanın həm xarici, həm də daxili aləmində olan ayələr də var. İnsan əksər məlumatları xarici

---

[5] Rağib əl-İsfahani, «Mufrədat», (Təhqiq: Safvan Adnan Davudi), Dəməşq və Beyrut, 1412/1992 (ذكر) maddəsi.

və daxili aləmindən oxuduğu ayələrdən alır. Buna görə də bütün bu məlumatlar təbii hüququn və əxlaqın ümumbəşəri qaydalarını göstərirlər. Quranın, Tövratın, İncilin və digər ilahi kitabların ortaq adı da “Zikr”dir.[6] Çünki xarici aləmdə və insanın daxili aləmində olan ayələrlə Quran ayələri arasında tam uyğunluq var. Uca Allah belə buyurur:

سَنُرِيهِمْ آيَاتِنَا فِي الْآفَاقِ وَفِي أَنْفُسِهِمْ حَتَّى يَتَبَيَّنَ لَهُمْ أَنَّهُ الْحَقُّ

**"Biz onlara həm xarici aləmdə, həm də onların öz daxilində olan ayələrimizi göstərəcəyik. Nəticədə onun (Allahın göstərdiyi yolun) haqq olduğu onlara bəlli olacaqdır”** («Fussilət» surəsi, 41/53).

Buna görə peyğəmbərlər insanları təzəkkürə, yəni zehinlərinə həkk olunmuş məlumatlardan faydalanmağa çağırmışlar. İbrahim əleyhissəlamın müşriklərə **“...təzəkkür etmirsiniz?”[7]**, yəni “uşaqlığınızdan bəri topladığnız biliklərlə mənim sözlərimi müqayisə edib yol verdiyiniz səhvi görmürsünüz?”, - deməsi buna misaldır.

Məlum olduğu kimi, İbrahim əleyhissəlamın qövmü göyləri və yeri Allahın yaratdığını, lakin "mələkutunu", yəni rəhbərliyini Günəşə, Aya və ulduzlara verdiyini iddia edirdilər. Bu varlıqları yerli rəhbər hesab edir, hər birinə ruhanilik şamil edirdilər. Buna görə istəklərini onlara bildirir, Allahla əlaqələrini onların vasitəsi ilə həyata keçirməyə çalışırdılar. Onların heykəlləri qarşısında hörmətlə əyilir, onlara qurbanlar təqdim edərək diqqətlərini cəlb etməyə çalışırdılar. Bu, onları Allaha şərik qoşmaq idi. Onlar cəmiyyətlərindəki sosial quruluşu da buna uyğun

---

[6] Bxn. «Ali-İmran» surəsi, 3/58; «Əraf» surəsi, 7/63; «Hicr» surəsi, 15/6,9; «Nəhl» surəsi, 16/44; «Ənbiya» surəsi, 21/2,50,105; «Furqan» surəsi, 25/18; «Yasin» surəsi, 36/11; «Sad» surəsi, 38/8; «Qəmər» surəsi, 54/25.

[7] «Ənam» surəsi,6/80.

formalaşdırmışdılar. Bütün bunları müşahidə edən İbrahim əleyhissəlam qövmünün tapındıqlarının onlara rəhbərlik etmədiklərini açıq şəkildə bildirdikdə, artıq təhlükəli olmağa başlamışdı. Uca Allah belə buyurur:

وَكَذَلِكَ نُرِى اِبْرَهِيمَ مَلَكُوتَ السَّمَوَاتِ وَالْاَرْضِ وَلِيَكُونَ مِنَ الْمُوقِنِينَ (75) فَلَمَّا جَنَّ عَلَيْهِ الَّيْلُ
رَا كَوْكَبًا قَالَ هَذَا رَبِّى فَلَمَّا اَفَلَ قَالَ لَا اُحِبُّ الْاَفِلِينَ (76) فَلَمَّا رَاَالْقَمَرَ بَازِغًا قَالَ هَذَا رَبِّى فَلَمَّا اَفَلَ قَالَ
لَئِنْ لَمْ يَهْدِنِى رَبِّى لَاَكُونَنَّ مِنَ الْقَوْمِ الضَّالِّينَ (77) فَلَمَّا رَاَالشَّمْسَ بَازِغَةً قَالَ هَذَا رَبِّى هَذَا اَكْبَرُ فَلَمَّا
اَفَلَتْ قَالَ يَا قَوْمِ اِنِّى بَرِىءٌ مِمَّا تُشْرِكُونَ (78) اِنِّى وَجَّهْتُ وَجْهِىَ لِلَّذِى فَطَرَ السَّمَوَاتِ وَالْاَرْضَ حَنِيفًا
وَمَا اَنَا مِنَ الْمُشْرِكِينَ (79) وَحَاجَّهُ قَوْمُهُ قَالَ اَتُحَاجُّونِّى فِى اللَّهِ وَقَدْ هَدَينِ وَلَا اَخَافُ مَا تُشْرِكُونَ بِهِ اِلَّا
اَنْ يَشَاءَ رَبِّى شَيْئًا وَسِعَ رَبِّى كُلَّ شَىْءٍ عِلْمًا اَفَلَا تَتَذَكَّرُونَ (80)

**“Beləcə, İbrahimə bu azğınlığı göstərdiyimiz kimi göylərin və yerin mülkünü göstərdik ki, qəti məlumatı olanlardan olsun!”**

**“Gecə qaranlığı bürüdükdə o, bir ulduz görüb: “Bu mənim Rəbbimdir!” (məni idarə edən bu olmalıdır) dedi. İşığı itəndə isə: “Mən işığı batanları istəmirəm”, söylədi.**

**Doğan ayı görüb: “Bu mənim Rəbbimdir!” - dedi. Onun da işığı batdıqda isə: “Rəbbim məni doğru yolu göstərməsə, həqiqətən mən də bu yoldan çıxanlardan olaram”, - söylədi.**

**Günəşi doğarkən görüb: “Bu mənim Rəbbimdir, bu, daha böyükdür!” - dedi. Onun işığı batdıqda isə dedi: “Ey camaatım, mən, həqiqətən, sizin Allaha şərik qoşduqlarınızdan uzağam!**

**Mən, həqiqətən, üzümü göyləri və yeri yaradana çevirdim. Mən  şərik qoşanlardan deyiləm!”**

**Tayfası onunla mübahisəyə girişəndə İbrahim dedi: “Allah məni doğru yolu göstərdiyi halda siz mənimlə Allah barəsində mübahisə edirsiniz? Rəbbimin qurduğu sistem istisna olmaqla, Mən sizin Ona şərik qoşduqlarınızdan qorx-**

**muram. Rəbbim hər şeyi elmlə ehtiva etmişdir. Təzəkkür etmirsiniz?”** («Ənam» surəsi, 6/75-80)

**“Təzəkkür etmirsiniz?”** ifadəsi “mənim gördüyümü siz də görürsünüz, bunların sizləri idarə etmədiklərini siz də başa düşmüsünüz. Bu biliyinizi işlətsəniz, yaxşı olmazmı?”, - deməkdir.

İbrahim əleyhissəlam onlara:

اِنِّى وَجَّهْتُ وَجْهِىَ لِلَّذِى فَطَرَ السَّمٰوَاتِ وَالْاَرْضَ حَنِيفًا وَمَا اَنَا مِنَ الْمُشْرِكِينَ

**Mən, həqiqətən, üzümü göyləri və yeri yaradana çevirdim. Mən şərik qoşanlardan deyiləm!”** («Ənam» surəsi, 6/79) - dediyi vaxt, onların heç biri “göyləri və yeri yaradan kimdir ki?”, - deyə sual verməmişdir. Çünki onsuz da bunu bilirdilər.

Sonra sözlərinə belə davam etdi:

وَكَيْفَ اَخَافُ مَا اَشْرَكْتُمْ وَلَا تَخَافُونَ اَنَّكُمْ اَشْرَكْتُمْ بِاللّٰهِ مَا لَمْ يُنَزِّلْ بِهِ عَلَيْكُمْ سُلْطَانًا فَاَىُّ الْفَرِيقَيْنِ اَحَقُّ بِالْاَمْنِ اِنْ كُنْتُمْ تَعْلَمُونَ

**"Sizin Ona qoşduğunuz şəriklərdən mən niyə qorxmalıyam? Amma siz heç bir dəlil endirmədiyi halda, Allaha şərik qoşmaqdan çəkinmirsiniz. Bu iki tərəfdən hansı əmin olmağa daha layiqdir? Əgər bilirsinizsə, deyin!”** («Ənam» surəsi, 6/81)

Şərik qoşan ən azı iki tanrını tanıyır. Bunların birincisi həmişə Allahdır. Digəri isə vasitəçilik etdiyinə inandığı şeydir. Bu mövzuda yeganə əsası böyüklərindən eşit-dikləridir. Bu kimi insanlar ağıllarını işlətməzlər. Uca Allah belə buyurur:

وَاِذَا قِيلَ لَهُمْ تَعَالَوْا اِلَى مَا اَنْزَلَ اللّٰهُ وَاِلَى الرَّسُولِ قَالُوا حَسْبُنَا مَا وَجَدْنَا عَلَيْهِ اٰبَاءَنَا اَوَلَوْ كَانَ اٰبَاؤُهُمْ لَا يَعْلَمُونَ شَيْـًٔا وَلَا يَهْتَدُونَ

**“Onlara: “Allahın nazil etdiyinə və Peyğəmbərə tərəf gəlin!” - deyildiyi zaman: “Atalarımızın getdiyi yol bizə ye-**

**tər”, - deyə cavab verirlər. Bəs ataları heç bir şey bilməyib doğru yolda deyildilərsə necə?!”** («Maidə» surəsi, 5/104)

وَيَجْعَلُ الرِّجْسَ عَلَى الَّذِينَ لاَ يَعْقِلُونَ

**“...Allah o pisliyi ağlını işlətməyənlərin üstünə qoyar”** («Yunus» surəsi, 10/100)

Allahın mövcud və bir olduğunu şəxsi müşahidələrimizlə də dərk edirik. “Əşhədu ən lə iləhə illəllah”, yəni “Şahidlik edirəm ki, Allahdan başqa tanrı yoxdur”, - deməyimiz buna bariz nümunədir. Bunun üçün peyğəmbərə ehtiyac olsaydı, "Şahidlik edirəm ki..." əvəzinə “Bu peyğəmbərin bildirdiyinə görə...”, - demək lazım olardı. Buna görə də heç bir peyğəmbər Allahın varlığını isbat etməklə məşğul olmamış, lakin Allahdan başqa tanrı olmadığını, yalnız Ona qul olmağın vacibliyini çatdırmaqla məşğul olmuşlar. Ağlını işlədən hər bir insan bunun belə olduğunu asanlıqla görə bilər. Peyğəmbərlərə qarşı çıxanlar həmişə səhv inamlar üzərində qurduqları nizamın, sistemin pozulacağından qorxanlar və onların təsir etdikləri insanlar olmuşlar.

Peyğəmbərə və onun gətirdiyi kitaba inananlar da bir müddət sonra həmin kitabı özlərinə tabe etməyə, bir çox ayələri görməməyə və buna uyğun həyat formalaşdırmağa başlamışlar. Yəhudilər, xristianlar və bəzi müsəlmanlar bu qrupa daxildirlər.

## A. ALLAHLA ALDANMAQ

Uca Allah belə buyurur:

يَا اَيُّهَا النَّاسُ اذْكُرُوا نِعْمَتَ اللَّهِ عَلَيْكُمْ هَلْ مِنْ خَالِقٍ غَيْرُ اللَّهِ يَرْزُقُكُمْ مِنَ السَّمَاءِ وَالْاَرْضِ لَا
اِلَهَ اِلَّا هُوَ فَاَنَّى تُؤْفَكُونَ 3 وَاِنْ يُكَذِّبُوكَ فَقَدْ كُذِّبَتْ رُسُلٌ مِنْ قَبْلِكَ وَاِلَى اللَّهِ تُرْجَعُ الْاُمُورُ (4) يَا اَيُّهَا
النَّاسُ اِنَّ وَعْدَ اللَّهِ حَقٌّ فَلَا تَغُرَّنَّكُمُ الْحَيَوةُ الدُّنْيَا وَلَا يَغُرَّنَّكُمْ بِاللَّهِ الْغَرُورُ (5) اِنَّ الشَّيْطَانَ لَكُمْ عَدُوٌّ
فَاتَّخِذُوهُ عَدُوًّا اِنَّمَا يَدْعُوا حِزْبَهُ لِيَكُونُوا مِنْ اَصْحَابِ السَّعِيرِ (6) اَلَّذِينَ كَفَرُوا لَهُمْ عَذَابٌ شَدِيدٌ وَالَّذِينَ
اَمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ لَهُمْ مَغْفِرَةٌ وَاَجْرٌ كَبِيرٌ (7)

**“Ey insanlar! Allahın sizə olan nemətini fikirləşin. Allahdan başqa sizə göylərdən və yerdən ruzi verən bir yaradan varmı?! Xeyr! Ondan başqa heç bir tanrı yoxdur. Elə isə necə böhtana döndərilirsiniz?**

**Əgər sənə yalan deyərlərsə, (heç ürəyini sıxma). Səndən əvvəl də peyğəmbərlər təkzib olunmuşdu. Bütün işlər Allaha qayıdacaqdır.**

**Ey insanlar! Allahın vədi haqdır. Dünya həyatı sizi aldatmasın. <u>O çox aldadan (şeytan) qəti sizi Allah ilə aldatmasın!</u>**

**Həqiqətən, Şeytan sizin düşməninizdir, onu düşmən tutun. O özünə tərəf olanları cəhənnəmə dost olmağa çağırır.**

**Bu xəbərdarlıqları qulaqardına vuranları şiddətli əzab, iman gətənləri və yaxşı işlər görənləri isə bağışlanma və böyük bir mükafat gözləyir!”** («Fatir» surəsi, 35/3-7)

قُلْ اَرَاَيْتُمْ شُرَكَاءَكُمُ الَّذِينَ تَدْعُونَ مِنْ دُونِ اللَّهِ اَرُونِي مَاذَا خَلَقُوا مِنَ الْاَرْضِ اَمْ لَهُمْ شِرْكٌ فِي
السَّمَوَاتِ اَمْ اَتَيْنَاهُمْ كِتَابًا فَهُمْ عَلَى بَيِّنَتٍ مِنْهُ بَلْ اِنْ يَعِدُ الظَّالِمُونَ بَعْضُهُمْ بَعْضًا اِلَّا غُرُورًا

**“De: “Allah ilə aranıza qoyub köməyə çağırdıqlarınıza çevrilib baxdınızmı? Mənə göstərin, onlar bu torpaqların hansı hissəsini yaradıblar? Yoxsa onların göylərdə bir şərikliyi var? Yaxud onlara yazılı bir sənəd vermişik və oradakı**

**açıq hökmlərə görə davranırlar?! Xeyr, bu zalımlar bir-birinə ancaq yalan vəd verirlər.”** ("Fatir" surəsi, 35/40)

يَا اَيُّهَا النَّاسُ اتَّقُوا رَبَّكُمْ وَاخْشَوْا يَوْمًا لَايَجْزِى وَالِدٌ عَنْ وَلَدِهِ وَلَا مَوْلُودٌ هُوَ جَازٍ عَنْ وَالِدِهِ
شَيْـًٔا اِنَّ وَعْدَ اللَّهِ حَقٌّ فَلَا تَغُرَّنَّكُمُ الْحَيوٰةُ الدُّنْيَا وَلَا يَغُرَّنَّكُمْ بِاللَّهِ الْغَرُورُ

**“Ey insanlar! Rəbbinizdən çəkinin. Atanın oğula, oğulun da ataya heç bir şeylə kara gələ bilməyəcəyi bir günün qorxusunu daşıyın. Allahın verdiyi söz doğrudur. Ehtiyatlı olun ki, dünya həyatı sizi aldatmasın. O çox aldadan (şeytan) sizi Allah ilə aldatmasın!”** ("Loğman" surəsi, 31/33)

Allahla aldatmağın bir neçə forması var:

### *1-Allah ilə Peyğəmbərlərini ayırmaq*

Əvvəldə də qeyd edildiyi kimi, hər kəs Allaha inanır və bu inamını müəyyən formada ifadə edir. Tanrıtanımaz kimi adlandırılan ateist də belədir. Tanrının təbiət, Göy tanrı və başqa adla adlandırılmasından asılı olmayaraq, Allahı inkar etmək mümkün olmadığı kimi, tanrıtanımaz atasını tanımamağa çalışana oxşayır. Həmin insan çətin vəziyyətə düşdükdə atasının dəstəyinə möhtac olduğu kimi, bu insan da Allahın dəstəyini axtarar. Allahın ona arzuladığı hər şeyi verməsini istəyir, lakin əmr etməsini istəmir. Belə bir insanın peyğəmbərə inanmasını gözləmək əbəsdir. Uca Allah belə buyurur:

اِنَّ الَّذِينَ يَكْفُرُونَ بِاللَّهِ وَرُسُلِهِ وَيُرِيدُونَ اَنْ يُفَرِّقُوا بَيْنَ اللَّهِ وَرُسُلِهِ وَيَقُولُونَ نُؤْمِنُ بِبَعْضٍ وَنَكْفُرُ
بِبَعْضٍ وَيُرِيدُونَ اَنْ يَتَّخِذُوا بَيْنَ ذَلِكَ سَبِيلًا (150) اُولَئِكَ هُمُ الْكَافِرُونَ حَقًّا وَاَعْتَدْنَا لِلْكَافِرِينَ عَذَابًا
مُهِينًا (151) وَالَّذِينَ اٰمَنُوا بِاللَّهِ وَرُسُلِهِ وَلَمْ يُفَرِّقُوا بَيْنَ اَحَدٍ مِنْهُمْ اُولَئِكَ سَوْفَ يُؤْتِيهِمْ اُجُورَهُمْ وَكَانَ اللَّهُ
غَفُورًا رَحِيمًا (152)

**“Allahı və peyğəmbərlərini qulaqardına vuranlar, Allahı peyğəmbərlərindən ayırmaq istəyənlər, “Biz Allaha inanırıq, peyğəmbəri isə tanımırıq”,- deyənlər və bu ikisinin arasında bir yol tapmaq istəyənlər - bütün bunlar, həqiqə-**

**tən, kafirdirlər. Biz həmin kafirlərdən ötrü alçaldıcı əzab hazırlamışıq! Lakin Allaha və peyğəmbərlərinə inananlara və onların heç birini digərindən ayırmayan şəxsləri Allah Özü mükafatlandıracaqdır. Allah bağışlayar, mərhəməti boldur!”** ("Nisa" surəsi, 4/150-152)

Peyğəmbəri qəbul etməyənlərlə apardığımız bəzi söhbətləri burada qeyd edək:

**Peyğəmbəri qəbul etməyən:** Mənim Allahıma olan inancım sonsuzdur.

**Bayındır:** “Allaha hər kəs inanır, bu, bütün insanlar üçün qaçılmazdır.

**Peyğəmbəri qəbul etməyən:** Mən bəzi hallarda Allahıma sığınır, onun köməyini və dəstəyini istəyirəm. Belə etdiyim zaman rahat olur və özümü xoşbəxt hiss edirəm.

**Bayındır:** Hamı bu cür edir. Çətin olanı Allahın əmrlərinə tabe olmaq, yəni Peyğəmbərə tabe olmaqdır. Siz Peyğəmbərə tabe olmaq əvəzinə öz qəlbinizə görə yaşamaq istəyirsiniz. Elə deyil?

**Peyğəmbəri qəbul etməyən:** Əlbəttə! Bu mənim həyatımdır, buna kim qarışa bilər?

**Bayındır:** O həyatı verən Allah qarışa bilməz? Allahın elçiləri onun bu mövzu ilə bağlı əmrlərini gətirirlər.

**Peyğəmbəri qəbul etməyən:** Lakin bu məsələ ilə əlaqədar bir-biri ilə uyğun gəlməyən bir çox mənasız şeylər eşitdim. Onların əksəriyyəti xurafatdan ibarətdir, sonradan uydurulmuş şeylərdir.

**Bayındır:** Dini mənbəyindən öyrənmək doğru qərar qəbul etməyin yoludur. Dinin mənbəyi Qurandır. Quranı dərk edərək oxuyun. Əgər onun yalnız Allahın kitabı olduğu qənaətinə gəlsəniz, Muhəmməd əleyhissəlamın da Allahın elçisi olduğuna inanmaq məcburiyyətində qalacaqsınız.

**Əvvəllər peyğəmbəri qəbul etməyən başqa bir şəxs:** “Mən ateist idim. Əgər insanların dinlə bağlı dediklərinə baxsaydım, dinsiz qalardım. Mən tibb sahəsində elmlər

namizədiyəm. Bir gün Quranı götürdüm və araşdırdım. Məqsədim Quranın həqiqətən Allahın kitabı olub-olmadığını başa düşmək idi. Orada tibbə aid, xüsusən, uşağın ana bətnində keçirdiyi mərhələlərlə bağlı elə məlumatlara rast gəldim ki, bunların həmin dövrdə bilinməsi mümkün deyildi. Bunlarla yanaşı, başqa şeylər də gördüm və qəti şəkildə başa düşdüm ki, bu, Allahın kitabıdır. Elə o zaman müsəlman oldum.

**Bayındır:** Bax, belə etmək lazımdır. Başqalarına baxaraq deyil, düşünərək və araşdıraraq qərar qəbul etmək lazımdır. Quranı başa düşərək tədqiq etmək bunun ən vacib şərtidir.

### *2- Bütün məsuliyyəti Allahın üzərinə atmaq*

Əksər insanlar etdikləri səhvlərə görə məsuliyyəti Allahın daşıdığını iddia edirlər. Uca Allah belə buyurur:

سَيَقُولُ الَّذِينَ اَشْرَكُوا لَوْ شَاءَ اللَّهُ مَا اَشْرَكْنَا وَلَا اَبَاؤُنَا وَلَا حَرَّمْنَا مِنْ شَيْءٍ كَذَلِكَ كَذَّبَ الَّذِينَ
مِنْ قَبْلِهِمْ حَتَّى ذَاقُوا بَاْسَنَا قُلْ هَلْ عِنْدَكُمْ مِنْ عِلْمٍ فَتُخْرِجُوهُ لَنَاَ اِنْ تَتَّبِعُونَ اِلَّا الظَّنَّ وَاِنْ اَنْتُمْ اِلَّا
تَخْرُصُونَ (148) قُلْ فَلِلَّهِ الْحُجَّةُ الْبَالِغَةُ فَلَوْ شَاءَ لَهَدَيكُمْ اَجْمَعِينَ (149)

**“Şirk qoşanlar belə deyəcəklər: “Əgər Allah əmr etsəydi, nə biz, nə də atalarımız şirkə düşərdik. Biz heç bir şeyi haram da etməzdik. Onlardan əvvəlkilər də eyni yalanı dedilər və əzabımızı daddılar. De: “Əlinizdə göstərə biləcəyiniz bir sənəd varmı? Siz yalnız zənnə qapılır və yalan uydurursunuz!” De: “Tutarlı dəlil yalnız Allaha məxsusdur. Əgər O əmr etsəydi, sizin hamınızı doğru yola gətirərdi”.** ("Ənam" surəsi, 6/148-149)

Allahın istəməsi, yəni iradəsi iki cür olur: biri təşrii, digəri isə təkvini iradədir. Allahın bir şeyi yaratmaq iradəsi “təkvini iradə” adlanır. Yaratmaq istədiyi şeyə “ol” deyir və dərhal olur. Uca Allah belə buyurur:

اِنَّمَا اَمْرُهُ اِذَا اَرَادَ شَيْئًا اَنْ يَقُولَ لَهُ كُنْ فَيَكُونُ

**“Bir şeyi istədiyi zaman onun işi ancaq: “Ol!” deməkdir. O iş dərhal olar”** (“Yasin” surəsi, 36/ 82).

Allahın «təşrii iradəsi» isə insanların davranışları ilə bağlı iradəsidir. O, qoyduğu qanun və qaydalara tabe olmağı istəyir, amma heç kimi məcbur etmir. Bu iradənin yerinə yetməsi insanın səyindən asılıdır. Uca Allah belə buyurur:

وَقُلِ الْحَقُّ مِنْ رَبِّكُمْ فَمَنْ شَاءَ فَلْيُؤْمِنْ وَمَنْ شَاءَ فَلْيَكْفُرْ اِنَّا اَعْتَدْنَا لِلظَّالِمِينَ نَارًا اَحَاطَ بِهِمْ
سُرَادِقُهَا وَاِنْ يَسْتَغِيثُوا يُغَاثُوا بِمَاءٍ كَالْمُهْلِ يَشْوِى الْوُجُوهَ بِئْسَ الشَّرَابُ وَسَاءَتْ مُرْتَفَقًا

**“De: “Doğrular Rəbbinizdəndir. Cəhd göstərən inansın, qulaqardına vuran da kafir olsun. Biz zalımlar üçün elə bir atəş hazırlamışıq ki, onun dumanları onları bürüyəcəkdir. Onlar kömək istədikdə onlara qətran kimi üzlərini büryan edən bir su ilə kömək ediləcəkdir. O, nə pis içki, o necə də birlik!”** (“Kəhf” surəsi, 18/29)

Uca Allah din məsələsində heç kimi məcbur etmədiyi kimi, heç kimin məcbur edilməsinə də razı olmaz. O bununla bağlı Muhəmməd əleyhissəlama belə xəbərdarlıq etmişdir:

وَلَوْ شَاءَ رَبُّكَ لَاٰمَنَ مَنْ فِى الْاَرْضِ كُلُّهُمْ جَمِيعًا اَفَاَنْتَ تُكْرِهُ النَّاسَ حَتّٰى يَكُونُوا مُؤْمِنِينَ

**“Rəbbin əmr etsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları inana kimi sən təzyiq altında saxlayacaqsan?!”** (“Yunus” surəsi, 10/99).

وَاِنْ كَانَ كَبُرَ عَلَيْكَ اِعْرَاضُهُمْ فَاِنِ اسْتَطَعْتَ اَنْ تَبْتَغِىَ نَفَقًا فِى الْاَرْضِ اَوْ سُلَّمًا فِى السَّمَاءِ فَتَاْتِيَهُمْ بِاٰيَةٍ
وَلَوْ شَاءَ اللّٰهُ لَجَمَعَهُمْ عَلَى الْهُدٰى فَلَا تَكُونَنَّ مِنَ الْجَاهِلِينَ

**“Onların üz döndərməsi sənə ağır gəlirsə, yerdə bir lağım və ya göyə çıxacaq bir nərdivan tapıb onlara bir möcüzə gətirə bilərsənsə, durma gətir! Allah istəsəydi, onları asanlıqla yığıb doğru yola salardı. Elə isə cahillərdən (bilməyənlərdən) olma!”** (“Ənam” surəsi, 6/35).

Uca Allah istəyi olmayan heç kimi doğru yola gətirməz. O, belə buyurur:

إِنَّ اللَّهَ لَا يَهْدِى الْقَوْمَ الْكَافِرِينَ

**"Allah kafir camaatı düz yola yönəltməz!"** ("Maidə" surəsi, 5/67)

وَاللَّهُ لَا يَهْدِى الْقَوْمَ الظَّالِمِينَ

**"Allah zalım tayfanı doğru yola yönəltməz!"** ("Tövbə" surəsi, 9/19)

وَاللَّهُ لَا يَهْدِى الْقَوْمَ الْفَاسِقِينَ

**"…Allah fasiqləri doğru yola yönəltməz!"** ("Tövbə" surəsi, 9/24)

Allah yalnız istəyi olanları doğru yola gətirir. Bununla bağlı belə buyurur:

وَمَا اَرْسَلْنَا مِنْ رَسُولٍ اِلَّا بِلِسَانِ قَوْمِهِ لِيُبَيِّنَ لَهُمْ فَيُضِلُّ اللَّهُ مَنْ يَشَاءُ وَيَهْدِى مَنْ يَشَاءُ وَهُوَ الْعَزِيزُ الْحَكِيمُ

**"Biz hər bir elçini yalnız öz millətinin dilində göndərdik ki, onlara yaxşı izah edə bilsin. Bundan sonra Allah azğınlığı istəyəni zəlalətdə saxlayar, hidayəti istəyəni də doğru yoluna yönəldər.[8] Güclü olan da, doğru qüvvət verən də Odur!"** ("İbrahim" surəsi, 14/4)

---

[8] Əldə etdiyimiz Quran tərcümələrində ayəni belə tərcümə ediblər: "Biz hər bir elçini öz xalqının dili ilə göndərdik ki, onlara yaxşıca izah etsin. Bundan sonra Allah istədiyini azğınlıqda saxlayar, istədiyini də düz yola gətirər. Güclü olan O, doğru qərar verən Odur."
Bu tərcümə həm ərəb dilinin qaydalarına, həm də Quranın bütövlüyünə ziddir. Allah istədiyini doğru yola gətirəcək və istədiyini azdıracaqsa, elə isə nə üçün elçi göndərir? Belə olduğu halda göndərildiyi cəmiyyətin dilində danışan elçinin dili ilə onu doğru yola çağırmasının nə mənası olar? Belə mənasız işi Allaha yaraşdıra bilərikmi?

İnsanın doğru yola gəlməsi öz istəyilə Allaha yönəlməsindən asılıdır. Uca Allah belə buyurur:

اِنَّ اللّٰهَ يُضِلُّ مَنْ يَشَاءُ وَيَهْدِى اِلَيْهِ مَنْ اَنَابَ

**“Allah azğınlıq yoluna girəni azdırar, doğruya üz tutanı da doğru yola qovuşdurar”** (“Rəd” surəsi, 13/27).

Mərhəməti sonsuz olan Allah doğru yola gəldikdən sonra səhv işlər edən bəndəsini xəbərdar etmədən yoldan sapmasına izn verməz. Bu mövzuda belə buyurur:

وَمَا كَانَ اللّٰهُ لِيُضِلَّ قَوْمًا بَعْدَ اِذْ هَدٰيهُمْ حَتّٰى يُبَيِّنَ لَهُمْ مَا يَتَّقُونَ

**“Allah bir tayfanı yoluna qəbul edəndən sonra, qorxub çəkinməli olduqları şeyləri onlara bildirməmiş onları yoldan çıxarması ehtimalı yoxdur!...”** (“Tövbə” surəsi, 9/115)

Doğru yoldan azanlar açıq-aşkar edilən xəbərdarlıqlara diqqət etməyənlərdir. Belə bir cəmiyyət əvvəlcə yüksək rifah səviyyəsinə çatır, sonra isə gözləmədiyi anda cəzaya məruz qalır. Uca Allah belə buyurur:

فَلَمَّا نَسُوا مَا ذُكِّرُوا بِهِ فَتَحْنَا عَلَيْهِمْ اَبْوَابَ كُلِّ شَىْءٍ حَتّٰى اِذَا فَرِحُوا بِمَا اُوتُوا اَخَذْنَاهُمْ بَغْتَةً فَاِذَا
هُمْ مُبْلِسُونَ (44)

**“Edilmiş xəbərdarlıqları unutduqları zaman, hər şeyin qapılarını onların üzünə açdıq. Onlara verilən nemətlərə sevindikləri vaxt onları qəflətən yaxaladıq və onlarümidsizliyə düşdülər”** (“Ənam” surəsi, 6/44).

Allah xəbərdarlıq edilməyən cəmiyyətə cəza verməz. O, bununla bağlı belə buyurur:

---

Ziddiyyətlər, “يَشَاءُ = istər” feilinin faili olan “o” əvəzliyini, ərəb dili qaydalarına zidd olaraq, Allah sözünə işarə etməsindən irəli gəlir. Halbuki əvəzlik, yanında olan من “kim”i göstərir. Uzağı göstərməsi üçün əsas lazımdır. Burada belə bir əsas yoxdur. Ayənin doğru mənası belədir: “... Bundan sonra Allah istəyəni azğın yolda saxlayar, istəyəni də doğru yola gətirir...”

مَنِ اهْتَدَى فَإِنَّمَا يَهْتَدِى لِنَفْسِهِ وَمَنْ ضَلَّ فَإِنَّمَا يَضِلُّ عَلَيْهَا وَلَاتَزِرُ وَازِرَةٌ وِزْرَ أُخْرَى وَمَاكُنَّا
مُعَذِّبِينَ حَتَّى نَبْعَثَ رَسُولًا ﴿15﴾

**"Doğru yola gələn özü üçün gələr, yoldan azan da ancaq öz əleyhinə zərər edər. Heç bir günahkar başqasının günahını daşımaz. Biz, elçi göndərilənə qədər heç kimə əzab verməyik!"** ("İsra" surəsi, 17/15).

### *3- Səhv təvəkkül*

Təvəkkül bir işdə aciz qaldığını qəbul edib onu başqasına həvalə etməkdir.[9] Allaha təvəkkül isə bir işdə əlindən gələn hər şeyi edib qalanını Allaha həvalə etməkdir. Lakin təvəkkül vaxt ötdükcə özünü yormadan "işi Allaha həvalə etmək" kimi başa düşülmüşdür. Bəzi ayələr də buna əsasən şərh edildikdə tənbəlliyə meyilli olan, lakin irəliləyişlərin əleyhinə olan və bütün məsuliyyəti Allahın üzərinə atan davranış tərzinin ortaya çıxmasına səbəb olmuşdur. Halbuki Uca Allah belə buyurur:

وَاَنْ لَيْسَ لِلْاِنْسَانِ اِلَّا مَاسَعَى ﴿39﴾

**"İnsanın əməyindən başqası onun deyil!"** («Nəcm» surəsi, 53/39)

فَمِنَ النَّاسِ مَنْ يَقُولُ رَبَّنَا اٰتِنَا فِى الدُّنْيَا وَمَالَهُ فِى الْاٰخِرَةِ مِنْ خَلَاقٍ ﴿200﴾ وَمِنْهُمْ مَنْ يَقُولُ
رَبَّنَا اٰتِنَا فِى الدُّنْيَا حَسَنَةً وَفِى الْاٰخِرَةِ حَسَنَةً وَقِنَا عَذَابَ النَّارِ ﴿201﴾ أُولٰئِكَ لَهُمْ نَصِيبٌ مِمَّا كَسَبُوا وَاللّٰهُ
سَرِيعُ الْحِسَابِ ﴿202﴾

**"...İnsanların bəzisi: "Ey Rəbbimiz, bizə nə verəcəksənsə, elə bu dünyada ver!" - deyirlər. Belə şəxslərin axirətdə heç bir payı yoxdur! Bəziləri isə: "Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver, bizi atəşin əzabından qoru!" deyirlər.**

---

[9] Mütercim Asım, Kâmus Tercümesi (Firuzabâdînin), Bəhriyyə nəşriyyatı, 1305, وكل v-k-l maddəsi.

**Onlardan hər birinə qazandıqlarından bir pay var. Allah haqq-hesabı tez çəkəndir!”** («Bəqərə» surəsi, 2/200-202)

Deməli, dünyanı istəyən çalışmaq məcburiyyətindədir. Həm dünyanı, həm də axirəti arzulayan eyni məcburiyyətdədir. İşləməyənə heç bir şey yoxdur. Nailiyyətin iki əsas şərti var: biri istəmək, digəri isə lazımi gücə malik olmaqdır. Uca Allah belə buyurur:

إِنَّ رَبَّكَ يَبْسُطُ الرِّزْقَ لِمَنْ يَشَاءُ وَيَقْدِرُ إِنَّهُ كَانَ بِعِبَادِهِ خَبِيرًا بَصِيرًا (30)

**“Həqiqətən, Rəbbin sisteminə tabe olan və gücü çatan üçün ruzisini yayar. O öz bəndələrinin daxilini bilir və hər şeyi görür!”** («İsra» surəsi, 17/30)

Yer üzündə pendir, çörək, aş və başqa şeylər hazır vəziyyətdə deyil. Lakin Allah onları əldə etmək imkanlarını yaratmışdır. Bu imkanlardan istifadə etməyənlər həmin nemətləri əldə edə bilməzlər. Allah belə buyurur:

وَقَدَّرَ فِيهَا أَقْوَاتَهَا فِي أَرْبَعَةِ أَيَّامٍ سَوَاءً لِلسَّائِلِينَ (10)

**“Allah yer üzündəki ruziləri dörd gündə müəyyən etmişdir. Bunlar araşdıranlar üçün bərabər uzaqlıqdadır”** («Fussilət» surəsi, 41/10). Lazımi qədər səy göstərən insanlar həmin nemətlərə nail olurlar. Yaşadığmız yerdə Allah hansı nemət və imkanları yaradıbsa, yalnız onları tapa bilərik. Allah Ona belə səslənməyimizi istəmişdir:

وَتَرْزُقُ مَنْ تَشَاءُ بِغَيْرِ حِسَابٍ (27)

**“...Qurduğun sistemə uyğun olaraq da sysız-hesabsız ruzi verərsən”** («Ali-İmran» surəsi, 3/27).

İmkanlar çox olsa, lakin lazımi gücə malik olmasaq, yaxud gücümüz olduğu halda çalışmasaq heç nə əldə edə bilmərik. Buna görə də lazımi gücü əldə etməli və müvəffəqiyyət qazan-

maq üçün əldən nə gəlirsə, edilməlidir. Quraqlıq, kəskin yağıntılar və zəlzələ kimi təbii fəlakətlərə qarşı müqavimət göstərə bilmədiyimiz hallarda belə, bütün qabaqlayıcı tədbirləri gördükdən sonra Allaha təvəkkül etməliyik.

Təfsir və tərcümələrdə bəzi ayələrə başqa mənalar verilərək, səhv təvəkkül anlayışı təşviq edilmişdir. Məsələn, yuxarıda tərcüməsini verdiyimiz «İsra» surəsinin 17/30-cu ayəsi belə tərcümə edilmişdir:

اِنَّ رَبَّكَ يَبْسُطُ الرِّزْقَ لِمَنْ يَشَاءُ وَيَقْدِرُ اِنَّهُ كَانَ بِعِبَادِهِ خَبِيرًا بَصِيرًا (30)

**"Həqiqətən, Rəbbin sisteminə tabe olan və ölçülü davranan üçün ruzisini artırar və azaldar. O bəndələrinin daxilini bilir və görür!"** («İsra» surəsi, 17/30)

Fərqli mənanın səbəbi ayədəki "يَشَاءُ = istər" və "يَقْدِرُ = gücü çatar" feillərinin faili olan "o" əvəzliyinin nəyi göstərməsilə bağlı seçimdir. Ərəb dilində əvəzlik ən yaxınını göstərir, uzaq üçün əksinin olmadığını sübut edən əsas lazımdır. Həmin əsas olmadığına görə burada əvəzlik "مَنْ = kim"i göstərir. Lakin təfsir və tərcümələrdə əvəzliyin uzaqda olan «اللّٰه Allah» sözünə işarə etdiyi qəbul edilmişdir. Buna başqa nümunə də «Səba» surəsinin 39-cu ayəsidir. Əlimizdəki tərcümələrdə ayəyə belə məna verilir:

قُلْ اِنَّ رَبِّى يَبْسُطُ الرِّزْقَ لِمَنْ يَشَاءُ مِنْ عِبَادِهِ وَيَقْدِرُ لَهُ وَمَا اَنْفَقْتُمْ مِنْ شَىْءٍ فَهُوَ يُخْلِفُهُ وَهُوَ خَيْرُ الرَّازِقِينَ (39)

**"De: "Həqiqətən, Rəbbim bəndələrindən istədiyinə bol ruzi verər, istədiyininkini də azaldar..."** [10] («Səba» surəsi, 34/39).

---

[10] Bu tərcümə, Türkiyədəki «Kuran Yolu Türkçe meal ve Tefsir»dən götürülmüşdür. Bu təfsir, Hayrettin Karaman, İbrahim Kafi Dönmez, Mustafa

Ərəb dili baxımından doğru məna belə olmalıdır:

**“De ki: “Rəbbim, bəndələrindən istəyən və gücü çatan üçün üçün ruzini paylayar”** («Səba» surəsi, 34/39).

### *4 - Allahın bağışlaması ilə aldanmaq*

Əksər insanlar “Allah bizə nə üçün əzab versin?”,“Heç yaratdığı, nemət verib böyütdüyü bəndəsinə əzab verərmi?” kimi sözləri ilə özlərini aldadırlar. Bəziləri də etdikləri yaxşı işlərin onların xilaslarına səbəb olacağını güman edirlər. Bədrdə Peyğəmbərimizin əmisi Abbas və yoldaşları əsir düşdükdə, müşrik olduqlarına görə müsəlmanlar onları məzəmmət etmişdilər. Abbas belə dedi: “Vallah, biz də Məscidi Həramı ibadət üçün açıq saxlayır, çətinlikdə olana kömək edir, Kəbəni qoruyur, hacılara su paylayırıq”. Bundan sonra bu ayə nazil oldu:[11]

اَجَعَلْتُمْ سِقَايَةَ الْحَاجِّ وَعِمَارَةَ الْمَسْجِدِ الْحَرَامِ كَمَنْ اَمَنَ بِاللَّهِ وَالْيَوْمِ الْاَخِرِ وَجَاهَدَ فِى سَبِيلِ اللَّهِ
لَايَسْتَوُنَ عِنْدَ اللَّهِ وَاللَّهُ لَا يَهْدِى الْقَوْمَ الظَّالِمِينَ (19)

**“Məgər siz həccə gələnlərə su verməyi və Məscidül Həramı ibadətə açıq saxlamağı, Allaha və axirət gününə inanan və Allah yolunda cihad edənlərlə eynimi tutursunuz? Xeyr, Allah yanında bir olmazlar. Allah zalım tayfanı doğru yola gətirməz!”** («Tövbə» surəsi, 9/19).

Özünü Allahın bağışlaması ilə aldadanların axirətdəki vəziyyəti ilə bağlı ayələrdən birində belə buyurulur:

وَلَوْ اَنَّ لِلَّذِينَ ظَلَمُوا مَا فِىالْاَرْضِ جَمِيعًا وَمِثْلَهُ مَعَهُ لَافْتَدَوْا بِهِ مِنْ سُوءِ الْعَذَابِ يَوْمَ الْقِيَمَةِ
وَبَدَالَهُمْ مِنَ اللَّهِ مَا لَمْ يَكُونُوا يَحْتَسِبُونَ (47)

---

Çağırıcı və Sadrettin Gümüş tərəfindən hazırlanmış, 2004-cü ildə Türkiyənin Dini İşlər İdarəsi (Diyanet İşleri Başkanlığı) tərəfindən nəşr edilmişdir.

[11] İsmail b. Ömər b. Kəsir (v. 774 h. /1373.), «Təfsiru ibn Kəsir», Beyrut, 1401, c. II, səh. 342.

**“Səhv edənlərin əllərində yer üzünün bütün sərvəti varsa, hamısı, üstəlik bir o qədər də qiyamət günündəki əzabın verdiyi sıxıntıdan qurtulmaq üçün fəda edərdilər. Çünki onların Allahdan gözləmədikləri şeylər qarşılarına çıxacaqdır.”** («Zumər» surəsi, 39/47).

Allah inananları da bir çox imtahandan keçirəcək. Bununla bağlı belə buyurulur:

الم (1) اَحَسِبَ النَّاسُ اَنْ يُتْرَكُوا اَنْ يَقُولُوا اَمَنَّا وَهُمْ لَا يُفْتَنُونَ (2) وَلَقَدْ فَتَنَّا الَّذِينَ مِنْ قَبْلِهِمْ
فَلَيَعْلَمَنَّ اللَّهُ الَّذِينَ صَدَقُوا وَلَيَعْلَمَنَّ الْكَاذِبِينَ (3) اَمْ حَسِبَ الَّذِينَ يَعْمَلُونَ السَّيِّاتِ اَنْ يَسْبِقُونَا سَاءَ
مَا يَحْكُمُونَ (4) مَنْ كَانَ يَرْجُوا لِقَاءَ اللَّهِ فَاِنَّ اَجَلَ اللَّهِ لَاَتٍ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ (5) وَمَنْ جَاهَدَ فَاِنَّمَا
يُجَاهِدُ لِنَفْسِهِ اِنَّ اللَّهَ لَغَنِيٌّ عَنِ الْعَالَمِينَ (6) وَالَّذِينَ اَمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ لَنُكَفِّرَنَّ عَنْهُمْ سَيِّاتِهِمْ
وَلَنَجْزِيَنَّهُمْ اَحْسَنَ الَّذِى كَانُوا يَعْمَلُونَ (7)

**“Əlif, Lam, Mim! İnsanlar yalnız: “İman gətirdik!” - dəmələrilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar?**

**Biz onlardan əvvəlkiləri sınağa çəkdik. Şübhəsiz ki, Allah düz danışanları da, yalançıları da ortaya çıxaracaqdır! Yoxsa pis əməllər edənlər əzabımızdan sovuşa biləcəklərini güman edirlər? Onlar necə də pis mühakimə yürüdürlər!**

**Hər kəs Allaha qovuşacağına ümid edirsə, Allahın müəyyən etdiyi vaxt mütləq gələcəkdir. Allah eşidəndir, biləndir!**

**Cihad edən ancaq özü üçün cihad edər.[12] Allahın heç kimə ehtiyacı yoxdur. İnanan və yaxşı işlər görənlərin mənfiliklərinin üstünü örtərik. Onlara etdikləri əməllərdən daha gözəl mükafat verərik.”** («Ənkəbut» surəsi, 29/1-7).

[12] Faydasını özü görər.

### *5 - Allahın gücü ilə aldanmaq*

Bəzi insanlar Allah haqqında istədiklərini danışır, dəlil olaraq isə “Məgər Allahın buna gücü çatmaz?” deyirlər. Bu mövzu ilə bağlı bir təriqət şeyxi ilə aramızda olan belə bir söhbət oldu:

**Bayındır:** Mədinədə hacılarla söhbət edərkən qeybin Allahdan başqası tərəfindən bilinməyəcəyindən bəhs etdim. Müridələrinizdən olan bir xanım dedi: “Siz belə deyirsiniz, lakin bilirəm ki, mənim şeyxim, gecə yataqda neçə dəfə sağa-sola döndüyümü də bilir.”

**Təriqət şeyxi:** Əgər Allah bildirsə, bilməz? Allahın buna gücü çatmaz?

**Bayındır:** Allahın gücü nəyə çatmaz ki? Lakin onun gücüylə dəlil gətirilməz. Allah istəsə, Elçisi Muhəmmədi cəhənnəmə, şeytanı da cənnətə qoya bilməz? Onun buna gücü çatmaz?

**Təriqət şeyxi:** Şübhəsiz ki, çatar.

**Bayındır:** Lakin O, şeytanı cəhənnəmə daxil edəcəyini, Muhəmməd sallallahu aləyhi və səlləmi isə cənnətdə “Məqamı Mahmud” adlandırılan ən yüksək məqama gətirəcəyini bildirmişdir.[13] Artıq Allahın gücü dəlil göstərilərək buna zidd iddia irəli sürülə bilməz.

وَمَا كَانَ اللّٰهُ لِيُطْلِعَكُمْ عَلَى الْغَيْبِ

**“Allah qeybi sizə bildirəsi deyil...”** («Ali-İmran» surəsi, 3/179) ayəsindən sonra da heç kim Allahın gücünü dəlil gətirib bunun əksini iddia edə bilməz.

[13] “Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə namazı qıl. Ola bilsin ki, Rəbbin səni Məqamı Mahmuda yüksəldər!” («İsra» surəsi, 17/79)

## B- İMAN

**İman** “əmn” sözünün kökündəndir. “Əmn” sözü qorxunu bir kənara qoyub rahat olmaq və güvənmək mənasına gəlir. İman əminlikdə olmaq, yəni hər hansı məsələdə qorxuları özündən kənarlaşdırıb ona güvənmək və inanmaq deməkdir. Bu səbəbdən iman qəti məlumata əsaslanmalıdır. Yuxarıda bildirildiyi kimi, hər kəs yaxın və uzaq ətrafında apardığı müşahidələr nəticəsində Allah haqqında qəti məlumatlar əldə edir. Quranda Allahın varlığını isbat edən bir ayənin olmaması və peyğəmbərlərin bu mövzulardan bəhs etməmələri buna sübutdur.

Allah əmrlərini peyğəmbərləri vasitəsi ilə göndərir. Hər peyğəmbərə təkrarlanması qeyri-mümkün olan bir sənəd verir. Buna görə də həmin sənədə möcüzə deyilir. Möcüzəni görənlər həmin o şəxsin Allahın peyğəmbəri olduğuna şübhə etmirlər. Son peyğəmbərin möcüzəsi Qurandır. Quran haqqında düşünən hər kəs onun yalnız Allahın Kitabı olduğunu dərk edir. Onu gətirən də əlbəttə, Allahın Peyğəmbəri olur. O zaman Allaha inanan və güvənən hər kəsin bu Kitaba inanması və güvənməsi zəruri və qaçılmazdır.

Allahı bilməklə Allaha inanmaq fərqli şeylərdir. Tanıdığınız və bildiyiniz birisi üçün: “mən ona inanmaram” deyə bilirsiniz. Bu, ona güvənmədiyinizi göstərir. Allaha inanmaq üçün Ona güvənmək lazımdır. Ona güvənmək, Onun bütün əmr və qadağalarına güvənməkdir. Hər hansı mövzuda güvənməmək imansızlıq deməkdir. Uca Allah belə buyurur:

يَااَيُّهَا الَّذِينَ اَمَنُوا اٰمِنُوا بِاللّٰهِ وَرَسُولِهِ وَالْكِتَابِ الَّذِى نَزَّلَ عَلَى رَسُولِهِ وَالْكِتَابِ الَّذِى اَنْزَلَ مِنْ
قَبْلُ وَمَنْ يَكْفُرْ بِاللّٰهِ وَمَلٰئِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ وَالْيَوْمِ الْاٰخِرِ فَقَدْ ضَلَّ ضَلَالًا بَعِيدًا (136)

**“Ey inananlar! Allaha və Elçisinə inanın! Peyğəmbərinə göndərdiyi Kitaba və ondan əvvəl nazil etdiyi kitablara**

**da inanın! Allaha, mələklərinə, kitablarına, elçilərinə və axirət gününə inanmayan şəxs, şübhəsiz ki, çox azmışdır.”** («Nisa» surəsi, 4/136)

يَا اَهْلَ الْكِتَابِ لَا تَغْلُوا فِى دِينِكُمْ وَلَاتَقُولُوا عَلَى اللَّهِ اِلَّا الْحَقَّ اِنَّمَا الْمَسِيحُ عِيسَابْنُ مَرْيَمَ رَسُولُ
اللَّهِ وَكَلِمَتُهُ اَلْقَيهَا اِلَى مَرْيَمَ وَرُوحٌ مِنْهُ فَامِنُوا بِاللَّهِ وَرُسُلِهِ وَلَا تَقُولُوا ثَلَثَةٌ اِنْتَهُوا خَيْرًا لَكُمْ اِنَّمَا اللَّهُ اِلَهٌ وَاحِدٌ
سُبْحَانَهُ اَنْ يَكُونَ لَهُ وَلَدٌ لَهُ مَا فِى السَّمَوَاتِ وَمَا فِى الْاَرْضِ وَكَفَى بِاللَّهِ وَكِيلًا (171)

**“Ey kitab əhli! Öz dininizdə həddi aşmayın! Allah barəsində yalnız haqqı deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisidir, Məryəmə çatdırdığı «ol» sözü ilə olmuşdur. O, Allahdan bir ruhdur. Allaha və peyğəmbərlərinə inanın. “Tanrı üçdür” deməyin. Belə deməyə  son qoyun, bu sizin üçün daha yaxşı olar. Həqiqətən, Allah tək tanrıdır, başqası da yoxdur. Elə isə Onun övlada nə ehtiyacı var? Göylərdə və yerdə nə varsa, hamısı Onundur. Qoruyan olaraq Allah bəs edər!”** ("Nisa" surəsi, 4/171)

## *ŞİRK VƏ KÜFR*

Şirk Allaha xas olan bəzi xüsusiyyətləri başqa varlıqlara da şamil edərək onlara tanrıya məxsus olan xüsusiyyət vermək deməkdir. Bu mövzu yuxarıda qeyd edilmişdi. Aşağıda daha geniş izahatlar veriləcəkdir.

**Küfr** kafirlik deməkdir. Sözün kökü "kufr" və "kufur" olub, "örtmək və görməməzlik etmək" mənasına gəlir. Edilən yaxşılıqları sanki görməyən kəsə ərəb dilində kafir, Azərbaycan (tərc.) dilində isə nankor deyilir. Allahın varlığı açıq həqiqət olduğu halda əksər insanlar onu nəzərə almadan həyatlarını davam etdirirlər. Allahı nəzərə alanların əksəriyyəti Allahla olan əlaqələrini vasitəçilərin köməyi ilə davam etdirdiklərinə görə Onu bu çərçivə daxilində nəzərə alırlar.

Kafir və müşrik sözləri eyni şeyin iki fərqli üzünü göstərir. Yəni hər kafir müşrik və hər müşrik kafirdir. Uca Allah belə buyurur:

لَمْ يَكُنِ الَّذِينَ كَفَرُوا مِنْ اَهْلِ الْكِتَابِ وَالْمُشْرِكِينَ مُنْفَكِّينَ حَتَّى تَاْتِيَهُمُ الْبَيِّنَةُ (1) رَسُولٌ مِنَ
اللَّهِ يَتْلُوا صُحُفًا مُطَهَّرَةً (2) فِيهَا كُتُبٌ قَيِّمَةٌ (3)

**"Əhli-kitabdan və müşriklərdən kafir olanlar onlara həqiqətləri izah edən biri gələnə qədər ayrılan deyildirlər. O, Allahın tərtəmiz səhifələrini onlara oxuyan elçisidir. Həmin səhifələrdə qəti və doğru hökmlər vardır"** ("Bəyyinə" surəsi, 98/2-3)

Ayədə qeyd edilən "الْمُشْرِكِينَ = müşriklər" sözü ərəb dili qaydasına görə "mərifə"dir. Müəyyən müşrik təbəqəsi, yəni əhli-kitabdan başqa qalan müşrikləri bildirir. Bu heç də əhli kitabın müşrik olmadığını göstərmir. Çünki onların arasında kafir olanların müşrik olduğunu göstərən ayələr vardır.

Uca Allah belə buyurur:

اِتَّخَذُوا اَحْبَارَهُمْ وَرُهْبَانَهُمْ اَرْبَابًا مِنْ دُونِ اللَّهِ وَالْمَسِيحَ ابْنَ مَرْيَمَ وَمَا اُمِرُوا اِلَّا لِيَعْبُدُوا اِلَهًا وَاحِدًا
لَا اِلَهَ اِلَّا هُوَ سُبْحَانَهُ عَمَّا يُشْرِكُونَ (31)

**“Alimlərini və din adamlarını, Məryəm oğlu Məsihi özlərinə tanrılar (rəbblər) qəbul etdilər. Halbuki onlara ancaq bir olan Allaha qul olmaları əmr olunmuşdu. Ondan başqa heç bir tanrı yoxdur. Allah onların şirkindən uzaqdır!”** (“Tövbə” surəsi, 9/31)

Hər cəmiyyətin keçmişində bir peyğəmbər var. Uca Allah belə buyurur:

اِنَّا اَرْسَلْنَاكَ بِالْحَقِّ بَشِيرًا وَنَذِيرًا وَاِنْ مِنْ اُمَّةٍ اِلَّا خَلَا فِيهَا نَذِيرٌ (24)

**“Ey Muhəmməd! Səni o haqqı (Quranı) müjdə verən və xəbərdar edən olaraq göndərdik. Hər ümmətin keçmişində bir xəbərdar edənmnütləq vardır!”** (“Fatir” surəsi, 35/24). Məkkə cəmiyyətinin keçmişində İbrahim və İsmayıl peyğəmbərlər vardı. Qureyşlilər İbrahimin nəslindən olduqlarına görə öyünür[14], ondan qalan həcc və umrə ibadətlərini mütəmadi şəkildə yerinə yetirirdilər. Lakin əllərində ona aid ilahi kitab yox idi. Buna görə də onlar əhli kitab sayılmırdılar. Yəhudilərin keçmişində Musa əleyhissəlamla birlikdə bir çox peyğəmbərlər gəlmiş və onlardan qalan Tövrat var idi. Xristianların keçmişində isə İsa peyğəmbər və əllərində İncil vardı. Bu səbəbdən onlar əhli-kitab sayılıblar.

Tövrat və İncilin orijinallığı qoruna bilməmişdir. Lakin əsas mövzularda Quranla ortaq hökmləri vardır. Buna görə də Quran onları bu əsas məqamlara dəvət edir. Uca Allah belə buyurur:

---

[14] İbn Hişam, “Siretun-Nəbi”, M. Muhyiddin Abdulhamidin təhqiqi ilə, Beyrut, 1401/1981, c. I, 216.

قُلْ يَااَهْلَ الْكِتَابِ تَعَالَوْا اِلَى كَلِمَةٍ سَوَاءٍ بَيْنَنَا وَبَيْنَكُمْ اَلَّا نَعْبُدَ اِلَّا اللَّهَ وَلَا نُشْرِكَ بِهِ شَيْـًٔا وَلَا يَتَّخِذَ بَعْضُنَا بَعْضًا اَرْبَابًا مِنْ دُونِ اللَّهِ فَاِنْ تَوَلَّوْا فَقُولُوا اشْهَدُوا بِاَنَّا مُسْلِمُونَ (64)

**"Söylə: "Ey kitab əhli! Sizə görə də bizə görə də doğru olan bu sözdə birləşək: "Allahdan başqasına qul olmayaq. Ona heş bir şeyi şərik qoşmayaq. Heç birimiz Allah ilə öz arasına bir-birimizi qoyaraq rəbblər qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman deyin: "Şahid olun ki, biz, həqiqətən, biz təslim təslim olanlarıq!"** ("Ali-İmran" surəsi, 3/64).

Məkkəli müşriklərin və digərlərinin əlində belə bir mətn olmadığına görə onlara ağılları ilə düşünüb, əldə etdikləri bilgilərdən istifadə etmək məsləhət görülmüşdür. Uca Allah belə buyurur:

وَهَذَا صِرَاطُ رَبِّكَ مُسْتَقِيمًا قَدْ فَصَّلْنَا الْاَيَاتِ لِقَوْمٍ يَذَّكَّرُونَ (126)

**"Bu, Rəbbinin doğru yoludur. Biz ayələrimizi düşünüb anlayan bir camaat üçün artıq müfəssəl izah etdik."** ("Ənam" surəsi, 6/126)

وَمَنْ يُشَاقِقِ الرَّسُولَ مِنْ بَعْدِ مَا تَبَيَّنَ لَهُ الْهُدَى وَيَتَّبِعْ غَيْرَ سَبِيلِ الْمُؤْمِنِينَ نُوَلِّهِ مَا تَوَلَّى وَنُصْلِهِ جَهَنَّمَ وَسَاءَتْ مَصِيرًا (115)

**"Hər kəs özünə doğru yol aşkar olandan sonra elçidən üz döndərib inananlardan qeyrisinin yoluna uyarsa, onun istədiyi yola yönəldər və cəhənnəmə varid edərik. Ora necə də pis yerdir."** ("Nisa" surəsi, 4/115)

Bəzi yəhudi və xristianların Tövrat və İncil kimi ilahi kitablara malik olmaları onların müşrik olmalarına mane ola bilməmişdir. Əsas olan ilahi kitaba sahib olmaq deyil, ona tabe olmaqdır. Əlində Quran olan, hətta onu əzbərləyən və onun elmi ilə məşğul olan bir çox müsəlmanların şirkə düşdüyünü görürük.

Allaha tam güvənmək və Ona qeyd-şərtsiz təslim olmaq imanın ən mühüm göstəricisidir. Lakin insanların əksəriyyəti Allaha qarşı öz şərtlərini irəli sürürlər. Bəziləri şərtlərini özləri müəyyən edir, bəziləri isə dəyişdirilmiş bir dinin və ya təriqətin irəli sürdüyü şərtləri özlərinə daha münasib hesab edirlər. Özünü, yaxud başqasını Allaha qarşı şərt irəli sürəcək səviyyədə görən kəs onu həmin mövzuda Allaha bərabər tutmuş və tanrı qəbul etmiş olur. Lakin onlar çətin vəziyyətə düşdükləri zaman irəli sürdükləri bütün şərtləri unudur və səmimi şəkildə Allaha üz tuturlar. Uca Allah belə buyurur:

وَاِذَا مَسَّكُمُ الضُّرُّ فِى الْبَحْرِ ضَلَّ مَنْ تَدْعُونَ اِلَّا اِيَّاهُ فَلَمَّا نَجّٰيكُمْ اِلَى الْبَرِّ اَعْرَضْتُمْ وَكَانَ الْاِنْسَانُ
كَفُورًا (67)

**“Dənizdə bir çətinlik üz versə, yardıma çağırdığınız hər kəs yox olur, təkcə Allah qalır. Allah sizi xilas edib quruya çıxartdıqda üz döndərirsiniz. İnsan edilən yaxşılığı görməz!”** (“İsra” surəsi, 17/67).

Müşriklik bir neçə qismə ayrılır:

### 1. Özünü Tanrı qəbul edənlər

Allaha inanmadıqlarını deyənlərin hamısı müşriklərdir. Onların hamısı Allahın varlığını və birliyini qəbul edirlər. Uca Allah belə buyurur:

وَلَئِنْ سَاَلْتَهُمْ مَنْ خَلَقَ السَّمٰوَاتِ وَالْاَرْضَ وَسَخَّرَ الشَّمْسَ وَالْقَمَرَ لَيَقُولُنَّ اللّٰهُ فَاَنّٰى يُؤْفَكُونَ
(61) اَللّٰهُ يَبْسُطُ الرِّزْقَ لِمَنْ يَشَاءُ مِنْ عِبَادِهِ وَيَقْدِرُ لَهُ اِنَّ اللّٰهَ بِكُلِّ شَىْءٍ عَلِيمٌ (62) وَلَئِنْ سَاَلْتَهُمْ مَنْ
نَزَّلَ مِنَ السَّمَاءِ مَاءً فَاَحْيَا بِهِ الْاَرْضَ مِنْ بَعْدِ مَوْتِهَا لَيَقُولُنَّ اللّٰهُ قُلِ الْحَمْدُ لِلّٰهِ بَلْ اَكْثَرُهُمْ لَايَعْقِلُونَ
(63)

**“Həqiqətən, əgər: “Göyləri və yeri yaradan, günəşi və ayı ram edən kimdir?” - deyə soruşsan, onlar mütləq: “Allahdır!” - deyə cavab verəcəklər. Elə isə onlar haradan**

**dəstək alır ki, vəziyyətdən vəziyyətədaxil olurlar?**[15] **Allah ruzisini bəndələrindən istəyən və lazım olan gücə malik olan üçün paylayar. Allah hər şeyi bilir! Əgər sən: "Göydən yağmur endirib ölü torpağa dirildən kimdir?" - deyə soruşsan, onlar mütləq: "Allahdır!" - deyə cavab verəcəklər. De: "Allah nə edərsə, gözəl edər!" Amma onların əksəriyyəti bunu düşünməzlər!"** ("Ənkəbut" surəsi, 29/61-63).

قُلْ مَنْ يَرْزُقُكُمْ مِنَ السَّمَاءِ وَالْاَرْضِ اَمَّنْ يَمْلِكُ السَّمْعَ وَالْاَبْصَارَ وَمَنْ يُخْرِجُ الْحَىَّ مِنَ الْمَيِّتِ
وَيُخْرِجُ الْمَيِّتَ مِنَ الْحَىِّ وَمَنْ يُدَبِّرُ الْاَمْرَ فَسَيَقُولُونَ اللَّهُ فَقُلْ اَفَلَا تَتَّقُونَ (31) فَذَلِكُمُ اللَّهُ رَبُّكُمُ الْحَقُّ
فَمَاذَا بَعْدَ الْحَقِّ اِلَّا الضَّلَالُ فَاَنَّى تُصْرَفُونَ (32)

**"De: "Sizə göydən və yerdən kim ruzi verir? Eşitməyi və görməyi təmin edən kimdir? Ölüdən diri, diridən ölü çıxardan kimdir? Hər işi düzüb qoşan kimdir? Onlar: "Allahdır!" - deyəcəklər. De: "Bəs onda Allahdan çəkinmirsiniz?" O sizin həqiqi Rəbbiniz olan Allahdır. Artıq haqdan sonra zəlalətdən başqa nə qalır?! Belə isə necə döndərilirsiniz?"** ("Yunus" surəsi, 10/31-32)

Allah Adəmə səcdə edilməsini əmr verəndə İblis öz şərtlərinə uyğun gəlmədiyi üçün Adəmə səcdə etməmişdi. Bu mövzu ilə bağlı ayələr belədir:

وَاِذْ قَالَ رَبُّكَ لِلْمَلَئِكَةِ اِنِّى خَالِقٌ بَشَرًا مِنْ صَلْصَالٍ مِنْ حَمَأٍمَسْنُونٍ (28) فَاِذَا سَوَّيْتُهُ وَنَفَخْتُ
فِيهِ مِنْ رُوحِى فَقَعُوا لَهُ سَاجِدِينَ (29) فَسَجَدَ الْمَلَئِكَةُ كُلُّهُمْ اَجْمَعُونَ (30) اِلَّا اِبْلِيسَ اَبَى اَنْ يَكُونَ مَعَ
السَّاجِدِينَ (31) قَالَ يَااِبْلِيسُ مَالَكَ اَلَّا تَكُونَ مَعَ السَّاجِدِينَ (32) قَالَ لَمْ اَكُنْ لِاَسْجُدَ لِبَشَرٍ خَلَقْتَهُ
مِنْ صَلْصَالٍ مِنْ حَمَأٍمَسْنُونٍ (33) قَالَ فَاخْرُجْ مِنْهَا فَاِنَّكَ رَجِيمٌ (34)

**"Bir gün Rəbbin mələklərə belə demişdi: "Mən qurumuş və dəyişkən qara palçıqdan bir insan yaradacağam! Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona**

---

[15] Ayənin yaxşı başa düşülməsi üçün təfsiri məna verilmişdir.

**səcdə edin!" Bundan sonra mələklərin hamısı ona səcdə etdilər. İblis belə etmədi! O, səcdə edənlərlə birlikdə olmaqdan imtina etdi. Allah dedi: "İblis! Sənə nə olub ki, səcdə edənlərlə birlikdə səcdə etmədin?" Dedi: "Sənin quru və dəyişkən qara palçıqdan yaratdığın insana səcdə edə bilmərəm!" Allah dedi: "Elə isə oradan çıx. Sən qovuldun"** ("Hicr" surəsi, 15/28-34).

اَبٰى وَاسْتَكْبَرَ وَكَانَ مِنَ الْكَافِرِينَ (34)

**"O, lovğalanmış, imtina etmiş və kafirlərdən olmuşdu"** ("Bəqərə" surəsi, 2/34).

İblisin lovğalanması Adəmə qarşı deyil, Allaha qarşı idi. Çünki o, Allahın əmrinə tabe olmamışdı. Bu səbəbdən Allah ona,

قَالَ فَاهْبِطْ مِنْهَا فَمَا يَكُونُ لَكَ اَنْ تَتَكَبَّرَ فِيهَا فَاخْرُجْ اِنَّكَ مِنَ الصَّاغِرِينَ (13)

**"...Oradan aşağı en. Orada təkəbbürlənmək sənlik deyil. Çıx, çünki sən alçaqlardansan!"** ("Əraf" surəsi, 7/13) demişdi.

İblis Allahın nə varlığını, nə də birliyini inkar etmişdir. Azğın hesab edildikdən sonra isə belə demişdir:

اِنِّى اَخَافُ اللّٰهَ وَاللّٰهُ شَدِيدُ الْعِقَابِ (48)

**"...Mən Allahdan qorxuram. Allah şiddətli əzab verəndir!"** ("Ənfal" surəsi, 8/48).

İblis axirətə də inanır. Çünki qovulanda belə demişdi:

قَالَ رَبِّ فَاَنْظِرْنِى اِلٰى يَوْمِ يُبْعَثُونَ (36)

**"Rəbbim! İnsanların diriləcəkləri günə qədər mənə möhlət ver!"** ("Hicr" surəsi, 15/36).

Allahı, mələkləri və axirətdə yenidən dirilməyi qəbul edən belə bir adama bir çox insanlar "yaxşı müsəlman" gözü ilə baxa

bilərlər. Həmçinin İblis kafir olduğu zaman nə inandığı bir peyğəmbər, nə də nazil edilmiş bir kitab var idi. Onun kafirliyi bir məsələdə Allaha qarşı şərt irəli sürməsi ilə başladı.

Tanrıtanımaz deyilən ateistlər də belədir. Onlar da hər məsələdə öz şərtlərinə tabe olurlar. Allahın əmrlərindən özlərinə uyğun olanı bəyənir, uyğun gəlməyəni isə rədd edirlər. Çətinliyə düşəndə isə Allaha sığınır və ondan kömək istəyirlər. Bunların tanrısı əvvəl özləri, sonra isə Allahdır. Uca Allah belə buyurur:

اَرَاَيْتَ مَنِ اتَّخَذَ اِلَهَهُ هَوَيهُ اَفَاَنْتَ تَكُونُ عَلَيْهِ وَكِيلًا (43) اَمْ تَحْسَبُ اَنَّ اَكْثَرَهُمْ يَسْمَعُونَ اَوْ
يَعْقِلُونَ اِنْ هُمْ اِلَّا كَالْاَنْعَامِ بَلْ هُمْ اَضَلُّ سَبِيلًا (44)

**“Nəfsini özünə tanrı edəni gördünmü? Onun vəkili sənmi olacaqsan? Yoxsa elə güman edirsən ki, onların əksəriyyəti söz eşidəcək və ya ağılını işlədir? Onlar qoyun, öküz və dəvə kimidirlər, xeyr, daha aşağı səviyyədədirlər”** (“Furqan” surəsi, 25/43-44).

اَفَرَاَيْتَ مَنِ اتَّخَذَ اِلَهَهُ هَوَيهُ وَاَضَلَّهُ اللَّهُ عَلَى عِلْمٍ وَخَتَمَ عَلَى سَمْعِهِ وَقَلْبِهِ وَجَعَلَ عَلَى بَصَرِهِ غِشَاوَةً
فَمَنْ يَهْدِيهِ مِنْ بَعْدِ اللَّهِ اَفَلَا تَذَكَّرُونَ (23)

**“Öz arzusunu özünə tanrı edəni görə bildinmi? Bilikli olduğu halda, Allah onu azğın hesab etmiş, qulağına və qəlbinə izlər qoymuş, gözünün qarşısında pərdə çəkmişdir. Allah azğın hesab edəndən sonra onu kim yola gəlmiş qəbul edə bilər?! Məgər düşünüb ibrət almırsınız?”** (“Casiyə” surəsi, 45/23).

Hər kəsdə əbədi yaşamaq hissi vardır. Hər kəs heç zaman ölməyəcək kimi davranır. Axirət inamı bu hissi tarazlayır. Özlərini tanrı qəbul edənlərin bəziləri hisslərini reinkarnasiyaya bağlamağa çalışırlar. Yəni öləcəklərini, sonra yeni bir bədəndə diriləcəklərini deyirlər.

وَقَالُوا مَا هِىَ اِلَّا حَيَاتُنَا الدُّنْيَا نَمُوتُ وَنَحْيَا وَمَا يُهْلِكُنَا اِلَّا الدَّهْرُ وَمَا لَهُمْ بِذَلِكَ مِنْ عِلْمٍ اِنْ هُمْ
اِلَّا يَظُنُّونَ (24)

**“Belə deyirlər: “Bu dünya həyatımızdan başqa heç bir həyat yoxdur. Ölürük və dirilirik. Bizi məhv edən ancaq qocalmağımızdır. Bu barədə onların heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar!”** (“Casiyə” surəsi, 45/24).

Bəziləri isə ölümlə hər şeyin bitəcəyini və hesab gününün yalan olduğunu deyərək hisslərini gizlətməyə çalışırlar. Uca Allah belə buyurur:

وَيْلٌ يَوْمَئِذٍ لِلْمُكَذِّبِينَ (10) اَلَّذِينَ يُكَذِّبُونَ بِيَوْمِ الدِّينِ (11) وَمَا يُكَذِّبُ بِهِ اِلَّا كُلُّ مُعْتَدٍ اَثِيمٍ
(12) اِذَا تُتْلَى عَلَيْهِ اَيَاتُنَا قَالَ اَسَاطِيرُ الْاَوَّلِينَ (13) كَلَّا بَلْ رَانَ عَلَى قُلُوبِهِمْ مَا كَانُوا يَكْسِبُونَ (14) كَلَّا
اِنَّهُمْ عَنْ رَبِّهِمْ يَوْمَئِذٍ لَمَحْجُوبُونَ (15) ثُمَّ اِنَّهُمْ لَصَالُوا الْجَحِيمِ (16) ثُمَّ يُقَالُ هَذَا الَّذِى كُنْتُمْ بِهِ تُكَذِّبُونَ
(17)

**“Həmin gün vay halına bu yalançıların! Bunlar haqq-hesab gününü yalan sayanlardır. Bunu isə ancaq həddini aşan, günaha batan yalan sayar. Ayələrimiz ona oxunduğu zaman: “Bunlar qədimlərin əfsanələridir!” - deyər. Xeyr. Əslində qazandıqları haram mal ürəklərini pasla qaplamışdır. Əsla, belə etməyin! Bunlar o gün Rəbbindən uzaq olacaqlar! Sonra bunlar həmin alovlu atəşdə qızaracaqlar. Sonra da onlara: “Sizin yalan saydığınız budur!” deyiləcəkdir.”** (“Mutəffifin” surəsi, 83/10-17).

### 2- Vasitəçi Tanrı axtaranlar

İnsanların bəziləri onlar ilə Allah arasında vasitəçilik edəcək xəyal etdikləri şeylərə bağlanırlar. Halbuki bu, mənasız bir düşüncədir. Uca Allah belə buyurur:

اِنَّا اَنْزَلْنَا اِلَيْكَ الْكِتَابَ بِالْحَقِّ فَاعْبُدِ اللَّهَ مُخْلِصًا لَهُ الدِّينَ

**“Biz bu Kitabı sənə haqq olaraq nazil etdik. Buna görə sən də dini məhz Allaha aid edərək yalnız Ona ibadət et!”** (“Zumər” surəsi, 39/2)

Qurana tabe olmaqla dini Allah üçün saf və təmiz saxlamaq, Allaha aid etmək mümkündür. Buna dindən dünya malı əldə etmək üçün istifadə etməyi düşünməyənlər nail ola bilərlər. Onlar dini təbliğ etdikləri insanlara peyğəmbərlərin dedikləri bu sözü deyirlər:

قُلْ لَا اَسْـَٔلُكُمْ عَلَيْهِ اَجْرًا اِنْ هُوَ اِلَّا ذِكْرٰى لِلْعَالَمِينَ

**“De ki, mən bu etdiyimin müqabilində sizdən bir əvəz istəmirəm. Bu, hər kəsə, sadəcə, vəzifəsini xatırlatmaqdır”** (“Ənam” surəsi, 6/90).

Dünya malı əldə etmək üçün dindən istifadə etmək istəyənlər dini öz maraqlarına uyğunlaşdırırlar. Bunu yalnız həmin din haqqında kifayət qədər məlumata malik olanlar bacararlar. Onların hədəf aldıqları kütlə doğru yolda olanlardır.

Hər insan kimi doğru yola gələnlərin də bəzi istəkləri və gələcəklə bağlı müəyyən narahatlıqları vardır. Məhz onların bu istəkləri və narahatlıqları üzərində hiylə quranlar öz əsas oyunlarını qururlar. Onlar dini rəhbərlərə Allaha xas bəzi xüsusiyyətləri şamil edirlər, onların vasitəsi ilə bildirilən istəklərin qəbul ediləcəyini və axirətdə şəfaətlərindən faydalanacaqlarını dönə-dönə vurğulayırlar. Allahın kitabını da buna uyğun şərh edir, bunun əksini söyləyən ayələri isə başqa cür şərh edirlər.

Daha sonra onlar ölən dini rəhbərləri özləri təmsil edirlər. Buna layiq olduqlarını göstərmək üçün fərqli şəkildə geyinir, fərqli danışır və fərqli davranırlar. Guya ki böyüklərə məxsus olan xəyali hekayələrlə özlərinə dəstək axtarırlar.

Dərrakəli hər insan bunun bir oyun olduğunu başa düşür, lakin əksəriyyət istəklərinin təsiri altına düşür. Bu cür insanlar

başlanğıcda ağılları ilə hissləri arasında döyüşürlərr. Sonda hissləri ağıllarına üstün gəlir və hiyləyə aldanırlar. Daha sonra isə ən kiçik təsadüfü belə hiylə quranların kəraməti hesab edir, onların bəndəsinə və quluna çevrilirlər. Oyundan agah olub, onda iştirak edən hər kəs müəyyən günah qrupu kimi bir-birləri ilə sıx bağlı olurlar.

Allaha yönələn hər kəs bu hiylələrlə qarşılaşır. Bu kimi insanlar əsasən hissləri ilə hərəkət edirlər. Onların hissləri ətraflarında yaranan böyük xurafatçılıqla birləşdikdə hiyləyə düşmələri daha da asanlaşır. Hər nəsildən digər nəsilə ötürülən əlavələrlə Allahın dinindən uzaq, lakin ondan istifadə edən böyük bir camaat ortaya çıxır.

Müşrikləri bir az yaxından tanımağa çalışaq.

**Müşrik Allaha inanır**

Müşrik "şərik qoşan" mənasına gəlir. Şəriklik ən azı iki şəxs arasında olur. Müşrik üçün bunların birincisi həmişə Allahdır. Onun müşrik olması bir varlığa Allaha xas xüsusiyyətlərdən bəzisini şamil etməsi səbəbindən qaynaqlanır.

Allaha şərik qoşan istənilən şəxs bunu sübut etmək üçün doğru, əsaslı dəlil gətirə bilməz. Lakin Allaha yaxın olduğuna və mənəvi kömək edəcəyinə inanılan insanların ətrafında bir camaat yaranır. Onlara qoşulanlar orada olmağın bəzi faydalarını görə bilərlər. Onları oraya bağlayan həmin mənfəət əlaqəsidir. Aşağıdakı ayə diqqəti həmin məsələyə cəlb edir:

وَقَالَ اِنَّمَا اتَّخَذْتُمْ مِنْ دُونِ اللّٰهِ اَوْثَانًا مَوَدَّةَ بَيْنِكُمْ فِى الْحَيٰوةِ الدُّنْيَا ثُمَّ يَوْمَ الْقِيٰمَةِ يَكْفُرُ بَعْضُكُمْ
بِبَعْضٍ وَيَلْعَنُ بَعْضُكُمْ بَعْضًا وَمَاْوٰيكُمُ النَّارُ وَمَالَكُمْ مِنْ نَاصِرِينَ

**"(İbrahim belə) dedi: "Sizin Allahı qoyub bütləri tanrı qəbul etməyiniz yalnız dünyada aranızda olan dostluğa görədir. Sonra da qiyamət günü bir-birinizi inkar edəcək, bir-bi-**

**rinizə lənət oxuyacaqsınız. Məskəniniz cəhənnəm odudur, sizə kömək edən də tapılmayacaqdır!”** (“Ənkəbut” surəsi, 29/25).

Bunlar din pərdəsi altında mənfəətə əsaslanan bir qrupa qoşulduqlarını bilirlər. Bu səbəbdən onlar sabah Allaha qarşı bunu deyə bilməyəcəklər:

اَوْ تَقُولُوا اِنَّمَا اَشْرَكَ اَبَاؤُنَا مِنْ قَبْلُ وَكُنَّا ذُرِّيَّةً مِنْ بَعْدِهِمْ اَفَتُهْلِكُنَا بِمَا فَعَلَ الْمُبْطِلُونَ

**“Daha əvvəl şərik qoşanlar atalarımız idi. Biz isə onlardan sonra gələn bir nəsil idik. Məgər bizi batilə sapanların törətdikləri əməllərə görə məhv edəcəksən?"** («Əraf» surəsi, 7/173).

اَلَّذِينَ يَنْقُضُونَ عَهْدَ اللَّهِ مِنْ بَعْدِ مِيثَاقِهِ وَيَقْطَعُونَ مَا اَمَرَ اللَّهُ بِهِ اَنْ يُوصَلَ

Çünki şirkə düşənlər: **“...Allaha verdikləri sözün qətiləşməsindən sonra azmış, Allahın birləşdirilməsini əmr etdiyi şeyi (yəni Allah ilə əlaqələrini) kəsirlər”** (“Bəqərə” surəsi, 2/27).

Bunlar özlərini Allah ilə aldadırlar. Çünki məqsədlərinin Allaha yaxınlaşmaq olduğunu deyirlər. Uca Allah belə buyurur:

اَلَا لِلَّهِ الدِّينُ الْخَالِصُ وَالَّذِينَ اتَّخَذُوا مِنْ دُونِهِ اَوْلِيَاءَ مَانَعْبُدُهُمْ اِلَّالِيُقَرِّبُونَا اِلَى اللَّهِ زُلْفَى

**“Yaxşı bil ki, xalis din Allahın dinidir. Onun yaxınından özlərinə dost tutanlar belə deyərlər: “Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!””** (“Zumər” surəsi, 39/3).

Lakin bunların onları Allaha yaxınlaşdıracağına dair əsasları, dəlilləri yoxdur.

### Müşrik Allaha ibadət edər

Həcc və umrə İbrahim əleyhissəlamla birlikdə başlamışdır. Hicrətin 9-cu ilində Minada bu ayə Əli tərəfindən xalqa müraciət kimi oxunana qədər Məkkə müşrikləri həmin ibadətləri mütəmadi olaraq yerinə yetirmişlər.

يَا اَيُّهَا الَّذِينَ اَمَنُوا اِنَّمَا الْمُشْرِكُونَ نَجَسٌ فَلَا يَقْرَبُوا الْمَسْجِدَ الْحَرَامَ بَعْدَ عَامِهِمْ هَذَا

**“Ey iman gətirənlər! Müşriklər, doğrudan da, murdardırlar. Daha bu ildən sonra Məscidül-hərama yaxınlaşmasınlar...”** (“Tövbə” surəsi, 9/28).

Ərəfatda vəqfə (dayanmaq) həcc ibadətinin əsas sütunudur. Lakin məkkəli müşriklər həcc üçün Ərəfata getmirdilər. Onların iddiasına görə, “hill” adlandırılan Ərəfat Məkkə sərhədləri xaricində yerləşir. Deyirdilər ki, “Biz İbrahimin oğullarıyıq, hörmətli tayfayıq, Kəbəni idarə edənlər və Məkkənin yerli əhalisiyik. Ərəblər arasında bizə tay olanı yoxdur. Heç kim bizim mövqeyimizdə ola bilməz. Bizim üçün deyilənlər heç bir ərəb üçün deyilməmişdir. Elə isə heç bir yerə Həram qədər dəyər verə bilmərik, yoxsa ərəblərin bizə olan hörmətləri azalar.”[16] Uca Allah isə bunu qadağan etmiş və o qüsurun tamamlanmasını əmr etmişdir:

وَاَتِمُّوا الْحَجَّ وَالْعُمْرَةَ لِلَّهِ

**“Allahdan ötrü həcc və umrəni tam yerinə yetirin...”** (“Bəqərə” surəsi, 2/196).

Həcc mövsümü ilə bağlı hər hansı dəyişikliyin olmadığını da aşağıdakı ayədən öyrənirik:

اَلْحَجُّ اَشْهُرٌ مَعْلُومَاتٌ فَمَنْ فَرَضَ فِيهِنَّ الْحَجَّ فَلَا رَفَثَ وَلَا فُسُوقَ وَلَا جِدَالَ فِي الْحَجِّ

[16] İbn Hişam, "Sirətun-Nəbi", c. I, 216.

**“Həcc məlum olan aylarda olur. Hər kim həmin aylarda həcc ibadətinə başlayarsa, artıq həcc əsnasında onun xanımına yaxınlaşmaq, yoldan çıxmaq və döyüşmək deyə bir şey olmaz...”** ("Bəqərə" surəsi, 2/197)

Əvvəl də bəhs edildiyi kimi, müşriklər hacılara su vermək və Məscidül-Həramı ibadətə açıq saxlamaq kimi cəhətləri ilə öyünürdülər.

**C - Müşrik vasitəçilərə inanır**

Müşrik Allahı yer üzündəki krallara bənzədərək özündən uzaq hesab edir. Kralla əlaqə saxlamaq istəyən ona yaxınlığı olan biri vasitəsi ilə əlaqə saxlamaq istədiyi kimi, müşrik də Allahla əlaqə yaratmaq üçün ona yaxın olduğuna inandığı birini vasitəçi qəbul etmək istəyir. Xristianların İsanı Allahın oğlu, məkkəli müşriklərin öz bütlərini Allahın qızları,[17] böyüklərinin ruhlarından kömək gözləyənlərin də onları Allahın xüsusi dostları hesab etmələri buna misaldır.

Müşrik vasitəçini mənəvi gücü olan varlıq kimi hesab edir, ona yaxınlıq üçün qurbanlar kəsir, xatirəsi qarşısında hörmətlə təzim edir. Onunla daim əlaqələrini canlı saxlayır ki, o da onunla Allah arasında əlaqəni canlı saxlasın. Uca Allah belə buyurur:

وَمِنَ النَّاسِ مَنْ يَتَّخِذُ مِنْ دُونِ اللَّهِ اَنْدَادًا يُحِبُّونَهُمْ كَحُبِّ اللَّهِ

**“Bəzi insanlar Allahdan əvvəl ona oxşar xüsusiyyətdə hesab etdikləri şeylərə sarılır, onları Allahı sevən kimi sevərlər”** («Bəqərə» surəsi, 2/165).

“Ona oxşar xüsusiyyətdə” olaraq tərcümə etdiyimiz sözün ərəb dilindəki “nidd” kəlməsinin cəmi “əndaddır”. “Nidd” Allaha bənzər bəzi xüsusiyyətlərə malik kimi görünən və zidd şeylə-

---

[17] Muhəmməd b. Cərir ət-Tabəri, «Camiul-bəyan fi Təfsiril-Quran» (Tabəri Təfsiri), Beyrut 1412/1992, c. 11, s 519, ən-Nəcm surəsi, 19-cu ayə.

ri müdafiə edə biləcəyinə inanılan bir varlıqdır.[18] Allahın onları məyus etməyəcəyinə, lazım gəldikdə, onların Allaha Onun istəmədiyi bir şeyi qəbul etdirəcəklərinə, onların bu gücü Allahdan aldıqlarına inanırlar.

Həmçinin müşriklər bu vasitəçilərin onlara şəfaətçi olacağına da inanırlar. Uca Allah belə buyurur:

فَمَنْ اَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللَّهِ كَذِبًا اَوْ كَذَّبَ بِاَيَاتِهِ اِنَّهُ لَا يُفْلِحُ الْمُجْرِمُونَ (17) وَيَعْبُدُونَ مِنْ
دُونِ اللَّهِ مَا لَا يَضُرُّهُمْ وَلَا يَنْفَعُهُمْ وَيَقُولُونَ هَؤُلَاءِ شُفَعَاؤُنَا عِنْدَ اللَّهِ قُلْ اَتُنَبِّؤُنَ اللَّهَ بِمَا لَا يَعْلَمُ فِي
السَّمَوَاتِ وَلَا فِىالْاَرْضِ سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يُشْرِكُونَ (18)

**“Allaha iftira yaxan, Onun ayələri qarşısında yalan söyləyən adamdan daha zalım kim ola bilər? Bu günahı edənlər ümid etdiklərini tapa bilməzlər!**

**Onlar Allahdan əvvəl elə şeyə qul olurlar ki, onlara nə bir xeyir, nə də bir zərər verə bilər. Onlar: “Bunlar Allah yanında bizdən ötrü şəfaət edənlərdir!” - deyirlər. De: “Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz? Allah onların şərik qoşduqlarından uzaqdır və ucadır!”** («Yunus» surəsi, 10/17-18)

Peyğəmbərlər insanları yalnız Allaha qul olmağa çağırmışlar.[19] Ancaq Allaha qul olan kəs köməyi yalnız Ondan istəyər. Müsəlmanlar namazlarının hər rükətində

اِيَّاكَ نَعْبُدُ وَاِيَّاكَ نَسْتَعِينُ

**“Biz yalnız Sənə qul olur və yalnız Səndən kömək diləyirik!”** («Fatihə» surəsi, 1/5) deyirlər.

Uca Allah belə buyurur:

---

[18] Bxn. İbn Mənzur, “Lisanul-Arab”, “n-d” maddəsi. Daru Sadır, Beyrut, c. III, s. 420.

[19] Buna aid ayələrdən bəziləri bunlardır: “Ənam” surəsi, 6/56; “Rəd” surəsi, 13/36; “Ənbiya” surəsi, 21/25; “Zumər” surəsi, 39/11.

قُلْ اِنِّى نُهِيتُ اَنْ اَعْبُدَ الَّذِينَ تَدْعُونَ مِنْ دُونِ اللَّهِ لَمَّا جَاءَنِىَ الْبَيِّنَاتُ مِنْ رَبِّى وَاُمِرْتُ اَنْ اُسْلِمَ
لِرَبِّ الْعَالَمِينَ (66) هُوَ الَّذِى خَلَقَكُمْ مِنْ تُرَابٍ ثُمَّ مِنْ نُطْفَةٍ ثُمَّ مِنْ عَلَقَةٍ ثُمَّ يُخْرِجُكُمْ طِفْلًا ثُمَّ لِتَبْلُغُوا
اَشُدَّكُمْ ثُمَّ لِتَكُونُوا شُيُوخًا وَمِنْكُمْ مَنْ يُتَوَفَّى مِنْ قَبْلُ وَلِتَبْلُغُوا اَجَلًا مُسَمًّى وَلَعَلَّكُمْ تَعْقِلُونَ (67) هُوَ
الَّذِى يُحْيِي وَيُمِيتُ فَاِذَا قَضَى اَمْرًا فَاِنَّمَا يَقُولُ لَهُ كُنْ فَيَكُونُ (68) اَلَمْ تَرَ اِلَى الَّذِينَ يُجَادِلُونَ فِى اَيَاتِ اللَّهِ
اَنَّى يُصْرَفُونَ (69) اَلَّذِينَ كَذَّبُوا بِالْكِتَابِ وَبِمَا اَرْسَلْنَا بِهِ رُسُلَنَا فَسَوْفَ يَعْلَمُونَ (70) اِذِ الْاَغْلَالُ فِى
اَعْنَاقِهِمْ وَالسَّلَاسِلُ يُسْحَبُونَ (71) فِى الْحَمِيمِ ثُمَّ فِى النَّارِ يُسْجَرُونَ (72) ثُمَّ قِيلَ لَهُمْ اَيْنَ مَا كُنْتُمْ
تُشْرِكُونَ (73) مِنْ دُونِ اللَّهِ قَالُوا ضَلُّوا عَنَّا بَلْ لَمْ نَكُنْ نَدْعُوا مِنْ قَبْلُ شَيْـًٔا كَذَلِكَ يُضِلُّ اللَّهُ الْكَافِرِينَ
(74) ذَلِكُمْ بِمَا كُنْتُمْ تَفْرَحُونَ فِى الْاَرْضِ بِغَيْرِ الْحَقِّ وَبِمَا كُنْتُمْ تَمْرَحُونَ (75) اُدْخُلُوا اَبْوَابَ جَهَنَّمَ خَالِدِينَ
فِيهَا فَبِئْسَ مَثْوَى الْمُتَكَبِّرِينَ (76)

**“De: Allah ilə öz aranıza qoyub yardıma çağırdıqlarınıza qul olmağım mənə qadağan edildi. Bu qadağa Rəbbimdən mənə açıq-aşkar dəlillər gəldiyi zaman oldu. Mənə ancaq aləmlərin Rəbbinə təslim olmaq buyurulmuşdur!**

**Sizi yaradan Odur. O əvvəl torpaqdan, sonra nütfədən,[20] sonra da ələqədən[21] yaradır, sonra sizi körpə olaraq çıxardır ki, sonra güclü-qüvvətli çağa çatasınız, daha sonra qocalasınız. İçərinizdə daha əvvəl ölənlər də var, müəyyən bir vaxta kimi yaşayanlar da. Bəlkə, düşünüb anlayasınız?**

**Can verən də, öldürən də Odur. O, bir işi qərara aldıqda ona ancaq: “Ol!” - deyər, o da dərhal olar. Allahın ayələri barəsində haqlı çıxmağa çalışanları görmürsənmi? Bunlar hardan dəstək alaraq haldan hala dəyişirlər?[22]**

**Bunlar elə adamlardır ki, həm Kitab, həm də elçilərimizə göndərdiyimiz şeylər qarşısında yalan danışırlar. Amma mütləq öyrənəcəklər!**

---

[20] Mayalanmış yumurtadan.
[21] Ana bətnində asılı halda olan canlı.
[22] Ayə yaxşı aydın olsun deyə təfsiri məna verilmişdir.

**Həm də boyunlarında halqalar olduğu halda zəncirlərlə sürüklənərkən öyrənəcəklər. Qaynar suyun içində sürüklənərkən... Sonra odda qızardılacaqlardır.**

**Sonra onlara belə deyiləcəkdir: “Haradadır şərik qoşduğunuz şeylər?!” (Müşriklər) deyəcəklər: “Onlar bizdən ayrıldılar. Xeyr, biz əslində öncədən də Allahdan başqa bir şeydən yardım istəmirdik!” Allah həmin bu davranışlarına görə azmış sayar!**

**Başınıza gələn bu şeylər yer üzündə nahaq yerə sevinməyinizə və təkəbbürlənməyinizə görədir!**

**«Girin cəhənnəmin qapılarından, orada əbədi qalmaq üçün girin!” Təkəbbürlülərin sığınacağı necə də pisdir!”** («Mumin» surəsi, 40/66-76)

İslamdan başqa bütün dinlərdə vasitəçilik inancı vardır. Vasitəçilərin adlarının dəyişməsi ilə dinlərin adı da dəyişir. Uca Allah belə buyurur:

وَلَقَدْ خَلَقْنَا الْاِنْسَانَ وَنَعْلَمُ مَاتُوَسْوِسُ بِهِ نَفْسُهُ وَنَحْنُ اَقْرَبُ اِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ

**“Bu bir həqiqətdir ki, insanı Biz yaratdıq. Ona şah damarından da yaxınıq! Buna görə nəfsinin ona nə vəsvəsə etdiyini də bilirik”** («Qaf» surəsi, 50/16).

**Müşrik vasitəçilərin şəfaətinə inanır**

Uca Allah belə buyurur:

وَيَعْبُدُونَ مِنْ دُونِ اللَّهِ مَا لَا يَضُرُّهُمْ وَلَا يَنْفَعُهُمْ وَيَقُولُونَ هَؤُلَاءِ شُفَعَاؤُنَا عِنْدَ اللَّهِ قُلْ اَتُنَبِّؤُنَ اللَّهَ بِمَا لَا يَعْلَمُ فِي السَّمَوَاتِ وَلَا فِىالْاَرْضِ سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يُشْرِكُونَ (18)

**“Onlar Allahdan əvvəl özlərinə nə bir zərər, nə də xeyir verəcək vəziyyətdə olmayan şeylərə qul olurlar: “Onlar Allah yanında bizim şəfaətçilərimizdir!” - deyirlər. De: “Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsi-**

**niz? Belə şey ola bilərmi? Allah onların şirklərindən uzaqdır və ucadır!”** («Yunus» surəsi, 10/18)

### Müşrik şirki rədd edər

Müşriklər əsas məqsədlərinin Allaha yaxınlaşmaq olduğunu deyirlər. Onların Allaha yaxın hesab etdikləri bəzi varlıqlara vasitəçilik və şəfaətçilik qabiliyyətlərini aid etmələri buna misaldır. Bu səbəbdən heç nəyi Allaha tam şəkildə ortaq hesab etmədiklərini düşünürlər. Uca Allah belə buyurur:

وَيَوْمَ نَحْشُرُهُمْ جَمِيعًا ثُمَّ نَقُولُ لِلَّذِينَ اَشْرَكُوا اَيْنَ شُرَكَاؤُكُمُ الَّذِينَ كُنْتُمْ تَزْعُمُونَ (22) ثُمَّ لَمْ تَكُنْ فِتْنَتُهُمْ اِلَّا اَنْ قَالُوا وَاللَّهِ رَبِّنَا مَا كُنَّا مُشْرِكِينَ (23) اُنْظُرْ كَيْفَ كَذَبُوا عَلَى اَنْفُسِهِمْ وَضَلَّ عَنْهُمْ مَا كَانُوا يَفْتَرُونَ (24)

**“Onların hamısını bir yerə toplayacağımız gün şərik qoşanlara deyəcəyik: “İddia etdiyiniz şərikləriniz haradadır?! Onların: “Rəbbimiz Allaha and olsun ki, biz müşrik deyildik!” deməkdən başqa heç bir çarələri qalmayacaq.”**

**Gör onlar özlərini necə təkzib etdilər? Allaha qarşı şərik qoşduqları şeylər onlardan necə də uzaqlaşdı?”** («Ənam» surəsi, 6/22-24)

Müşriklərin vəziyyətdən bu şəkildə çıxmaq kimi xüsusiyyətlərini dünyada da göstərirlər. Məkkəli müşriklərin Kəbəni təvaf edərkən dedikləri bu söz də onların bu cəhətlərini göstərir. “Əmr et, Allahım, Sənin heç bir şərikin yoxdur. Yalnız bir ortağın[23] vardır ki, onun da bütün ixtiyarının sahibi sənsən.”[24]

Müşriklərin beyni çox qarışıq olur. “O şərikin və bütün ixtiyarların sahibi Allahdır”, - deməklə özlərini xilas etdiklərini

---

[23] Kəbənin ətrafındakı hər büt bir qəbiləyə aid idi. Onların hər biri öz bütü vasitəsi ilə Allahla əlaqə yaratmaq istədiyinə görə hər müşrikin bir bütü var idi.
[24] Muslim, «Həcc», 3, 22-1185.

güman edirlər. Qütb, qavs, əvtad və başqa adlar verdikləri insanlara qeyri-adi ixtiyarlar şamil edən təriqətlər də bu sıradandır. Onlar da bu ixtiyarı Allahın verdiyini dedikdə işin içindən çıxacaqlarını hesab edirlər.

Müşriklərin özlərini haqq yolda hesab etmələri ilə bağlı aşağıdakı ayələr haqqında da düşünmək lazımdır.

فَرِيقًا هَدَى وَفَرِيقًا حَقَّ عَلَيْهِمُ الضَّلَالَةُ إِنَّهُمُ اتَّخَذُوا الشَّيَاطِينَ أَوْلِيَاءَ مِنْ دُونِ اللَّهِ وَيَحْسَبُونَ أَنَّهُمْ مُهْتَدُونَ

**“Allah insanların bir qismini doğru yola gətirdi, onların bir qismi isə azmağa layiq görüldü. Çünki bunlar Allahdan əvvəl həmin şeytanları özlərinə övliya etdilər. Həm də özlərini doğru yolda olduqlarını güman edirlər”** («Əraf» surəsi, 7/30).

وَمَنْ يَعْشُ عَنْ ذِكْرِ الرَّحْمَنِ نُقَيِّضْ لَهُ شَيْطَانًا فَهُوَ لَهُ قَرِينٌ (36) وَإِنَّهُمْ لَيَصُدُّونَهُمْ عَنِ السَّبِيلِ وَيَحْسَبُونَ أَنَّهُمْ مُهْتَدُونَ (37)

**“Hər kim Rəhmanın zikrindən (Qurandan) boyun qaçırsa, Biz ona Şeytanı urcah edərik və onun yaxın dostu olar.**

**Onlar bunları doğru yoldan çıxardar, amma bunlar isə özlərinin haqq yola girdiklərini güman edərlər!”** («Zuxruf» surəsi, 43/36-37).

وَإِذَا حُشِرَ النَّاسُ كَانُوا لَهُمْ أَعْدَاءً وَكَانُوا بِعِبَادَتِهِمْ كَافِرِينَ (6)

**“O insanlar bir yerə yığılacaqları gün bunlar onlara düşmən olacaq, onlara qulluq etdiklərini qəbul etməyəcəklər”** («Əhqaf» surəsi, 46/6).

وَيَوْمَ تَقُومُ السَّاعَةُ يُبْلِسُ الْمُجْرِمُونَ (12) وَلَمْ يَكُنْ لَهُمْ مِنْ شُرَكَائِهِمْ شُفَعَؤُا وَكَانُوا بِشُرَكَائِهِمْ كَافِرِينَ

**“O saat gəldiyi gün günahkarlar ümidsizliyə qapılacaqlar.**

**Şərikləri arasında onlara qəhmər çıxacaq kimsələr olmayacaq. Onlar da öz şəriklərini inkar edəcəklər”** («Rum» surəsi, 30/12-13).

**Tanrı qəbul edilən vasitəçilər müşrikləri qəbul etməz**

Uca Allah belə buyurur:

وَيَوْمَ نَحْشُرُهُمْ جَمِيعًا ثُمَّ نَقُولُ لِلَّذِينَ اَشْرَكُوا مَكَانَكُمْ اَنْتُمْ وَشُرَكَاؤُكُمْ فَزَيَّلْنَا بَيْنَهُمْ وَقَالَ شُرَكَاؤُهُمْ
مَا كُنْتُمْ اِيَّانَا تَعْبُدُونَ (28) فَكَفَى بِاللَّهِ شَهِيدًا بَيْنَنَا وَبَيْنَكُمْ اِنْ كُنَّا عَنْ عِبَادَتِكُمْ لَغَافِلِينَ (29)

**“Onların hamısını yığacağımız gün həmin müşrikləri: “Siz də, Allaha qoşduğunuz şərikləriniz də yerinizdə durun!” - deyəcəyik. Artıq onları bir-birindən ayıracağıq. Şərikləri deyəcəklər: “Siz təkcə bizə ibadət etmirdiniz. Sizinlə bizə aramızda təkcə Allahın şahid olması yetər. Biz sizin bizə ibadət etməyinizdən xəbərsiz idik!”** («Yunus» surəsi, 10/28-29).

وَاتَّخَذُوا مِنْ دُونِ اللَّهِ اٰلِهَةً لِيَكُونُوا لَهُمْ عِزًّا (81) كَلَّا سَيَكْفُرُونَ بِعِبَادَتِهِمْ وَيَكُونُونَ عَلَيْهِمْ ضِدًّا

**“Onlar üçün dayaq olsunlar deyə, Allahın yaxınından tanrılar qəbul etdilər. Xeyr, bunlar onların ibadətini danacaq və onlara düşmən olacaqlar”** («Məryəm» surəsi, 19/81-82).

**Ağıl şirki rədd edir**

Ağlını işlədən hər insan şirki qəbul etməz. Müşriklərin istinad etdikləri yeganə mənbə adət-ənənədir. Buna görə də Quran insanı düşünməyə çağırır. Uca Allah belə buyurur:

وَيَجْعَلُ الرِّجْسَ عَلَى الَّذِينَ لَا يَعْقِلُونَ

**“Allah ağlını işlətməyənlərə o pisliyi düçar edər”** («Yunus» surəsi, 10/100).

Quran dədə-babaların qoyduğu adətləri də ağlın süzgəcindən keçirməyə çağırır. Uca Allah belə buyurur:

وَاِذَا قِيلَ لَهُمْ تَعَالَوْا اِلَى مَا اَنْزَلَ اللَّهُ وَاِلَى الرَّسُولِ قَالُوا حَسْبُنَا مَا وَجَدْنَا عَلَيْهِ اٰبَاءَنَا اَوَلَوْ كَانَ
اٰبَاؤُهُمْ لَا يَعْلَمُونَ شَيْـًٔا وَلَا يَهْتَدُونَ

**“Onlara: “Allahın nazil etdiyinə və Elçiyə tərəf gəlin!” - deyildiyi zaman: “Atalarımızın getdiyi yol bizə yetər”, - deyə cavab verirlər. Bəs ataları heç bir şey bilməyib doğru yolda deyildilərsə necə?!”** («Maidə» surəsi, 5/104).

Müşriklik mənasız həyat tərzidir. Uca Allah belə buyurur:

اَلَا اِنَّ لِلَّهِ مَنْ فِي السَّمٰوَاتِ وَمَنْ فِي الْاَرْضِ وَمَا يَتَّبِعُ الَّذِينَ يَدْعُونَ مِنْ دُونِ اللَّهِ شُرَكَاءَ اِنْ
يَتَّبِعُونَ اِلَّا الظَّنَّ وَاِنْ هُمْ اِلَّا يَخْرُصُونَ

**“Bilin ki, göylərdə və yerdə kim varsa, hamısı Allahındır. Allahın yaxınından şəriklər çağıranlar nəyin ardınca gedirlər? Onlar ancaq zənnə uyar və yalandan başqa bir şey deməzlər”** ("Yunus" surəsi, 10/66).

Şirk mövzusunda hətta Muhəmməd sallallahu əleyhi və səlləmə də xəbərdarlıq edilmişdir. Uca Allah belə buyurur:

وَلَا يَصُدُّنَّكَ عَنْ اٰيَاتِ اللَّهِ بَعْدَ اِذْ اُنْزِلَتْ اِلَيْكَ وَادْعُ اِلَى رَبِّكَ وَلَا تَكُونَنَّ مِنَ الْمُشْرِكِينَ (87)
وَلَا تَدْعُ مَعَ اللَّهِ اِلٰهًا اٰخَرَ لَا اِلٰهَ اِلَّا هُوَ كُلُّ شَيْءٍ هَالِكٌ اِلَّا وَجْهَهُ لَهُ الْحُكْمُ وَاِلَيْهِ تُرْجَعُونَ (88)

**“Allahın ayələri sənə nazil edildikdən sonra ehtiyatlı ol ki, səni onlardan döndərməsinlər. Sən Rəbbinə dəvət et və əsla müşriklərdən olma! Və Allahla yanaşı başqa heç bir tanrı çağırma. Allahdan başqa heç bir tanrı yoxdur. Allahdan başqa hər şey məhv olacaq, ancaq Onun Özü qalacaqdır. Hökm Onundur və Ona qaytarılacaqsınız!”** ("Qəsəs" surəsi, 28/87-88).

Bu mövzuda həyat təcrübəsi olan hər kəsə xəbərdarlıq edilmişdir. Uca Allah belə buyurur:

فَلَوْلَا كَانَ مِنَ الْقُرُونِ مِنْ قَبْلِكُمْ أُولُوا بَقِيَّةٍ يَنْهَوْنَ عَنِ الْفَسَادِ فِي الْأَرْضِ إِلَّا قَلِيلًا مِمَّنْ أَنْجَيْنَا مِنْهُمْ وَاتَّبَعَ الَّذِينَ ظَلَمُوا مَا أُتْرِفُوا فِيهِ وَكَانُوا مُجْرِمِينَ (116) وَمَا كَانَ رَبُّكَ لِيُهْلِكَ الْقُرَى بِظُلْمٍ وَأَهْلُهَا مُصْلِحُونَ

**"Sizdən əvvəlki dövrlərdə yaşayanlardan ağıl və fəzilət (hünər) sahib olanları, ortalıqdakı fitnə-fəsada qarşı gəlməli deyildilərmi? Onların xilas etdiyimiz az bir qismi bunu etmişdir. Zalımlar isə onlara verilmiş rifaha (dünyanın ləzzətinə) uydular və günahkar oldular. Məmləkətlərin əhalisi əməlisaleh olduğu halda Rəbbin onları haqsız yerə məhv etməz!"** (Hud surəsi, 11/116-117)

وَأَنْذِرْ بِهِ الَّذِينَ يَخَافُونَ أَنْ يُحْشَرُوا إِلَى رَبِّهِمْ لَيْسَ لَهُمْ مِنْ دُونِهِ وَلِيٌّ وَلَا شَفِيعٌ لَعَلَّهُمْ يَتَّقُونَ (51)

**"Rəbbinin hüzuruna cəm ediləcəklərindən qorxanları Quranla xəbərdar et. Onların Allahdan başqa heç bir dostu və şəfaətçiləri yoxdur. Bəlkə də, onlar özlərini qoruyarlar!"** («Ənam» surəsi, 6/51).

وَأَنِ احْكُمْ بَيْنَهُمْ بِمَا أَنْزَلَ اللَّهُ وَلَا تَتَّبِعْ أَهْوَاءَهُمْ وَاحْذَرْهُمْ أَنْ يَفْتِنُوكَ عَنْ بَعْضِ مَا أَنْزَلَ اللَّهُ إِلَيْكَ فَإِنْ تَوَلَّوْا فَاعْلَمْ أَنَّمَا يُرِيدُ اللَّهُ أَنْ يُصِيبَهُمْ بِبَعْضِ ذُنُوبِهِمْ وَإِنَّ كَثِيرًا مِنَ النَّاسِ لَفَاسِقُونَ (49) أَفَحُكْمَ الْجَاهِلِيَّةِ يَبْغُونَ وَمَنْ أَحْسَنُ مِنَ اللَّهِ حُكْمًا لِقَوْمٍ يُوقِنُونَ (50)

**"Onların arasında Allahın nazil etdiyi Kitabla hökm et. Onların həvəslərinə uyma. Allahın sənə nazil etdiyinin bir qismindən səni tovlayıb yayındıra biləcəklərindən ehtiyat elə. Əgər onlar üz döndərsələr, bil ki, Allah onları bəzi günahlarına görə müsibətə düçar etmək istəyir. Doğrudan da, insanların çoxu yoldan çıxmışdır!**

**Yoxsa onlar cahiliyyət dövrünün**[25] **hökmünümü axtarırlar? Tam qənaət sahibi olan bir camaat üçün kimin hökmü Allahın hökmündən daha gözəl ola bilər?!”** («Maidə» surəsi, 5/49-50).

اَلَمْ يَأْنِ لِلَّذِينَ اٰمَنُوا اَنْ تَخْشَعَ قُلُوبُهُمْ لِذِكْرِ اللّٰهِ وَمَا نَزَلَ مِنَ الْحَقِّ وَلَا يَكُونُوا كَالَّذِينَ اُوتُوا
الْكِتَابَ مِنْ قَبْلُ فَطَالَ عَلَيْهِمُ الْاَمَدُ فَقَسَتْ قُلُوبُهُمْ وَكَثِيرٌ مِنْهُمْ فَاسِقُونَ

**“İnananların qəlblərinin Allahın zikri və haqdan nazil olan üçün yumşalması vaxtı gəlib çatmadımı?! Onlar özlərindən əvvəl kitab verilən kimsələr kimi olmasınlar. Onlarla uzun bir müddət keçmiş və qəlbləri sərtləşmişdir. Onların çoxu yoldan çıxmışdır!”** («Hədid» surəsi, 57/16).

---

[25] Məkkəlilərin müsəlman olmamışdan əvvəl yaşadıqları dövrə cahilliyə dövrü deyilir.

# İKİNCİ FƏSİL

# VASİTƏÇİLİK İNANCI

Quranın  şirklə bağlı ayələrində ibadət edilən və köməyə çağırılan xəyali tanrıların yeri "مِنْ دُونِ اللَّهِ = Allahın dunundan" ifadəsi ilə qeyd edilmişdir. "Dun" sözü lüğətdə "üstün sözünün əksi, ən yüksək mərtəbədən uzaq, ondan aşağıda, başqa və ən yaxın mənalarını verir."[26] "Allahın dunundan" dedikdə, "Allahdan aşağı səviyyədə" mənası nəzərdə tutulur.

Müşriklər Allahı kral kimi özlərindən uzaq hesab edir, onunla əlaqə saxlamaq üçün Allaha yaxın olduğunu güman etdikləri bəzi varlıqları vasitəçi qəbul edirlər. Xristianların İsaya Allahın oğlu, məkkəli müşriklərin ibadət etdikləri bütlərə Allahın qızları,[27] böyüklərini vasitəçi olaraq qəbul edənlərin onlara Allahın övliyası, yəni dostları demələri buna misaldır.

Müşriklər Allahın şəxsinə şərik qoşmurlar. Yəni birdən çox Allahın mövcud olduğunu iddia etmirlər. Onların iddiası Allaha xas sifətlərə şərik qoşmaq, yəni vasitəçi qəbul etdikləri varlıqlara Allaha xas xüsusiyyətləri şamil etməkdir. Bu səbəbdən onları əbədiləşdirirlər, onların qeyri-adi eşitmə, görmə, başa düşmə və kömək etmə kimi xüsusiyyətlərə malik olduqlarını id-

---

[26] "Dun" دون sözü ilə bağlı olaraq "Qamus tərcüməsi"ndə bunlar yazılıb: ""Dun" "fəvq" (üst) sözünün antonimidir, ən yüksək mərtəbədən uzaq, yaxud ondan aşağı kimi ifadə edilir. Bəziləri bunun "dunuv" sözünün antonimi olduğunu demişlər. Söz "qeyri" mənasına da gəlir. Bunun "əqrəb" mənası da vardır ki, o zaman əvəzlik olur. Ona çox yaxın mənada "həzə dunəhu" deyilir. "Dunə" "qabl" (əvvəl) mənasına da gəlir. Bir şey digərindən bir qədər aşağıda olduqda "həzə dunə zəkə" deyilir...

[27] ət-Təbəri, «Camiul-Bəyan» c. 11, s 519, "Nəcm" surəsinin 19-cu ayəsinin təfsiri.

dia edirlər. Həmçinin bütün bu xüsusiyyətlərin və ixtiyarın onlara Allah tərəfindən verildiyinə inanırlar. Məkkəli müşriklər Kəbəni təvaf edərkən belə deyirdilər: “Ləbbeyk lə şərikə lək illə şərikən huvə lək təmlikuhu va mə mələk”, yəni “Əmr et Allahım, sənin şərikin yoxdur. Yalnız bir şərikin[28] var ki, onun da səlahiyyətlərinin sahibi sənsən.”

Abbas deyir ki, onlar: “Ləbbeyk lə şərikə lək - Əmr et, sənin heç bir şərikin yoxdur” dediklərində, Muhəmməd sallallahu aleyhi va səlləm belə deyirdi: “Vay sizin halınıza! Burada saxlayın, saxlayın!”.[29]

Şirkin forması aşağıdakı kimi göstərilə bilər:




ŞİRKİN ÜMUMİ FORMASI

---

[28] Kəbənin ətrafındakı bütlərin hər biri bir qəbiləyə aid idi. Hər kəs öz bütü vasitəsilə Allahla əlaqə yaratmağa, Ona çatmağa çalışdığına görə hər birinin yalnız bir bütü vardı.

[29] Muslim, «Həcc», 3/22-1185.

Şəkildə qeyd edilən nümunələrə nəzər yetirək:

**1. Sıratı-mustaqim** (Doğru yol): Bu, Allahın istədiyi yoldur. Doğru inancı olan, gözəl davranışı olan hər kəs həmin yola daxil olur. Doğru davranış, Allahın istədiyi davranışdır. Allah insana şah damarından daha yaxındır.

Doğru yol İblisin, yəni Şeytanın əsl fəaliyyət sahəsidir. Allahdan möhlət alan kimi belə demişdi:

فَبِمَا اَغْوَيْتَنِى لَاَقْعُدَنَّ لَهُمْ صِرَاطَكَ الْمُسْتَقِيمَ (16) ثُمَّ لَاٰتِيَنَّهُمْ مِنْ بَيْنِ اَيْدِيهِمْ وَمِنْ خَلْفِهِمْ
وَعَنْ اَيْمَانِهِمْ وَعَنْ شَمَائِلِهِمْ وَلَا تَجِدُ اَكْثَرَهُمْ شَاكِرِينَ (17)

**“...Nə olursa-olsun, onlar üçün sənin düz yolunun üstündə oturacağam. Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm. Onların əksəriyyətini şükür edən görməyəcəksən!”** (“Əraf” surəsi, 7/16-17).

Əsas sıxıntı, çətinlik insanlar arasında olan şeytanların verdikləri çətinliklərdir. Onlar da doğru yolun üzərində otururlar. Allahı insandan uzaq göstərirlər, boşluğu özlərinin dolduracaqlarını iddia edirlər.

**2. Tanrılar:** Allahla insan arasında olduğuna inanılan, bir tərəfi ilə Allaha, digər tərəfi ilə isə insana bənzədilən, bu səbəbdən vasitəçi hesab edilən varlıqlardır.

**3. Ataların ruhları:** İnsanlar ölmüş böyüklərini müqəddəsləşdirməyi xoşlayır, onlara Allaha xas xüsusiyyətləri şamil edirlər. “Fəna fillah”, yəni Allahda yox olma və “vəhdəti-vücud” kimi düşüncələrin mənbəyi də elə ola bilər. Bu, onları tanrılaşdırmaqdır.

**4. Din adamları:** İnsanlarla əlaqədə olan və yuxarıda qeyd edilən cəhətləri din kimi təqdim edən insanlardır. Tanrılarla insanlar arasında vasitəçilik etdiyinə inanılan varlıqlar yarı-insan, yarı-tanrı kimi qəbul edilirlər.

**5. İnsan:** Yaradılan əlaqələr şəbəkəsi insanda olan din hissini sui-istifadəyə gətirib çıxarır. İnsanları bu təşkilatlanmağın içinə sürükləyən əsas səbəb orada olmağın faydalarını görmək mənfəətlərinə uyğun bəhrələnməkdir. Bu ayə diqqəti buna cəlb edir:

وَقَالَ اِنَّمَا اتَّخَذْتُمْ مِنْ دُونِ اللّٰهِ اَوْثَانًا مَوَدَّةَ بَيْنِكُمْ فِي الْحَيٰوةِ الدُّنْيَا ثُمَّ يَوْمَ الْقِيٰمَةِ يَكْفُرُ بَعْضُكُمْ
بِبَعْضٍ وَيَلْعَنُ بَعْضُكُمْ بَعْضًا وَمَاْوٰيكُمُ النَّارُ وَمَالَكُمْ مِنْ نَاصِرِينَ (25)

**“(İbrahim belə) dedi: “Allahdan əvvəl bütlərə tutunmağınız ancaq bu həyatda bir-birinizə qarşı bir sevgi şəraiti formalaşmasına görədir. Sonra da qiyamət günü bir-birinizi tanımayacaq, bir-birinizə lənət oxuyacaqsınız. Gedəcəyiniz yer o atəşdir, sizə yardım edən də olmayacaqdır!”** (“Ənkəbut” surəsi, 29/25).

Haqq dinindən başqa bütün dinlər belə bir formalaşmaya malikdir. Uca Allah bəzi yəhudi və xristianlar haqqında belə buyurur:

اِتَّخَذُوا اَحْبَارَهُمْ وَرُهْبَانَهُمْ اَرْبَابًا مِنْ دُونِ اللّٰهِ وَالْمَسِيحَ ابْنَ مَرْيَمَ وَمَا اُمِرُوا اِلَّا لِيَعْبُدُوا اِلٰهًا وَاحِدًا
لَا اِلٰهَ اِلَّا هُوَ سُبْحَانَهُ عَمَّا يُشْرِكُونَ (31)

**“Ravvinlərini və rahiblərini, Allahdan başqa rəbblər qəbul etdilər. Məryəm oğlu Məsihi də həmçinin... Halbuki onlara ancaq bir olan Tanrıya qul olmaları əmr olunmuşdu. Ondan başqa heç bir tanrı yoxdur. Allah onların şirkindən uzaqdır”** (“Tövbə” surəsi, 9/31).

Adiyy b. Xatim deyir ki, Peyğəmbər sallallahu əleyhi və səlləmin yanına gəldim. Boynumda qızıl xaç vardı. “Adiyy, tulla o bütü”, - dedi. Ondan bu ayəni eşitdim: “*Ravvinlərini və rahiblərini, Allahdan başqa rəbblər qəbul etdilər...*” Dedi ki, “Onlar bunlara ibadət etmədilər, lakin bir şeyi halal qəbul etdikdə

halal, haram qəbul etdikdə isə haram hesab etdilər."[30] Onları rəbb qəbul etmələri də belə oldu.

Doğru yolda, yəni sıratı-mustaqimdə olmaq istəyən hər kəsin qarşısına maneələr çıxır. Çünki doğru yol Şeytanın fəaliyyət sahəsidir. O, öz hiylələrini orada qurur. Ora gələnlərə vasitəçilərdən bəhs edir, onların Allaha yaxın və Onunla dost olduqlarını, Allaha aparan yolda onların dəstəklərinə ehtiyacları olduqlarını, vasitəçi və şəfaətçi ola biləcəklərini deyirlər. Həmçinin xəyali hekayələr danışaraq Allahın onları məyus etməyəcəyini iddia edirlər. Bu səbəbdən onlara tabe olmağın zərurətini insanlara aşılayır. Bu işdə ən böyük dəstəyi isə o, düşüncəsiz insanlardan və adətlərdən alır. Bu şəkildə həmin insanlar Allahdan əvvəl vasitəçi hesab etdikləri varlıqlara qul olurlar ki, bu da onların Allahla əlaqələrini kəsir. Buna iki nümunə veriləcək. Bunlardan biri əhli-kitabdan olan katoliklər, digəri isə taoistlərdir.

## *A - KATOLİKLƏRDƏ VASİTƏÇİLİK İNANCI*

Katoliklərin rahibləri rəbb qəbul etmələrinin əsasında "Ata, oğul və müqəddəs ruh" inancı durur. Bu inanc bir çox xristian məzhəblərində eynidir. Hər birinin fərqli inancları da vardır. Katolikləri nəzərə alaraq İsa əleyhissəlamın təbliğ etdiyi saf dinin nəcə tanınmaz vəziyyətə düşdüyünün şahidi olaq.

### 1 - Allah

Katoliklərə görə Allah birdir, Ondan başqa Tanrı yoxdur.[31] O, həqiqətin özüdür. Yeri və göyü tək başına yaratmışdır. Yara-

---

[30] Tirmizi, "Təfsirul-Quran", bab 10, hədis n 3095, İstanbul, 1981/1401, c. V, səh. 278.

[31] "Katolik kilsesi Din ve Ahlak İlkeleri" («Katolik Kilisesi Din ve Ahlak İlkeleri»), İstanbul 2000, 200 və 212-ci paraqraflar. (Papa XIV Luinin (Ye-

dılış nizamını müəyyənləşdirən və dünyanı idarə edən Odur.[32] O, insanlara yaxındır[33] və hər şeyi bilir.[34] O, hər zaman vardır,[35] Onun mövcudiyyətinin əvvəli və sonu yoxdur. Hər şey mövcudluğuna görə Ona borcludur. Malik olduğumuz hər şey Ondan gəlir.[36] O, özündən var olandır.[37] Allahın "Ata" olaraq adlandırılması, Onun hər şeyin başlanğıcı və üstün hakimi olması və bütün övladlarına görə narahat olan sevgi dolu yaxşılığından qaynaqlanır. Allah nə kişidir, nə də qadın. Allah Allahdır.[38]

Bəzi xristianlar Allahla insan arasında müəyyən boşluğun olduğunu deyir və həmin boşluğu vasitəçilərlə doldururlar. İndi də katoliklərin vasitəçi hesab etdikləri varlıqlara nəzər yetirək:

## 2 - İsa (Oğul)

Katoliklərin fikrincə, İsa Atanın elçisidir.[39] Ata onu müqəddəs ruhla məsh etmiş, rahib, peyğəmbər və kral etmişdir.[40] O, özündən bir şey edə bilməz. Hər şeyi onu göndərən Atadan alır.[41] İndi o, Atanın yanında xristianların vəkilliyini edir. Onların lehinə vasitəçilik etmək üçün daima canlıdır və Allahın hü-

---

piskop II İohan Pavel) əmri ilə 1986-cı ildə Kardinal Yozef Ratzingerin (Joseph Ratzinger) rəhbərliyi ilə yaradılan 12 nəfərlik heyətin altı illik fəaliyyəti nəticəsində ortaya çıxarılmış və Vatikan kilsəsi tərəfindən qəbul edilmiş təlimləri əhatə edir. Dominik Pamir türk dilinə tərcümə etmiş, Türkiyə Yepiskopları Konfransı adından nəşr edilmişdir. Burada Allah əvəzinə Tanrı sözü işlədilir).

[32] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 215, 216 və 222.
[33] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 206.
[34] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 208.
[35] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 212.
[36] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 224.
[37] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 212.
[38] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 239.
[39] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 858.
[40] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 783.
[41] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 859.

zurunda daima hazır dayanıb.[42] Özü vasitəsi ilə Allaha yaxınlaşanları tamamilə xilas etməyə onun gücü çatır.[43]

Xristianlarda insanın mövqeyi belədir:




Bu anlayışa əsasən müqəddəs Tanrı, yəni Allahla günahkar insan arasında böyük bir boşluq vardır. Oxlar insanın Allaha və Onun verdiyi həyata çatmaq üçün göstərdiyi səylərin rəmzidir. Aşağıdakı şəkil ayrılığı bağlayacaq yolu izah edir.



Xristianlarda İsanın mövqeyi[44]

Xristianlara görə Allahla insan arasındakı quzu İsadır. O, bəşəriyyətin xilası üçün özünü qurban etmişdir. Pavelin[45] Timo-

---

[42] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 519.
[43] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 2634.
[44] Şəkil və yazılar www.incil.com internet səhifəsindən götürülmüşdür.
[45] "Pavelin məktubları" əlimizdə mövcud olan İncilin bir hissəsi kimi qəbul edilir. Bunu Quran qəbul edə bilməz. Çünki Qurana görə, İncil Allahın kitabı, İsa isə Onun elçisidir. Pavel isə İsanı görməmişdir. Əlimizdəki İncildə Pavelin əsl adının Savi (Saul) olduğu ("Elçilərin İşləri", 13/9), xristianların azğın düşməni olduğu halda, Şam yolunda qəfil göydən parlayan bir nurun ətrafını əhatə etdiyi, İsanın ona səsləndiyi ("Elçilərin İşləri", 9/36), sonra onun İsaya

feyə yazdığı məktubda bu sözlər vardır: "Bir Allah və Allahla insanlar arasında bir Vasitəçi vardır. Bu da insan olan və özünü hər kəs üçün fidyə kimi verən İsa Məsihdir."[46]

**Üç əsr sonra qəbul edilən oğul düşüncəsi:** Həvarilərin zamanında İsa həqiqi mənada insan hesab edilirdi. Onun Allahın oğlu olması iddiasını əvvəl Pavel ortaya atdı. Bu iddianı doğru hesab edən qərar üçüncü əsrdən sonra Antakyada qəbul edildi.[47]

325-ci ildə keçirilən Ekümenik İznik Şurası İsanın yaradılmadığı, Atadan doğulduğu və onunla eyni əsasdan olduğu haqqında qərar qəbul etdi.[48]

431-ci ildə üçüncü Ekümenik Efes Şurası bu qərarı qəbul etdi: "İsa öz şəxsiyyətini ağıllı ruhla canlandırılmış bir bədənlə birləşdirərək insan olmuşdur. Məryəm ana isə əslində Tanrının Anasıdır."

451-ci ildə təşkil edilən dördüncü Ekümenik Kadıköy Şurası onun həqiqi tanrı olduğunu belə elan etdi:

"Rəbbimiz İsa Məsihin mükəmməl Tanrılığa və mükəmməl insanlığa sahib, həqiqi Tanrı və həqiqi insan olduğunu, ağıllı ruhdan və bədəndən ibarət olduğunu, Tanrılıq baxımından Ata ilə, insanlıq baxımından isə bizimlə eyni əsasda olduğunu, günahdan başqa hər şeydə bizə bənzər olduğunu, Tanrılıq baxımından çox əsrlər bundan əvvəl Atadan doğulduğunu, insanlıq baxımından bizim sağlamlığımız üçün bakirə Məryəmdən dünyaya

---

inandığı və vəftiz edildiyi ("Elçilərin İşləri", 9/18 vb.) ifadə edilir. Buna əsasən Pavel adi bir xristiandır. Onun sözlərinin İncildə mövcud olması qəbul edilə bilməz.

[46] İncil, 1-ci Timofey 2/56. (Müqəddəs Kitab, Köhnə və Yeni Əhd/Tövrat və İncil, Kitabi-Müqəddəs Şirkəti, İstanbul 1981, s. 218).

[47] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 465.

[48] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 465.

gəldiyini yekdilliklə qəbul etdiyimizi rəsmi şəkildə bəyan edirik.[49]

Uca Allah belə buyurur:

وَقَالَتِ الْيَهُودُ عُزَيْرٌ ابْنُ اللَّهِ وَقَالَتِ النَّصَارَى الْمَسِيحُ ابْنُ اللَّهِ ذَلِكَ قَوْلُهُمْ بِاَفْوَاهِهِمْ يُضَاهِؤُنَ
قَوْلَ الَّذِينَ كَفَرُوا مِنْ قَبْلُ قَاتَلَهُمُ اللَّهُ اَنَّى يُؤْفَكُونَ

**“Yəhudilər: “Üzeyr Allahın oğludur”, xristianlar da: “Məsih Allahın oğludur”, - dedilər. Bunlar dillərində doladıqları öz sözləridir. Onlardan əvvəl kafir olanların sözlərinə bənzəyir. Allah onları öldürsün! Bu iftiraya haradan döndərilirlər!”** (“Tövbə” surəsi, 9/30).

**Həqiqi Allah və həqiqi insan:** İsanı vasitəçi hesab etmək üçün ona həqiqi Allah və həqiqi insan demişlər. Katoliklər bunu belə izah edirlər:

“İsa Məsih həqiqi Allah və həqiqi insandır. Elə bu səbəbdən də o, insanlarla Allah arasında tək vasitəçidir.[50] İndi o, Atanın yanında xristianların vəkilliyini edir. Onların lehinə vasitəçilik etmək üçün daima canlıdır və Allahın hüzurunda daima hazır dayanır.[51] Özü vasitəsi ilə Allaha yaxınlaşanları tamamilə xilas etməyə onun gücü çatır”.[52]

Məntiqə zidd olan bu inanca görə məsuliyyəti kilsə öz üzərinə götürür. Belə deyirlər:

“İmanın səbəbi izah edilən həqiqətlərin təbii ağlımızla başa düşülməsindən və həqiqi görünməsindən asılı deyil”.[53] İnanmaq kilsənin müəyyən fəaliyyətini təşkil edir. Kilsənin imanı bizim imanımızdan əvvəl gəlir, bizim imanımızı daşıyır və

---

[49] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 467.
[50] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 480.
[51] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 519.
[52] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 2634.
[53] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 156.

himayə edir. Kilsə bütün inananların anasıdır. Anası kilsə olmayanın Atası Tanrı ola bilməz”.[54]

Uca Allah belə buyurur:

لَقَدْ كَفَرَ الَّذِينَ قَالُوا اِنَّ اللَّهَ هُوَ الْمَسِيحُ ابْنُ مَرْيَمَ وَقَالَ الْمَسِيحُ يَا بَنِى اِسْرَائِلَ اعْبُدُوا اللَّهَ رَبِّى
وَرَبَّكُمْ اِنَّهُ مَنْ يُشْرِكْ بِاللَّهِ فَقَدْ حَرَّمَ اللَّهُ عَلَيْهِ الْجَنَّةَ وَمَاْوَيهُ النَّارُ وَمَا لِلظَّالِمِينَ مِنْ اَنْصَارٍ

**“"Allah Məryəm oğlu Məsihdir!" - deyənlər kafir oldular. Halbuki Məsih belə demişdi: “Ey İsrail oğulları! Mənim də, sizin də Rəbbiniz olan Allaha qul olun! Allaha şərik qoşana Allah, cənnəti haram edər. Onun düşəcəyi yer cəhənnəmdir. Zalımların heç bir köməkçisi də olmaz!”** (“Maidə” surəsi, 5/72)

### 3 - Müqəddəs Ruh

Katoliklərin fikrincə, Müqəddəs Ruh da Tanrıdır. Ata və Oğulla eyni əsasdandır.[55] O da vasitəçi və şəfaətçi olur. "Pavelin romalılara məktubu"nda bu ifadələr yer almışdır:

"Müqəddəs Ruh bizim zəifliyimizə kömək edir, çünki necə dua edəcəyimizi bilmirik. Lakin Ruhun özü sözlə deyilməsi mümkün olmayan iniltilərlə bizə şəfaət verir. İnsanların qəlblərinə baxan Allah Ruhun düşüncəsinin nə olduğunu bilir. Çünki Ruh Allahın istəyinə əsasən müqəddəslər üçün şəfaət edir. Allahın işlərinin təsiri olan Müqəddəs Ruh duanın da sahibidir.[56] Müqəddəs ruh olmadan Tanrının Oğlunu görmək mümkün deyil. Oğul olmadan isə heç kim ataya yaxınlaşa bilməz.[57]

---

[54] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 181.
[55] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 689.
[56] İncil, Romalılar 8/2628. «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 741.
[57] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 683.

### 4 - Məryəm Ana

Katoliklərin fikrincə, Məryəm ana əslində Tanrının anasıdır.[58] “Onun analığı sona çatmamışdır. Yenilənən vasitəçiliyi ilə əbədi xeyirlər, faydalar gətirən ərməğanlarını daima bəşəriyyətə verməkdə davam edir. Məryəm Anaya kilsədə vəkil, köməkçi, köməyə tələsən, vasitəçilik edən deyirlər.”[59] Onlar bu sözləri ilə Məryəm ananı tanrı qəbul edirlər.

Bir gün Allah belə deyəcəkdir:

وَإِذْ قَالَ اللَّهُ يَا عِيسَى ابْنَ مَرْيَمَ أَأَنْتَ قُلْتَ لِلنَّاسِ اتَّخِذُونِي وَأُمِّيَ إِلَهَيْنِ مِنْ دُونِ اللَّهِ قَالَ سُبْحَانَكَ
مَا يَكُونُ لِي أَنْ أَقُولَ مَا لَيْسَ لِي بِحَقٍّ إِنْ كُنْتُ قُلْتُهُ فَقَدْ عَلِمْتَهُ تَعْلَمُ مَا فِي نَفْسِي وَلَا أَعْلَمُ مَا فِي نَفْسِكَ
إِنَّكَ أَنْتَ عَلَّامُ الْغُيُوبِ (116) مَا قُلْتُ لَهُمْ إِلَّا مَا أَمَرْتَنِي بِهِ أَنِ اعْبُدُوا اللَّهَ رَبِّي وَرَبَّكُمْ وَكُنْتُ عَلَيْهِمْ
شَهِيدًا مَا دُمْتُ فِيهِمْ فَلَمَّا تَوَفَّيْتَنِي كُنْتَ أَنْتَ الرَّقِيبَ عَلَيْهِمْ وَأَنْتَ عَلَى كُلِّ شَيْءٍ شَهِيدٌ (117)

**“Ey Məryəm oğlu İsa! İnsanlara sən: “Məni və anamı Allahla aranızda iki vasitəçi tanrı bilin!” - demişdin? “İsa cavabında belə deyəcəkdir: "Sənin belə bir şeylə nə əlaqən olar? Mənim doğru olmayanı deməyim mümkün deyil. Əgər bunu mən demiş olsaydım, Sən onu mütləq bilərdin. Sən mənim ürəyimdə olan hər şeyi bilirsən, amma mən isə Səndə olanı bilmərəm. Bütün bilinməyənləri bilən ancaq Sənsən!**

**Mən onlara yalnız Sənin mənə etdiyin əmri çatdırmışam. Mənim də, sizin də Rəbbiniz olan Allaha qul olun dedim! Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim. Sən məni vəfat etdirəndən sonra onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahidsən!”** (“Maidə” surəsi, 5/116-117).

---

[58] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 467.
[59] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», paraqraf 969.

**5 - Həvarilər**

Həvarilər[60] İsa əleyhissəlama dəstək verən 12 nəfərə deyilir. İsa İsrail oğullarının[61] onu qəbul etməmədiklərini başa düşdükdə:

قَالَ مَنْ اَنْصَارِى اِلَى اللّٰهِ قَالَ الْحَوَارِيُّونَ نَحْنُ اَنْصَارُ اللّٰهِ اٰمَنَّا بِاللّٰهِ وَاشْهَدْ بِاَنَّا مُسْلِمُونَ

**“Allah yolunda mənə kim kömək edər?” - deyə soruşdu. Həvarilər dedilər: “Allah üçün Biz kömək edərik! Çünki Biz Allaha inandıq. Sən də ona təslim olduğumuza şahid ol!”** (“Ali-İmran” surəsi, 3/52).

Əlimizdəki İncilə əsasən İsa çarmıxa çəkilib dəfn edildikdən üç gün sonra qəbrindən çıxmış, Calilədə 11 həvarisinə görünmüş və belə demişdir: «Göydə və yer üzündə bütün ixtiyar mənə verildi. Bu səbəbdən gedib bütün millətləri tələbələrim kimi yetişdirin. Onları Ata, Oğul və Müqəddəs Ruhun adıyla vəftiz edin. Sizə buyurduğum hər şeyə tabe olmalarını onlara öyrədin. Belə ki, mən dünyanın sonuna qədər hər an sizinlə birlikdəyəm» (“Matta” 28/16-20).

Bu sözlər İncilə aid ola bilməz. Həqiqi İncil yalnız Allahın sözlərini ehtiva etməlidir. İsanın ölümündən sonra həvarilərinə görünməsi iddiası da qəbul edilə bilməz. Uca Allah belə buyurur: وَقَفَّيْنَا عَلٰى اٰثَارِهِمْ بِعِيسَى ابْنِ مَرْيَمَ مُصَدِّقًا لِمَا بَيْنَ يَدَيْهِ مِنَ التَّوْرٰيةِ وَاٰتَيْنَاهُ الْاِنْجِيلَ فِيهِ هُدًى وَنُورٌ وَمُصَدِّقًا لِمَا بَيْنَ يَدَيْهِ مِنَ التَّوْرٰيةِ وَهُدًى وَمَوْعِظَةً لِلْمُتَّقِينَ

---

[60] İsa dağa çıxaraq Özü istədiyi adamları yanına çağırdı və onlar yanına gəldilər. İsa on iki nəfəri həvari adlandıraraq təyin etdi ki, bu adamlar Onun yanında olsun, həm də onları vəz etməyə göndərsin, həmçinin cinləri qovmaq səlahiyyətinə malik olsunlar. Beləliklə, İsa bu on iki nəfəri təyin etdi: Peter adlandırdığı Şimon, Bene-Rageş, yəni «İldırım oğulları» adlandırdığı Zavday oğlu Yaqub və Yaqubun qardaşı Yəhya, Andrey, Filip, Bartalmay, Matta, Tomas, Halfay oğlu Yaqub, Tadday, Kənançı Şimon və İsaya xəyanət edən Yəhuda İskaryot. (“Markus” 3/14-19).

[61] Bxn. “Saff” surəsi, 61/14.

**“İsrail Peyğəmbərlərinin ardınca Məryəm oğlu İsanı özündən qabaqkı Tövratı təsdiq edən bir elçi kimi göndərdik. Ona da doğru yolu göstərən və aydınladan olan İncili verdik. O qarşısındakı Tövratı təsdiq edən, yol göstərən və çəkinənlərə nəsihət verən bir kitabdır”** (“Maidə” surəsi, 5/46).

مَاالْمَسِيحُ ابْنُ مَرْيَمَ اِلَّا رَسُولٌ قَدْ خَلَتْ مِنْ قَبْلِهِ الرُّسُلُ وَاُمُّهُ صِدِّيقَةٌ كَانَا يَاْكُلَانِ الطَّعَامَ اُنْظُرْ كَيْفَ نُبَيِّنُ لَهُمُ الْاٰيَاتِ ثُمَّ انْظُرْ اَنّٰى يُؤْفَكُونَ

**“Məryəm oğlu Məsih ancaq bir elçidir. Ondan əvvəl də elçilərlər gəlib getmişdir. Onun anası isə çox pak bir qadındır. Onlardan hər ikisi də yemək yeyərdilər.İndi sən onlara bu sənədləri necə başa saldığımıza, bir də onların yalana necə üz çevirildiklərinə bax!”** (“Maidə” surəsi, 5/75).

İsa əleyhissəlam vəfat etdikdə dünya ilə əlaqəsi kəsildi. O, axirətdə Allaha belə deyəcəkdir:

مَا قُلْتُ لَهُمْ اِلَّا مَا اَمَرْتَنِي بِهِ اَنِ اعْبُدُوا اللّٰهَ رَبِّي وَرَبَّكُمْ وَكُنْتُ عَلَيْهِمْ شَهِيدًا مَا دُمْتُ فِيهِمْ فَلَمَّا تَوَفَّيْتَنِي كُنْتَ اَنْتَ الرَّقِيبَ عَلَيْهِمْ وَاَنْتَ عَلٰى كُلِّ شَيْءٍ شَهِيدٌ

**"Onların arasında olduğum ərəfədə mən onlara şahid idim. Sən məni vəfat etdirəndən sonra onlara nəzarətçi ancaq Özün oldun. Yalnız Sən hər şeyi görürsən, şahidsən!”** (“Maidə” surəsi, 5/117).

Dolayısı ilə, İsanın vəfatından sonra dediyi iddia edilən yuxarıdakı sözlər, nə İncilin bir hissəsi, nə də İsa əleyhissəlamın sözləri ola bilər.

İncilə edilən bu kimi əlavələrə əsaslanaraq həvarilərə bir sıra ruhani səlahiyyətlər verilmişdir. Bu əlavələrdən birinə əsasən, İsa 12 həvarisindən bir heyət təşkil etmiş, Pyotru rəhbər təyin etmiş və ona belə demişdir: “Göylərin hakimliyinin açarını sənə verəcəyəm. Yer üzündə bağlayacağın hər şey göylərdə də

bağlanacaq. Yer üzündə açacağın hər şey, göylərdə açılacaq" ("Matta", 16/19).

Bağlama və açma ixtiyarı belə şərh edilir: Həvarilərin topluma (kilsəyə) qəbul edəcəkləri və ya oradan uzaqlaşdıracaqları insanlar Allah tərəfindən də qəbul edilir, yaxud uzaqlaşdırılır. Kilsə ilə barışmaq Allahla barışmaqdır.[62]

### 6 - Kilsə

Katoliklərin fikrincə, kilsə iyerarxiya orqanlarından və Məsihin mistik bədənindən ibarət bir cəmiyyət olub səmavi hədiyyələrlə təchiz edilmişdir. Kilsə bəşəri və ilahi olan iki fərqli quruluşa malikdir.[63] Kilsə insanların Allahla birləşməsinin işarəsi və vasitəçisidir.[64]

### 7 - Rahiblər

Katoliklərin fikrincə, rahiblər insanların Allahla olan əlaqələrində onların günahlarının qarşılığında nəzir və qurbanlar təqdim etmək məqsədilə təyin olunan insanlardır.[65] Bu tərif İbranilərə məktubların 5-ci fəslinin 1-ci cümləsinə istinadən deyilmişdir. Bu məktublar əlimizdəki İncilin bir hissəsidir. Onların giriş cümləsinə əsasən məktubları kimin yazdığı bilinmir.

Katolik rahiblər - yepiskoplar, Papa və keşişlər olmaqla üç bölümdə tədqiq ediləcəkdir.

### a - Yepiskoplar

Yepiskop nəzarətçi və ya rəhbər mənasına gəlir. Katoliklərin fikrincə, onlar kilsənin ən səlahiyyətli nümayəndələridirlər.

---

[62] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1445.
[63] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 771.
[64] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 775.
[65] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1539.

Kilsə Məsihin yenidən gəlişinə qədər həvarilərin davamçıları olan yepiskoplar vasitəsi ilə həvarilər tərəfindən öyrədilməyə, müqəddəsləşməyə və idarə olunmağa davam edir.[66]

Yepiskoplara qulaq asan Məsihə qulaq asmış, onları rədd edən isə Məsihi və Məsihin göndərdiyi insanı rədd etmiş hesab edilir.[67]

**b - Papa**

Papa həvari Pyotrun xələfi və yepiskoplar şurasının rəhbəridir. Bu şura bütün kilsə üzərində tam və yüksək səlahiyyət sahibidir. Bu səlahiyyət, yalnız Papanın razılığı ilə həyata keçirilə bilər.[68] Hər yepiskop Pyotrun xələfi və yepiskoplar şurasının rəhbəri olan Roma yepiskopu, yəni Papa ilə birgə fəaliyyət göstərir. Papa və yepiskoplar şurası səhv etməzlər.[69]

Katoliklərin fikrincə, Rəbb İsa həvari Pyotru kilsənin gözlə görünən əsası təyin etmişdi. Ona cənnətin açarlarını vermişdir. Həvari Pyotrun davamçısı Roma kilsəsinin yepiskopu olan Papa İsa Məsihin vəkili və yer üzündə olan bütün kilsələrin çobanıdır.[70] Papa "Tanrının verdiyi səlahiyyət sayəsində canlar üzərində uca, tam, birbaşa və ümumbəşəri ixtiyar sahibidir."[71]

**c - Keşişlər**

Rahib və ya kahin adlandırılan keşişlər katoliklərin fikrincə, "Allahla bağlı mövzularda insanları təmsil etmək üçün təyin olunurlar[72] və yepiskopların rəhbərliyi altında olan Yepiskopluq

---

[66] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 857.
[67] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 862.
[68] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 877, 880, 883.
[69] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 891.
[70] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 936.
[71] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 937.
[72] İbranilərə məktub, 5/1.

bölgəsində vəzifələrini yerinə yetirirlər.[73] Keşişliyin mənbəyi şəxsən Məsihin özüdür. Keşişliyi o qurdu, ona səlahiyyət, missiya, istiqamət və güc verdi.[74] Keşiş şəxsi səlahiyyəti ilə insanlara: "Səni Atanın adından vəftiz edirəm, səni bağışlayıram", - deyə bilər.[75]

Qriqoriy gənc bir keşiş olarkən belə yazmışdı: "....Keşiş həqiqətin müdafiəçisidir. Mələklərlə birlikdə ayaq üstdə dayanır, baş mələklərlə birlikdə şükür edir, mehrab üzərində qurbanlar təqdim edir. Həmçinin Məsihin rahibliyinə qoşulur, yaradılanı yenidən formalaşdırır, yaradılanı Tanrı surətinə yenidən qovuşdurur, o biri dünya üçün yaradılanı yenidən yaradır, ən əsası isə özü tanrılaşdığı kimi tanrılaşdırır da."[76]

**8 - Vəftiz**

Vəftiz "suya salmaq" deməkdir. Katoliklərin fikrincə, vəftiz xristian olmağın ilk şərtidir.[77] Rəbb İsa günahların bağışlanmasını inanca və vəftizə bağlamışdır.[78] Vəftiz əsnasında alınan bəxşiş o qədər tam və qüsursuzdur ki, nə ilk günahda, nə də azad iradə ilə işlədilən günahlarda silinəcək bir şey və ya cəzası ödəniləcək günah qalır.[79] "Vəftiz ata Tanrıda oğlu vasitəsiylə müqəddəs ruhda yenidən doğuluşu təmin edən lütfdür. Çünki Tanrının ruhunu daşıyanlar Oğula yönəlirlər, Oğul onları Ataya təqdim edir, Ata isə onlara uzunömürlülük verir."[80]

---

[73] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 877
[74] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 874
[75] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 878.
[76] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1589.
[77] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1213 vd; Abdurrahman Küçük, "Dinler tarihi", Ocak nəşriyyatı, Ankara, 1997, s. 268.
[78] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 977.
[79] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 978.
[80] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 683.

**9 - Günahlardan təmizləmək**

Katoliklərin fikrincə, “yalnız Allah günahları bağışlayır”. Kilsədəki hər hansı din adamı “günahların bağışlandı” dedikdə, Allaha aid səlahiyyətdən istifadə edir.[81] Bu səbəbdən nə qədər böyük olmasından asılı olmayaraq, kilsənin bağışlaya bilməyəcəyi günah yoxdur.[82] Günahları bağışlama səlahiyyəti yalnız Papaya və onun tərəfindən səlahiyyət verilən yerli yepiskopa və ya keşişə aiddir.[83] Uca Allah belə buyurur:

وَمَنْ يَغْفِرُ الذُّنُوبَ اِلَّا اللّٰهُ

**“...Günahları Allahdan başqa kim bağışlaya bilər?...”** (“Ali-İmran” surəsi, 3/135).

Allah tərəfindən verilmiş hər hansı səlahiyyətə əsaslanmadan Allaha məxsus günahları bağışlamaq səlahiyyətinin katolik rahibləri tərəfindən icra olunması Allahın buyuruqlarının kobud şəkildə pozulması demək olur.

**10 - Tanrılar piramidası**

Katoliklərə aid məlumatları qiymətləndirdiyimiz zaman tanrılar piramidası ilə qarşılaşırıq. Ən üstdə Allah dayanır. Ondan sonra sıra ilə İsa, Müqəddəs Ruh, Məryəm ana, həvarilər, papa, yepiskoplar və keşişlər gəlir. Bunların hər birinə Allaha aid səlahiyyətlər verilmiş, Müqəddəs Ruh xaricindəkilər yarıtanrı, yarıinsan hesab edilmişlər. Bu, həmin varlıqları Allaha şərik qoşmaqdır. Uca Allah belə buyurur:

اِتَّخَذُوا اَحْبَارَهُمْ وَرُهْبَانَهُمْ اَرْبَابًا مِنْ دُونِ اللّٰهِ وَالْمَسِيحَ ابْنَ مَرْيَمَ وَمَا اُمِرُوا اِلَّا لِيَعْبُدُوا اِلٰهًا وَاحِدًا
لَا اِلٰهَ اِلَّا هُوَ سُبْحَانَهُ عَمَّا يُشْرِكُونَ

---

[81] Bxn. «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1441 vb.
[82] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 982.
[83] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1463.

**“Onlar ravvinlərini və rahiblərini Allah ilə öz aralarında vasitəçi rəbblər etdilər. Məryəm oğlu Məsihi də həmçinin. Halbuki onlara ancaq bir olan Allaha qul olmaq əmr olunmuşdu. Ondan başqa tanrı yoxdur. Allah onların şirkindən uzaqdır”** (“Tövbə” surəsi, 9/31).

لَقَدْ كَفَرَ الَّذِينَ قَالُوا اِنَّ اللَّهَ ثَالِثُ ثَلَثَةٍ وَمَا مِنْ اِلَهٍ اِلَّا اِلَهٌ وَاحِدٌ وَاِنْ لَمْ يَنْتَهُوا عَمَّا يَقُولُونَ
لَيَمَسَّنَّ الَّذِينَ كَفَرُوا مِنْهُمْ عَذَابٌ اَلِيمٌ

**“Allah üçün üçüncüsüdür!” - deyənlər, əlbəttə, kafir oldular. Halbuki tək olan Tanrıdan başqa tanrı yoxdur. Əgər onlar dediklərinə son qoymasalar, onlardan kafir olanlara, şübhəsiz ki, şiddətli bir əzab üz verəcəkdir.”** (“Maidə” surəsi, 5/73)

Katoliklərin fikrincə, İsa, Müqəddəs Ruh, Məryəm ana və həvariləri kilsə təmsil edir. Bu səbəbdən əsas tanrı Kilsədir.

“Kilsə iyerarxiya orqanlarından və Məsihin mistik bədənindən ibarət cəmiyyətdir, səmavi bəxşişlərlə təchiz edilmişdir. Biri insani, digəri isə ilahi olan iki fərqli quruluşa malikdir.[84] Kilsə insanların Allahla birləşməsinin işarəsi və vasitəçisidir.[85] Məsihə bənzəyən kilsənin işçiləri Məsihin qullarıdır. Çünki dedikləri sözlər və yaxşılıqlar özlərinin deyil, başqalarına təbliğ etmək üçün onlara əmanət edilən Məsihin sözü və yaxşılıqlarıdır.[86]

Bir protestant keşişi ilə etdiyim söhbət kilsənin özünü necə Allahın yerinə qoyduğunu göstərir:

Dedim: Xristian olmağın ən mühüm şərti nədir?

---

[84] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 771.
[85] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 775.
[86] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 876.

Dedi: Vəftiz olunmaqdır.[87]

Dedim: Kilsənin bütün inanc və ibadətlərini səmimi qəlbdən qəbul edən, ayinlərində iştirak edən, kilsəyə daima köməklik göstərən, lakin vəftiz olunmayan birisi xristian sayılır?

Dedi: Xeyr. Çünki hər insan kimi o da Adəmin etdiyi əsas günahla dünyaya gəlmişdir. Onun həmin günahdan və bütün günahlardan təmizlənməsi yalnız vəftizlə mümkündür. Vəftiz insanı Tanrının xalqı arasına daxil edir.[88]

Dedim: Bir insan vəftiz olunmaq üçün müraciət etsə, lakin qəbul edilməsə, başqa bir kilsəyə gedərkən yolda ölsə, cənnətə düşər, yoxsa cəhənnəmə?

Dedi: Cəhənnəmə. Çünki vəftiz edilməmişdir.

Dedim: Körpə ikən vəftiz olunan, sonra kilsəyə heç getməyən, günahlarla dolu həyat yaşayan bir insan öldükdə hara gedir?

Dedi: Cənnətə. Çünki vəftizlə Tanrının xalqından olmuşdur.

Dedim: Bu gün bir çox yerlərdə müsəlman olan xristianlar var. Bunlar sizə görə də müsəlmandırlar?

Dedi: Xeyr, onlar xristiandırlar. Çünki biz onları kilsədən çıxartmadıq.

Dedim: Yəni xristianlıqdan çıxmaq üçün də sizin təsdiqiniz lazımdır? Hətta körpə ikən vəftiz olunsa da?

---

[87] Vəftiz "suya salmaq" və ya "suya batırmaq" deməkdir. Bu, Məsihin öldükdən sonra dəfn edilməsini və onunla birlikdə diriləərək yeni varlıq kimi ortaya çıxmasının rəmzi mənasıdır. («Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1214.)

[88] Katoliklərin fikrincə, vəftizlə bütün günahlar, əsas günah və bütün şəxsi günahlar cəzaları ilə birlikdə bağışlanır. Artıq vəftizlə günahı təmizlənən insanlar üçün Tanrının hakimiyyətinə daxil olmalarına nə Adəmin günahı, nə şəxsi günahlar, nə də ən pisi Tanrıdan ayrılma günahının gətirdiyi maneələr qalır. Bxn. «Katolik kilsə Din və Əxlaq Prinsipləri», par. 1263.

Dedi: Bəli, elədir.

Dedim: Bu dinə girmək də sizin qərarınızla olur, çıxmaq da? O zaman bu Allahın deyil, kilsənin dini olur.

Cavab yoxdur...

## *B - TAOİZMDƏ VASİTƏÇİLİK*

Taoizm Çinin əsas inanclarındandır. Qurucusu hesab edilən Lao Tzunun, Konfutsidən 53 yaş böyük olduğuna inanılır. Lao Tzu həyatının sonuna yaxın Çindən çıxıb qərbə getmiş və orada Buddaya çevrilmişdir. Bu səbəbdən Tao Konfutsilik, Buddizm və Hind dinlərinin ortaq dəyərinə çevrilmişdir.

Allah hər cəmiyyətə peyğəmbər göndərmışdır. O belə buyurur:

اِنَّا اَرْسَلْنَاكَ بِالْحَقِّ بَشِيرًا وَنَذِيرًا وَاِنْ مِنْ اُمَّةٍ اِلَّا خَلَا فِيهَا نَذِيرٌ

**“Ey Muhəmməd, o həqiqəti (Quranla) səninlə müjdə verən və xəbərdar edən olaraq göndərdik. Hər bir ümmətin keçmişində mütləq xəbərdar edən bir vardırgəlib-getməsin!”** (“Fatir” surəsi, 35/24)

Quranda adı qeyd edilən peyğəmbərlər Məkkənin yaxın ətrafına, yəni Yaxın Şərqə göndərilənlərdir.

Allahın kitabları da Tövrat, Zəbur, İncil və Qurandan ibarət deyildir. Uca Allah belə buyurur:

لَقَدْ اَرْسَلْنَا رُسُلَنَا بِالْبَيِّنَاتِ وَاَنْزَلْنَا مَعَهُمُ الْكِتَابَ وَالْمِيزَانَ لِيَقُومَ النَّاسُ بِالْقِسْطِ

**“And olsun ki, Biz elçilərimizi açıq-aşkar sənədlərlə göndərdik. Biz onlara birlikdə kitab və ölçü nazil etdik ki, insanlar ədalətli system qursunlar...”** (“Hədid” surəsi, 57/25)

Taoistlərin keçmişində də mütləq bir peyğəmbər və onun təbliğ etdiyi kitab var. İbrahim və İsmail peyğəmbərlərinin gəli-

şindən sonra keçmiş məkkəlilər Allaha şərik qoşurdular. Xristianların əksəriyyəti isə ömrünü şirklə mübarizəyə həsr edən İsa əleyhissəlamı və Müqəddəs Ruhu, yəni Cəbraili sonradan Allaha şərik qoşmuşlar. Hər cəmiyyətdə buna bənzər hallar mövcud olmalıdır. Çünki müxtəlif cəmiyyətlərin etiqad etdikləri inanclar sisteminə nəzər saldıqda, əvvəlcə orada Allaha güclü inamın olduğunu, Onunla əlaqə yaratdığına inanılan vasitəçi tanrıların və tanrılaşdırılan insanların olduğunu görürük. Bu, İslamdan əvvəl Məkkə cəmiyyəti ilə əksər xristian cəmiyyətlərində müşahidə edilən hallara çox bənzəyir. Aşağıdakı tablo bu oxşarlığı əks etdirir.




TAOİSTLƏRDƏ VASİTƏÇİ TANRILAR

**1 - Tao**

Tao təbiətdəki nizamı idarə edən və hər şeyin üstündəki yaradan qüdrətdir. Hörmət və ibadət edilməsi zəruri olan uca

hökmdardır. Kainatın nizamını o qurmuşdur. Səhər Taonu zikr edən axşam rahat ölür.[89]

O, uludur, ucadır. Yerdəki insanlara hökm edir, pislər çoxaldıqda hökmü amansız olur. Ölmək və dirilmək, şərəf və zənginlik onun təqdirilədir.[90] O, əzəlidir, əbədidir, hər yerdə vardır, necə olduğu bilinmir.[91] Onu düşüncəsində canlandırmağa çalışan insan məyus olur.[92] O yaradılmamışdır, hər şeyi yaradan odur.[93] Dəyişmir,[94] hər zaman vardır və hər zaman hazırdır.[95] Hər şeyi açıq şəkildə görür və bütün işlərdə insanlarla birlikdədir.[96]

Tao dedikdə, Allahı nəzərdə tuturlar.

### 2 - Te

Taonun həqiqi varlığının ortaya çıxması,[97] insanda və digər varlıqlarda görünən halıdır. Bütün varlıqları Tao yaradır, Te bəsləyir, böyüdür, forma verir və qüvvəsini tamamlayır. Hər varlıq Taonu yüksəldir və Teyə dəyər verir.[98]

**Yin Yanq:** Bunlar kainat nizamının istiqamətləndiricisi və idarə edən iki böyük gücünün universal rəmzləridir. Bu iki güc bir-birindən ayrı halda mövcud ola bilməzlər.[99] Hər şey Yin və

---

[89] Tümer, Küçük, a.ç.ə, s. 62.
[90] Tümer, Küçük, a.ç.ə. s. 63.
[91] Yener, Osman, a.ç.ə, s.16,26,46.
[92] Lao Tzu, "Bilinmeyen öğretiler" (Hua Hu Kinq), tərc. İsmail Taşpınar, Aminə Gülşah Coşkun, Kaknüs Nəşrləri, İstanbul, 1999. s. 20.
[93] Lao Tzu, a.ç.ə, s.92
[94] Lao Tzu, a.ç.ə, s.88.
[95] Lao Tzu, a.ç.ə, s. 36.
[96] Tümer, Küçük, a.ç.ə. s. 63.
[97] Tümer, Küçük, a.ç.ə, s. 69-70.
[98] J.C Kuper, Erdemin ışığı (Taoçuluq), tərc. İsmət Zəki Əyyuboğlu, Say Nəşriyyatı, İstanbul, 1994, s.39.
[99] İzutsu Toşihiko, Taoçuluqda açar məfhumlar, tərc. Əhməd Yüksəl Özəmrə, Kaknus Nəşrləri, İstanbul, 2001, s.164.

Yanqın sirli əlaqəsi nəticəsində incə aləmdən dünyaya gətirilirlər. Bu prinsipi Tao yaratmış, sonra Taonun yaratma gücü Yin-Yanq ikiliyinə keçmişdir. Bu məqamda Te bu iki gücü birlikdə uyğun tərzdə saxlayır.[100]

"Taodan bir yaranır, birdən iki (Yin və Yanq),[101] ikidən üç, üçdən on min şey yaranır, bütün varlıqlar da uyğun şəkildə Yinə sığınacaq verir, Yanqa qucaq açır."[102]

Taonun yaratma xüsusiyyəti Teyə verilmişdir. O bunu Yin və Yanq ikilisi ilə həyata keçirir. Yaradılan hər şeyə Te nəzarət edir.

**3 - Əbədi ruhlar və incə güclər**

"Tao ilə həyatına nizam verən insan üçün qaranlıqla işıq, həyatla ölüm arasındakı aldadıcı sərhədlər aradan qalxır, bir çox ali ruha malik varlığın dostluğunu qazanır. Onlar arasında mənfi təsirlərdən qorunur, əbədi həyat gücünə malik olur. Bu şəkildə ölümsüzlük əldə edir."[103] "Ağaclar və heyvanlar, insanlar və həşəratlar, güllər və quşlar... Bunlar ulduzlardan kainata axan incə güclərin canlı xəyallarıdır. Onlar bir-birləri ilə və yer üzündəki varlıqlarla qarşılaşıb onlarla birləşərək bütün canlılara həyat verirlər."[104]

**4 - Ataların (əcdadların) ruhları**

Hər ailə əcdadlarının ruhlarını xüsusi qoruyucu hesab edir, evində onlar üçün yer ayırır.[105] Bəzən atalarını çağırır və mü-

---

[100] Lao Tzu, a.ç.ə, s. 65.
[101] Yener Osman, a.ç.ə, s. 60.
[102] Lao Tzu, a.ç.ə, s. 51.
[103] Lao Tzu, a.ç.ə, s. 52. Deməli, atalara aid xüsusi ibadətgahlar vardır.
[104] Tümer, Küçük, a.ç.ə, s. 58.
[105] Tümer, Küçük, a.ç.ə. s. 58.

hüm məsələlərini onlara bildirib, onlardan kömək istəyirlər. Bərəkət verməsi üçün məzarlar tarlalarda salınır, yazda süpürülür və qurbanlar verilir.[106]

**5 - Müdriklər, mələkvari ustadlar**

Qeyb aləmini bildiyinə inanılan müdriklər, ölümsüzlər və mələkvari ustadlar da ilahi gücə çatmağın yollarıdır. Onların vasitəsi ilə ölümsüzlük əldə edilir, tam "fəna"ya çaytılır. Bunlar ilahi varlıqla insan arasında olan vasitəçilərdir.

Onlar: "Qapılarının kandarına çıxmadan kainatı bilir, pəncərədən baxmadan göy üzünü görürlər. Getmədən bilir, baxmadan görür, etmədən bacarırlar." [107] "Bu mələkvari ustadlar tapılmazlar, ehtiyacı olanları özləri tapırlar. Bundan sonra yüksək bacarıq və üstün qbiliyyətlərinin köməyi ilə ilahi mülk ilə əlaqə yaradılanda bu zaman sonsuz mənəvi həqiqətlərin nəqli də ardınca gəlir. Bu, bütün mələklərin ilahi mülkə gedərkən təqib etdikləri yoldur."[108]

"...Gedilən mükəmməl yolun hər mərhələsində sabah dünya mülkündə cəlbedici olana deyil, bu gün mənəvi mülkdə mühüm olana dəyər verməyi öyrənəcəksən. O zaman mistik qapı açılacaq, sən nəhəng kainatı idarə etməyən rəhbərlərinə, yaratmayan yaradanlarına qoşulacaqsan."[109]

"...Bütün mürşidlər və texnikalar müvəqqətidir. Əsas reallıq insanın varlığının Taonun ilahi enerjisi ilə birləşməsindən yaranır."[110]

---

[106] Yener, Osman, a.ç.ə, s. 65. Lao Tzu, a.ç.ə, s. 82.
[107] Yener, Osman, a.ç.ə, s. 65.
[108] Lao Tzu, a.ç.ə, s. 82.
[109] Lao Tzu, a.ç.ə, s. 83.
[110] Lao Tzu, a.ç.ə s. 96.

**6 - Rabitə (Əlaqə)**

Kim Taoya çatmaq istəsə, mələkvari ustadlardan biri ilə əlaqə saxlamaq məcburiyyətindədir. Bu şəxs ustadlarının təlimləri üzərində çalışmalı, ikili inancla bağlı bütün məfhumları aydınlaşdırmalı, başqalarına xidmət etmək üçün əlindən gələni etməlidir. Daxili təmizliyinə diqqət yetirməli, müəllimini lazımsız maneələrlə narahat etməməli, müəlliminin ilahi gücü ilə mənəvi əlaqəni qorumalıdır. Bu şəkildə o, qarşısındakı bütün maneələri keçir, mütləq səmimiyyətini daima qoruyur. Kainatın həssaslığını xatırladan sadəliyi, əzmkarlığı və uyğunlaşma qabiliyyəti onu ilahi nurla doldurur”.[111]

[111] Lao Tzu, a.ç.ə, s. 32.

# ÜÇÜNCÜ FƏSİL

## ƏHLİ-KİTABIN ARDINCA GEDƏN MÜSƏLMANLAR

Əbu Said əl-Xudrinin bildirdiyinə görə Allahın Elçisi sallallahu aləyhi və səlləm belə demişdir:

“Sizdən əvvəlkilərin izlərini qarış-qarış, arşın-arşın təqib edəcəksiniz. Onlar kərtənkələ yuvasına girsələr, siz də arxalarınca girəcəksiniz. Soruşduq ki: “Yəhudilərin və xristianların?”

“Bəs kim olacaq?” dedi.”[112]

Bu gün xristianlar daha fəal olduqlarına görə müqayisə bəzi camaat və təriqətlər ilə katoliklər arasında aparılacaqdır.

### A - ŞİRKİ RƏDD ETMƏ TƏƏSSÜRATI

Katoliklərin fikrincə, Allaha şərik qoşmaq ən böyük günahdır. “Birinci buyuruq şirki qadağan edir. Allahdan başqa tanrılara inanmaq və Tək olandan başqa tanrılara hörmət etmək qadağandır. Bütləri rədd etmək lazımdır.”[113] Müqəddəs Kitabda belə qeyd edilir: “Qulaq as, ey İsrail, Allahımız Rəbb, bir olan Rəbbdir”. (İncil, Mark, 12/29).

İsa belə demişdir: “Tanrın olan Rəbbə ibadət et, yalnız ona qulluq et.” (İncil, Luka 4/5-8).

İncildə belə qeyd edilməsinə baxmayaraq, xristianlar 4-cü əsrdən sonra Allahla aralarına vasitəçilər daxil etmişlər. 325-ci ildə təşkil edilən İznik Şurası inanc prinsiplərini belə izah etmişdir: “Tanrının yeganə oğlu əzəldən atadan doğulmuş, nurdan gə-

---

112 Buxari, “İtisam bis-Sunnə”, 14.
113 «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 2112.

lən nur, həqiqi Tanrıdan gələn həqiqi Tanrı, yaradılmayıb, Ata ilə eyni cövhərdəndir.”[114]

Katoliklər Ata, Oğul və Müqəddəs Ruh üçlüyünü tək Tanrı kimi göstərməyə çalışırlar. Belə deyirlər: “Qadir Ata və Onun tək Oğlu və Müqəddəs Ruh bir Tanrıdır: Çox Müqəddəs üçlü Birlik.”[115]

Onlar belə deyirlər: “Tanrıdakı insanlar bir-birindən fərqlidir. Oğul olan insan Ata deyil, Ata olan insan da Oğul deyildir. Müqəddəs Ruh olan da nə Atadır, nə də Oğuldur. Əsasdan gələn əlaqələr səbəbi ilə bir-birindən fərqlənirlər.”[116]

Uca Allah belə buyurur:

لَقَدْ كَفَرَ الَّذِينَ قَالُوا اِنَّ اللَّهَ هُوَ الْمَسِيحُ ابْنُ مَرْيَمَ وَقَالَ الْمَسِيحُ يَا بَنِى اِسْرَائِلَ اعْبُدُوا اللَّهَ رَبِّى وَرَبَّكُمْ اِنَّهُ مَنْ يُشْرِكْ بِاللَّهِ فَقَدْ حَرَّمَ اللَّهُ عَلَيْهِ الْجَنَّةَ وَمَاْوَيهُ النَّارُ وَمَا لِلظَّالِمِينَ مِنْ اَنْصَارٍ (72) لَقَدْ كَفَرَ الَّذِينَ قَالُوا اِنَّ اللَّهَ ثَالِثُ ثَلَثَةٍ وَمَا مِنْ اِلَهٍ اِلَّا اِلَهٌ وَاحِدٌ وَاِنْ لَمْ يَنْتَهُوا عَمَّا يَقُولُونَ لَيَمَسَّنَّ الَّذِينَ كَفَرُوا مِنْهُمْ عَذَابٌ اَلِيمٌ

**“Allah üçün üçüncüsüdür!” - deyənlər, əlbəttə, kafir oldular. Halbuki bir olan Tanrıdan başqa heç bir tanrı yoxdur. Əgər onlar dediklərinə son qoymasalar, onlardan kafir olanlara, şübhəsiz ki, şiddətli bir əzab üz verəcəkdir.”** (“Maidə” surəsi, 5/72-73)

Müsəlmanların təriqət və camaatlarına görə də Allaha şərik qoşma ən böyük günahdır. Çünki Allah Təala belə buyurur:

اِنَّ اللَّهَ لَا يَغْفِرُ اَنْ يُشْرَكَ بِهِ وَيَغْفِرُ مَا دُونَ ذَلِكَ لِمَنْ يَشَاءُ

**“Allah şirki bağışlamaz, amma ondan başqa olanı istədiyi şəxs üçün bağışlar…”** (“Nisa” surəsi, 4/48).

---

[114] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 242.
[115] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri» par. 233.
[116] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 254.

Quranın demək olar ki, hər səhifəsində Allaha şərik qoşmaqla bağlı ayələr var. Lakin müsəlmanların inanclarını əks etdirən kitablarda bu ayələrə kifayət qədər diqqət yetirilməmiş, hətta bir çox ayənin üstü sanki örtülmüşdür. Bunun nəticəsi kimi bəzi təriqət və camaatlar Allaha şərik qoşmaqla bağlı öz yollarından uzaqlaşmış, xristianların yolu ilə getmişlər.

## B - PEYĞƏMBƏRİ TANRILAŞDIRMAQ

Şeytan Allaha belə demişdi:

فَبِمَا اَغْوَيْتَنِى لَاَقْعُدَنَّ لَهُمْ صِرَاطَكَ الْمُسْتَقِيمَ (16) ثُمَّ لَاٰتِيَنَّهُمْ مِنْ بَيْنِ اَيْدِيهِمْ وَمِنْ خَلْفِهِمْ
وَعَنْ اَيْمَانِهِمْ وَعَنْ شَمَائِلِهِمْ وَلَا تَجِدُ اَكْثَرَهُمْ شَاكِرِينَ (17)

**“...Nə olursa-olsun, onlara görə sənin düz yolunun üstündə oturacağam. Sonra onların qarşılarından, arxalarından, sağlarından və sollarından gələcəyəm. Sən onların əksəriyyətinin təşəkkür etmədiklərini görəcəksən!”** («Əraf» surəsi, 7/16-17).

Şeytan doğru yola gələnlərə mane olmağa çalışır. Peyğəmbəri fövqəlbəşər varlıq kimi göstərmək onun ən mühüm hiylələrindəndir. Bu işdə ona dəstək verən insan şeytanları da vardır. Peyğəmbəri fövqəlbəşər varlıq olaraq göstərmək asandır. Çünki insanlar onlardan olanı bir peyğəmbər kimi qəbul etməkdə çətinlik çəkmişlər. Allah Təala belə buyurur:

وَمَا مَنَعَ النَّاسَ اَنْ يُؤْمِنُوا اِذْ جَاءَهُمُ الْهُدَى اِلَّا اَنْ قَالُوا اَبَعَثَ اللّٰهُ بَشَرًا رَسُولًا (94) قُلْ لَوْ كَانَ
فِى الْاَرْضِ مَلٰئِكَةٌ يَمْشُونَ مُطْمَئِنِّينَ لَنَزَّلْنَا عَلَيْهِمْ مِنَ السَّمَاءِ مَلَكًا رَسُولًا (95)

**“İnsanlara doğru yolu göstərən bir elçi gəldiyi zaman ona inanmalarına yeganə mane onların bu sözü olmuşdur: “Allah bir insanımı elçi göndərdi?” De: “Əgər yer üzündə dolaşanlar mələklər olsaydı və ora yerləşsəydilər, biz də on-**

**lara elçi olaraq göydən bir mələk göndərərdik!"** ("İsra" surəsi, 17/94-95).

Məkkəlilər Peyğəmbərimizlə bağlı təəccüblərini belə ifadə etmişdilər:

مَالِ هَذَا الرَّسُولِ يَأْكُلُ الطَّعَامَ وَيَمْشِى فِى الْاَسْوَاقِ لَوْلَا اُنْزِلَ اِلَيْهِ مَلَكٌ فَيَكُونَ مَعَهُ نَذِيرًا (7)

**"Bu necə peyğəmbərdir ki, yemək yeyir, küçələrdə gəzib dolaşır? Məgər ona özü ilə birlikdə xəbərdarlıq edən bir mələk göndərilməli deyildimi?"** ("Furqan" surəsi, 25/7)

Bu gün bir çox insanlar bu ayəni təəccüblənirlər:

قُلْ اِنَّمَا اَنَا بَشَرٌ مِثْلُكُمْ يُوحَى اِلَيَّ اَنَّمَا اِلَهُكُمْ اِلَهٌ وَاحِدٌ

**"De: "Mən də sizin kimi ancaq bir insanam. Mənə tanrınızın yalnız bir Tanrı olduğu vəhy olunur"** ("Kəhf" surəsi, 18/110)

Çünki Peyğəmbərimizi fövqəlbəşər bir varlıq hesab edilir.

Xristianlar İsa əleyhissəlamı tanrı səviyyəsinə qaldırdılar. Bu mövzuya əvvəldə də toxunmuşduq. Məsələn, katoliklərin fikrincə, İsa olmasaydı, kainat yaradılmazdı. Göylərdə və yer üzündə görünən və görünməyən şeylər, taxtlar, hakimiyyətlər, rəhbərliklər və hökmranlıqlar, qısaca, hər şey onun vasitəsi ilə və onun üçün yaradılmışdır.[117]

Bu səhv inanc müsəlmanların inancına da qarışmışdır. Xalq tərəfindən qəbul edilən bir uydurma hədisdə Allah Təalanın Peyğəmbərimiz üçün belə dediyi iddia edilir: "Sən olmasaydın, kainatı yaratmazdım."[118] Bəzi təriqətlərə görə Muhəmməd əleyhissəlam mövcudiyyətin başlanğıcıdır. Allahdan başqa heç

---

[117] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 331.

[118] İsmail b. Muhəmməd əl-Acluni, «Kəşfu»l-Hafa», Beyrut 1988/1408, c. II s. 164 Acluni bu əsərini, xalq arasında hədis hesab edilən sözləri tam şəkildə üzə çıxarmaq üçün yazmışdır. Bu səbəbdən həmin kitabda çox sayda uydurma hədislər vardır. Bu hədis də uydurmadır.

nə olmadığı zaman ilk dəfə “Həqiqəti-Muhəmmədiyyə” adlandırılan Muhəmməd Həqiqəti mövcud olmuş, bütün varlıqlar ondan və onun üçün yaradılmışdır. Muhəmməd Həqiqəti nur olması baxımından kainatın yaradılma prinsipini və onun əsasını təşkil edir. Bu nur ölümsüz və əbədi olduğuna görə Peyğəmbər üçün “öldü” deyilməz. Allah var və ya yox, əzəli və hadis (sonradan olma) şəklində xarakterizə edilmədiyi halda, Muhəmməd Həqiqəti mövcud və əzəli deyə xarakterizə edilir. Muhəmməd Həqiqəti bütün peyğəmbərlərin və övliyaların ledunni və batini (xaricdən və daxildən) aldıqları biliklərin əsas mənbəyidir. Bu həqiqət haqdan gələn biliklərin xalqa çatdırlmasında bir vasitəçi olur.[119]

Katoliklərin fikrincə, “İsa Məsih həqiqi Allah və həqiqi insandır. Bu səbəbdən o, insanlarla Allah arasında tək vasitəçidir.[120] Bəzi təriqətçilərin fikrincə də, Allahla Muhəmməd Həqiqəti eyni həqiqətin ön və arxa üzləridir.[121] Bununla bağlı belə bir şeir var: “Əhad Əhməddir, kim mim edir fərq, bütün aləm o mim içrə olur qərq. Əhad Allahdır.”[122]

Əhməd Muhəmməd əleyhissəlamın Quranda da qeyd edilən adlarındandır. “Əhad Əhməddir”, “Əhad Allahdır” sözünün təbii nəticəsi “Allah Əhməddir, yəni Muhəmməddir” olur. Bu şeirə əsasən, Əhad ilə Əhməd arasında fərq yalnız mim hərfin-

---

[119] Mehmet DEMIRCI, “Hakikati Muhammediye”, DİA, c. XV, s. 179-180.
[120] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 480.
[121] Mehmet DEMIRCI, “Hakikati Muhammediye”, DİA, c. XV, s. 179-180.
[122] Ali Ramazan DINÇ, Iki Cihan Serveri Peygamberi Zîşânımız, “Yeni Dünya” Jurnalı, 5859 saylar, Avqust-sentyabr 1998, s. 32. Bu şəxs, Nəqşbəndiyyə təriqətinin şeyxlərdən olub İlahiyyat fakültəsinin məzunudur.
Bu yazını jurnalda gördüyüm gün ona İstanbulun Gedikpaşa bölgəsindəki bir tələbəninin evində baş çəkərək lazımi xəbərdarlığımı etdim. Lakin o bunun sevgidən irəli gəldiyini iddia edib özünü bacardığı qədər müdafiə etdi. İnşaallah ölmədən tövbə edər. Günahı yazılı şəkildə etdiyinə görə, tövbəsi də yazılı şəkildə olmalıdır.

dədir. Bu fərq də yazılışda olub Əhmədin lehinədir. Çünki onların fikrincə, bütün kainat o mimin içindədir!.. Şübhəsiz ki, bu inancın İslamla heç bir əlaqəsi yoxdur. Uca Allah belə buyurur:

وَمَا مُحَمَّدٌ اِلَّا رَسُولٌ قَدْ خَلَتْ مِنْ قَبْلِهِ الرُّسُلُ اَفَائِنْ مَاتَ اَوْ قُتِلَ انْقَلَبْتُمْ عَلَى اَعْقَابِكُمْ وَمَنْ يَنْقَلِبْ عَلَى عَقِبَيْهِ فَلَنْ يَضُرَّ اللّٰهَ شَيْـًٔا وَسَيَجْزِى اللّٰهُ الشَّاكِرِينَ

**"Muhəmməd ancaq bir peyğəmbərdir. Ondan əvvəl də elçilər gəlib-getmişlər…"** ("Ali-İmran" surəsi, 3/144)

قُلْ اِنَّمَا اَنَا بَشَرٌ مِثْلُكُمْ يُوحَى اِلَيَّ اَنَّمَا اِلٰهُكُمْ اِلٰهٌ وَاحِدٌ فَاسْتَقِيمُوا اِلَيْهِ وَاسْتَغْفِرُوهُ وَوَيْلٌ لِلْمُشْرِكِينَ (6)

**"De: "Mən də ancaq sizin kimi bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız bir olan Tanrıdır. Ona tərəf dürüst olun və Ondan bağışlanmağınızı diləyin. Vay şirk olanların halına!"** ("Fussilət" surəsi, 41/6).

قُلْ اِنِّى لَا اَمْلِكُ لَكُمْ ضَرًّا وَلَارَشَدًا (21) قُلْ اِنِّى لَنْ يُجِيرَنِى مِنَ اللّٰهِ اَحَدٌ وَلَنْ اَجِدَ مِنْ دُونِهِ مُلْتَحَدًا (22) اِلَّا بَلَاغًا مِنَ اللّٰهِ وَرِسَالَاتِهِ

**"De: "Mənim sizə nə bir zərər, nə də xeyir verməyə gücüm çatar!**

**De: "Məni Allahın əzabından heç kəs qurtara bilməz. Mən də Ondan başqa heç bir sığınacaq tapa bilmərəm!**

**Mənimki Allahdan olanı, Onun göndərdiklərini təbliğdir, bu qədər..."** ("Cinn" surəsi, 72/21-23).

## C - DİNİ RƏHBƏRLƏRİ MÜQƏDDƏSLƏŞDİRMƏK

Dini rəhbər kimi tanınan insanların xalqın üzərində olan təsirlərini artırmaq məqsədilə onların qeyri-adi şəxsiyyət kimi təqdim olunub müqəddəsləşdirilməsi halları geniş vüsət alan bir məsələdir. Buna Said Nursini nümunə göstərmək olar. Risalei-Nurlara görə, Said Nursi "iyirmi ildə öyrənilməli olan elm və

fənlərin əsasını üç ayda dərk edərək öyrənmişdir. İstənilən elmdən ona verilən hər suala tərəddüdsüz və dərhal cavab vermişdir.”[123] Çünki o, “yuxusunda Peyğəmbərimizdən elm istəmiş, o da ümmətinə sual verməmək şərtiylə ona Quran elminin öyrədiləcəyinin müjdəsini vermiş, bu səbəbdən hələ uşaq ikən əsrin alimi kimi tanınmış, heç kimə sual verməmiş, lakin soruşulan bütün suallara mütləq cavab vermişdir”.[124]

Bəzi İslam məzhəblərində də belə bir etiqad var. Onlar bunu Əlinin nəslindən olan imamlar üçün deyirlər: “...İmamlardan heç biri müəllim yanına getməmiş, hər hansı elm adamından heç bir şey öyrənməmişlər... Heç biri hər hansı müəllimdan dərs almamış, heç biri də məktəbə, mədrəsəyə getməmişdir. Belə olduğu halda onlardan bir şey soruşulduqda dərhal ən doğru cavabı verirdilər. Dillərinə “bilmirəm” sözü gəlmədiyi kimi, cavab vermək üçün düşünmələri və ya cavabı bir müddət gecikdirmələri də mümkün deyildi...”[125] İmamın ilahi hökmlərə, ilahi biliyə, bütün məlumatlara malik olması, peyğəmbər, yaxud özündən əvvəlki İmam vasitəsiylədir...”[126]

Şübhəsiz ki, bir insanın belə bir məlumata malik olması mümkün deyil. Hətta bu xüsusiyyət hər hansı peyğəmbərdə də ola bilməz. Allah Təala belə buyurur:

---

[123] Bediuzzaman Said Nursi, “Kaynaklı-İndeksli Risalei-Nur Külliyyatı, Yeni Asiya Nəşrləri, İstanbul 1995, Həyat tarixçəsi, c. II, s. 2124. (Müqəddimədə bu kitabın 1958-ci ildə hazırlandığı, Bədiuzzaman Said Nursinin yoxladığı, onun düzəltdiyi kimi dərc edildiyi bildirilir.)

[124] Bediuzzaman Said Nursi, Tarihçe-i Hayat, İlk Həyatı, Haşiyə 2, a.ç.ə, c. II, s. 2123.

[125] Muhammed Rızal-Muzaffer, Akâidül-imâmiyye, Şia İnançları (tərcümə edən: Əbdülbaki Gölpınarlı) İstanbul 1978, s. 5253. 126 Muhəmməd Rıza»l-Muzaffər, Şiə inancları, s. 52.

[126] Muhammed Rızal-Muzaffer, Sia Inançları, səh. 52.

الْبَحْرُ قَبْلَ اَنْ تَنْفَدَ كَلِمَاتُ رَبِّى وَلَوْ جِئْنَا بِمِثْلِهِ مَدَدًا (109) قُلْ اِنَّمَا اَنَا بَشَرٌ مِثْلُكُمْ يُوحَى اِلَىَّ
اَنَّمَا اِلٰهُكُمْ اِلٰهٌ وَاحِدٌ فَمَنْ كَانَ يَرْجُوا لِقَاءَ رَبِّهِ فَلْيَعْمَلْ عَمَلًا صَالِحًا وَلَا يُشْرِكْ بِعِبَادَةِ رَبِّهِ اَحَدًا (110)

**"De: "Mən də sizin kimi ancaq bir insanam. Mənə vəhy olunur ki, sizin tanrınız yalnız bir olan Tanrıdır. Kim Rəbbinə qovuşmağı ümid bəsləyirsə, yaxşı iş görsün və Rəbbinə etdiyi ibadətə heç kəsi şərik qoşmasın!"** ("Kəhf" surəsi, 18/110)

Bir az əvvəl mətnini və tərcüməsini qeyd etdiyimiz ayələrdə də **"De: "Mənim sizə nə bir zərər, nə də sizə yetkinləşdirməyə gücüm çatır"**

**De: "Məni Allahın əzabından heç kəs qurtara bilməz və mən də Ondan başqa heç bir sığınacaq da tapa bilmərəm!**

**Mənimki ancaq Allahdan olanı, Onun göndərdiklərini təbliğ etməkdir, bu qədər..."** ("Cinn" surəsi, 72/21-23).

Said Nursi bir qədər də irəli gedərək bunları deyir: "Mənim şəxsi ustadım olan İmam Rəbbani, Əbdulqadir Geylaniylə «Cəvşənul-Kəbir» münacatını öyrəndiyim İmam Qəzali və Zeynalabidin (r), həmçinin otuz ildən bəri Həzrəti Hüseyin və İmam Əlidən (kərrəmallahu vəchəhu) aldığım dərs, xüsusilə «Cəvşənul-Kəbir» vasitəsiylə onlarla qurduğum mənəvi əlaqə sayəsində keçmiş həqiqətləri və indiki Risalei-Nurdan bizə gələn bilikləri (məşrəbi) əldə etdim."[127]

Şübhəsiz ki, Said Nursi ilə bağlı olan bu iddiaların həqiqətlə heç bir əlaqəsi olmadığı aydın məsələdir. Belə ki, özünün

---

[127] Emirdağ Lahikası, c. II, s. 1 1768. Yazı sadələşdirilmişdir. Əsli belədir: "Yeni Saidin hususî üstadı olan İmam-ı Rabbânî, Gavs-ı Âzam ve İmam-ı Gazâlî, Zeynelâbidin (r.a.) hususan Cevşenül-Kebîr münâcâtını bu iki imamdan ders almışım. Ve Hazret-i Hüseyin ve İmam-ı Ali Kerremallahü Vecheden aldığım ders, otuz seneden beri, hususan Cevşenül-Kebîrle daima onlara mânevî irtibatımda, geçmiş hakikati ve şimdiki Risale-i Nurdan bize gelen meşrebi almışım".

həyatı ilə bağlı yazdığı əlyazmalarına əsasən o, ibtidai təhsil aldıqdan sonra şeyx Muhəmməd Cəlalinin dərs halqəsində iştirak etmiş, adət olaraq oxunan kitabları oxumuş, sonra Vanda 15 ilə yaxın təhsil və tədrislə məşğul olmuşdur.[128]

Həyatından bəhs olunan "Tarihçe-i Hayat" adlı kitabda verilən məlumata görə də, "əvvəllər qrammatika və sintaksislə (sərf və nəhv) məşğul olmuş, "İzhar" fəslinə qədər oxumuş, sonradan şeyx Muhəmməd Cəlalinin yanına getmiş, müxtəlif elmi əsərləri tədqiq etmiş, İslami elmlərlə bağlı qırxa yaxın kitabı əzbərləmişdir. Həmçinin Seyyid Nur Mehmed, şeyx Əbdurrəhmani Tağî, şeyx Fəhim, Şeyx Mehmet Küfrəvi, şeyx Emin Əfəndi, Molla Fəthullah və şeyx Fəthullahdan da dərslər almışdır.[129]

Buna görə də, onun elmi həyatının üç ay davam etdiyi, soruşulan hər suala tərəddüdsüz və dərhal cavab verməsi və bu üstünlüyün ona yuxusunda Peyğəmbərimiz tərəfindən verilməsi iddiası onu müqəddəsləşdirməkdən başqa bir mənaya gəlmir.

Müqəddəsləşdirmə səylərinin başında şəxsən Said Nursi dayanır. O, 70 yaşına çatdıqdan sonra da bu sözləri deyə bilmişdir: *"On dörd yaşında idim. O zaman diplom sahibi olmağın göstəricisi kimi müəllim tərəfindən mənə əmmamənin verilməsi və cübbənin geyindirilməsində maneələr çıxmışdı. Yaşım kiçik olduğu üçün böyük müəllimlərə xas olan geyimi mənə yaraşdırmırdılar. Digər tərəfdən böyük alimlər mənə müəllim deyil, ya rəqib olur, ya da qarşımda danışa bilmirdilər. Qarşıma özünü mənim yanımda müəllim hesab edəcək birisi çıxmamışdı.*

---

[128] Keçmişlə bağlı bu yazılar, İstanbul Müftiliyinin arxivində, Osmanlı dövrünün alimlərinə aid reyestr qovluqları arasında olduğu halda, sonradan həmin sənəd qovluğunun içi naməlum insanlar tərəfindən boşaldılmışdır. Əvvəlcə yazıb nəşr etdirdiyinə görə bu yazılara Sadiq Albayrağın kitabında rast gəlmək olar. Bxn. Sadiq Albayraq, Son dövr Osmanlı alimləri, İstanbul. 1996, c. IV, s. 271.

[129] Tarihçe-i Hayat, İlk Həyat, s. 2129.

*Mən bu haqqı əlli altı il sonra istifadə edə bildim. Yüz il bundan əvvəl ölən Mövlana Zulcanaheyn Xalid Ziyaəddin mənə öz cübbəsi ilə birlikdə bir əmmamə göndərdi, indi o cübbəni geyinirəm. Bu mübarək əmanəti, Risalei-Nur tələbələrindən və axirət bacılarımızdan olan Asiyə adında hörmətli xanımın əlilə aldım".*[130]

Said Nursi 14 yaşında ikən rəqibsiz elm adamı səviyyəsinə çatdığını iddia etməkdə olsun, "Tarihçe-i Hayatında" 15-16 yaşlarına qədər bütün biliyinin "sünuhat" qəbilindən olduğu[131] ifadə edilir. Sünuhat insanın ağlına və xəyalına gələn şeylərə deyilir.[132] Bunlara elm deyilsə, o zaman alim olmayan qalmaz.

## D - DİN BÖYÜKLƏRİNİN TANRILAŞDIRILMASI

Şeytan və köməkçiləri Peyğəmbəri tanrılaşdırandan sonra dini rəhbərləri, din böyüklərini tanrılaşdırmağa başladılar. Bunun ən qısa yolu isə özlərinin peyğəmbəri təmsil etdiklərini de-

---

[130] Kastamonu Lahikası, iyirmi Yeddinci Məktub, c. II, s.1609. "On dörd yaşında ikən icazət almağın əlaməti olan ustad tərəfindən əmmamə verilməsində və cübbə geyindirilməsində maneələr oldu. Həyatın kiçikliyi ilə ölkəmizdə böyük müəllimlərə məxsus geyimi geyinməyin yaraşmadığı…
İkincisi: O zaman böyük alimlər mənə ustad kimi deyil, ya rəqib, ya da tabe olduqlarına görə mənə cübbə geyindirəcək və ustadlıq edəcəklər, lakin özünə güvənənlər isə olmadı. Böyük övliyalardan dörd-beşinin vəfat etmələri səbəbindən əlli altı ildir ki, icazətin zahiri əlaməti olan cübbəni geyinmək və bir ustadın əlini öpmək, ustadlığını qəbul etmək haqqını bu günlərdə Həzrəti Mövlana Zulcanaheyn Xalid Ziyaəddinin yüz illik tarixə malik cübbəsini, o cübbəyə sarılan əmmamə ilə çox qəribə tərzdə mənə geyindirmək üçün göndərdiyini bəzi işarələrlə bildikdən sonra əldə etdim. Mən də o mübarək və yüz illik tarixi olan o cübbəni geyinirəm. Allah Təalaya çox şükürlər edirəm. (Haşiyə) Bu mübarək əmanəti Risalei-Nur tələbələrinin və axirət bacılarımızın adından Asiyə adlı hörmətli bir xanımın əli ilə aldım".
[131] Tarihçe-i Hayat, İlk Həyatı, c. II, s.2128.
[132] Şemsəddin Sami, «Qamusi Türki», s. 738.

mələridir. Bunu xristianlar etmiş, bəzi müsəlmanlar da onların etdiklərini təkrarlamışlar.

Katoliklərə görə, İsanı kilsə təmsil edir. Kilsə iyerarxiya orqanlarından və Məsihin mistik bədənindən ibarət bir cəmiyyətdir. Kilsə biri insani, digəri ilahi olmaqla iki fərqli quruluşa malikdir.[133] Kilsə bəşərlə Allah arasındakı birləşmənin işarəsi və vasitəçisidir.[134] Papanın bütün kilsə üzərində tam və yüksək səlahiyyəti vardır.[135] Papa səhv etməyən rəhbərdir.[136]

Bəzi təriqət və camaatlarda da kamil insan (insani-kamil) ifadəsi var. Onların fikrincə, kamil insan Muhəmməd Həqiqətini[137] (Həqiqəti Muhəmmədiyyəni) təmsil edir və kamilliyin bütün maddi-mənəvi səviyyələrini əhatə edir.[138] Hər təriqət öz şeyxini kamil insan hesab edir. Kamilliyin bütün maddi-mənəvi səviyyələri yalnız Allahda olacağına görə, onların fikrincə, təriqət şeyxi Allahın ət və sümüyə bürünmüş halı kimi dəyərləndirilir. Allahın belə şeylərlə əlaqəsi olmaz. Kamil insan mövzusuna yenidən qayıdacağıq.

## E- İNSAN SÖZÜNÜ ALLAHIN SÖZÜ HESAB ETMƏK

İncil Allahın İsa əleyhissəlama nazil etdiyi Kitabdır. Uca Allah belə buyurur: وَلْيَحْكُمْ اَهْلُ الْاِنْجِيلِ بِمَا اَنْزَلَ اللّٰهُ فِيهِ

**“İncil göndərilənlər Allahın onda nazil etdiyi (ehkam) ilə mühakimə olunsunlar”** (“Maidə” surəsi, 5/47).

---

[133] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 771.
[134] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 775.
[135] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 877, 880, 883.
[136] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 891.
[137] Muhəmməd Həqiqəti mövzusu sonradan qeyd ediləcəkdir. 138 139
[138] Hasan Kâmil YILMAZ, İnsânı Kâmil, Altınoluk Məcmuəsi, İyul 1996, N 125, s. 31.

Lakin hazırda mövcud olan İncilə insan sözü qarışdırılmışdır. Onun böyük hissəsi Pavelin,[139] bir hissəsi həvarilərin və şəxsiyyəti bilinməyən insanların məktublarından ibarətdir. Katoliklərə görə, İncillər bütün bölümləri ilə müqəddəs və Kilsə qanunlarına uyğundurlar. Müqəddəs ruhun vəhyi ilə yazıldıqlarına görə onların müəllifi Allahdır.[140] Allah Kilsə ilə danışığını davam etdirir. Kilsə İncilin canlı səsidir.[141]

Quran isə Allahın Muhəmməd əleyhissəlama göndərdiyi sonuncu Kitabdır. Ona insan sözü qarışmamışdır. Çünki Allahın Özü şəxsən onu qorumağı Öz öhdəsinə götürmüşdür. Allah Təala belə buyurur:

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

**“Şübhəsiz ki, O Zikri (Quranı) Biz nazil etdik. Nə olursa-olsun, onu qoruyub saxlayacaq da Bizik!”** (“Hicr” surəsi, 15/9).

Milyonlarla müsəlmanın yaddaşında olan və saysız-hesabsız nüsxələri olan bir kitaba əlavələr etmək mümkün olmadığına görə, dini öz mənafelərinə uyğun nizamlamaq istəyənlər o kitabı həyatdan kənarlaşdırmağa, yerinə başqa kitabları qoymağa çalışmış, bunu öz camaatları arasında bacara bilmişlər. Məsələn, nurçulara görə, Risale-i Nur bu əsrdə Quranın ən yüksək və ən müqəddəs təfsiridir. Onların iddialarına əsasən, Risale-i Nurun bildirdiyi həqiqətlər göydən enmiş və Qurana aiddirlər. Quran oxunduqca, o da oxunacaq.[142]

---

[139] Pavel İsanı görməyib. Əlimizdəki İncildə Pavelin əsl adının Savi olduğu, (Elçilərin İşləri 13/9) xristianların azğın düşməni olduğu halda, Şam yolunda qəfil göydən parlayan bir nurun ətrafına düşdüyü, İsanın ona səsləndiyi (Elçilərin İşləri 9/36), sonra onun İsaya inandığı və vəftiz edildiyi (Elçilərin İşləri 9/18 vb.) ifadə edilir. Buna görə də Pavel Quranda qeyd edilən həvarilərin arasında deyildir.

[140] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 105.

[141] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par.79.

[142] İşaratul-icaz, Diyarbakır sülh ceza mahkemesine, c. II, s. 1274.

Said Nursi belə deyir: “Quranın gizli həqiqətləri Risale-i Nurla birlikdə bizə nazil olur!! …Peyğəmbərin dövründə Quranın vəhylə nazil olduğu kimi, hər əsrdə Quranın ərşdə olan yerindən və mənəvi möcüzəsindən feyz və ilham almaqla onun gizli həqiqətləri və həqiqətlərinin qəti dəlilləri nazil olur.”[143]

Yəni Risalei-Nur Quranın nazil olduğu yerdən, Quranın enməsi kimi vəhylə göndərilərək onun gizli qalmış həqiqətlərini və o həqiqətlərin qəti dəlillərini Said Nursiyə gətirmiş olur. Nurçulara görə, o, elm almaq üçün dərs öyrənmək və bilgi almaq kimi çətinliklərə ehtiyac duymadan öz-özünə nurlanmış və alim olmuşdur.[144]

Bu sözlər bir peyğəmbərlik iddiası daşıyır. Said Nursinin Quranda izah edilməyən həqiqətlərin ona vəhy olunduğunu deməsi isə öz kitabının Qurandan mühüm olmasını iddia etməkdən başqa mənaya gəlməz.

Uca Allah belə buyurur:

يَا اَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا اُنْزِلَ اِلَيْكَ مِنْ رَبِّكَ وَاِنْ لَمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ

**“Ey Elçi! Rəbbin tərəfindən sənə nazil edilən hər şeyi təbliğ et. Əgər bunu etməsən, Onun elçiliyini yerinə yetirmiş olmazsan…”** (“Maidə” surəsi, 5/67).

Said Nursinin iddia etdikləri Peyğəmbərimizə bildirilsəydi, onda Peyğəmbər onları izah etmək məcburiyyətində qalardı. O iddia etdiyi şeylər yalnız onun özünə bildirilmiş olmalıdırı.

---

[143] Şualar, Birinci Şua, iyirmi dördüncü ayə və ayələr, Üçüncü Nöqtə, c. I, s. 842. İfadələr sadələşdirilmişdir. Əsli belədir: “İşte bu kuvvetli münasebet-i mâneviyeye binaen deriz ki: Tenzilül-Kitab cümlesinin sarîh bir mânâsı; Asr-ı Saadette vahiy suretiyle Kitab-ı Mübînin nüzulü olduğu gibi, mânâ-yı işârîsiyle de, her asırda o Kitab-ı Mübînin mertebe-i arşiyesinden ve mucize-i mâneviyesinden feyiz ve ilham tarîkiyle onun gizli hakikatleri ve hakikatlerinin burhanları iniyor, nüzul ediyor...”

[144] Şualar, Birinci Şua, c. I, s. 833. İfadələr sadələşdirilmişdir. Əsli belədir: “Resailin-Nur müellifi dahi ateşsiz yanar, tahsil için külfet ve ders meşakkatine muhtaç olmadan kendi kendine nurlanır, âlim olur.”

Risalei-Nurun Quranın nazil olunduğu yerdən götürülməsi iddiası bir neçə dəfə təkrar edilir. Onlardan biri belədir:

“Risalei-Nurlar, nə Şərq mədəniyyətindən və elmlərindən, nə də Qərbin fəlsəfəsindən və elmlərindən götürülmüş və iqtibas edilmiş bir nurdur. O, göydən enən Quranın, həm şərqin, həm də qərbin üstündə olan Ərşdəki yerindən götürülmüşdür.”[145]

Said Nursi bir az da irəli gedərək bunları da söyləmişdir:

*“Risalei-Nur deyilən otuz üç ədəd Söz, otuz üç dənə Məktub, otuz bir ədəd Ləmalar bu zamanda Qurandakı ayələrin ayələrdir. Yəni onun həqiqətlərinin göstəriciləridir. Onun haqq və həqiqət olduğunun qəti dəlilləridir. Quran ayələrində qeyd edilən inancla bağlı həqiqətlərin çox qüvvətli sənədləridir.”*[146]

Deməli, Quran Tövratı və İncili təsdiq edən kitab olduğu kimi, Said Nursinin bu iddiasına görə, Risalei-Nur da Quranı təsdiq edən bir Kitabdır. Bu səbəbdən Risalei-Nurun ayələri Quran ayələrinin dəlili olmuşdur.

Said Nursi tək qalmamaq, dediklərini əsaslandırmaq üçün Hz. Əliyə də “Səkinə” adında bir kitab nazil olduğunu, keçmiş və gələcək bütün elm və sirlərin həmin kitabda yazıldığını və

---

[145] Şualar, Birinci Şua, c. I, s. 833. İfadələr sadələşdirilmişdir. Əsli belədir: “Resailin Nur dahi ne şarkın malûmatından, ulûmundan ve ne de garbın felsefe ve fününundan gelmiş bir mal ve onlardan iktibas edilmiş bir nur değildir. Belki semavî olan Kuranın, şark ve garbın fevkindeki yüksek mertebe-i arşîsinden iktibas edilmiştir.”

[146] Şualar, Birinci Şua, iyirmi ikinci ayə və ayələr, c. I, s. 841. İfadələr sadələşdirilmişdir. Əsli belədir: “Resailin-Nur denilen otuzüç aded Söz ve otuzüç aded Mektub ve otuzbir aded Lemalar, bu zamanda, Kitabı Mübindeki âyetlerin âyetleridir. Yani, hakaikının alâmetleridir ve hak ve hakikat olduğunun bürhanlarıdır. Ve o âyetlerdeki hakaiki imaniyenin gayet kuvvetli hüccetleridir”.

orada Risalei-Nurlara işarə edildiyini iddia edir[147] və xülasə olaraq belə deyir:

*“Həzrəti Cəbrail “Səkinə” adı ilə bir səhifədə yazılan İsmi-Əzəmi Peyğəmbərimizin yanında Hz. Əlinin (r.a.) qucağına saldı. Hz. Əli deyir ki: “Mən Cəbrailin şəxsini yalnız göy qurşağı kimi gördüm. Səsini eşitdim, səhifəni aldım və bu adları içində tapdım”. İsmi-Əzəmdən bəhs edərək bəzi hadisələri danışdıqdan sonra deyir ki:*

*“Dünyanın əvvəlindən qiyamətə qədər elmlər və mühüm sirlər bizə şahidlik dərəcəsində açıldı. Kim nə istəyirsə soruşsun, sözümüzdən şübhə edənlər zəlil olarlar.”*[148]

Elə bir səhifə ki, içində dünyanın yaranmasından qiyamətə qədər olan elmlər və mühüm sirlər vardır. Bu bir səhifə deyil, çox böyük bir kitab olur. Cəbrailin Əliyə belə bir kitab verdiyini qəbul etmək, onu Peyğəmbər saymaqdır. O kitabda mövcud olduğu deyilən elm və sirləri Peyğəmbərimiz qəti olaraq bilmədiyinə görə Əli ondan üstün mövqeyə yüksəldilir.

Bu cür iddialar haqqında Allah Təala buyurur:

فَوَيْلٌ لِلَّذِينَ يَكْتُبُونَ الْكِتَابَ بِاَيْدِيهِمْ ثُمَّ يَقُولُونَ هَذَا مِنْ عِنْدِ اللَّهِ لِيَشْتَرُوا بِهِ ثَمَنًا قَلِيلًا فَوَيْلٌ لَهُمْ مِمَّا كَتَبَتْ اَيْدِيهِمْ وَوَيْلٌ لَهُمْ مِمَّا يَكْسِبُونَ

---

[147] Sikke-i Tasdik-i Gaybî, Onsekizinci Lema, c. II, s. 2078. Orada verilən açıq-aşkar ifadə eynilə belədir: “Risale-i Nur şakirtlerine ve naşirlerine karşı Hazreti Alinin (r.a.) irşadkârane ve teveccühkârane bakması ve işaret etmesidir”.

[148] Sikke-i Tasdik-i Gaybî, Onsekizinci Lema, c. II, s. 2079; Mətnin əsli belədir: “Hazreti Cebrailin, Âlâ Nebiyyina (a.s.m.) huzuru Nebevide getirip Hz. Aliye Sekine namıyla bir sayfada yazılı İsmi Âzam, Hz. Alinin (r.a.) kucağına düşmüş. Hz. Ali diyor: "Ben Cebrailin şahsını yalnız alâimüs-sema suretinde gördüm. Sesini işittim, sayfayı aldım, bu isimleri içinde buldum" diyerek bu Ismi Âzamdan bahs ile bazı hadisatı zikirden sonra tahdis-i nimet suretinde diyor ki: "Evveli dünyadan kıyamete kadar ulum-u esrar-ı mühimme bize meşhud derecesinde inkişaf etmiş, kim ne isterse sorsun, sözümüze şüphe edenler zelil olur."

**“Vay o kəslərə ki, öz əlləri ilə kitab yazarlar, sonra: “Bu, Allah tərəfindəndir!” - deyirlər. Məqsədləri onun əvəzində bir şeylər almaqdır.[149] Vay o əllərinin yazdıqlarına görə onlara! Qazandıqları şey üçün vay onların halına!” (“Bəqərə” surəsi, 2/79)**

Said Nursi Risalei-Nurların müqəddəs sayılması üçün ağla gələn hər şeyi demişdir. Deyir ki: *“Sözlər”[150] şübhəsiz ki, Quranın nurlu parıltılarıdır. İzah edilməyə möhtac yerlərin natamam olmamaqla yanaşı bütöv şəkildə qüsursuzdur.”[151] “Risalei-Nur bu əsrdə, bu tarixdə “Urvatul-vusqa”dır. Yəni çox qüvvətli, qopmaz zəncir, həmçinin “hablullah”, yəni Allahın ipidir. Ona əlini atan, onu tutan nicat tapar.[152]*

“Urvatul-vusqa” və “hablullah” Qurana xas xüsusiyyətlərdir.[153] Said Nursi bu xüsusiyyətləri də kitablarına əlavə edir:

“**Risalei-Nur** həm **şəriət**, həm **dua**, həm **hikmət**, həm **ibadət**, həm **əmr** və həm **dəvət**, həm **zikr**, həm **fikir**, həm **həqiqət**, həm **təsəvvüf**, həm **məntiq**, həm **kəlam elmi**, həm **ilahiyyat elmi**, həm **sənətə meyl**, həm **bəlağət**, həmçinin **vəhdaniyyəti isbat edən kitabdır.** *O, əleyhdarlarını təsirsiz vəziyyətə gətirir və susdurur.”[154]*

---

[149] Əvəzində axirəti verdikləri üçün aldıqları nə olursa-olsun, azdır. “...Halbuki dünya malı axirət yanında yalnız cüzi bir şeydir!” (“Tövbə” surəsi, 9/38).

[150] Sözlər Risalei-Nurların bir hissəsini təşkil edir.

[151] Barla Lahikası, iyirmi Yeddinci Məktub və Zeyilləri, c. II, 1415. İfadələr sadələşdirilmişdir. Əsli belədir: “Mübarek Sözler şübhesiz Kitabı Mübinin nurlu lemeâtıdır. İçinde izaha muhtaç yerler eksik olmamakla beraber küll halinde kusursuz ve noksansızdır”.

[152] Said Nursi, Şualar, On Birinci Şua, on birinci məsələnin qeydinin bir lahikasıdır, a.ç.ə, c. I, s. 985.

[153] Bxn., “Bəqərə” surəsi, 2/256; “Ali-İmran” surəsi, 3/103.

[154] «Emirdağ Lahikası» I, c. II, s. 1719. Yazı sadələşdirilərək qısaca yazılmışdır. Əsli belədir: ““Risale-i Nur Şems-i Kuran-ı Mucizül Beyanın elvan-ı sebas-ı, Risale-i Nurun menşur-u hakikatında tam tecelli ettiğinden, hem bir kitab-ı şeriat, hem bir kitab-ı dua, hem bir kitab-ı hikmet, hem bir kitab-ı

Risalei-Nurlarda çox təkrarlar vardır. Said Nursi bunun Quranda da olduğunu bildirərək belə deyir:

"Qurandakı təkrarın bir çox hikməti Risalei-Nurda da vardır. Belə ki, hər vaxt bütün Quran oxuna bilmədiyinə görə hər surə Quran hökmünə keçmiş, həşr, tövhid və Musa əleyhissəlamın hekayəti kimi mövzular təkrarlanmışdır. Həmçinin imanın incə həqiqətləri və güclü dəlilləri, mənim xəbərim olmadan, bir çox risalədə də təkrar edilmişdir. Bunların nə üçün təkrar yazdırılmasına təəccüblənirdim. Sonra qəti şəkildə başa düşdüm ki, bu zamanda Risalei-Nura hər kəsin möhtacı olduğu üçün, hər kəs onu bütöv şəkildə oxuya bilməz. Yalnız ehtiyacı olan şeyləri kiçik bir Risalədən oxuya bilər."[155]

Bu mövzu başqa tərəfdən təkrar qeyd ediləcəkdir.

---

ubudiyet, hem bir kitab-ı emr-ü davet, hem bir kitab-ı zikir, hem bir kitab-ı fikir, hem bir kitab-ı hakikat, hem bir kitab-ı tasavvuf, hem bir kitab-ı mantık, hem bir kitab- ı İlmi Kelâm, hem bir kitab-ı İlmi İlahiyat, hem bir kitabı teşviki sanat, hem bir kitabı belâgat, hem bir kitabı isbat-ı vahdaniyet; muarızlarına bir kitab-ı ilzam ve iskâttır".

[155] Kastamonu Lahikası, Yirmi Yedinci Mektup, c. II, s. 1589; Sikke-i Tasdik-i Gaybî, Sözler Yayınevi İstanbul 1991, s. 33., Yazı sadələşdirilərək qısaca yazılmışdır. Əsli belədir: "Ondokuzuncu Sözün âhirinde Kurandaki tekrarın ekser hikmetleri Risalein-Nurda dahi cereyan eder. Bilhassa ikinci hikmeti tamtamına vardır. O hikmet şudur ki: Herkes Kurana muhtaçtır, fakat herkes her vakit bütün Kuranı okumaya muktedir olamaz, fakat bir sureye galiben muktedir olur. Onun için en mühim makasıd-ı Kuraniye, ekser uzun sureler- de dercedilerek herbir sure bir Kuran hükmüne geçmiş. Demek hiç kimseyi mahrum etmemek için, Haşir ve Tevhid ve Kıssa-i Mûsa (A.S.) gibi bâzı maksadlar tekrar edilmiş. Aynen bu ehemmiyetli hikmet içindir ki, bâzı defa haberim olmadan, ihtiyarım ve rızam olmadığı halde, ince hakaik-ı îmaniye ve kuvvetli hüccetler, müteaddit risalelerde tekrar edilmiş. Ben çok hayret ediyordum: Neden bunlar bana unutturulmuş, tekrar yazdırılmış? Sonra katî bir surette bildim ki: Herkes bu zamanda Risale-i Nura muhtaçtır, fakat u- mumunu elde edemez; etse de tam okuyamaz; fakat küçük bir Risale-in-Nur hükmüne geçmiş bir risale-i câmiayı elde edebilir ve ekser vakitlerde muhtaç olduğu meseleleri ondan okuyabilir. Ve gıda gibi, her zaman ihtiyaç tekerrür ettiği gibi o da mütalâasını tekrar eder."

**F - VASİTƏÇİLİK İNANCI**

Xristianlıqda mövcud olan vasitəçilik inancından geniş şəkildə bəhs edildi. Ona bənzər inancın bəzi təriqətlərdə də olduğunu göstərməyə çalışacağıq. Əslində tədqiq etdiyimiz bütün təriqətlərdə vasitəçilik inancının mövcud olduğunu gördük. Bütün təriqətləri tədqiq etmədiyimizə görə bu məsələ ilə bağlı daha həssas yanaşmadan istifadə etməyi məqsədəyğun hesab etdik. Təriqətlərdəki vasitəçilər xristianlarda və taoistlərdə olanlara bənzər formadadır. Bu forma təxminən belədir:




## G - TƏDQİQ ETDİYİMİZ TƏRİQƏTLƏRDƏKİ VASİTƏÇİLƏR

Allahı tərif etməkdə çətinlik yoxdur. Çətinlik Allahla əlaqələrdə ortaya çıxır. Allah Təala belə buyurur:

وَلَقَدْ خَلَقْنَا الْاِنْسَانَ وَنَعْلَمُ مَاتُوَسْوِسُ بِهِ نَفْسُهُ وَنَحْنُ اَقْرَبُ اِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ

**“And olsun ki, insanı Biz yaratdıq. Ona şahdamarından da yaxın olduğumuza görə Biz nəfsinin ona nə vəsvəsə etdiyini də bilirik...”** (“Qaf” surəsi, 50/16)

وَاِذَا سَاَلَكَ عِبَادِى عَنِّى فَاِنِّى قَرِيبٌ اُجِيبُ دَعْوَةَ الدَّاعِ اِذَا دَعَانِ فَلْيَسْتَجِيبُوا لِى وَلْيُؤْمِنُوا بِى لَعَلَّهُمْ يَرْشُدُونَ

**“Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən onlara yaxınam. Dua edib Məni çağıranın duasının əvəzini verirəm. Onlar da Mənim çağırışımı qəbul edib Mənə güvənsinlər. Bununla da, ola bilsin ki, yetkinləşirlər”** (“Bəqə-rə” surəsi, 2/186).

Tədqiq etdiyimiz təriqətlərin hər birində Allahın insana şah damarından daha yaxın olduğuna və insan qəlbindən keçən hər şeyi bildiyinə inanılır. Xristianlara görə də, Allah insanlara yaxındır [156] və O, hər şeyi bilir [157], insanların ürəklərinin dərinliklərinə enər.[158] Taoistlərə görə də Allah hər şeyi açıq şəkildə görür və bütün işlərdə insanlarla birlikdədir.[159] Bütün bunlara baxmayaraq, Allahla insanlar arasında vasitəçilər qoyurlar. Tədqiq etdiyimiz təriqətlərdə vasitəçi edilənlər bunlardır:

### 1 – Həqiqəti Muhəmmədiyyə (Muhəmməd Həqiqəti)

Bu təriqətlərə görə, Həqiqəti Muhəmmədiyyə (Muhəmməd Həqiqəti) mövcudiyyətin başlanğıcıdır. Onunla Allah eyni həqiqətin ön və arxa üzləridir. Allahdan başqa heç bir şey olmadığı halda, ilk dəfə Həqiqəti Muhəmmədiyyə var olmuş, bütün varlıqlar ondan və onun üçün yaradılmışdır. O, bütün peyğəm-

[156] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 206.
[157] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 208.
[158] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 2766.
[159] Tümer, Küçük, a.ç.ə. s. 63.

bərlərin və övliyaların xaricdən və ya batindən aldıqları mənbədir.[160]

Həqiqəti Muhəmmədiyyə katoliklərdəki İsa inancı ilə Taoistlərdəki Te inancının qarışığı kimidir. Bəzi xristianlar isə "İsa Allahdır" deyirlər. Həqiqəti Muhəmmədiyyə inancında da "Muhəmməd Allahdır" mənasına gələn ifadələr işlədilir. Bu mövzu yuxarıda da qeyd edilmişdi.

**2 - Kamil insan (İnsanı kamil)**

Tədqiq etdiyimiz təriqətlərdə kamil insan (insani kamil) Muhəmməddir. Lakin burada onun tarixi şəxsiyyəti deyil, Adəm palçıq halında ikən peyğəmbər olan Muhəmməd, yəni Həqiqəti Muhəmmədiyyədir. "Kamil insan" varlığın və yaradılışın məqsədidir. Çünki ilahi iradə yalnız onun vasitəsiylə reallaşır. Əgər "kamil insan" olmasa, Allah bilinməzdi... "Kamil insan" kamilliyin bütün maddi-mənəvi mərtəbələrini əhatə edir. Onun qəlbi Ərşə, mənliyi Kürsüqz, məqamı Sidrəi-muntəhaya, ağlı Qələmi aəlaya, nəfsi Ləvhi-məhfuza və təbiəti dörd ünsür ilə əlaqəlidir".[161]

Əksər insanlar "kamil insan" terminini yetkin və nümunəvi insan kimi qəbul edirlər. Lakin təriqətlər bu terminlə bağlı katoliklərin kilsə inancına bənzər bir inanc formalaşdırmışlar. Kil-

---

[160] Mehmet DEMİRCİ, "Hakikati Muhammediye", DİA, c. XV, s. 179-180.
[161] Hasan Kamil Yılmaz, Kamil insan, Altınoluk Məcmuəsi, İyul 1996, sayı, 125; s. 31.
Ərş: Bütün aləmi əhatə edən, insan ağlının dərk edə bilməyəcəyi ən yüksək qat olub, göylər, Cənnət, Sidrə və Kürsü daima onun altında yerləşir. Kürsü: Allahın qüdrət və hakimiyyətinin rəmzidir. Sidrətul-muntəha: Yeddi qatdan ibarət göyün üstündə bir məqam, Cənnətul-məva isə onun yanında yerləşir. Qaləmi ala: İlahi biliklərin yazıldığı ən dəyərli qələmdir. Lövhi-məhfuz: Allahın elminin, kainatda olmuş və olacaq şeylərin yazıldığı lövhədir. Anasırı ərbaa: Maddi aləmin ondan meydana gəldiyinə inanılan torpaq, su, hava və oddur.

sə yaşayan İsa olduğu kimi, təriqətçilərə görə də, kamil insan da yaşayan Həqiqəti Muhəmmədiyyədir. Hər təriqət öz şeyxini “kamil insan” olduğunu hesab edir. Deyirlər ki: “"Kamil" insan aləmdə daima vardır, lakin birdən çox olmaz. “Kamil insan”a mülkdə, mələkutda (Allaha aid mülk) və cəbərutda (məna aləminə və göylərə hakim olmaq) heç nə gizli deyildir. O, əşyanı və əşyanın hikmətini olduğu kimi bilir...” “Bu həqiqət hər dövrdə dəyişən adlarla və surətlərdə peyğəmbər, yaxud övliya kimi ortaya çıxır.[162] “Said Nursiyə aid edilən qeyri-adi xüsusiyyətlər” sərlövhəsi altında bu mövzuya yenidən qayıdacağıq.

“Mülkdə təsərrüf” Allaha məxsus səlahiyyətləri istifadə etmək deməkdir. “Mələkut” da mülk mənasına gəlir, lakin “yalnız Allaha aid mülk” deməkdir.[163] “Cəbərut” da məna aləminə və göylərə hakim olmaq mənalarına gəlir.[164]

Təriqətlər insanları siniflərə ayırırlar. Sirləri bilənlərə “havassul-havas”, az bilənlərə “havas”, digərlərinə isə “avam” deyirlər. Bildiklərini iddia etdikləri sirlər isə tamamilə xəyal məhsulu olan şeylərdir. Özlərini dini rəhbərlər və Allahla əlaqədə göstərərək fərqli olduqlarını vurğulamağa çalışırlar. Allah Təala belə buyurur:

وَمَنْ اَظْلَمُ مِمَّنِ افْتَرٰى عَلَى اللّٰهِ كَذِبًا اَوْ قَالَ اُوحِيَ اِلَيَّ وَلَمْ يُوحَ اِلَيْهِ شَيْءٌ وَمَنْ قَالَ سَاُنْزِلُ مِثْلَ
مَا اَنْزَلَ اللّٰهُ وَلَوْ تَرٰى اِذِ الظَّالِمُونَ ف۪ي غَمَرَاتِ الْمَوْتِ وَالْمَلٰٓئِكَةُ بَاسِطُٓوا اَيْد۪يهِمْ اَخْرِجُٓوا اَنْفُسَكُمْ اَلْيَوْمَ
تُجْزَوْنَ عَذَابَ الْهُونِ بِمَا كُنْتُمْ تَقُولُونَ عَلَى اللّٰهِ غَيْرَ الْحَقِّ وَكُنْتُمْ عَنْ اٰيَاتِه۪ تَسْتَكْبِرُونَ (93) وَلَقَدْ جِئْتُمُونَا
فُرَادٰى كَمَا خَلَقْنَاكُمْ اَوَّلَ مَرَّةٍ وَتَرَكْتُمْ مَا خَوَّلْنَاكُمْ وَرَٓاءَ ظُهُورِكُمْ وَمَا نَرٰى مَعَكُمْ شُفَعَٓاءَكُمُ الَّذ۪ينَ زَعَمْتُمْ
اَنَّهُمْ ف۪يكُمْ شُرَكٰٓؤُا لَقَدْ تَقَطَّعَ بَيْنَكُمْ وَضَلَّ عَنْكُمْ مَا كُنْتُمْ تَزْعُمُونَ (94)

**“Allaha iftira yaxandan və ya özünə heç bir vəhy olunmadığı halda: “Mənə də vəhy gəlir” deyən şəxsdən, bir də**

---

[162] Həsən Kamil Yılmaz, a.ç.ə, s. 31.
[163] Rağib əl-İsfahani, «Mufrədat», ...... maddəsi.
[164] Şemseddin Sami, Kâmûsi Türkî, Dersaadet 1317, (ج بر) maddəsi.

**“Allahın nazil etdiyi kimi mən də endirəcəyəm”, - deyəndən daha zalım kim ola bilər? Kaş sən bu zalımları ölüm əzabı içində çabalayarkən görsən... Mələklər əllərini uzadıb belə deyərlər: “...Verin canlarınızı! Siz bu gün Allaha qarşı nahaq sözlər danışırdınız, özünüzü Onun ayələrindən yuxarı bir yerdə görürdünüz. Ona qarşı bu gün alçaldıcı bir əzabla cəzalandırılacaqsınız!”**

**Baxın, hüzurumuza tək-tənha, ilk dəfə sizi yaratdığımız kimi gəldiniz. Sizə verdiyimiz arxanızda qoyub gəldiniz. Artıq yanınızda şəfaətçilərinizi də görmürük, onların sizinlə birlikdə olacağınızı ümid edirdiniz. Baxın, artıq aranızdakı (rabitə) tamamilə qopmuşdur və ümid etdikləriniz sizdən ayrılıb getmişlər”** (“Ənam” surəsi, 6/93-94).

### 3 - Qutbul-irşad (Doğru yol rəhbəri)

İmam Rəbbaninin fikrincə,[165] “qutbul-irşad” (doğru yol rəhbəri) çox az olur. “Qutbul-irşad” uzun zaman kəsiyi və əsrlər keçdikdən sonra peyda olur, doğru yolu göstərməsi və peyda olması nəticəsində gətirdiyi nur qaranlığa qərq olan cahanı işıqlandırır. Onun göstərdiyi doğru yol bütün dünyaya yayılır. Ərşdən yer üzünün mərkəzinə qədər kimə doğru yol, hidayət, iman və mərifət verilirsə, onun yolundan verilir və ondan alınır. Onun vasitəsi olmadan bu dövlət heç kimə qismət ola bilməz. Onun nuru nəhəng okean kimi bütün dünyanı əhatə etmişdir ki, onun gəlişinə qədər bu dənizdə heç bir hərəkət meydana gəlməmiş, sanki donmuşdur. Ona doğru yönələn və ona səmimi şəkildə inanan və ya nurun yönəldiyi insanın qəlbində -yönəlmə

[165] Tədqiq etdiyimiz bütün təriqətlər İmam Rəbbaniyə böyük əhəmiyyət verir və onun “Məktubat”ını mühüm mənbələrdən hesab edirlər. Bu səbəbdən bu mövzunu onun kitabından götürürük.

əsnasında- sanki nurun təsirindən bir pəncərə açılır və nəticədə, həmin insan bu yolun gətirdiyi nura yönəlməsi və səmimiyyəti nisbətində öz nəsibini alır və doyur. İnkar etdiyi üçün deyil, onu tanımadığı, bilmədiyi üçün (birbaşa) Allahı zikr edən və qəlbini Allaha yönəldən insan da eynilə o rəhbərə yönələnlər kimi ondan istifadə edir, lakin birinci halda olan insanlar nurdan daha çox istifadə edirlər. "Qütbü inkar edən və ya ondan narahat olan insanlara gəldikdə isə onlar Allahı zikr etməklə məşğul olsalar da, həqiqi doğru yoldan və hidayətdən məhrum olurlar. Onu inkar və narahat etmək insanın bərəkət yolunu bağlayır, qütb onu faydalandırmamağı, ona zərər verməməyi istəməsə də, o, həqiqi doğru yoldan kənarda qalır. Onda olan, yalnız rəşadət və hidayətin görünüşüdür (surətidir). Mənadan uzaq, içi boş surətin faydası da azdır. Həmin qütbü sevən və ona səmimi inanan insanlar ona qəlbən yönəlməsələr, Allahı zikr etməklə məşğul olmasalar belə, yalnız sevgiləri səbəbindən rəşadət və hidayətin nuru onlara çatır.[166]

Deməli, Qütbul İrşad adlandırılan şəxsi inkar edən, Allahın zikrilə məşğul olsa da, həqiqi rüşd və hidayətdən məhrum olduğu halda, onu sevən və ona səmimi inananlar Allahın zikri ilə məşğul olmasa da doğru yol, hidayətin nuruna qovuşurlar. Bunlar açıq şəkildə Allaha qarşı iftiradır. Allah Təala belə buyurur:

وَمَنْ اَظْلَمُ مِمَّنِ افْتَرَى عَلَى اللَّهِ كَذِبًا اُولَئِكَ يُعْرَضُونَ عَلَى رَبِّهِمْ وَيَقُولُ الْاَشْهَادُ هَؤُلَاءِ الَّذِينَ
كَذَبُوا عَلَى رَبِّهِمْ اَلَا لَعْنَةُ اللَّهِ عَلَى الظَّالِمِينَ (18) اَلَّذِينَ يَصُدُّونَ عَنْ سَبِيلِ اللَّهِ وَيَبْغُونَهَا عِوَجًا وَهُمْ
بِالْاَخِرَةِ هُمْ كَافِرُونَ (19) اُولَئِكَ لَمْ يَكُونُوا مُعْجِزِينَ فِى الْاَرْضِ وَمَا كَانَ لَهُمْ مِنْ دُونِ اللَّهِ مِنْ اَوْلِيَاءَ

---

166 İmam Rəbbani, "əl-Məktubat", ərəb dilində nüsxəsi, tarix və yer göstərilməyib, c. I, s. 254, 260. Məktubun son bölümü. Yuxarıdakı tərcümə üçün Bxn. Hayreddin Karaman, «İmam Rəbbani və İslam Təsəvvüfü», İstanbul, 1992, s. 219-220.

يُضَاعَفُ لَهُمُ الْعَذَابُ مَاكَانُوا يَسْتَطِيعُونَ السَّمْعَ وَمَا كَانُوا يُبْصِرُونَ (20) أُولَئِكَ الَّذِينَ خَسِرُوا اَنْفُسَهُمْ
وَضَلَّ عَنْهُمْ مَاكَانُوا يَفْتَرُونَ (21) لَاجَرَمَ اَنَّهُمْ فِى الْاَخِرَةِ هُمُ الْاَخْسَرُونَ (22) اِنَّ الَّذِينَ اٰمَنُوا وَعَمِلُوا
الصَّالِحَاتِ وَاَخْبَتُوا اِلَى رَبِّهِمْ أُولَئِكَ اَصْحَابُ الْجَنَّةِ هُمْ فِيهَا خَالِدُونَ (23) مَثَلُ الْفَرِيقَيْنِ كَالْاَعْمَى
وَالْاَصَمِّ وَالْبَصِيرِ وَالسَّمِيعِ هَلْ يَسْتَوِيَانِ مَثَلًا اَفَلَا تَذَكَّرُونَ (24)

**“Allaha iftira yaxandan daha zalım kim ola bilər? Onlar Rəbblərinin hüzuruna gətiriləcək, şahidlər belə deyəcəklər: “Bunlar Rəbbi barəsində yalan söyləyənlərdir!” Bilin ki, Allahın lənəti zalımların üzərinədir!**

**Onlar, Allahın yoluna maneə qoyar, döndərməyə çalışırlar. Məhz onlar axirəti inkar edənlərdir.**

**Bunlar yer üzündə Allahı aciz qoya bilməzlər. Allahdan başqa dostları da yoxdur. Onları ikiqat əzab gözləyir. Onlar həqiqətləri nə eşitməyə nə də görməyə tab gətirə bilərlər.**

**Onlar dəyərlərini itirənlərdir. Yalandan uydurduqları da onlardan uzaqlaşıb qeyb olacaqlar.**

**Şübhəsiz ki, axirətdə də ən çox ziyana uğrayanlar onlardır!**

**İman gətirib yaxşı işlər görənlər və ümidlərini Rəbbinə bağlayanlar isə cənnətlikdirlər. Onlar orada əbədi qalacaqlar!**

**Bu iki tayfanın vəziyyəti korla karın, görənlə eşidənin vəziyyəti kimidir. Onlar eyni ola bilərlərmi?! Artıq bilgilərinizi nəzərdən keçirməyəcəksiniz?”** (“Hud” surəsi, 11/18-24).

**4 - Ricalul-Ğayb (Bilinməyən şəxslər)**

Bunlar şəxsiyyətlərini gizlətdiklərinə inanılan və qutb, qavs, əvtad, rəvasi, nuqəba və nucəba adlandırılan insanlardır. Həmin terminlər bu mənalarda işlədilmişdir:

**5 - Qütb (rəhbər)**

Ən böyük övliya olaraq qəbul edilir. Təriqətçilərə görə, doğru yola çatanların (erenlər) rəhbəri və Allahın izniylə kainatda təsərrüf sahibidir. Yəni kainatı idarə etmədə səlahiyyət sahibidir.

**6 - Qavs**

Təriqətçilərin darda qaldıqda sığındıqları və kömək istədikləri qütbdür. Darda qalan sufilər "Yetiş, ey Qavs!", - deyə qavsa sığınırlar. Qavs kimi bilinənlər əsma və ilahi sifətə yiyələnmiş hesab edilirlər. Yəni Allahın adlarının və sifətlərinin onların şəxsində ifadə olunduğuna, ortaya çıxdığına inanırlar. Əbdülqadir Geylani "Qavsi-əzzm = ən böyük qavs" ləqəbi ilə məşhurdur.

**7 - Rəvasi**

Rəvasi "dağlar", əvtad isə "sütunlar" mənasına gəlir. Onlara görə, fəlakət baş verdikdə bəndələr əvtada, əvtad isə rəvasiyə üz tutur. Rəvasini Qütb idarə edir. Qütbdən sonra gələn iki insana "i-maman" deyirlər. Bunlardan birinə "imamı yəmin", digərinə "i-mamı yəsar" adı verilir. "İmamı yəmin" (sağdakı imam) qütbün hökmlərinə, "imamı yəsar" (soldakı imam) isə qütbün həqiqətində ortaya çıxır. Yəni təriqətçilər "biri qütbün qərarlarını, digərinin isə həqiqi cəhətlərini bilir" - deyirlər. Qütb öldükdə yerinə imamı yəsar keçir. Qütb ilə iki imam üçlüyü əmələ gətirirlər.

Bunlardan başqa, sayları səkkiz və ya qırx olan "nücəba" ilə sayları on və ya üç yüz olan "nuqəba"nın olduğu və onların insanların daxili dünyalarından xəbərdər olduqları iddia olunur.[167]

---

[167] Hasan Kamil Yılmaz, «Ricalul-Ğayb Ğayb Ərənləri», Altınoluk Məcmuəsi, Dekabr 1995.

Bütün bunlar Quranın küfr və Allaha şərik qoşma sayaraq qadağan etdiyi şeylərdir. Müsəlmanlar namazın hər rükətində:

إِيَّاكَ نَعْبُدُ وَإِيَّاكَ نَسْتَعِينُ

**“Yalnız Sənə qul olur və yalnız Səndən kömək diləyirik!”** (“Fatihə” surəsi, 1/5) deyərək, zehinlərini canlı saxlayırlar ki, bu vəziyyətə düşməsinlər.

**8 - Təriqət şeyxi**

Təriqətdə şeyx hər şeydir. O, həm “kamil insan”dır, həm də “Həqiqəti Muhəmmədiyyə”ni təmsil edir, həm qütbdür, həm də qavsdır. Mürid Allah ilə yekunlaşacaq bir işin yalnız şeyxin araya girərək müdaxilə etməsi nəticəsində baş tutacağına inanır.[168] Təriqətdə mürid (tələbə) “nəfsini öldürmək” adı altında çox alçaldılır. Deyirlər ki, “Şeyx qarşısında mürid, mürdəşir qarşısındakı ölü kimi olur.”[169]

Allah muşaxxas, yəni əllə tutulan və gözlə görünən varlıq deyildir. Təriqətə görə, onu başa düşmək üçün bəndə idrak və mənəviyyat baxımından yüksələ biləcəyi konkret obyektə ehtiyac duyur. Təsəvvüfdə bu obyekt Allahın ən mükəmməl sifətlərinin əks olunduğu “kamil insan” mövqeyində olan şeyxdir. Yəni müridin lazımi səviyyədə Allaha qul olması üçün əvvəlcə o, şeyxin qulu olmalı və qulluq təlimindən keçməsi tələb olunur. Bunu təmin etmək üçün rabitə mühüm hesab edilir. “...Doğru yola üz tutan insan qəlbini əvvəl kamil insan olan şeyxə, ondan sonra Rəsula, sonra isə Allaha ürəyini bağlamalıdır ki, bu şəkildə rahat qəlbə nail olub fəna fillaha (Allahad yox olmağa) qovu-

---

[168] Muhəmməd b. Abdullah Hani, «Adab», (Tərcüməçi: Əbdülqadir Akçiçək), İstanbul, 1396/1976. s. 172.
[169] Muhəmməd b. Abdullah Hani, «Adab», s. 173.

şa bilsin", - deyirlər. Çünki rabitəni Allah ilə yaxınlaşmaq üçün edərlər.[170]

Onlara görə, "muraqəbə və tavaccühə davam edən insana vəzirlik, yəni nazirlik verilir. Buna mailk olan isə mülk və mələkutda asanlıqla təsərrüfata, yəni Allaha aid mülkü asanlıqla idarə etməyə (Allah qorusun, Allahın səlahiyyətlərini istifadə etməyə) başlayır, gizli işlərdən, ürəklərdən keçəndən agah olur. Həmçinin qəlbləri hidayət nuru ilə işıqlandırmaq da onun üçün mümkündür".[171]

Təriqətçilərə görə, "şeyxin baxışı ürək xəstəliklərinə şəfadır. Onun üzünü göstərməsi mənəvi xəstəliklərin sağalmasına səbəb olur. Şeyx bəhs edilən yetkinliklərin sahibi, vaxtın imamı, zamanın xəlifəsidir. Qütblər, dəyərlər onun məqamları sayəsində yetişib yaşayırlar. Əvtad, nucəba onun kamal dənizindən axıb gələn bir qətrədir. Onun irşadı günəş kimidir. Özü istəmədən hər şeyə feyzini əta edir..."[172]

Rabitə edən mürid şeyxindən başqa heç nə ilə maraqlanmamaq və qəlbində yalnız ona yer vermək məcburiyyətindədir.[173] O, şeyxin surətini alnının ortasında xəyal edərək canlandırır, sonra onu qəlbinin ortasına endirir, özünü yox, şeyxinin var olduğunu qəbul edir.[174] Dünyanın hansı qütbündə, şərqdə və ya qərbdə də olsa, şeyxin ruhaniliyi onu rabitə ilə tərbiyə edir və Allaha qovuşdurur.[175]

Təriqətçilərə görə, əsl şeyx müridlə Allah arasında bir vasitədir. Ondan üz döndərmək Allahdan üz döndərməkdir.[176]

---

[170] Muhəmməd b. Abdullah Hani, «Adab», s. 268.
[171] Muhəmməd b. Abdullah Hani, «Adab», s. 268.
[172] Muhəmməd b. Abdullah Hani, «Adab», s. 238.
[173] Sadik Dana, «Altınoluk söhbətləri» I, s. 3940.
[174] Muhəmməd b. Abdullah Hani, «Adab», s. 239242.
[175] Muhəmməd b. Abdullah Hani, «Adab», s. 239242.
[176] Muhəmməd b. Abdullah Hani, «Adab», s. 244.

Mürid inanır ki, şeyxini harada düşünsə, orada onun ruhaniliyi orada hazır olur. Həmçinin inanır ki, şeyxin ruhani səlahiyyətləri Allahın səlahiyyətləridir.[177]

Tədqiq etdiyimiz təriqətlərdə şeyx tamamilə Allahın yerinə qoyulur. Kilsədə də keşiş eyni funksiyanı daşıyır. Bu şirkdən Allaha sığınmaq lazımdır.

Bu təriqətlərə görə, "Mürid şeyxin ona əmr etdiklərini etməkdə tələsməli, onu dərhal yerinə yetirməlidir. Şeyxin əmr etdklərini yozmamalı və onların icrasını yubatmamalıdır. Çünki təvil etmək və yubatmaq yol kəsən quldurların ən böyükləridir."[178]

"Doğru yola üz tutan mürid mürşidinin yanında və ondan uzaqda olduqda daima onu razı salan yolla getməyə diqqət etməlidir. O, mürşidinin nələri xoşladığını bilmək və buna görə hərəkət etmək məcburiyyətindədir."[179]

Təriqətçilər İslamla heç bir əlaqəsi olmayan iddialarını belə davam etdirirlər: "Mürşidlər Allah Təalanın olduğu yerlərdə olurlar. Bu səbəbdən Allah Təalanı zikr etməklə əldə ediləcək fayda, eynilə bu şəxsləri görməklə də əldə edilir. Allahın Rəsuluna tam şəkildə tabe olmağı bu kamil şeyxə bəslənilən sevgi hissi ilə eyni hesab etmək lazımdır."[180]

Bütün bunlar heç bir dəlilə əsaslanmadan müəyyən insanlara qul olmaq deməkdir. Allah Təala belə buyurur:

وَيَعْبُدُونَ مِنْ دُونِ اللَّهِ مَا لَمْ يُنَزِّلْ بِهِ سُلْطَانًا وَمَا لَيْسَ لَهُمْ بِهِ عِلْمٌ وَمَا لِلظَّالِمِينَ مِنْ نَصِيرٍ

**"Allah ilə öz aralarına qoyduqları elə şeylərə qul olurlar ki, Allah o haqda heç bir dəlil nazil etməmişdir. Və**

---

[177] Muhəmməd b. Abdullah Hani, «Adab», s. 239242.
[178] Muhəmməd b. Abdullah Hani, «Adab», s. 172, 173.
[179] Sadik Dana, «Altınoluk söhbətləri» I, s. 4142. Mətn sadələşdirilmişdir.
[180] Muhəmməd b. Abdullah Hani, «Adab», s. 235.

**ona dair özlərinin də heç bir biliyi də yoxdur. O zalımlaın heç bir köməkçisi də olmaz!”** (“Həcc” surəsi, 22/71).

Nəticə etibarilə, Quranda “Allahın dunundan” ifadəsinin qeyd edildiyi əksər hissələrin vasitəçi sayılan tanrılara yaraşdırılan yer başa düşülür. Yuxarıdakı iddialar həmin vasitəçilərin hansı xəyali səlahiyyətlərlə təchiz edildiyini göstərir.

## H - VASİTƏÇİLƏRİN QEYBİ BİLDİYİ İNANCI

Qeyb insanın hissiyyatından uzaq və haqqında biliyi olmadığı şeyə deyilir.[181] Qiyamətin vaxtı kimi Allahdan başqasının bilməyəcəyi şeylər qeybi-mütləq, yəni tam qeybdir. Haqqında hər hansı bilgi və sənəd qalmamış tarixi hadisələr də mütləq qeybə çevrilirlər. Bir başqasının bildiyi şey isə nisbi qeybi olur. Məsələn, ürəyinizdən nə keçdiyini mən bilmirəm, lakin siz bilirsiniz. O, mənə görə qeyb olur, sizə görə isə yox.

Qeybi nə insan, nə mələk, nə cin, nə də Allahın elçiləri bilirlər. Allah Təala belə buyurur:

قُلْ لَايَعْلَمُ مَنْ فِى السَّمَوَاتِ وَالْاَرْضِ الْغَيْبَ اِلَّا اللَّهُ

**“De: “Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz!”** (“Nəml surəsi, 27/65)

Bu ayələr xüsusilə mələklərlə əlaqəlidir. Uca Allah belə buyurur:

وَلَقَدْ خَلَقْنَا الْاِنْسَانَ وَنَعْلَمُ مَاتُوَسْوِسُ بِهِ نَفْسُهُ وَنَحْنُ اَقْرَبُ اِلَيْهِ مِنْ حَبْلِ الْوَرِيدِ (16) اِذْ
يَتَلَقَّى الْمُتَلَقِّيَانِ عَنِ الْيَمِينِ وَعَنِ الشِّمَالِ قَعِيدٌ (17) مَايَلْفِظُ مِنْ قَوْلٍ اِلَّا لَدَيْهِ رَقِيبٌ عَتِيدٌ (18)

**“And olsun ki, insanı Biz yaratdıq. Ona şah damarından da yaxın olduğumuza görə Biz nəfsinin ona nə vəsvəsə etdiyini də bilirik.**

---

[181] Rağib əl-İsfahani, «Mufrədat», (غ يب) maddəsi.

**Sağında və solunda iki qeydiyyat məmuru olur!**

**Buna görə də, ağzından çıxan hər sözü qeyd etmək üçün hazır durub gözləyən bir nəzarətçi mütləq vardır!”** (“Qaf” surəsi, 50/16-18).

Deməli, Allah insanın daxilini bildiyi halda, mələklər yalnız ağızdan çıxan sözü bilirlər.

Cinlərin qeybi bilməyəcəkləri ilə bağlı belə buyurulur:

وَمِنَ الْجِنِّ مَنْ يَعْمَلُ بَيْنَ يَدَيْهِ بِاِذْنِ رَبِّهِ وَمَنْ يَزِغْ مِنْهُمْ عَنْ اَمْرِنَا نُذِقْهُ مِنْ عَذَابِ السَّعِيرِ
(12) يَعْمَلُونَ لَهُ مَا يَشَاءُ مِنْ مَحَارِيبَ وَتَمَاثِيلَ وَجِفَانٍ كَالْجَوَابِ وَقُدُورٍ رَاسِيَاتٍ اِعْمَلُوا اٰلَ دَاوُدَ شُكْرًا
وَقَلِيلٌ مِنْ عِبَادِىَ الشَّكُورُ (13) فَلَمَّا قَضَيْنَا عَلَيْهِ الْمَوْتَ مَا دَلَّهُمْ عَلَى مَوْتِهِ اِلَّا دَابَّةُ الْاَرْضِ تَاْكُلُ
مِنْسَاَتَهُ فَلَمَّا خَرَّ تَبَيَّنَتِ الْجِنُّ اَنْ لَوْ كَانُوا يَعْلَمُونَ الْغَيْبَ مَا لَبِثُوا فِى الْعَذَابِ الْمُهِينِ (14)

**“…Rəbbinin izni yanında işləyəcək cinləri Süleymanın əmrinə verdik. Onlardan hansı əmrimizdən çıxsa, ona alovlu atəşin əzabını daddırırdıq.**

**Süleymanın istədiyi hər şeyi, uca binaları, heykəlləri və böyük hovuzlara bənzər çanaqları və yerindən tərpədilməsi çətin olan qazanları düzəldirdilər. “Siz, ey Davud ailəsi! Şükür edin! Bəndələrimdən şükür edənlər çox azdır!”, - dedik.**

**Süleymanın ölümünə qərar verdiyimiz zaman onun öldüyünü göstərəcək bir əlamət yox idi, ancaq əsasını yeyən bir güvə böcəyi var idi. Süleyman yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, özlərini alçaldan həmin əzab içində qalmazdılar”** (“Səba” surəsi, 34/12-14).

Peyğəmbərlər yalnız Allahın onlara vəhy etdiyi şeyləri bilirlər. Allah Təala belə buyurur:

قُلْ لَا اَقُولُ لَكُمْ عِنْدِى خَزَائِنُ اللّٰهِ وَلَا اَعْلَمُ الْغَيْبَ وَلَا اَقُولُ لَكُمْ اِنِّى مَلَكٌ اِنْ اَتَّبِعُ اِلَّا مَا يُوحَى
اِلَىَّ قُلْ هَلْ يَسْتَوِى الْاَعْمَى وَالْبَصِيرُ اَفَلَا تَتَفَكَّرُونَ

**"De: “Mən sizə demirəm ki, mənim yanımda Allahın xəzinələri vardır. Mən qeybi də bilmirəm və sizə də demirəm ki, mən mələyəm. Mən yalnız özümə gələn vəhyə tabe oluram”. De: “Kor görənlə bir olarmı? Heç zehninizi yormarsınız?"** (“Ənam” surəsi, 6/50)

قُلْ لَا اَمْلِكُ لِنَفْسِى نَفْعًا وَلَا ضَرًّا اِلَّا مَا شَاءَ اللَّهُ وَلَوْ كُنْتُ اَعْلَمُ الْغَيْبَ لَاسْتَكْثَرْتُ مِنَ الْخَيْرِ
وَمَا مَسَّنِىَ السُّوءُ اِنْ اَنَا اِلَّا نَذِيرٌ وَبَشِيرٌ لِقَوْمٍ يُؤْمِنُونَ

**"De: “Əgər qeybi bilsəydim, sözsüz ki, daha çox xeyir tədarük edərdim və mənə pislik də toxunmazdı. Mən inanan bir tayfanı ancaq xəbərdar edən və bir müjdələyənəm!"** (“Əraf” surəsi, 7/188).

Qeyb aləmi ilə bağlı bəzi xəbərlər Allah Təala tərəfindən peyğəmbərlərinə vəhy yolu ilə bildirilmiş, biz də bunları o şəkildə öyrənirik. Lakin istər xristianlar, istərsə də bəzi təriqət və camaatlar qeybi bilməyin mümkün olduğunu iddia edirlər.

### 1 - Katoliklərdə qeyb məlumatı

Əvvəldə də qeyd edildiyi kimi, katoliklər Məsih İsaya və Müqəddəs Ruha Tanrı deyirlər. Onların fikrincə, yepiskopluq mərhələsində olan insan Məsihin yerinə keçir və onun vəzifəsini öz üzərinə götürür. Belə bir şəxsin qeybi bildiyinə tamamilə bir inam var. Keşişlər isə yepiskopların köməkçiləridirlər. Onlar da qeybi bilirlər. Katoliklərin mövzu ilə bağlı fikirləri belədir:

“Məsih İsanın həvarilərinə əmanət etdiyi missiyanı Kilsə Ruhbanlıq sirri ilə davam etdirir.[182] Yepiskopluq ruhbanlıq sirrinin ən yüksək dərəcəsidir.[183] Yepiskopluq mərhələsinə çıxan şəxs üstün və açıq şəkildə rəbb, çoban və rahib olan Məsihin ye-

[182] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1536
[183] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1555

rinə keçir və onun vəzifəsini öz üzərinə götürür. Ona verilən müqəddəs ruh sayəsində yepiskoplar mənəvi krallıq, çobanlıq və peyğəmbərlik səlahiyyətlərinə malik olurlar.[184] Yepiskopların köməkçiləri olan keşişlər Məsihin əmanət etdiyi vəzifəni həyata keçirməyə çalışırlar.[185] Müqəddəs ruhun xüsusi lütfü nəticəsində ruhbanlıq sirrindən agah olan insan rahib, müəllim və çoban kimi tamamilə Məsih İsaya bənzəyir."[186]

### 2 - Təriqət və camaatlarda qeybi bilmə düşüncəsi

Bəzi təriqət və camaatlar Allahın övliyası adlandırdıqları bəzi insanların qeyb aləmini bilmə gücündə olduqlarını da iddia edirlər. Məsələn, Said Nursinin fikrincə, Hz. Əli və Əbdülqadir Geylani kimi şəxslər qeybi bildikləri üçün əsrlərlə əvvəl ondan bəhs etmişlər. O, iddiasını sual-cavabla belə əsaslandırır:

**Sual:** Əbdülqadir Geylani kimi böyük övliyalar bəzən keçmişi və gələcəyi bu gün kimi görüb bildikləri halda, nə üçün keçmişlə bağlı olanları açıq şəkildə deyir, gələcəklə bağlı isə üstüörtülü rəmzlər və gizli işarələrlə danışırlar?

**Cavab:** "Qeybi Allahdan başqası bilməz..." ayəsilə "...O bütün qeybi bilir, qeybini heç kimə açıqlamaz. Ancaq istədiyi peyğəmbərdən başqa!"[187] ayəsinin qoyduğu müqəddəs hökmə qarşı qulluğa yaraşan ədəblə açıqlama verməyib işarələrlə danışmağı üstün tutmuş, işarə və rəmzlərdən istifadə etmişlər ki, qeyblə bağlı bu biliklərin özlərinin seçimi və ya niyyəti ilə deyil, Allahın öyrətməsi ilə bildikləri aydın olsun. Çünki gələcəklə bağlı qeyb xəbərləri insana şəxsi seçimi və niyyəti ilə verilmədi-

[184] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1558
[185] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1562
[186] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 1585
[187] "Cin" surəsi, 72/26-27

yi kimi, niyyətlə hərəkət etmək də həmin qadağaya tabe olmamaq mənasını verir.[188]

Bu iddia üç nöqteyi-nəzər baxımından səhvdir:

**a - Qeybi heç kim bilmir**

Allah Təala belə buyurur:

وَمَا كَانَ اللّٰهُ لِيُطْلِعَكُمْ عَلَى الْغَيْبِ

**"Allah sizi qeybi biləcək hala gətirəcək deyil..."** (“Ali-İmran” surəsi, 3/179)

Allah Təala bildirmək istədiyi qeybi peyğəmbərləri vasitəsilə bildirir. Bunun xüsusi bir üsulu vardır. O, belə buyurur:

عَالِمُ الْغَيْبِ فَلَا يُظْهِرُ عَلَى غَيْبِهِ اَحَدًا (26) اِلَّا مَنِ ارْتَضَى مِنْ رَسُولٍ فَاِنَّهُ يَسْلُكُ مِنْ بَيْنِ يَدَيْهِ وَمِنْ خَلْفِهِ رَصَدًا (27) لِيَعْلَمَ اَنْ قَدْ اَبْلَغُوا رِسَالَاتِ رَبِّهِمْ وَاَحَاطَ بِمَا لَدَيْهِمْ وَاَحْصَى كُلَّ شَيْءٍ عَدَدًا (28)

**“Allah bütün qeybi bilir, Öz qeybini heç kəsə əyan etməz.**

**İstədiyi peyğəmbərdən başqa! Onların önündə və arxasında gözətçilər qoyar.**

---

[188] Said Nursi, Sikke-i Tasdik-i Gaybî, Sekizinci Lema, a.g.e, c. II, 2091. Yuxarıdakı ifadələr sadələşdirilmişdir. Əsli belədir:
Suâl: Gavsı Azam gibi büyük velîler, bazı evkâtta, mazi ve müstakbeli hazır gibi müşâhede ederler. Neden mâziye ait cihette sarahat sûretinde haber veriyorlar da, istikbalden hafî remizlerle gizli işaretlerle bahsediyorlar? Elcevap: “lâ yalemu men fis-semavati vel-erdil-gaybe illallah” âyetiyle, “Âlimul-ğaybi fela yuzhiru alâ gaybihi ahadâ; illâ menirtedâ min resûl.” Ayeti ifade ettikleri, kudsi yasağa karşı ubûdiyetkârâne bir hüsn-ü edep takınmak için, tasrihten işaret mesleğine girmişler. Tâ ki, işaretler ile, remz ile anlaşılsın ki, ihtiyarsız, niyetsiz bir sûrette tâlim-i ilâhî ile olmuştur. Çünkü istikbâlî olan gaybiyat, niyet ve ihtiyar ile verilmediği gibi; niyet ile de müdâ- hale etmek, o yasağa karşı adem-i itâat-ı işmam ediyor”.

**Beləliklə, o (peyğəmbər) bilsin ki, onlar (o mələklər) Allahın göndərdiklərini təbliğ etdiyini bilsin, (özü də) onların yanında olanı qavramış və hər şeyi bir-bir saymışdır!"** ("Cinn" surəsi, 72/26-28).

Vəhy gəldikdən sonra həmin məlumatlar artıq qeyb olmaqdan çıxır. Mələklərin müşahidəçi edilməsi gələn məlumatların Allahdan olması ilə bağlı peyğəmbərin şübhə etməməsi üçündür. Çünki Allah Təala belə buyurur:

وَمَا اَرْسَلْنَا مِنْ قَبْلِكَ مِنْ رَسُولٍ وَلَا نَبِيٍّ اِلَّا اِذَا تَمَنَّى اَلْقَى الشَّيْطَانُ فِى اُمْنِيَّتِهِ فَيَنْسَخُ اللَّهُ مَا يُلْقِى
الشَّيْطَانُ ثُمَّ يُحْكِمُ اللَّهُ اَيَاتِهِ وَاللَّهُ عَلِيمٌ حَكِيمٌ

**"Səndən əvvəl göndərdiyimiz elə bir nəbi və elçi yoxdur ki, o, bir şeyi arzu etdikdə şeytan onun arzusuna vəsvəsə yolu ilə bir xələl qatmasın! Allah Şeytanın vəsvəsini aradan qaldırır, sonra Allah Öz ayələrini möhkəmlədər. Allah biləndir, hakimdir!"** ("Həcc" surəsi, 22/52).

Ayənin ifadə etdiyi qüdsi hökmə tabe olmağın ədəb göstəricisi kimi işarələrdən istifadə etmişlər. Yəni işarələrlə, rəmzlərlə ixtiyarsız və niyyətsiz halda ilahi biliklərdən xəbər verirlər. Çünki gələcəyə aid olan qeyb xəbərləri niyyət və ixtiyarla verilmədiyi kimi, niyyətlə də qarışmaq Adəmin həmin qadağaya tabe olmasını göstərir."

Bəzi təfsirlərdə "Ənam" surəsinin nazil olmasıyla bağlı Ənəs b. Malikdən gələn belə bir rəvayətdən bəhs edilir: "Allahın Elçisi dedi: Qurandan "Ənam" surəsindən başqa heç bir surə mənə tam şəkildə nazil olmadı. Şeytanlar bu surə üçün toplaşdıqları qədər heç bir surə üçün toplaşmamışdılar. Bu surə mənə Cəbrail ilə birlikdə əlli min mələklə birlikdə göndərildi. Onlar

bunu mənə bir toy təmtərağı ilə gətirdilər."[189] Bu şəkildə Elçi ona gələnin vəhy mələyi olduğuna və vəhyə şeytan vəsvəsəsinin qarışmadığına güvənir.

Said Nursi Peyğəmbərlərə vəhyin necə gəldiyini bildirən yuxarıdakı ayəni övliyaların qeybi öyrənə biləcəklərinin dəlili olaraq göstərmişdir. Doğrusu, bu, çox təəccüblü iddiadır.

**b - Keçmişlə bağlı qeybi heç kim bilməz**

Said Nursi belə bir ifadə işlədir: "Əbdülqadir Geylani kimi böyük övliyalar bəzən keçmişi və gələcəyi bu gün kimi görüb bildikləri halda..."[190]

Belə bir iddia necə qəbul edilə bilər! Allah Təala belə buyurur:

قُلْ لَايَعْلَمُ مَنْ فِى السَّمٰوَاتِ وَالْاَرْضِ الْغَيْبَ اِلَّا اللّٰهُ

**"De: "Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz!"** ("Nəml" surəsi, 27/65). Ayə yalnız insanların deyil, mələklərin və cinlərin də qeybi bilmədiklərini bildirir.

Allah Təala Nuh əleyhissəlamın başına gələnləri qeyd etdikdən sonra Peyğəmbərimizə belə buyurur:

تِلْكَ مِنْ اَنْبَاءِ الْغَيْبِ نُوحِيهَا اِلَيْكَ مَاكُنْتَ تَعْلَمُهَا اَنْتَ وَلَا قَوْمُكَ مِنْ قَبْلِ هٰذَا

**"Bunlar sənə vəhy etdiyimiz qeyb xəbərlərindəndir. Bundan qabaq onları nə sən, nə də ümmətin bilirdi..."** ("Hud" surəsi, 11/49)

Bu mövzuda çoxlu sayda ayələr vardır. Bu ayələrə də baxmaq olar:

---

[189] Elmalılı Muhammed Hamdi YAZIR, Hak Dini Kuran Dili, İstanbul 1936, c. III, s. 1861–1862.

[190] Said Nursi, Sikke-i Tasdik-i Gaybî, Sekizinci Lema, a.g.e, c. II, 2091.

“Ali-İmran” surəsi, 3/44; “Əraf” surəsi, 7/101; Hud surəsi, 11/120-123; “Yusuf” surəsi, 12/102.

**c - Müqəddəs qadağa iddiası**

Said Nursi Allahdan başqasının qeybi bilməyəcəyi mövzusunu “müqəddəs qadağa” adlandırmışdır. Sanki Allah Təala “qeybi heç kim bilməz” deməmiş, əksinə “heç kim gələcəklə bağlı bildiyi şeyləri deməsin”, - buyurmuşdur. Bu iddia insanı Allah qarşısında çox pis vəziyyətdə qoyur. Allah Təala belə buyurur:

وَمَا كَانَ اللَّهُ لِيُطْلِعَكُمْ عَلَى الْغَيْبِ

**“...Allah sizə qeybi bildirəsi deyildir...”** (“Ali-İmran” surəsi, 3/179)

Said Nursinin yuxarıdakı iddiasına əsasən, Əbdülqadir Geylani kimi böyük övliyaların qeybi bilmələri “öz seçimləri və niyyətləri ilə deyil, Allahın öyrətməsiylə imiş (?!) Əks halda istəyərək qeybi bilmək işinə girişmələri itaətsizlik havası verirmiş (!)”

Deməli, Allah həm **“Qeybi heç kim bilməz, onu heç kimə bildirmirəm”** deyəcək, həm də bunu bəzi insanlara bildirəcək?! O insanlar da keçmişlə bağlı olanları bildirməyi adi hal hesab edəcəklər, lakin gələcəklə bağlı qeyb xəbərlərini “dərk edən başa düşsün” şəklində örtülü işarələrlə “yola verəcəklər”! Bunu da Allaha qarşı müəyyən itaətsizlik mühitinin yaranmaması üçün edəcəklər!!!...

Bu inancdan Allaha sığınmaq lazımdır.

## İ - VASİTƏÇİLƏRİN ŞƏFAƏT EDƏCƏYİ İNANCI

### 1 - Katoliklərdə şəfaət inancı

Katoliklərin fikrincə, şəfaət İsanın duasına uyğun olan istək duasıdır.[191] Onlar şəfaət əvəzinə "xilaskarlıq" sözündən istifadə edirlər. Katoliklərə görə, "Məsih İsa Atanın yanında xristianların vəkilliyini edir, onların lehinə vasitəçilik etmək üçün daima canlıdır. Hər zaman Allahın hüzurunda hazır dayanır.[192] Onun vasitəsi ilə Allaha yaxınlaşanları tamamilə xilas etməyə qadirdir."[193]

"Müqəddəs Ruh olmadan Tanrının Oğlunu görmək mümkün deyildir. Oğul olmadan da heç kim ataya yaxınlaşa bilməz. Çünki Atanı qəbul etmək Oğulu qəbul etməkdir. Tanrının oğlunu tanımaq da Müqəddəs Ruh vasitəsi ilə mümkündür".[194]

"Məryəm Ana vəkil və köməkçidir. "Məryəm ananın analığı sona çatmamışdır. Təkrarlanan vasitəçiliyi ilə daima nicat bəxş edən ərməğanlarını zəmanət altına almağı davam edir".[195]

Katoliklərin fikrincə, keşiş "Allahla bağlı mövzularda insanları təmsil etmək üçün təyin edilir".[196] O, şəxsi səlahiyyəti ilə insanlara: "Atanın adından səni bağışlayıram deyə bilir".[197]

### 2 - Təriqətlərdə şəfaət inancı

Tədqiq etdiyimiz təriqətlərdə də katoliklərdəki inanca bənzər inanc vardır. Onlar "xilaskarlıq" əvəzinə, daha çox "şəfaətçilik" sözünü işlədirlər. Bu mövzu ilə bağlı bir şeyx və təriqətin

[191] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 2634.
[192] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 519.
[193] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 2634.
[194] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 683.
[195] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», paraqraf 969.
[196] İbranilərə məktub, 5/1.
[197] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 878.

rəhbər şəxsləri ilə apardığımız söhbətin bir hissəsi aşağıdakı kimidir:

**Mürid:** Biz inanırıq ki, Şeyx Əfəndi bizə köməkçi olacaq. Məsələn, bu gün məhkəmədə vəkil tutmaq zərurəti yoxdur. Lakin ümumiyyətlə, məhkəmədə vəkil tutan tərəflər iddiada qalib gəlirlər. Şeyx Əfəndi də bizim vəkilimizdir.

**Bayındır:** Siz gizli və açıq olan hər şeyi bilən Allahı hakimlə eyni hesab edirsiniz? Allah Təala belə buyurur:

يَوْمَ يَفِرُّ الْمَرْءُ مِنْ اَخِيهِ (34) وَاُمِّهِ وَاَبِيهِ (35) وَصَاحِبَتِهِ وَبَنِيهِ (36) لِكُلِّ امْرِىءٍ مِنْهُمْ يَوْمَئِذٍ شَاْنٌ يُغْنِيهِ (37)

**“O gün insan qaçacaq öz qardaşından; anasından, atasından; zövcəsindən və oğullarından! O gün onlardan hər birinin istənilən qədər işi olacaqdır!”** (“Əbəsə” surəsi, 80/34-37)

Belə olduğu halda Şeyx Əfəndi hardan fürsət tapıb sizi müdafiə edəcək?

Ənsardan Ummul-Ala deyir ki, muhacirlər arasında püşk atıldıqda bizə Osman b. Mazun düşdü. Onu evimizdə yerləşdirdik. Sonra ölümünə səbəb olan xəstəliyə tutuldu. Vəfat etdikdə yuyuldu və öz paltarları ilə kəfənləndi.

Muhəmməd sallallahu aleyhi va səlləm içəri girdi. O əsnada dedim ki, “Əbus-Saib![198] Allah sənə rəhmət eləsin. Allahın sənə həqiqətən böyük nemət verdiyinə şahidəm.” Bunu eşidən Muhəmməd sallallahu aleyhi va səlləm belə buyurdu: “Allahın ona nemət verdiyini haradan bilirsən?” Dedim ki, “Atam sənə qurban olsun, ey Allahın Elçisi! Allah bəs kimə nemət verir?” Muhəmməd sallallahu aleyhi va səlləm buyurdu ki, “Bəli, ona qaçılmaz həqiqət gəldi. Vallah, onun üçün daima xeyirlər gözlə-

[198] Osman b. Mazun radıyallahu anhın ləqəbidir.

yirəm. Lakin mən Allahın Elçisi olduğum halda necə qarşılanacağımı vallahi bilmirəm.”

Ummul-Ala dedi ki, “Vallahi, bundan sonra heç kimə bəraət qazandırmaram.”[199]

Lakin siz şeyxinizin cənnətə gedəcəyinə şübhə etmədiyiniz kimi, Allahın hüzurunda sizi müdafiə edəcəyini demək cəsarətini də göstərirsiniz. Məgər bizə şah damarımızdan daha yaxın olan Allahın gözündən yayınan nə isə var ki, vəkilliyimizi edəcək şeyx də (Allah qorusun!) Allahın hüzurunda onu xatırladacaq? Yaxud məgər Allah (Allah qorusun!) sorğu-sualda səhv edəcək ki, şeyxiniz ona mane olsun? Nə qədər səhv yolda olduğunuzu başa düşürsünüz?

**Mürid:** Müftilikdə hər hansı müfti ilə görüşmək istədikdə[200] araya bir qapıçı girməli və ya bir insan səni müftiyə təqdim etməlidir. Araya bir insan girməsə hər hansı məmur və ya nazirlə rahat şəkildə görüşə bilərsən? Şeyx Əfəndi də bizimlə Allah arasında müəyyən səbəb və vasitə olur.

**Bayındır:** Bizə şah damarımızdan daha yaxın olan Allah Təala üçün bu sözü necə demək olar!?..

Bu inanc insanı Allaha şərik qoşmağa aparır. Şirk qoşmaq isə Allahla bəndə arasına bir vasitəçini daxil etməkdir. “Zumər” surəsində diqqətlər buna cəlb edilir:

اَلَا لِلَّهِ الدِّينُ الْخَالِصُ وَالَّذِينَ اتَّخَذُوا مِنْ دُونِهِ اَوْلِيَاءَ مَانَعْبُدُهُمْ اِلَّالِيُقَرِّبُونَا اِلَى اللَّهِ زُلْفَى اِنَّ اللَّهَ
يَحْكُمُ بَيْنَهُمْ فِى مَاهُمْ فِيهِ يَخْتَلِفُونَ اِنَّ اللَّهَ لَايَهْدِى مَنْ هُوَ كَاذِبٌ كَفَّارٌ

**“Yaxşı bil ki, xalis din ancaq Allaha məxsusdur. Allahı qoyub özlərinə dost tutanlar: “Biz onlara yalnız bizi Allaha tam yaxınlaşdırmaları üçün qulluq edirik!” deyirlər. Şübhə-**

---

[199] Buxari, «Cənaiz», 3.
[200] Bu görüşün keçirildiyi günlərdə İstanbul müftiliyində işləyirdim.

**siz ki, Allah ixtilafda olduqları məsələlər barəsində onların arasında hökmünü verəcəkdir. Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz!"** ("Zumər" surəsi, 39/3).

Xahiş edirəm, belə inanclardan uzaq olun. Çünki şeytan insanı daima bu üsulla azdırmağa çalışır. İndi mənə deyin görüm, səni yaradan, yetişdirən, səni böyüdən və sənə səndən daha yaxın olan Allah səni daha yaxşı tanıyır, yoxsa şeyx?

**Mürid:** Əlbəttə ki, Allah yaxşı tanıyır.

**Bayındır:** Şeyx Əfəndi sənin nəyini Allaha tanıdacaq?!

**Mürid:** ?!

Görüş şeyxin yanında baş vermişdi və o da, bu vəziyyəti təsdiq etmişdir. Mürid sözü ilə söhbətə qoşulan və təriqətin üstün alimlərindən sayılan kəslər nəzərdə tutulur.[201]

Allah Təala belə buyurur:

وَيَعْبُدُونَ مِنْ دُونِ اللَّهِ مَا لَا يَضُرُّهُمْ وَلَا يَنْفَعُهُمْ وَيَقُولُونَ هَؤُلَاءِ شُفَعَاؤُنَا عِنْدَ اللَّهِ قُلْ أَتُنَبِّئُونَ اللَّهَ بِمَا لَا يَعْلَمُ فِي السَّمَوَاتِ وَلَا فِي الْأَرْضِ سُبْحَانَهُ وَتَعَالَى عَمَّا يُشْرِكُونَ

**"Onlar Allahı qoyub elə şeyə qul olurlar ki, özlərinə nə bir xeyir, nə də bir zərər verə bilər. "Bunlar Allah yanında bizdən ötrü şəfaət edənlərdir!" - deyirlər. De: "Allaha göylərdə və yerdə bilmədiyi bir şeyimi xəbər verirsiniz? Allah onların şərik qoşduqlarından uzaqdır və ucadır!"** ("Yunus" surəsi, 10/18).

Allah kimə şəfaət vermək səlahiyyəti verirsə, yalnız onlar öz istədiklərinə deyil, Allahın dilədiyi insanlara şəfaət edə bilərlər.

قُلْ لِلَّهِ الشَّفَاعَةُ جَمِيعًا

**"De: "Şəfaət səlahiyyəti yalnız Allaha məxsusdur..."** ("Zumər" surəsi, 39/44).

---

[201] Tam söhbət üçün Bxn. Abdulaziz BAYINDIR, Kuran Işığında Tarikatçılığa Bakış, Dördüncü baskı, İstanbul, 2005, s. 126-131.

يَعْلَمُ مَا بَيْنَ اَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ وَلَا يَشْفَعُونَ اِلَّا لِمَنِ ارْتَضَى وَهُمْ مِنْ خَشْيَتِهِ مُشْفِقُونَ (28)
وَمَنْ يَقُلْ مِنْهُمْ اِنِّى اِلَهٌ مِنْ دُونِهِ فَذَلِكَ نَجْزِيهِ جَهَنَّمَ كَذَلِكَ نَجْزِى الظَّالِمِينَ (29)

**“Allah onların etdiklərini də, edəcəklərini də bilir. Şəfaət üçün ixtiyar verdikləri yalnız onun razı olduğu kəslərdən başqasına şəfaət edə bilməzlər. Özləri də Onun qorxusundan titrəyərlər. Onlardan kimsə: “Mən Allaha yaxın bir tanrıyam” deyərsə, onu cəhənnəmlə cəzalandırarıq. Biz zalımları belə cəzalandırırıq”** (“Ənbiya” surəsi, 21/28-29).

Əbu Hureyrə radıyallahu anh bildirir:

**“Qəbilənin ən yaxınlarını xəbərdar et!”** (“Şuəra” surəsi, 26/214) ayəsi nazil olduqda Peyğəmbər sallallahu aleyhi va səl-ləm ayağa qalxdı və belə çıxış etdi:

“Ey Qureyş tayfası! Özünüzü xilas etməyə çalışın. Allahın yanında sizə heç bir faydam olmaz. Ey Əbdulmənaf oğulları! Allah dərgahında sizə heç bir faydam olmaz. Ey Əbdulmuttalibin oğlu Abbas![202] Allahın yanında sizə heç bir faydam olmaz. Ey Safiyyə, (Rəsulullahın bibisi)! Allah dərgahında sənə heç bir faydam olmaz. Ey Muhəmmədin qızı Fatimə! Allahın yanında sənə heç bir faydam olmaz...”[203]

## J - ÖLÜDƏN YARDIM İSTƏMƏK

Xristianlar həyatda olmayan dini rəhbərlərindən kömək istəyirlər. Eyni şeyi bəzi təriqət və camaatlar da edirlər. Onlar da vəfat etmiş din böyüklərindən kömək istəmək, onları vasitəçi və şəfaətçi qəbul etmək üçün məzarlarını ziyarət etməyi, onlara qurbanlar verməyi dindarlığın bir hissəsi hesab edirlər.

[202] Peyğəmbərimizin əmisi.
[203] Buxari, «Vəsaya», 11.

### 1 - Kataloliklərin ölüdən kömək istəməsi

Katoliklər Məryəm ananı vasitəçi qəbul edərək belə dua edirlər:

"İnsan olmuş Kəlamın[204] Anası və Kilsənin Anası olan çox müqəddəs Bakirə Məryəmə Kilsənin yeni xristianlaşdırma fəaliyyətinə çağırıldığı bu zamanda kilsənin bütün səviyyələrində din dərslərinə **güclü vasitəçiliyi ilə dəstək olması** üçün dua edirəm."[205]

Çox əsrlər bundan əvvəl ölmüş Məryəmi köməyə çağıran Papa onun özünə, qüvvətli vasitəçiliyi ilə dəstək olacağına inandığına görə, yəqin ki, Məryəmin onu tanıdığına və dəvətini eşitdiyinə də inanır. Beləliklə, ona bəzi ilahi sifətlər və xüsusiyyətlər şamil edir. Bunlar həyat, elm, səmi (eşitmək), basar (görmək), iradə, qüdrət və buna bənzər başqa sifətlərdir.

**Həyat** canlılıq deməkdir. Katoliklərin fikrincə, ləkəsiz Bakirə yer üzündəki həyatını başa çatdırdıqdan sonra, günaha və ölümə qalib gələn Rəbblərin Rəbbi olan Oğluna daha uyğun olmaq üçün ruhu və bədəni ilə birlikdə göyə qaldırıldı. Rəbb tərəfindən kainatın kraliçası kimi ucaldıldı. Məryəm Ananın göyə yüksəldilməsində məqsəd Oğlunun dirilməsində misilsiz iştirakını və digər xristianların dirilməsini tezləşdirməkdir.[206]

Məryəm Anaya verildiyi iddia edilən kainatın kraliçası kimi səlahiyyət onu dünyanın sonuna qədər diri hesab etməyi zəruri edir. Yenidən dirilişə iştirak etməsi iddiası da qiyamət əsnasında diri qalacağını qəbul etməkdir. Qiyamətdən sonra ölüm olmayacağına görə, katoliklər onun ölməyəcəyini, əbədi olacağını

---

[204] İsa əleyhissəlam.

[205] Papa II İohann Pavelin «Katolik Kilisesi Din ve Ahlak İkeleri» kitabının ön sözündə qeyd edilən duası, s. 22.

[206] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 966.

qəbul edirlər. Ölməmək və əbədi qalmaq yalnız Allaha məxsusdur. Məryəmi də əbədi hesab etmək onu Allaha ortaq qoşmaq deməkdir.

**Elm** bilmək və başa düşmək deməkdir. İnsanda elm sifəti vardır, lakin Vatikanda olan birisinin Məryəmi vasitəçi olmağa çağırması onu göstərir ki, onun həm özünü tanıdığına, həm də onun istədiyi şeyi ən az Allah qədər bildiyinə inanmalıdır. Çünki vasitəçi olmaq üçün bu bilik əsas şərtdir. O zaman o, Məryəmi Allahın hədsiz biliyinin bir hissəsinə ortaq hesab edir.

**Səm** eşitmə gücüdür. Allah insana eşitmə gücü vermiş, lakin bu, müəyyən məsafə, müəyyən titrəyişdəki səslərlə məhdudlaşır. Vatikandan Məryəmə səslənən onu Allahın eşitmə sifətinə də şərik qoşur. Belə bir eşitmə Allahdan başqasına xas deyildir. Belə ki, Məryəm artıq ölmüşdür. Bizim ölüyə nə isə eşitdirməyə gücümüz çatmaz. Allah Təala Elçisi Muhəmmədə (s.a.v.) müraciət edərək belə buyurur:

اِنَّكَ لَاتُسْمِعُ الْمَوْتٰى

**“Şübhəsiz ki, sən ölülərə eşitdirə bilmərsən!”** (“Nəml” surəsi, 27/80)

اِنَّ اللّٰهَ يُسْمِعُ مَنْ يَشَاءُ وَمَا اَنْتَ بِمُسْمِعٍ مَنْ فِى الْقُبُورِ

**“...Şübhəsiz ki, Allah dilədiyinə eşitdirər. Sən isə qəbirlərdə olanlara bir şey eşitdirə bilmərsən!”** (“Fatir” surəsi, 35/22).

Məryəm öldüyünə görə, heç kim ona bir şey eşitdirə bilməz.

Bədr döyüşündə öldürülən müşriklər bir quyuda basdırıldıqdan sonra Allahın Elçisi sallalahu əleyhi və səlləmin onların yanına gəlib belə dediyi bildirilmişdir:

“Ey filankəs oğlu filankəs! Allahın və Elçisinin sizə verdiyi sözün haqq olduğunu gördünüzmü? Çünki mən Allahın mənə verdiyi sözün doğru olduğunu gördüm.”

Ömər dedi: “Ey Allahın Elçisi! Ruhsuz cəsədlərlə necə danışırsan?” O, belə cavab verdi: “Dediklərimi onlar sizdən daha yaxşı eşirdirlər. Lakin onlar mənə cavab verə bilməzlər.”[207]

Ola bilsin ki, həmin anda Allah Peyğəmbərimizin səsini onlara eşitdirmişdir. Bu qədər ayəyə baxmayaraq bu cür xüsusi bir hadisəyə əsaslanaraq fərqli hökm vermək olmaz. Onlar eşitsələr də, cavab verə bilməyəcəklər.

Qiyamətə qədər heç cür cavab verə bilməyəcək ölülərdən kömək diləmək bu ayənin verdiyi hökmü xatırladır.

وَمَنْ اَضَلُّ مِمَّنْ يَدْعُوا مِنْ دُونِ اللّٰهِ مَنْ لَايَسْتَجِيبُ لَهُ اِلَى يَوْمِ الْقِيَمَةِ وَهُمْ عَنْ دُعَائِهِمْ غَافِلُونَ
(5)

**“Allahı qoyub qiyamət gününədək özünə cavab verə bilməyəcək olanları çağırandan daha azmış kim ola bilər?! Halbuki bunlar onların çağırmasından xəbərsizdirlər!”** (“Əhqaf” surəsi, 46/5).

**Basar** görmə gücü deməkdir. Bir ölünü köməyə çağıran həmin ölünün onu gördüyünə inanmalıdır. Fiziki maneələrlə məhdudlaşdırılmayan görmə yalnız Allaha məxsus olduğundan, bu şəxs Məryəmi Allahın görmə sifətinə də ortaq hesab edir.

**İradə** istəmək və seçməkdir. **Qüdrət** də bir şeyə qüvvəsi olmaq mənasına gəlir. İnsanın iradəsi də, qüdrəti də məhduddur. Öldükdən sonra hər şey sona çatır. Məryəmin çağırışı qəbul etdiyini və lazımi köməyi göstərdiyini xəyal edən ona bu iki sifəti, yəni qeyri-adi iradə və qüdrəti şamil edir. Bu fövqəladə bir iradə və qüdrət yaraşdırmasıdır. Bu mənada qeyri-məhdud iradə və

[207] Muslim, “əl-Cənnəh və sifətu naimiha”, Bab 17, hədis N 76 (2873)

qüdrət sahibi olan tək varlıq Allah Təaladır. Bu şəkildə Papa Məryəmi Allahın bu iki sifətinə ortaq hesab edir.

Papa ilə birlikdə minlərlə xristianlar da öz dilləri ilə Məryəmi vasitəçi olmağa çağırdığı üçün onun hər istək sahibini tanıdığına, dilini bildiyinə, istəkləri başa düşdüyünə, onları qarışdırmadan qiymətləndirdiyinə də inanmalıdırlar. Bu da yalnız Allahın qüvvəsi daxilində olan böyük elm və qüdrəti zəruri edir. Onlar Məryəmi bu mövzuda da Allaha ortaq hesab etmək məcburiyyətindədirlər.

İnsanların istəklərindən xəbəri olmayan, yalnız qiyamət günü diriləcək bir ölü bizə şah damarımızdan daha yaxın olan və hər şeyi bilən Allah qarşısında nəcə vasitəçilik edə bilər?

Məryəmin vasitəçi olması üçün o, yuxarıdakı sifətlərə malik olmalıdır. Həmin sifətlər Allahın adlarından törənmişdir. Bunlar hayy, alim, səmi, basir, murid və qadir adlarıdır. Allah Təala belə buyurub:

وَلِلّٰهِ الْاَسْمَاءُ الْحُسْنٰى فَادْعُوهُ بِهَا وَذَرُوا الَّذِينَ يُلْحِدُونَ فِى اَسْمَائِهِ سَيُجْزَوْنَ مَا كَانُوا يَعْمَلُونَ

**“Ən gözəl adlar Allahındır. Onu bu adlarla çağırın. Onun adları barəsində küfr edənləri tərk edin. Onlar bu etdikləri əməllərin əvəzini alacaqlar!”** (“Əraf” surəsi, 7/180).

Allah Məryəm anada olduğu iddia olunan səlahiyyətləri hətta elçilərinə belə verməmişdir. O, son elçisinə belə buyurur:

وَمَا جَعَلْنَاكَ عَلَيْهِمْ حَفِيظًا وَمَا اَنْتَ عَلَيْهِمْ بِوَكِيلٍ

**“…Biz səni onların üzərində gözətçi qoymamışıq və sən onların vəkili də deyilsən!”** (“Ənam” surəsi, 6/107).

اِنَّمَا اَنْتَ نَذِيرٌ وَاللّٰهُ عَلٰى كُلِّ شَيْءٍ وَكِيلٌ

**“…Sən ancaq xəbərdar edən bir peyğəmbərsən. Allah isə hər şeyə vəkildir!”** (“Hud” surəsi, 11/12).

### 2 - Təriqətlərdə və camaatlarda ölüdən kömək istəmək

Quranın bir çox ayəsi “Allahdan başqasından kömək istəmə”yi müşriklərin ən səciyyəvi xüsusiyyətlərindən hesab edir[208]. İnsanlar ən çox dua və ibadət məsələlərində səhv etdiklərinə görə peyğəmbərlər də insanlara bu mövzularla bağlı xəbərdarlıq edirlər. Namaz, oruc, həcc, zəkat, halal və haramlarla bağlı ayələrin sayı az olduğu halda, Quranın böyük bir hissəsi Allahdan başqasına ibadət etməyi, darda qaldıqda başqasından nə isə gözləməyi şirk hesab edərək qadağan edir. Allah Təala belə buyurur:

اَمَّنْ يُجِيبُ الْمُضْطَرَّ اِذَا دَعَاهُ وَيَكْشِفُ السُّوءَ وَيَجْعَلُكُمْ خُلَفَاءَ الْاَرْضِ ءَاِلَهٌ مَعَ اللَّهِ قَلِيلًا مَا تَذَكَّرُونَ

**"Darda qalan birisi dua etdiyi zaman onun köməyinə kim çatır və sıxıntını sizdən sovuşdurar və sizi yer üzünün hakimləri edir? Məgər Allahla yanaşı başqa bir tanrımı var? Siz nə az düşünürsünüz?"** (“Nəml” surəsi, 27/62).

Bu mövzuda bir çox hədislər uydurulmuş, bununla bağlı ayələr və hədislər başqa istiqamətlərə çəkilmiş və hədlər aşılmışdır.

#### a - Uydurulan hədis

Ölüdən kömək istəməklə bağlı belə bir hədis uydurulmuşdur:

---

[208] “Nisa” surəsi, 4/117; “Ənam” surəsi, 6/40, 41, 56, 64, 71, 108; “Əraf” surəsi, 7/37, 194, 195, 197; “Yunus” surəsi, 10/38, 66, 106; “Hud” surəsi, 11/101; “Rəd” surəsi, 13/14; “Nəhl” surəsi, 16/20, 86; “İsra” surəsi, 17/56, 57, 67; “Kəhf” surəsi, 18/14; “Məryəm” surəsi, 19/48; “Həcc” surəsi, 22/12, 13, 62, 73; “Muminun” surəsi, 23/117; “Furqan” surəsi 25/68; “Şuəra” surəsi 26/72, 213; “Qəsəs” surəsi, 28/64, 88; “Ənkəbut” surəsi, 29/42; “Loğman” surəsi, 31/30; “Səba” surəsi, 34/22; “Fatir” surəsi, 35/13, 14, 40; “Saffat” surəsi 37/125; “Zumər” surəsi, 39/38; “Mumin” surəsi 40/20, 66, 73, 74; “Fussilət” surəsi, 41/48, “Zuxruf” surəsi, 43/86; “Əhqaf” surəsi, 46/4, 5; “Cinn 72/18.  26 surədə cəmi 50 ayə.

"İşlərinizdə nə edəcəyinizi bilmədiyiniz zaman qəbir əhlindən kömək istəyin."[209]

Bu, Acluninin "«Kəşful-Hafa» adlı kitabında qeyd edilib. Acluni, bu söz üçün "İbn Kamal Paşanın "əl-Ərbəin" əsərində belə yazılıb" demişdir. İbn Kamal bunu Peyğəmbərimizə aid etmiş, lakin heç bir mənbə göstərməmişdir. [210] O bununla kifayətlənməmiş, sözün doğruluğunu isbat etmək üçün fəlsəfi izahatlar vermişdir. Bəzi təriqətçilər də bu sözü əsas götürərək belə deyirlər: "Bir övliya öldükdə, onun ruhu qınından çıxmış qılınc kimi olur".[211]

Acluni xalq arasında hədis kimi tanınan sözləri toplamış və onların doğru olanı ilə əsassız olanını ayırmağa çalışmışdır. Bu səbəbdən o kitabda çoxlu sayda uydurma hədislər vardır. Kitabın əvvəlində Peyğəmbərimizin bu sözü qeyd edilib*: "Kim mənim demədiyim bir şeyi insanlara çatdırsa, cəhənnəmdə qalacağı yerə hazırlaşsın."*[212]

### b - Təhrif edilən ayələr

Quranda həm ibadət, həm də dua sözləri qeyd edilib. İbadət "qulluq etmək", dua isə "çağırmaq və kömək diləmək" mənasındadır. Əksər təfsir və tərcümələrdə duaya "ibadət" mənası

---

[209] Mahmud Ustaosmanoğlu (Mahmud Əfəndi) rəhbərliyində olan bir heyət, Ruhul-Furkan Tefsiri, İstanbul 1992, c. II, s.82.

[210] İbni Kemal Paşa, el-Erbeûn, v. 360. Süleymaniye Kütüphanesi, Esad Efendi, 1694. İbn Kamal, Yavuz Sultan Səlimin məşhur şeyxülislamıdır. 1469-cu ildə Tokatda dünyaya gəlmiş, 1534-cü ildə isə İstanbulda vəfat etmişdir. Peyğəmbərimizin yaşadığı dövrdən 900 ildən artıq müddət keçdiyi bir halda, heç bir mənbə göstərmədən və mənası da Qurana tam zidd olan bir sözü hədis kimi bizə təqdim etməsini qəbul etmək olmaz. İbn Kamal mənbə göstərmək əvəzinə, bu sözün hədis olduğunu isbat etmək üçün heç bir dini əsası olmayan fəlsəfi izahatlar vermişdir.

[211] «Ruhul-Furkan», c. II, s. 67.

[212] İsmail b. Muhammed el-Aclûnî, Keşful-hafâ, c. I, s. 8.

verilərək əsas mənanın itməsinə şərait yaradılmışdır. İbadət edilən duanın qəbul olunması məqsədi daşıdığına görə bu iki söz arasında sıx əlaqə vardır. Bu səbəbdən Peyğəmbərimiz belə buyurub: “Dua ibadətin iliyi və əsasıdır”.[213] Lakin duaya ibadət deyilsə, birisini qeyri-adi yollarla köməyə çağırmanın ibadət olma mənası itir. Bu, bir təhrif hesab edilə bilər.

Təhrif “hərf” kökündəndir. Hərf lüğətdə “uc, sahil, sivri və kəskin tərəf” mənalarını verir.[214] Sözü təhrif etmək hər iki mənaya gələ biləcək məna daşıyan bir sözü yalnız bir tərəfə çəkməkdir. [215] Aşağıdakı ayənin təhrifi nümunələrlə izah edilmişdir.

مِنَ الَّذِينَ هَادُوا يُحَرِّفُونَ الْكَلِمَ عَنْ مَوَاضِعِهِ وَيَقُولُونَ سَمِعْنَا وَعَصَيْنَا وَاسْمَعْ غَيْرَ مُسْمَعٍ وَرَاعِنَا لَيًّا
بِأَلْسِنَتِهِمْ وَطَعْنًا فِي الدِّينِ وَلَوْ أَنَّهُمْ قَالُوا سَمِعْنَا وَأَطَعْنَا وَاسْمَعْ وَانْظُرْنَا لَكَانَ خَيْرًا لَهُمْ وَأَقْوَمَ وَلَكِنْ لَعَنَهُمُ
اللَّهُ بِكُفْرِهِمْ فَلَا يُؤْمِنُونَ إِلَّا قَلِيلًا

**“Yəhudilərin bir qismi sözləri yerlərindən təhrif edirlər (yerləşmiş mənalarından sürüşdürürlər).** سَمِعْنَا وَعَصَيْنَا **-** وَاسْمَعْ غَيْرَ **bir də** رَاعِنَا **deyirlər. Bunu dillərini əyərək və dinə hücum edərək edərlər. Əgər bunların yerinə** اسْمَعْ – سَمِعْنَا وَأَطَعْنَا **bir də** انْظُرْنَا**, - desəydilər, əlbəttə, daha yaxşı və daha doğru olardı. Lakin tanımazlıqdan gəldiklərinə görə Allah onları lənətlədi. Artıq daha az inanırlar.”** (“Nisa” surəsi, 4/46).

Ayədəki üç cümlənin hər birinin iki mənası vardır.

1. “سَمِعْنَا وَعَصَيْنَا” cümləsinin bir mənası “qulaq asdıq və sıx bağlı olduq”, digəri isə “qulaq asdıq və üsyan etdik” şəklindədir.

---

[213] Tirmizi «Dua»,1, hədis N: 3371.
[214] Tərcüməçi Asim, Kamus, (حرف) maddəsi.
[215] Rağib əl-İsfəhani, «Mufrədat», (حرف) maddəsi.

Çünki bu (asa = عَصَي), həm üsyan, həm də dəyənəyə sarılmaq kimi tutmaq mənasına gəlir.[216]

Əgər "سَمِعْنَا وَأَطَعْنَا" "Qulaq asdıq və tabe olduq" desəydilər, sözə başqa məna verməк, yəni təhrif etmək imkanı qalmayacağına görə, daha yaxşı və daha doğru olacaqdı.

2. "وَاسْمَعْ غَيْرَ مُسْمَعٍ" cümləsinin bir mənası, "xahiş edirəm qulaq as, sənə söz deməyə həddimiz olmasa da...", digəri isə belədir: "qulaq as, söz dinləməyən adam…"[217] tərzindədir. Əgər yalnız "qulaq as" mənasına gələn "……" ifadəsi işlədilsəydi, buna başqa məna verilə bilməzdi.

3. "رَاعِنَا" cümləsinin mənalarından biri "bizi otar", digəri isə "bizə nəzarət et" şəklindədir. "Bizi otar" sözündə "iynələmək" var. Yəni "Sən bizi heyvan otaran kimi otarmaq istəyirsənsə, elə isə otar." deyirlər. Əgər dillərini bir az əyər, "ayn" hərfini uzadaraq "raina" deyərlərsə, "bizim çoban" demiş olurlar. Əgər bunun əvəzinə "انْظُرْنَا" desəydilər, "bizə nəzarət et" mənasından başqa bir məna verə bilməzdilər.

Quran yalnız belə təhrif edilə bilər. Çünki o, milyonlarla insanın yaddaşındadır və saysız-hesabsız nüsxələri vardır. Onu başqa cür təhrif etmək mümkün deyil.

Ayədə qeyd edilən "...Bunu dillərini əyərək dinə hücum edərlər" cümləsi təhrif üçün pis niyyəti əsas şərt hesab edir. Yoxsa birdən çox mənası olan bir sözlə bağlı hər səhv seçim təhrif sayılmaz. "Dua" sözünə müəyyən dəlilə əsaslanmadan "ibadət" mənasını verənlər, bəlkə də, bunu dinə ziyan vurmaq məqsədilə etmirlər. Lakin dinə ziyan vurmaq istəyənlərə alət olduqları da bir həqiqətdir. "Əhqaf" surəsinin 4, 5 və 6-cı ayələrini

---

[216] «əs-Sıhah», "Tacul arus", «Lisanul-arab». Əldə etdiyimiz təfsir və tərcümələrdə bu incəlik müəyyən edilməmişdir.

[217] Elmalılı Muhammed Hamdi Yazır, Hak Dini Kuran Dili. "Nisa" surəsi, 46-cı ayəsinin təfsiri.

nümunə verərək duaya ibadət mənası verməyin ayələri hansı istiqamətə apardığına nəzər yetirək.

Allah Təala belə buyurur:

قُلْ اَرَاَيْتُمْ مَاتَدْعُونَ مِنْ دُونِ اللَّهِ اَرُونِى مَاذَا خَلَقُوا مِنَ الْاَرْضِ اَمْ لَهُمْ شِرْكٌ فِى السَّمَوَاتِ اِيتُونِى
بِكِتَابٍ مِنْ قَبْلِ هَذَا اَوْ اَثَارَةٍ مِنْ عِلْمٍ اِنْ كُنْتُمْ صَادِقِينَ (4) وَمَنْ اَضَلُّ مِمَّنْ يَدْعُوا مِنْ دُونِ اللَّهِ مَنْ
لَايَسْتَجِيبُ لَهُ اِلَى يَوْمِ الْقِيَمَةِ وَهُمْ عَنْ دُعَائِهِمْ غَافِلُونَ (5) وَاِذَا حُشِرَ النَّاسُ كَانُوا لَهُمْ اَعْدَاءً وَكَانُوا
بِعِبَادَتِهِمْ كَافِرِينَ (6)

**“De: “Mənə bir xəbər verin görüm, sizin Allahdan başqa nəyi çağırırsınız? Göstərin mənə, onların yer üzündə yaratdıqları nə var?! Yoxsa onların göylərdə bir payı var?! Əgər doğru deyirsinizsə, bu məsələdə mənə bundan əvvəl gəlmiş bir kitab, yaxud elmdən qalan bir şey gətirin!**

**Allahı qoyub qiyamət gününədək özünə cavab verə bilməyəcək kimsələri çağırandan daha azmış kim ola bilər?! Halbuki bunlar onların çağırışından xəbərsizdirlər! İnsanlar axirətdə toplanacaqları zaman bunlar onlara düşmən olacaq və onların qulluğunu qəbul etməyəcəklər”** (“Əhqaf” surəsi, 46/4-5-6).

Bir çox tərcümədə bu ayələrə belə məna verilmişdir: *“De ki: deyin görüm, Allahı qoyub ibadət etdiyiniz şeylər yer üzündə nə yaradıblar? Göstərin mənə... Yoxsa onların göylərə ortaqlıqları var? Əgər doğru deyirsinizsə, bundan əvvəl (sizə nazil edilmiş) bir kitab və ya bilik mənbəyi varsa, onu mənə gətirin.*

*Allahı qoyub qiyamət gününə qədər ona cavab verə bilməyəcək şeylərə ibadət edənlərdən daha azğın kim ola bilər? (Halbuki) onlar bunların ibadət etmələrindən xəbərsizdirlər.*

*İnsanlar bir yerə toplandıqları zaman (müşriklər) onlara (ibadət etdiklərinə) düşmən olur və onlara qulluq etdiklərini inkar edirlər. ("Əhqaf" surəsi, 46/4, 5, 6)*[218]"

Duaya ibadət mənası verildikdə, onunla bağlı yeni məna sürüşmələrinin yaranması qaçılmaz olmuşdur. Səhv səhvi gətirmiş, yuxarıdakı üç ayədə olan səhvlərin sayı isə beşə çatmışdır. Bu səhvlər aşağıdakılardır:

**1) Duaya ibadət mənası vermək**

"**Dua** dəvət sözünün məsdəridir. Daha sonra kiçikdən böyüyə, aşağıdan yuxarıya çatdırılan istək və ehtiyac mənasında adət olmuş, isim kimi də işlədilmişdir. "Duaya qulaq asdım, dua oxudum", - deyilməsi də, buna bənzərdir."[219]

**İbadət** isə itaət etmək mənasına gəlir. İtaət tabe olmaq deməkdir. Bu, daha çox əmrə tabe olmaq və onun izi ilə getmək mənasında işlədilir. [220] Azərbaycan və türk dillərində buna "qulluq" deyilir. İbadət termin kimi Allahın əmrini yerinə yetirmək üçün səmimi niyyətlə namaz qılmaq və oruc tutmaq kimi davranışlara verilən addır.

---

[218] Hayrettin KARAMAN, Ali ÖZEK, İbrahim Kâfi DÖNMEZ, Mustafa ÇAĞIRICI, Sadrettin GÜMÜŞ, Ali TURGUT, Kuranı Kerim ve Açıklamalı Meâli, TDV yayınları, Ankara 1997. (Bu tərcümənin Səudiyyə Ərəbistanı nəşrində əsasa toxunmayan fərqlər vardır.)

[219] Elmalılı Muhammed Hamdi YAZIR, Hak Dini Kuran Dili, c. I, s. 662, ("Bəqərə" surəsi 186-cı ayənin təfsiri) İstanbul 1935.

[220] İbn Mənzur, «Lisanul-arab». İtaət "tav" kökündəndir. "Tav" boyun əymək deməkdir. Bunun əksi səhv nifrət etmək, xoşlamamaqdır. Ayədə belə buyurulur: "Sonra Allah duman halında olan göyə üz tutdu ona və yerə belə buyurdu: "İstər-istəməz buyruğuma gəlin!" İkisi də: "İstəyərək gəldik!" - dedilər" ("Fussilət" surəsi, 41/11). "İtaət" sözü də eyni kökdən olub "boyun əymək" mənasını verir və daha çox "Əmrə tabe olmaq və izi ilə getmək" mənasında işlədilir. (Rağıb el-İsfahânî, el- Müfredât, طوع maddəsi).

Dua ilə ibadət arasında yaxın əlaqə vardır. İbadətin əsas məqsədi duadır. Yəni Allaha ibadət edən insan bəzi istəklərini əldə etmək istəyir. Allah Təala da dualarımızın qəbulu üçün həm namaz qılmağımızı, həm də səbirli olmağımızı əmr edərək belə buyurur:

يَا اَيُّهَا الَّذِينَ اَمَنُوا اسْتَعِينُوا بِالصَّبْرِ وَالصَّلَوةِ اِنَّ اللَّهَ مَعَ الصَّابِرِينَ

**“Ey iman gətirənlər! Səbir göstərərək və namaz qılaraq kömək diləyin. Çünki Allah səbir edənlərlə bərabərdir”** (“Bəqərə” surəsi, 2/153). Bir ayə də belədir:

وَاِذَا سَاَلَكَ عِبَادِى عَنِّى فَاِنِّى قَرِيبٌ اُجِيبُ دَعْوَةَ الدَّاعِ اِذَا دَعَانِ فَلْيَسْتَجِيبُوا لِى وَلْيُؤْمِنُوا بِى
لَعَلَّهُمْ يَرْشُدُونَ

**“Qullarım Məni səndən soruşduqda söylə ki, Mən yaxınam. Mənə dua edəndə dua duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul etsinlər. Mənə güvənsinlər. Bəlkə də yetkinləşirlər”** (“Bəqərə” surəsi, 2/186).

İnsan Allahdan bir şey istədikdə ona daha yaxşı qul olmağa çalışır. Bu səbəbdən ibadət qabıq, dua isə nüvə kimidir. Muhəmməd sallallahu aleyhi va səlləm belə demişdir: “Dua ibadətdir,[221] Dua ibadətin iliyidir, əsasıdır.”[222] Əsas məqsəd Allaha istəklərini qəbul etdirməkdir. Dua əvəzinə ibadət sözü işlədildikdə, bu əlaqələr tamamilə itir. O zaman insanlar vasitəçilərdən kömək gözləməyə başlayırlar.

İstəklərini bir övliya və ya bir ruhani vasitəsi ilə Allaha bildirən, əvvəlcə onu razı salmaq istəyir. Ona hədiyyələr, qurbanlar təqdim edir, mənəvi hüzurunda təzim edir. Bunun ona

[221] Tirmizi «Dua»,1, hədis N: 3372.
[222] Tirmizi «Dua»,1, hədis N: 3371.

qulluq, yəni ibadət olduğu “Əhqaf” surəsinin 6-cı ayəsində belə ifadə edilmişdir:

وَاِذَا حُشِرَ النَّاسُ كَانُوا لَهُمْ اَعْدَاءً وَكَانُوا بِعِبَادَتِهِمْ كَافِرِينَ

**“O insanlar bir yerə toplanacaqları gün bunlar onlara düşmən olacaq və onların qulluğunu (ibadətlərini) qəbul etməyəcəklər”** (“Əhqaf” surəsi, 46/6).

Bu ayə də bu işin şirk olduğunu hökmə bağlayır. Allah Təala belə buyurur:

قُلْ اِنَّمَا اَدْعُوا رَبِّى وَلَا اُشْرِكُ بِهِ اَحَدًا

**“De: “Mən ancaq Rəbbimə dua edirəm, ona heç kimi şərik qoşmaram!”** (“Cinn” surəsi, 72/20).

Nəticə etibarilə, duaya ibadət mənası vermək bəzi ayələri Qurandan çıxarıb atmaq kimidir. Məsələn, bu davranış yuxarıdakı üç ayəni bütə ibadət edənlərə məxsus hala gətirmişdir. Allah Təala ibadət və dua sözlərini fərqli mənalarda işlətdiyinə görə Quranın təfsirini və tərcüməsini edənlər bu fərqə diqqət yetirməlidirlər.

**2) “Mən” sözünə “ma” mənası vermək**

Ərəb dilində “mən” bir kəs, şəxs və insanlar mənasına gəlir, ağıllı varlıqlar üçün işlədilir.[223] “Mə” isə “şey” və ya “şeylər” deməkdir. “Əhqaf” surəsinin 5-ci ayəsində üç dəfə “mən” sözü qeyd edilir. Duaya ibadət mənasını verənlər onlardan ikisi-

---

[223] Əgər cümlədə ağıllı varlıqlarla yanaşı başqa varlıqlar da qeyd edilirsə, o zaman “mən” sözü, ağıllı olmayanlar üçün də işlədilə bilər. Buna bu ayə ilə nümunə verilir: “Allah bütün canlıları sudan yaratmışdır. Onların kimi (bəzisi) qarnı üstə sürünür, bəzisi iki, bəzisi isə dörd ayaq üstündə gəzir” (“Nur” surəsi, 24/45). Bu ayədə “kimi” (bəzisi) deyə tərcümə edilən “mən” sözüdür. İki ayaq üstündə gedən insanlar canlılara aid olduğu üçün digər canlılara da “mən” deyilməsi uyğundur.

nə “mən = bir kəs”,  üçüncüsünə isə “ma = şey” mənası vermək məcburiyyətində qaldıqda, ayənin mənası kökündən dəyişmiş, bu şəklə düşmüşdür: *“Allahı qoyub qiyamət gününə qədər ona cavab verə bilməyəcək şeylərə ibadət edəndən daha azğın kim ola bilər?”* Bu tərcüməyə əsasən köməyə çağırılanlar bütlər olur və bir din adamını, ruhanini köməyə çağıran insan ayənin ifadə etdiyi mənaya daxil olmur. Lakin müəyyən məna dəyişikliyinə yol vermədən “mən” sözünə “bir kəs, şəxs və ya insanlar” mənasını verdikdə, bu tərcümə ortaya çıxır: “*Allahı qoyub qiyamət gününə qədər ona cavab verə bilməyəcək kimsələri çağırandan daha azğın kim ola bilər*?” Bu doğru məna bir din adamından kömək istəməyin qarşısını alır.

Bu səhv nəticə etibarilə aşağıdakı səhvləri yaratmışdır:

### 3) “Hum هُمْ” əvəzliyinə “hiyə هى” mənası vermək

“Bunlar” şəklində tərcümə edilən “hum” əvəzliyi ərəb dilində ağıllı kişi cinsinə aid varlıqları göstərir. Lakin həmin dildəki “mən” sözünə “şeylər” mənası verildiyi üçün “hum” əvəzliyinə də ya “mən”in ifadəsini göstərən “huvə”, ya da mənasını göstərən “hiyə” demək zərurəti yaranmışdır. Bu adi qəbul edilə bilməyəcək səhvdir.

### 4) Üçüncü şəxsin (cəmi muzəkkərin) kişi cinsinin cəmində səhv məna vermək

“Xəbərsizdirlər” kimi tərcümə edilən “ğafilun” sözü ərəb dilinin qrammatikasına görə cəmi muzəkkər salimdir, yəni üçüncü şəxsin kişi cinsinin cəmində işlədilir. Bu, üçüncü kişi cinsinin şəxsin cəmi kişi cinsindən olan ağıllı insanlar üçün işlədilir. “Mən” sözünə “şeylər” mənası verilməsi bu mənanı da aradan qaldırmışdır. Bu da mühüm səhvdir.

**5) "Əhqaf" surəsinin 6-cı ayəsinə diqqət yetirməmək**

"Mən" sözünün "şeylər" şəklində tərcümə edilməsi 5-ci ayə ilə 6-cı ayə arasındakı əlaqəni qoparmışdır. Bu əlaqənin kəsilməməsinin yeganə yolu o sözün "kimsələr, şəxslər və ya insanlar" şəklində tərcümə edilməsidir. Ayə belədir:

وَاِذَا حُشِرَ النَّاسُ كَانُوا لَهُمْ اَعْدَاءً وَكَانُوا بِعِبَادَتِهِمْ كَافِرِينَ

**"İnsanlar axirətdə bir yerə toplanacaqları gün bunlar onlara düşmən olacaq və onların qulluğunu qəbul etməyəcəklər"** ("Əhqaf" surəsi, 46/6).

Bütlər axirətdə canlanıb insanlarla bir yerə gəlməyəcəklərinə görə ayədə qeyd edilənlər, sorğu-suala çəkilən ağıllı varlıqlardır. Bunlar da ruhlarından kömək gözlənilən din adamlarıdır.

Ayələrin tərcüməsindəki bu səhvlər pir, türbə ziyarəti ilə bağlı bu inanca şərait yaratmışdır: *"Allah bu sevimli bəndələrinə bəzi səlahiyyətlər, imkanlar, xüsusiyyətlər bəxş etmişdir. Bunlar şəfaətçilərimizdir, biz günahkar olduğumuza görə birbaşa Allahdan nə isə istəməyə üzümüz gəlmir. Bəlkə bunların sayəsində Allah istəklərimizi qəbul edər."*[224]

Belə səhvlər səbəbindən ölmüş dini rəhbəri, din böyüyünü Allahın yaxın dostu hesab etmək, ona xəyali səlahiyyətlər verib, onun vasitəsi ilə Allahla əlaqə yaratmağa çalışmaq İslam aləminin ən əsas xəstəliklərindən biri olmuşdur. "Əhqaf" surəsinin 4-cü ayəsinə doğru məna veriləndə, bu yol tamamilə bağlanır. Ayənin doğru mənası belədir:

**"De: "Mənə bir xəbər verin görüm, Allahdan başqa nəyi çağırırsınız? Onların yer üzündə yaratdıqlarını**

---

[224] Hayrettin KARAMAN, "Ramazanda Türbe Ziyaretleri" 10. 12. 2000 tarihli Yeni Şafak Gazetesi, Fıkıh Köşesi.

**göstərin mənə?! Yoxsa onların göylərdə bir payı var?! Əgər doğru deyirsinizsə, bu mövzuda mənə bundan əvvəl gəlmiş bir kitab, yaxud elmdən qalan bir şey gətirin!"**

Yuxarıdakı üç ayə əsas alınaraq bu tənqidlər edilmişdir. Eyni səhvlər arasında dua sözünün kökündən götürülən kəlmələrin yer aldığı bir çox ayənin dilimizə tərcüməsində də vardır. Daha qəribəsi isə odur ki, bir neçəsindən başqa bütün Azərbaycan və türk dili tərcümələrində eyni səhvlər təkrarlanmışdır. Bu da müsəlmanların Allahın əsla bağışlamayacağı şirk günahını asanlıqla etmələrinə səbəb olmuşdur.

Quran tərcüməsi, məalı hazırlayanların bu səhvləri bilərəkdən və istəyərəkdən etdiklərini demək olmaz. Lakin onların çoxu Allahın nə dediyinə baxmağın əvəzinə əvvəlki alimlərin bu ayələri necə başa düşdüyünə baxırlar. Bu da bir zamanlar edilən səhvi möhkəmləndirir.

### c - Ölən şəxsdən kömək istəyənlərlə bağlı nümunələr

#### 1) Nurçu nümunəsi

Bəzi nurçular Əbdülqadir Geylaninin bu şeiri səkkiz əsr əvvəl Said Nursi üçün yazdığını iddia edirlər:

"Bizi vasitəçi qəbul et, hər qorxu və darlıqda.
Hər şeydə hər zaman, canla-başla çataram köməyə
Mən müridimi qoruyaram qorxduğu hər şeydən,
Himayə edərəm onu, hər şər və fitnədən.
Müridim istər şərqdə olsun, istər qərbdə
Harda olarsa yetişərəm köməyə."[225]

Bu iddianı irəli sürən Said Nursinin 23 şagirdi, yəni tələbəsidir.[226] Bunu isbat etmək üçün o, cifr[227] adlandırılan xəyali

[225] Said Nursi, Sikke-i Tasdik-i Gaybî, Sekizinci Lema, a.g.e, c. II, s. 2083.

şeylərə əsaslanır və şeirdə Əbdülqadir Geylaninin əslində bu mənanı gizlədiyini deyirlər: “Rusiyada əsir olduğu zaman müridim Said Kürdi Şimal-Şərqi Asiyadan bidətçilərin əli ilə Asiyanın qərbinə sürgün edildiyi və Sibir tərəflərindən qaçıb bir çox yerlərdən keçmək məcburiyyətində qaldığı ərəfədə Allahın izni ilə ona kömək edib imdadına çatıram.”

Köməyin necə baş verdiyi də belə qeyd edilir: “Bəli, Həzrəti Qavsın “müridim” dediyi Said əsir kimi üç il Asiyanın şimal-şərqində dözülməz çətinliklərdə daima qorundu. Üç-dörd aylıq yolu qaçaraq qət etmiş, bir çox şəhərləri dolaşmış, lakin Qavsın dediyi kimi daima qorunmuşdur.

Ustadımız deyir: “Mənim səkkiz-doqquz yaşım olanda bütün yaxınlarım və bölgədəki əhali Nəqşi təriqətinin Qavsi Hizan adlı məşhur şəxsindən kömək istəyərkən, mən qohumlarımdan və əhalidən fərqli olaraq “Ya Qavsi Geylani” deyirdim. Uşaq olduğuma görə bəzi əhəmiyyətsiz bir şeyim itdikdə, “Ya şeyx! Sənin üçün bir fatihə oxuyuram, mənim bu itən şeyimi tapdır”, - deyirdim. Bu çox təəccüblü olsa da, and içirəm ki, belə min dəfə Həzrəti Şeyx öz yardımı və duası ilə köməyimə yetişmişdir."[228]

Bu inancın Qurana zidd olduğunu göstərən ayələri əvvəl də qeyd edilmişdi. Bir ayə də belədir:

اَمَّنْ يُجِيبُ الْمُضْطَرَّ اِذَا دَعَاهُ وَيَكْشِفُ السُّوءَ وَيَجْعَلُكُمْ خُلَفَاءَ الْاَرْضِ ءَاِلَهٌ مَعَ اللَّهِ قَلِيلًا مَا تَذَكَّرُونَ

**“Darda qalan birisi dua etdiyi zaman onun köməyinə kim çataraq çətinliyi aradan qaldırır və size yer üzünün**

---

[226] Adları belədir: Süleyman, Səbri, Zəkai, Asim, Rəfət, Əli, Əhməd Husrəv, Mustafa Əfəndi, Rüşdü, Lütfü, Şamlı Təvfiq, Əhməd Qalib, Zühdü, Bəkir Bəy, Lütfi, Mustafa, Mustafa, Məsud, Mustafa Çavuş, Hafız Əhməd, Hacı Hafız, Mehmet əfəndi, Əli Rıza.

[227] Cifr mövzusu daha sonra qeyd ediləcək.

[228] Said Nursi, Sikke-i Tasdik-i Gaybî, Sekizinci Lema, a.g.e, c. II, s. 2084.

**hakimləri edir? Məgər Allahla yanaşı başqa bir tanrımı var? Siz nə az düşünürsünüz?”** (“Nəml” surəsi, 27/62)

Gücləri çatmayan mövzularda başqalarından kömək alınarsa, onda kim Allaha sığınacaq? Allah Təala belə buyurur:

قُلِ ادْعُوا الَّذِينَ زَعَمْتُمْ مِنْ دُونِهِ فَلَا يَمْلِكُونَ كَشْفَ الضُّرِّ عَنْكُمْ وَلَا تَحْوِيلًا (56) أُولَئِكَ الَّذِينَ يَدْعُونَ يَبْتَغُونَ اِلَى رَبِّهِمُ الْوَسِيلَةَ اَيُّهُمْ اَقْرَبُ وَيَرْجُونَ رَحْمَتَهُ وَيَخَافُونَ عَذَابَهُ اِنَّ عَذَابَ رَبِّكَ كَانَ مَحْذُورًا (57)

**“De: “Allahdan başqa tanrı güman etdiklərinizi çağırın. Onlar sizi nə sıxıntıdan qorumağa, nə də onu başqa tərəfə yönəltməyə gücləri çatar!”**

**Onların çağırdıqları bu adamlar da Rəblərinə hansı daha yaxındır deyə vəsilə axtarırlar. Onun rəhmətini umur, əzabından qorxurlar. Həqiqətən, Rəbbinin əzabı qorxuludur!”** (“İsra” surəsi, 17/56-57).

وَاللَّهُ يَعْلَمُ مَا تُسِرُّونَ وَمَا تُعْلِنُونَ (19) وَالَّذِينَ يَدْعُونَ مِنْ دُونِ اللَّهِ لَا يَخْلُقُونَ شَيْئًا وَهُمْ يُخْلَقُونَ (20) اَمْوَاتٌ غَيْرُ اَحْيَاءٍ وَمَا يَشْعُرُونَ اَيَّانَ يُبْعَثُونَ (21)

**“Allah sizin nəyi gizli saxladığınızı və nəyi aşkar etdiyinizi bilir!**

**Allahdan qeyri çağırdıqları isə heç bir şey yarada bilməzlər, əksinə, onlar özləri yaradılmışlar.**

**Onlar ölüdürlər, diri deyillər və nə vaxt diriləcəklərini də bilməzlər.”** (“Nəhl” surəsi, 16/19-21).

وَلَئِنْ سَاَلْتَهُمْ مَنْ خَلَقَ السَّمَوَاتِ وَالْاَرْضَ لَيَقُولُنَّ اللَّهُ قُلْ اَفَرَاَيْتُمْ مَا تَدْعُونَ مِنْ دُونِ اللَّهِ اِنْ اَرَادَنِيَ اللَّهُ بِضُرٍّ هَلْ هُنَّ كَاشِفَاتُ ضُرِّهِ اَوْ اَرَادَنِي بِرَحْمَةٍ هَلْ هُنَّ مُمْسِكَاتُ رَحْمَتِهِ قُلْ حَسْبِيَ اللَّهُ عَلَيْهِ يَتَوَكَّلُ الْمُتَوَكِّلُونَ

**“Əgər onlardan: “Göyləri və yeri kim yaratmışdır?!” - deyə soruşsan, mütləq: “Allah!” - deyə cavab verəcəklər. De: “Allahdan qeyrisindən nəyi çağırdığınıza baxdınızmı? Allah**

**mənə bir sıxıntı vermək istəsə, onlar bu sıxıntını aradan qaldıra bilərlərmi?! Yaxud: "Allah mənə bir yaxşılıq etmək istəsə, onlar Onun bu yaxşılığına mane ola bilərlərmi?!" De: "Mənə təkcə Allah kifayət edər. Arxalanmaq istəyənlər Ona arxalansınlar!"** ("Zumər" surəsi, 39/38).

**2) Başqa bir nümunə**

Peyğəmbərimizin əmisi Həmzə Uhud döyüşündə Allah yolunda öldürülmüş və başa düşməyəcəyimiz şəkildə yaşamağa davam edir. Bəziləri də onu köməyə çağırır. Bunlardan birinin sözləri belədir:

*"Ankaradan İstanbula gəlirik... "Qartal" adlanan tərəflərə qədər gəldik. Narın yağış yağırdı. Orada çökək bir yer var imiş. Elə biz oraya yaxınlaşmışdıq ki, yağış şiddətləndi. Biz həmin yerə çatdığımız zaman avtomobilin şamlarına su doldu və dayandı. Bir-iki dəqiqə ərzində su artdı və bizim avtomobil suda üzməyə başladı. Yağış getdikcə daha da artır, fəlakət səviyyəsinə çatırdı. Bir qədər sonra su şalbanlarla dolu yük maşınlarını da qaldırıb sağa-sola hərəkət etdirməyə başladı. Şüşəni bir qədər açmaq istədikdə içəriyə dolan su üçümüzü də islatdı. Şüşəni dərhal bağlamağa məcbur oldum. Əlimizdən bir şey gəlmirdi. Böyük avtobus və yükdaşıyan maşınlar da suyun üzündə sanki saman çöpü kimi üzürdülər. Hətta onlardan bir neçəsi sağımızdan və solumuzdan keçərkən: "Keçən il burada nə qədər taksini su apardı" deyərək əhvalımızı da pozurdular... "Avtomobil də başqasının idi, yəni bizə əmanət idi, kənardakı dəmirlərə dəyib əzilsə, necə olacaq?!" daim bunları düşünürəm...*

*Bir də gördüm ki, şalban dolu böyük yük maşını bizim üstümüzə gəlir. Düşündüm ki, nə olardı, bu yük maşını kənarda olan maneələrə toxunub dayanardı. Bu zaman yoldaşlara "dua*

*edin" dedim. Özüm də "Ya Seyyidənə Həmzə! Ya Seyyidənə Həmzə!", - deyərək o uca ruhu kömək göndərməsi üçün Cənabı Haqqa dua etdim. Üzərimizə doğru gələn yük maşını yanımızdan keçərək gözdən itdi... Çox təəccüblüdür, selin axarı birdən dəyişdi, sürəti də azaldı...*

*Hadisənin şahidləri var. Birdən-birə selin sürətinin azalmasını fiziki qanunlarla izah etmək mümkün deyil. Heç birimizin şübhəsi qalmadı ki, Cənabı Haqq o müqəddəs və uca ruhun xidmətiylə bizə kömək göndərdi...*[229]

*Həm "Ya Seyyidənə Həmzə! Ya Seyyidənə Həmzə!", yəni "Əfəndimiz Həmzə, Əfəndimiz Həmzə köməyimizə çat!" deyir, həm də "o uca ruhu, köməyimizə göndərməsi üçün Cənabı Haqqa dua etdim" deyir.*

Bunun harası Allaha duadır? Sonra belə deyir:

*"Araşdırıcılar (əhli təhqiq) şəxslərdən kömək gözləməyin doğru olmadığını hesab edirlər. Güman edirəm ki, hər məsələdə olduğu kimi, bu məsələdə də ölçünü doğru tənzimləmək, ifrata və təfritə, yəni az və ya çox həddinə diqqət etmək lazımdır. Bizim fikrimizcə, böyük və müqəddəs ruhlardan kömək diləmək olar, lakin ürəyin əqrəbi daima Cənabl Haqqı göstərməlidir. Yəni həmin böyüklərə vəsilə və vasitəçilikdən başqa təsərrüf kimi xüsusiyyətlər şamil edilməməlidir. Onları vəsilə kimi xidmət etdirən də yenə Cənabı Haqqdır. O istəmədikdə, heç kim heç bir məsələdə kömək edə bilməsi, nə isə etməsi mümkün deyil. Lakin Haqq təcəlli edəndə hər işi asan edər, səbəblərini bir anda yaradaraq ehsan edər." Bu məsələni də bu cür qeyd edəndən sonra: Böyük və müqəddəs ruhlar cəsəd qəfəsindən xilas olduqdan sonra san-*

---

[229] Küçük Dünyam 2, Zaman Gazetesi 28 Kasım 1996, ayrıca http://arsiv.zaman.com.tr/1996/11/28/kose/hocaefendi/index.html; (30/11/2003)

*ki bir mələk halına gəlirlər... Üstəlik onların arasında canlarını uca, yüksək ideya və iddiaya həsr edənlər onlarla eyni düşüncə sahiblərini Allahın izni ilə hər zaman dəstəkləyir, onlara arxa olur və onları qoruyurlar. Lakin dediyim kimi, tezliklərin birlikdə tutması şərtdir".*

İsaya Allah deyən katoliklər də buna bənzər ifadələr işlədərək belə deyirlər: "İsa özündən bir şey edə bilməz. O, hər şeyi onu göndərən Atadan alır.[230] İndi o, Atanın yanında xristianların vəkilliyini edir. Onların lehinə vasitəçilik etmək üçün o, daima canlıdır. Allahın hüzurunda daima hazırdır".[231] Allah Təala belə buyurur:

ذَلِكُمُ اللَّهُ رَبُّكُمْ لَهُ الْمُلْكُ وَالَّذِينَ تَدْعُونَ مِنْ دُونِهِ مَا يَمْلِكُونَ مِنْ قِطْمِيرٍ (13) اِنْ تَدْعُوهُمْ لَا يَسْمَعُوا دُعَاءَكُمْ وَلَوْ سَمِعُوا مَااسْتَجَابُوا لَكُمْ وَيَوْمَ الْقِيَمَةِ يَكْفُرُونَ بِشِرْكِكُمْ وَلَا يُنَبِّئُكَ مِثْلُ خَبِيرٍ (14)

**"Bu sizin Rəbbiniz olan Allahdır. Hakimiyyət Onundur. Sizin Ondan qeyri çağırdıqlarınız bir çəyirdək qabığına belə hökm edə bilməzlər.**

**Əgər siz onları çağırsanız, onlar sizin çağırışınızı eşitməzlər; eşitsələr də cavab verə bilməzlər. Qiyamət günü də sizin şərik qoşduğunuzu danacaqlar. Heç kəs sənə hər şeydən xəbərdar olan Allah kimi xəbər verə bilməz!"** ("Fatir" surəsi, 35/13-14).

قُلْ مَنْ يُنَجِّيكُمْ مِنْ ظُلُمَاتِ الْبَرِّ وَالْبَحْرِ تَدْعُونَهُ تَضَرُّعًا وَخُفْيَةً لَئِنْ اَنْجَينَا مِنْ هَذِهِ لَنَكُونَنَّ مِنَ الشَّاكِرِينَ (63) قُلِ اللَّهُ يُنَجِّيكُمْ مِنْهَا وَمِنْ كُلِّ كَرْبٍ ثُمَّ اَنْتُمْ تُشْرِكُونَ (64)

**"De: "Sizi suyun və qurunun zülmətlərindən qurtaran kimdir? Bundan bizi xilas etsən, əlbəttə, şükür edənlərdən olacağıq", - deyə ona gizli-gizli yalvarırsınız".**

---

[230] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 859.
[231] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 519.

**De: “Allah sizi ondan və hər cür sıxıntıdan xilas edər, sonra siz yenə də Ona şərik qoşursunuz”** (“Ənam” surəsi, 6/63-64).

فَاِذَا رَكِبُوا فِى الْفُلْكِ دَعَوُا اللَّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ فَلَمَّا نَجَّيهُمْ اِلَى الْبَرِّ اِذَا هُمْ يُشْرِكُونَ

**“Gəmiyə mindikləri zaman, şirkdən uzaq şəkildə, ancaq Ona boyun əyərək Allaha yalvarırlar. Allah onları sağ-salamat quruya çıxaran kimi, yenə də şərik qoşmağa başlayırlar”** (“Ənkəbut” surəsi, 29/65).

Həmzə kimi şəhidlərin ölmədiyini isbat etmək üçün bu ayəyə əsaslanırlar:

وَلَا تَقُولُوا لِمَنْ يُقْتَلُ فِى سَبِيلِ اللَّهِ اَمْوَاتٌ بَلْ اَحْيَاءٌ وَلَكِنْ لَاتَشْعُرُونَ

**“Allah yolunda öldürülənlərə “ölü” deməyin. Əksinə, onlar diridirlər, lakin siz bunu dərk edə bilmərsiniz”** (“Bəqərə” surəsi, 2/154). Allah, **“…lakin siz bunu dərk edə bilmərsiniz...”** dediyinə görə biz başqa söz deyə bilmərik. Onlarda olan canlılıq insanın dərk edə biləcəyi canlılıq olsaydı, hər şeydən əvvəl Peyğəmbərimiz bunu bilər, Həmzənin ölümünə çox məyus olmazdı. Abdullah b. Məsud deyir: “Biz onun Həmzə üçün ağladığı qədər, heç nəyə ağladığını görmədik. Onu qibləyə tərəf qoydu, cəsədinin başında dayandı və eşidiləcək şəkildə hönkürərək ağladı”.[232]

Mövzu ilə bağlı digər ayələr belədir:

وَلَاتَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِى سَبِيلِ اللَّهِ اَمْوَاتًا بَلْ اَحْيَاءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ (169) فَرِحِينَ بِمَا اَتيهُمُ
اللَّهُ مِنْ فَضْلِهِ وَيَسْتَبْشِرُونَ بِالَّذِينَ لَمْ يَلْحَقُوا بِهِمْ مِنْ خَلْفِهِمْ اَلَّا خَوْفٌ عَلَيْهِمْ وَلَاهُمْ يَحْزَنُونَ (170)
يَسْتَبْشِرُونَ بِنِعْمَةٍ مِنَ اللَّهِ وَفَضْلٍ وَاَنَّ اللَّهَ لَا يُضِيعُ اَجْرَ الْمُؤْمِنِينَ (171)

---

[232] Safiyyur-Rahman əl-Mubarəkfuri, ər-Rahikul-Mahtum, Beyrut, 1408/1988, s. 255256.

**“Allah yolunda öldürülənləri ölü hesab etmə! Xeyr, onlar diridirlər. Onlar Rəbbi yanında ruziləndirilir.**

**Onlar ürəkləri açılır, çünki onlara Allah öz mərhəmətindən bəxş etmişdir. Arxalarınca gəlib hələ özlərinə çatmamış kəslərə görə də sevinirlər. Çünki onları qorxudacaq və ya qəm-qüssə görmələrinə səbəb olacaq heç nə yoxdur.**

**Onlar Allahdan gələn nemət və mərhəmətə gör də sevinirlər. Allahın möminlərin alacağı əvəzi azaltmayacaqdır”** (“Ali-İmran” surəsi, 3/169-171).

Bir anlıq *“...lakin siz bunu dərk edə bilmərsiniz...”* hökmünün olmadığını və yaxşı möminlərin onların bildiyini düşünək. Bu halda bilinəcək tək şey əiçində olan nemətlərdir. Bu, onların insanlara kömək edəcəyinə dəlil ola bilməz. Onlardan kömək istəyənlərin vəziyyəti bu ayədə bildirilən kimidir:

وَمَنْ اَضَلُّ مِمَّنْ يَدْعُوا مِنْ دُونِ اللّٰهِ مَنْ لَايَسْتَجِيبُ لَهُ اِلَى يَوْمِ الْقِيَمَةِ وَهُمْ عَنْ دُعَائِهِمْ غَافِلُونَ

**“Allahı qoyub qiyamət gününədək özünə cavab verə bilməyəcək kimsəni çağırandan daha azğın kim ola bilər?! Halbuki bunlar onların çağırışından xəbərsizdirlər!”** (“Əhqaf”surəsi, 46/5).

Məkkə müşrikləri də tanrılarında malik olduqlarına inandıqları gücü Allahın verdiyini qəbul edirdilər. Kəbəni təvaf edərkən belə deyirdilər:

“Ləbbeyk lə şərikə lək illə şərikun huvə lək təmlikuhu va mə mələk”, yəni “Əmr et, Allahım, sənin heç bir şərikin yoxdur. Yalnız bir şərikin vardır ki, onun da bütün səlahiyyətlərinin də sahibi sənsən.”

Bu, dəlilsiz bir iddia idi. Bunu bizə çatdıran İbn Abbas deyir ki, onlar “Ləbbeyk lə şərikə lək = Əmr et Allahım, Sənin heç bir şərikin yoxdur” dedikləri zaman Muhəmməd sallallahu aley-

hi va sələm belə deyirdi: “Vay sizin halınıza, burada dayanın, burada kəsin...”[233]

Allah Təala belə buyurur:

قُلْ مَنْ يَرْزُقُكُمْ مِنَ السَّمَاءِ وَالْاَرْضِ اَمَّنْ يَمْلِكُ السَّمْعَ وَالْاَبْصَارَ وَمَنْ يُخْرِجُ الْحَىَّ مِنَ الْمَيِّتِ
وَيُخْرِجُ الْمَيِّتَ مِنَ الْحَىِّ وَمَنْ يُدَبِّرُ الْاَمْرَ فَسَيَقُولُونَ اللَّهُ فَقُلْ اَفَلَا تَتَّقُونَ (31) فَذَلِكُمُ اللَّهُ رَبُّكُمُ الْحَقُّ
فَمَاذَا بَعْدَ الْحَقِّ اِلَّا الضَّلَالُ فَاَنَّى تُصْرَفُونَ (32)

**“Desən: “Sizə göydən və yerdən kim ruzi verir? Qulaqların və gözlərin sahibi kimdir? Dirini ölüdən çıxaran, ölünü də diridən çıxardan kimdir? Hər işi düzüb qoşan kimdir? Onlar: “Allahdır!” - deyəcəklər. De: “Bəs onda Ona qarşı gəlməkdən qorxmursunuz?” O sizin həqiqi Rəbbiniz olan Allahdır. Haqdan sonra zəlalətdən deyil nədir? Necə döndərilirsiniz?”** (“Yunus” surəsi, 10/31-32)

Bizi mərkəzi rəhbərliyin təyin etdiyi insanlar idarə edir. Məsələn, icra başçısı dövləti və hökuməti təmsil edir. Bəziləri isə Allaha yaxın hesab etdikləri bəzi insanları Allahın təyin edib səlahiyyət verdiyi insanlar kimi qəbul edirlər. Təyin olunması haqqında sənədi olmayan insanı icra başçısı hesab etmək, mərkəzi idarəyə, preziden administrasiyasına meydan oxumaq mənasına gəldiyi kimi, Allahın verdiyi hər hansı sənədə əsaslanmadan bəzi insanlara Allaha məxsus səlahiyyətlər şamil etmək də Allaha qarşı üsyan etmək mənasını verir.

Bəzən Həmzəni, Əbdülqadir Geylanini və başqalarını köməyə çağıranlarla bu cür söhbətləri aparırıq:

**Bayındır:** Onlar sizi tanıyır?

- Allah tanıda bilməz?

**Bayındır:** Onlar sizi eşidirlər?

- Allah eşitdirə bilməz?

---

[233] Muslim, «Həcc», 22, hədis N: 1185.

**Bayındır:** Onlar sizin danışdığınız dili bilirlər?

- Allah öyrədə bilməz?

**Bayındır:** Məgər onlar ölməyiblər?

- Onların ölməzlər desəm, oxuduğun ayələrə görə bunun bir faydası yoxdur.

**Bayındır:** Deməli, Allah Təala əvvəl onlara dirilik verəcək, sonra sizi ona tanıdacaq, səsinizi eşitdirəcək, dilinizi öyrədəcək və sizi başa düşmələrini mümkün edəcək, sonra isə sizin lehinizə vasitəçilik etməsinə, Öz qarşısında sizi müdafiə etməsinə izn verəcək. Sizə görə eyni anda on minlərlə insan onlara müraciət edir və kömək istəyirlər. O, bunların hər birini başa düşməli və sıraya diqqət etməlidir. Bu, yalnız xəyal aləmində ola bilər! Allah Təala belə buyurur:

اِنَّ الَّذِينَ تَدْعُونَ مِنْ دُونِ اللّٰهِ عِبَادٌ اَمْثَالُكُمْ فَادْعُوهُمْ فَلْيَسْتَجِيبُوا لَكُمْ اِنْ كُنْتُمْ صَادِقِينَ
(194) اَلَهُمْ اَرْجُلٌ يَمْشُونَ بِهَا اَمْ لَهُمْ اَيْدٍ يَبْطِشُونَ بِهَا اَمْ لَهُمْ اَعْيُنٌ يُبْصِرُونَ بِهَا اَمْ لَهُمْ اٰذَانٌ يَسْمَعُونَ بِهَا
قُلِ ادْعُوا شُرَكَاءَكُمْ ثُمَّ كِيدُونِ فَلَا تُنْظِرُونِ (195) اِنَّ وَلِيِّىَ اللّٰهُ الَّذِى نَزَّلَ الْكِتَابَ وَهُوَ يَتَوَلَّى
الصَّالِحِينَ (196) وَالَّذِينَ تَدْعُونَ مِنْ دُونِهِ لَا يَسْتَطِيعُونَ نَصْرَكُمْ وَلَا اَنْفُسَهُمْ يَنْصُرُونَ (197)

**“Allahdan başqa çağırdıqlarınız da sizin kimi bəndələrdir. Əgər doğrusunuzsa, haydı, çağırın onları, sizə cavab versinlər.**

**Məgər onların yeriyən ayaqları, ya tutan əlləri, ya görən gözləri, yaxud eşidən qulaqları var?! De: “Haydı, çağırın şəriklərinizi, mənim barəmdə istədiyiniz hiyləni qurun və mənə heç imkan da verməyin!**

**Şübhəsiz ki, mənim vəlim (hamim) Kitabı nazil edən Allahdır. O, əməlisalehlərə himayədarlıq edər!**

**Sizin Ondan başqa çağırdıqlarınız isə nə sizə, nə də özlərinə bir köməklik edə bilər!”** (“Əraf” surəsi, 7/194-197).

### 3) Bir Şeyx nümunəsi[234]

Bu şəxslə aramızda belə bir söhbət olmuşdu:

**Şeyx:** Siz nə deyirsiniz deyin, biz övliyanın və böyük şeyxlərin ruhlarının Allahla bəndələr (qullar) arasında vasitəçi olduqlarına inanırıq. Onların ruhaniliklərindən kömək gözləyirik.

**Bayındır:** Bəs **"iyyəkə nəstəin=yalnız Səndən kömək diləyirik!"** ("Fatihə" surəsi, 1/5) ayəsi necə oldu? Bu ayəni hər namazda oxuyuruq. Bunun səbəbi nə ola bilər?

Allah Təala belə buyurur: **"Bu bir həqiqətdir ki, insanı Biz yaratdıq. Ona şah damarından da yaxın olduğumuza görə nəfsinin ona nə vəsvəsə etdiyini də bilirik..."** ("Qaf" surəsi, 50/16).

Allah bizə şah damarımızdan daha yaxın olduğuna görə "böyüklərin" ruhları harada boşluq tapıb araya girirlər?

**Şeyx:** Əbdülqadir Geylani həzrətləri bir şeirində belə buyurur:

"Müridim istər şərqdə olsun, istər qərbdə,
Harda olsad da köməyinə çataram"[235]

**Bayındır:** Bu bir çox ayəyə açıq şəkildə ziddir. Allah Təala belə buyurur:

اَمَّنْ يُجِيبُ الْمُضْطَرَّ اِذَا دَعَاهُ وَيَكْشِفُ السُّوءَ وَيَجْعَلُكُمْ خُلَفَاءَ الْاَرْضِ ءَاِلَهٌ مَعَ اللَّهِ قَلِيلًا مَا تَذَكَّرُونَ

**"Darda qalan birisi dua etdiyi zaman onun köməyinə kim çatıb sıxıntını aradan qaldırır və sizi yer üzünün**

---

[234] İstanbul Fateh bölgəsində olan İsmail Ağa məscidinin təqaüddə olan imamı Mahmud Ustaosmanoğludur. O, Mahmud əfəndi kimi xatırlanır. Bu şəxs və onunla birlikdə olan insanlarla apardığımız bütün görüşlər "Qurana əsasən «Təriqətçiliyə baxış» adlı kitabımızda qeyd edilmişdir.

[235] Bu şeir, Said Nursinin «Sikke-i Tasdîki Gaybî» adlı kitabında yazılıb. Bxn. Risalei-Nur Külliyyatı, c.II, s. 2083.

**hakimləri edir? Məgər Allahla yanaşı başqa bir tanrımı var? Siz nə az düşünüb danışırsınız?”** (“Nəml” surəsi, 27/62).

**Şeyx:** Əgər sən Əbdülqadir Geylaniyə inanmırsansa, o zaman biz səninlə nə danışacağıq?

**Bayındır:** Əbdülqadir Geylaniyə inanmaq imanın şərtlərindən deyil. Biz ondan deyil, Allahın kitabından sorğu-sual ediləcəyik.

Bu nümunələr müsəlmanların müsəlmançılıqla nə dərəcədə əlaqəli olduqlarını açıq şəkildə göstərir.

## K - CAMAAT YARATMAQ VƏ NUR CAMAATI

Din böyüyü, dini rəhbər hesab edilən bir insana qeyri-adi xüsusiyyətlər şamil edilərsə, insanları onun ətrafında toplamaq asan olur. Onun Allaha yaxın olduğunu vurğulamaq üçün ona vasitəçi və xilaskar kimi hesab edilməsi təmin edilir. Sonra həmin şəxsin Allahın verdiyi ilhamla yazdığı iddia edilən kitabların olduğu vurğulanır. Bu şəkildə ayrı adı, ayrı rəhbəri və ayrı kitabı olan bir camaat formalaşır. Sonra insanları sehrə salan, təsirləndirən sözlərdən istifadə edilir. Bu camaata qoşulmayanın xilas olunmayacağı vurğulanır.

Katolik kilsəsi bu şəkildə təşkil olunan bir xristian camaatıdır. Kilsə ilə məscidin fərqi böyükdür. Məscid ibadət yeridir. Kilsə isə canlı varlıq, İsanın mistik bədəni və iyerarxik[236] cəmiyyət kimi qəbul edilir.[237] Onların fikrincə, kilsə təkdir, müqəddəsdir və Katolikdir.[238] Kilsənin tək Rəbbi, tək imanı vardır. Tək vəftizdən doğular, tək ümidlə tək bir Ruh tərəfindən canlandırı-

[236] İyerarxiya aşağıdan yuxarıya doğru ucalan rütbələr və məqamlar sırası və nizamı mənasını verir. Kilsədə ən aşağı vəzifədən papaya qədər olan vəzifələr sırasına iyerarxik quruluş deyilir.
[237] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 779.
[238] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 846.

lan tək Bədəndir.[239] Katolik kilsəsi bütün bəşəriyyəti Məsihin rəhbərliyi altında, onun Ruhunun birliyində əhatə etdiyi yaxşılıqlarla birlikdə toplamağa çalışır."[240]

Katoliklərin "dini ənənənə" adlandırdıqları xüsusi kitabları var. Katoliklər həmin kitabların Müqəddəs Ruhun canlı keçməsi, yəni vəhyi ilə yarandığına inanırlar. Tövrat və İncilin eyni ilahi mənbədən gəldiyini qəbul etdiklərinə görə, ona eyni ehtiramı göstərirlər.[241]

Katoliklərin əsas vurğusu belədir: "Katolik kilsəsinə girməyən kəs nicat tapa bilməz."[242]

Nurçular da yuxarıda qeyd edilən şəkildə meydana gəlmişlər. Said Nursiyə qeyri-adi xüsusiyyətlər şamil edilərək onun mücəddid, Mehdi, gözlənən İsa və Qavsı-Azam olduğu, onun birlik məqamında olduğu, Həqiqəti Muhəmmədiyyənin onda əks olunduğu və nurçulara şəfaət edəcəyi vurğulanmış, sonra Risalei-Nurlara müqəddəslik verilmiş və xilasın yalnız Nur camaatına qoşulmaqla mümkün olacağı bildirilmişdir. Bu şəkildə ayrı adı, ayrı kitabı və ayrı rəhbəri olan yeni camaat ortaya çıxmışdır. İndi bununla bağlı iddialara baxaq:

## Said Nursiyə şamil edilən xüsusiyyətlər

Bir çox təriqətlərdə mövcud olan "Muhəmməd Nuru" və "Həqiqəti Muhəmmədiyyə" inancı nurçularda da var. Said Nursi özünün Muhəmməd Həqiqətini təmsil etdiyini dolayı şəkildə bildirir. Ona görə, Risalei-Nurun mənbəyi və əsası "Muhəmməd

[239] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 866.
[240] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 831.
[241] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par.7782.
[242] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 846.

Nuru“dur.[243] Özü isə həmin risalələrin həqiqəti və mənəvi şəxsiyyətidir.[244] Bunun mənası, Said Nursinin Muhəmməd Nurunu, yəni Muhəmməd Həqiqətini təmsil etməsidir. Risalei-Nurlarda Said Nursinin bu xüsusiyyətlərə malik olduğunu göstərən ifadələr var.

### Birlik məqamında olması iddiası

Allahla Muhəmməd Həqiqəti (Həqiqəti Muhəmmədiyyə) eyni həqiqətin ön və arxa üzləri hesab edildiyinə görə, Muhəmməd Həqiqətini təmsil edən insanın “Birlik” məqamında olduğu qəbul edilir. Said Nursi bu sözləri ilə özünün həmin məqamda olduğunu iddia edir:

“Açmağı ağlıma belə gətirmədiyim bir sirri açıqlamağa məcbur oldum. Belə ki,

Risalei-Nurun mənəvi şəxsiyyəti (Said Nursi) və onu təmsil edən xüsusi (şagirdlərinin) tələbələrinin mənəvi şəxsiyyətləri "Fərid = Tək olmaq" məqamı ilə şərəfləndiklərinə görə onların üzərində nə bir ölkənin qütbünün, nə də vaxtının böyük hissəsini Hicazda keçirən qütbü-əzəmin səlahiyyəti vardır. Bu səbəbdən də onlar hətta qütbü-əzəmin əmrinə belə tabe olmaq məcburiyyətində deyildirlər. Hər dövrdə yaşayan iki imam kimi onu tanımağa məcbur olmurlar. **Mən əvvəllər Risalei-Nurun mənəvi şəxsiyyətini (Said Nursini) o imamlardan biri olduğunu güman edirdim.** İndi başa düşürəm ki, Qavsı-Əzəm həm qutub, həm qavs, həm də "fərdiyyət = birlik" məqamında olduğuna görə, axır zamanda Risalei-Nurla bağlı olan tələbələri də fərdiyyət = birlik məqamıyla şərəflənmişlər. Gizlətməyə dəyən bu böyük

---

[243] Emirdağ Lâhikası (1) Mektup No: 71, a.g.e, c. II, s.1725 “Risale-i Nur hakkında ve o Nurun menbaı ve esası olan Nuru Muhammedî (a.s.m.) ...”

[244] Emirdağ Lâhikası (1) Mektup No: 71, a.g.e, c. II, s.1725 “Gerçi o âhir kasidesinde Risale-i Nurun hakikatini ve şahs-ı mânevisini murad etmiş...”

sirrə görə Məkkeyi-Mükərrəmədə heç gözlənilməyən bir hadisə olsa və Risalei-Nura qarşı qutbu-əzəmdən etiraz gəlsə, Risalei-Nur şagirdləri sarsılmamalı, o mübarək qutbu-əzəmin etirazını iltifat və salam kimi qəbul etməli, marağını qazanmaq üçün etiraz edilən məqamları o böyük ustadlarına izah etməli və əllərini öpməlidirlər."[245]

Qütb (qutub) ən böyük övliya kimi tanınır. Təriqətçilərə görə, doğru yola gələnlərin (ərənlərin) başçısı və Allahın izni ilə kainatda təsərrüf sahibidir. Yəni kainatı idarə etmədə səlahiyyətə malikdir.

Qütbdən sonra gələn iki insana "imaman" deyirlər. Bunlardan birinə "imamı yəmin" (sağdakı imam), digərinə isə "imamı yəsar" (soldakı imam) adı verilir. İmamı yəmin (sağdakı imam) qütbün hökmlərinə, imamı yəsar (soldakı imam) isə həqiqətinə nail olur. Yəni biri qütbün qərarlarını, digəri isə həqiqətlərini bildiyini deyirlər. Qütb öldükdə, onun yerinə imamı yəsar keçir. Qütblə iki imam birlikdə üçlüyü əmələ gətirirlər.[246] Yuxa-

---

[245] Kastamonu Lâhikası Mektup No: 121, a.g.e, c. II, s. 1644. Yazı sadələşdirilmişdir. Əsli belədir: "Fâş etmek hatırıma gelmeyen bir sırrı, fâş etmeye mecbur oldum. Şöyle ki: Risale-i Nurun şahsı mânevîsi ve o şahs-ı mânevîyi temsil eden has şakirtle- rinin şahsı mânevîsi "Ferid" makamına mazhar oldukları için, değil hususî bir memleketin kutbu, belki ekseriyet-i mutlakayla Hicazda bulunan kutb-u âzamın tasarrufundan hariç olduğunu ve onun hükmü altına girmeye mecbur değil. Her zamanda bulunan iki imam gibi, onu tanımaya mecbur olmuyor. Ben, eskide, Risale-i Nurun şahs-ı mânevîsini, o imamlardan birisini zanne- diyordum. Şimdi anlıyorum ki, Gavs-ı Âzamda, kutbiyet ve gavsiyetle bera- ber, "Ferdiyet" dahi bulunduğundan, âhirzamanda, şakirtlerinin bağlandığı Risale-i Nur, o Ferdiyet makamının mazharıdır. Bu gizlenmeye lâyık olan bu sırr-ı azime binaen Mekke-i Mükerremede dahi farz-ı muhal olarak Risale-i Nurun aleyhinde bir itiraz kutbu âzamdan dahi gelse, Risale-i Nur şakirtleri sarsılmayıp, o mübarek kutb-u âzamın itirazını iltifat ve selâm suretinde telâkki edip, teveccühünü de kazanmak için, medâr-ı itiraz noktaları o büyük üstadlarına karşı izah etmek, ellerini öpmektir... Said Nursî."

[246] Hasan Kamil Yılmaz, Altınoluk Məcmuəsi, Dekabr 1995.

rıda qeyd edildiyi kimi, Said Nursi əvvəllər özünün bu imamlardan biri olduğunu güman edirmiş.

Birdən çox qütbdən danışıldığına görə baş qütbə Qütbul-Aqtab deyilir. Ona sığınanlara kömək edən mənasında Qavs və ya Qavsı-Əzəm də deyilir. Said Nursi də özünə Qavsı-Əzəm demişdir.

Bu inanc mənsublarının fikrincə, Qütb Muhəmməd Həqiqətin üzərində təcəlla etdiyi şəxsdir. Həsən Feyzinin Said Nursi üçün yazdığı və onun "Çox parlaq qəsidə" deyib mədh etdiyi şeirdə bu mənalar işlədilmişdir:

"Çünki sənsən bu əsrdə Aləmlərə rəhm edənin cilvəsi,
Çünki indi sənsən Şəfiul-Muznibinin varisi.
Ağisnə ya Ğiyəsəl-Mustağisin" bir duası,
Ey şöleyi-rəhməti-aləm Risələtun-Nur"![247]

Şeir belə sadələşdirilə bilər:

Çünki sənsən bu əsrdə aləmlərə rəhmət olan Muhəmmədin görüntüsü.

Çünki sənsən indi günahkarlara şəfaət edəcək Muhəmmədin varisi.

Günahkarların sənə olan bir dəvəti belədir: "Yardım et bizə, ey kömək istəyənlərin köməkçisi!"

Ey aləmə rəhmət Muhəmmədin məşəli, Nur Elçisi!

Bu məqamın Qütbul-İrşad, doğru yol rəhbəri və Qutbul-Vücud deyilən iki şəkli vardır. Onlara görə, Qütbul-İrşad peyğəmbərlik təsisatının daxilini, Qutbul-Vucud isə Həqiqəti Muhəmmədiyyənin daxilini təmsil edir.[248] Qütbul-İrşad ilə əlaqəli olaraq İmam Rəbbaninin sözlərini əvvəl qeyd etmişdik. Qütbul-

[247] Sikke-i Tasdik-i Gaybî, a.g.e, c. II, s.2102
[248] Bxn. Hasan Kamil Yılmaz, "Ricalul-Ğayb", Altınoluk Məcmuəsi, Dekabr 1995.

Vucudun hər dövrdə yalnız tək olacağı qəbul edilir. Belə ki, Said Nursi özünün bu birlik məqamında olduğunu iddia edir. Özü orada olduğu üçün Risalei-Nur şagirdlərini (tələbələrini) də yanına çəkir.

İki imamdan sonra yer üzünün dörd tərəfini idarə etdiyi iddia edilən Əvtadı-Ərbaanın (Dörd sütun), aşağılarda isə yeddi iqlimi idarə etdiyi iddia edilən yeddilərin (Abdal, Axyar), xalqa kömək etdiyi iddia edilən qırxların (Nucəba), insanları müşahidə edib nəzarət etdiyi iddia edilən Üç Yüzlərin (Nuqəba) mövcud olduğu qəbul edilir. Said Nursiyə görə, yer üzünü idarə edənlərin başçısı olan Qütbü-Əzəmin məqamı Risalei-Nur tələbələrinin (şagirdlərinin) məqamından çox aşağıdır. Bu səbəbdən onlar Qütbü-əzəmin əmrinə tabe olmaq məcburiyyətində deyildirlər. Belə ki, o, Risalei-Nuru başa düşməyə bilər. Belə birisi Risalei-Nura qarşı etiraz edə bilər. Risalei-Nur tələbələri (şagirdləri) buna görə sarsılmamalı, o mübarək Qütbü-əzəmin etirazını bir iltifat və salam kimi qəbul etməli, onun hörmətini qazanmaq üçün etiraz edilən məqamları o böyük ustadlarına izah etməli və əllərini öpməlidirlər.

Allah Təala belə buyurur:

وَمِنَ النَّاسِ مَنْ يَتَّخِذُ مِنْ دُونِ اللَّهِ اَنْدَادًا يُحِبُّونَهُمْ كَحُبِّ اللَّهِ وَالَّذِينَ اٰمَنُوا اَشَدُّ حُبًّا لِلَّهِ وَلَوْ
يَرَى الَّذِينَ ظَلَمُوا اِذْ يَرَوْنَ الْعَذَابَ اَنَّ الْقُوَّةَ لِلَّهِ جَمِيعًا وَاَنَّ اللَّهَ شَدِيدُ الْعَذَابِ (165) اِذْ تَبَرَّاَ الَّذِينَ اتُّبِعُوا
مِنَ الَّذِينَ اتَّبَعُوا وَرَاَوُا الْعَذَابَ وَتَقَطَّعَتْ بِهِمُ الْاَسْبَابُ (166) وَقَالَ الَّذِينَ اتَّبَعُوا لَوْ اَنَّ لَنَا كَرَّةً فَنَتَبَرَّاَ
مِنْهُمْ كَمَا تَبَرَّؤُا مِنَّا كَذَلِكَ يُرِيهِمُ اللَّهُ اَعْمَالَهُمْ حَسَرَاتٍ عَلَيْهِمْ وَمَا هُمْ بِخَارِجِينَ مِنَ النَّارِ (167)

**“İnsanların içərisində Allahdan əvvəl, ona bənzər hesab etdiyi  şeylərə tutulur. Onları Allahı sevən kimi sevərlər. Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir. Bu səhvə düşənlər bütün qüvvətin Allaha məxsus olduğunu və Allahın əzabının çox ağır olduğunu, kaş o əzabı görəcəkləri gün kimi görə bilsələrdi.**

**Rəhbər sayılan insanlar həmin gün onlara tabe olanlardan uzaqlaşırlar. Artıq o əzabı görmüşlər və aralarındakı bütün əlaqələr qırılmışdır.**

**Onlara tabe olanlar: "Əgər bir də əlimizə fürsət keçsə, onlar bizdən uzaqlaşdıqları kimi biz də onlardan uzaqlaşardıq", - deyərlər. Beləcə Allah onlara özlərinin etdiklərinin göstərərkən içləri yanacaqdır. Artıq o atəşdən çıxa bilməzlər"** ("Bəqərə" surəsi, 2/165-166-167).

**Bədiuzzaman olması iddiası**

"Bədi" sözünün lüğətdə iki mənası var: onlardan biri "nümunəsi və bənzəri olmayanı yaratmaq" deməkdir. Bu xüsusiyyət yalnız Allaha məxsusdur. "O, göylərin və yerin bədiidir..." ("Bəqərə" surəsi, 2/117) Yəni O, göyləri və yeri nümunəsi və bənzəri olmadan yaradandır.

"Bədi" sözünün ikinci mənası, "nümunəsi və bənzəri olmayan varlıq"dır.[249] Bu mənaya əsasən, Bədiuzzaman bu zamanın nümunəsi və bənzəri olmayan şəxsi deməkdir. Bu xüsusiyyət yalnız insanı-kamil və Həqiqəti-Muhəmmədiyyə ifadələrinə uyğun gəlir. Said Nursinin "Çox parlaq qəsidə" adlandırıb mədh etdiyi bir şeirində Həsən Feyzi ondan belə bahs edir:

"Əsli əvvəlisən balın, şəkərin,
Dəryasısan bütün elmin, hünərin,
Gəlmədi cahana belə əsər bənzərin,
Ey miratı-rəhməti-aləm Risələtun-Nur"![250]

Şeir belə sadələşdirilə bilər:

İlk mənbəyisən balın, şəkərin,

[249] Şemseddin Sami, Kamusi Türkî, İstanbul 1317 tarixli nüsxədən ofset nəşr, İstanbul, 1999.
[250] Sikke-i Tasdik-i Gaybî, a.g.e, c. II, s. 2102.

Həm dənizisən elmin, həm də hünərin
Gəlməyib hələ cahana belə bir əsər bənzərin
Ey aləmə rəhmət olan Muhəmmədin güzgüsü Nur Elçisi!

Buradakı "Risalətun-Nur" sözü Nur Elçisi mənasına gəlir. Risalət elçilik deməkdir. Ərəb dilinin qrammatikasına görə, məsdərə ismi-fail mənası verilə bildiyi üçün "elçi" mənasını da gəlir. Bir çox yerdə Risalei-Nur sözü ilə Said Nursinin mənəvi şəxsiyyəti nəzərdə tutulduğuna görə "Risalətun-Nura" "Nur Elçisi" mənası verildiyi aydın olur.

İddiaya əsasən, Bədiuzzaman ləqəbi ona çox gənc yaşda ikən qeyri-adi xüsusiyyətlərə və okean nəhəngliyində elmə malik olduğunu görən elm adamları tərəfindən verilmişdir.[251]

**Aləmlərə rəhmət olması iddiası**

Allah Təala Peyğəmbərimiz üçün belə buyurur:

وَمَا اَرْسَلْنَاكَ اِلَّا رَحْمَةً لِلْعَالَمِينَ

**"Biz səni ancaq aləmlərə bir rəhmət olaraq göndərdik"** ("Ənbiya" surəsi, 21/107).

Həsən Feyzi bu ayənin Said Nursiyə işarə etməsi iddiası ilə bir şeir yazmış, Said Nursi də həmin şeir üçün bunları demişdir: "...Risalei-Nur o külli rəhmətin bir görüntüsü, bir nümunəsi olduğuna görə, Həqiqəti-Muhəmmədiyyənin (a.s.m.) bəzi xüsusiyyətləri məcazi mənada cüzi bir varisinə verilə biləcəyinə görə bu parlaq qəsidə ilə bağlı bir şey demədim. Yalnız Həqiqəti-Əhmədiyyə (a.s.m) ilə aynası arasındakı fərqə işarə etmək üçün sözlər əlavə edildi."[252] Şeir çox uzun olduğuna görə bəzi bölümlərinə nəzər salmaqla kifayətlənəcəyik.

---

[251] Tarihçe-i Hayat, İlk Hayatı, a.g.e, c. II, s. 2129.
[252] Sikke-i Tasdik-i Gaybî, a.g.e, c. II, s. 2101–2102. Yazı sadələşdirilmişdir, əsli belədir: "... Risale-i Nur, o küllî rahmetin bir cilvesi, bir nümunesi olma-

“Hüzur tapar bu gün səninlə aləm,
Ey bu əsrdə rəhməti-aləm Risalətun-Nur! (Nur Elçisi!)
(…) Bu xəstə qəlblər çoxdan pərişan,
Varsa səndə əgər Loğmandan nişan,
Bir şəfa ver, gəl, ey məhbubu zişan,
Ey cilveyi-rəhməti-aləm Risalətun-Nur!”

Sonuncu iki misra belə sadələşdirilə bilər:

“Bir şəfa ver, gəl, ey Allahın sevimlisi,
Ey aləmlərə rəhmət olanın (Muhəmməd əleyhissəlamın) görüntüsü, Nur Elçisi.

“(...)Fəxri Aləm, Ərşdən bu yerə endi,
Şahı-Vəlayət gəlib Düldülə mindi,
Zülfüqara bu gün, artıq nur deyildi,
Ey bu zamanda aləmlərə rəhmət Risalətun-Nur!”

Dörd misranı belə sadələşdirmək olar:

Aləmin fəxr etdiyi Muhəmməd Ərşdən bu yerə endi,
Vəlilər padşahı Əli Düldülə mindi
Zülfüqar adlı qılıncına bu gün Nur deyildi.
Ey bu zamanda aləmə rəhmət Nur Elçisi!

“(…)Yolumuz bu Nurun nurlu yolu,
Olduq hamımız o Nurun bir qulu,
Nur yolunda gedən həm nə xoşbəxtdir”
Ey nümunəi rəhməti aləm Risalətun-Nur!
(Ey aləmdəki rəhmətin nümunəsi, Nur Elçisi!)

“(...) Bu aləmdə maddə deyil, bir əsassan,
Hər zərrədən baxan bütöv bir gözsən,
Kainatı heyran edən bütün bir üzsən,

---

sından, hakikati Muhammediyenin (a.s.m.) bir kısım evsafını, mânâyı mecâzî ile cüzî bir vârisine verilebilir diye, bu parlak kasideye ilişmedim. Yalnız Hakikati Ahmediye (a.s.m) ile aynasının farkına işareten bazı kelimeler ilâve edildi”.

Ey misali-rəhməti-aləm Risələtun-Nur!”

(Ey aləmə Rəhmət olan Muhəmmədin nümunəsi, Nur Elçisi!).[253]

**Çətinlikdə olana kömək etdiyi iddiası**

Həsən Feyzinin yazdığı və Said Nursinin bəyəndiyi şeirdə bu iddialar yer almışdır:

“Cürmümüzlə külhan kimi pürnarıq,
Dərd əlindən hər gün zar-u-zarıq.
Əfv et bizi madam sənə daim yarıq,
Ey nuru-rəhməti-aləm Risələtun-Nur!”

Bu sətirlər belə sadələşdirilə bilər:

“Günahımızla ocaq kimi yanırıq,
Dərd əlindən hər gün inildəyirik.
Bir halda ki, sənə yarıq, bağışla bizi
Ey aləmlərə rəhmət Muhəmmədin nuru, Nur Elçisi!

“(…) Göylər sardı bəla, yer verdi bəla,
Sarsıtdı afaqı bir acı vaveyla,
Rəhm et aləmə, ey nuru-Mövla!
Ey cilveyi-rəhməti aləm Risələtun-Nur!”

Bu sətirlər də belə sadələşdirilə bilər:

(Göylərdən bəla yağdı, yerdən bəla fışqırdı.
Hər tərəfi böyük fəryadlar bürüdü.
Bu aləmə rəhm et, ey Mövlanın nuru,
Ey aləmlərə rəhmət Muhəmmədin görüntüsü, Nur Elçisi!

“Döndərildi odla bu nəhəng dünya,
Bir cəhənnəm kimi qaynadı dərya.
Köməyə çat ey şahı-övliya!
Ey bu zamanda aləmlərə rəhmət Risələtun-Nur!”.[254]

---

[253] Sikke-i Tasdik-i Gaybî, a.g.e, c. II, s.2102-2103.

**Quranı və Allahın adlarını daşıması iddiası**

Said Nursi Həsən Feyzinin bir şeiri ilə bağlı belə demişdır: "Risalei-Nurun xüsusi şagirdlərindən və keçmiş müəllimlərindən olan Həsən Feyzi, çox səmimi qənaətlə və güclü etimadla və dərin elmlə, parlaq imanla və «Sikkei-Tasdiki-Gaybi»dən[255] aldığı ilhamla Risalei-Nurun mahiyyətini və o Nurun mənbəyi və əsası olan Nuru Muhəmmədi (a.s.m.) və həqiqəti Quran və iman sirrini tərif etmək üçün bu qəsidəni yazmışdır.[256]

Burada qeyd edilən "Muhəmməd Nuru, Quran həqiqəti və iman sirri" sözləri mühümdür. Özünü Risalei-Nurun həqiqi və mənəvi şəxsiyyəti sayması səbəbindən o, bütün bu xüsusiyyətlərin onda təcəssüm olunduğunu iddia edir. Bunlar Həqiqəti-Muhəmmədiyyə inancına tam şəkildə uyğundur. Çünki Həqiqəti-Muhəmmədiyyənin bütün peyğəmbərlərin və övliyaların aldıqları gizli və açıq məlumatların mənbəyi olduğu, haqdan gələn feyzin xalqa çatdırılmasında vasitəçi olduğu iddia edilir.[257] Buna görə Said Nursi və Risalei-Nurlar Quran həqiqəti, yəni Quranın əsli və həqiqəti sayılır, sirri-iman, yəni imanın sirri qəbul edilirlər. Həsən Feyzi bunu daha açıq şəkildə ifadə edir:

"Dərdlərə dərmansan, məhbubu cansan,
Həm camiul-əsma vəl-Quransan,
Həm də nuru Haqdan bizə ehsansan,

---

[254] «Sikke-i Tasdik-i Gaybi», a.ç.ə, c. II, s.2102
[255] «Sikke-i Tasdik-i Gaybi», Said Nursinin kitablarından birinin adıdır.
[256] Emirdağ Lâhikası (1), Mektup No: 71, a.g.e, c. II, s. 1725. Yazı sadələşdirilmişdir. Əsli belədir: "Gayet samimî bir kanaatle ve kuvvetli bir itimatla ve derin bir ilimle ve parlak bir imanla Risale-i Nurun mahiyetini iki defadır tarif eden Risale-i Nurun has şakirtlerinden ve ehemmiyetli eski muallimlerinden Hasan Feyzinin Sikke-i Tasdik-i Gaybîden aldığı bir ilhamla Risale-i Nur hakkında ve o Nurun menbaı ve esası olan Nuru Muhammedî (a.s.m.) ve hakikat-i Kurân ve sırr-ı iman târifinde bu kasideyi yazmıştır."
[257] Mehmet DEMİRCİ, "Hakikati Muhammediye", DİA, c. XV, s. 179180.

Ey bir rəhməti aləm Risalətun-Nur![258]
Bu sətirlər belə sadələşdirilə bilər:
Dərdlərə dərmansan, sevimlisisən canın,
Həm Quranı əhatə edirsən, həm adlarını Allahın.
Həm də Haqqın nurundan bizə bəxşişsən,
Ey aləmə rəhmət, Nur Elçisi!

**Hər dövrdə bir başqa şəxsiyyətin timsalında peyda olması iddiası**

Həqiqəti-Muhəmmədiyyə Muhəmməd əleyhissəlamın tarixi şəxsiyyəti deyil. Buna inananlara görə, bu həqiqət hər dövrdə dəyişən adlarla və surətlərdə peyğəmbər və ya övliya kimi ortaya çıxır.[259] Said Nursi özünün bu cür olduğuna inanır. Onun sözləri belədir:

"Mən bu anda səksən Saidin əsası kimi ortaya çıxmışam. Onlar həlqəvari şəxsi qiyamətlər və zəncirvari tənasüx, yəni ruhun köçməsi ilə çalxalanıb məni bu zamana atmışlar.

Bu Said yetmiş doqquz ölü və bir danışan canlının cəmidir. Əgər zamanın suyu donsa və başqa bədənlərdə təzahür edən Saidlər bir-birlərini görsələr, ciddi fərqləri görüb bir-birlərini tanımayacaqlar. Mən o bədənlərin üstündə yuvarlandım. Yaxşılıqlar və zövqlər yox olub getdi. Çətinlik və kədərlər toplanıb qaldı. O gecələmə evlərinin hər birində mən, mən idim. Ölümümdən sonra gələcək gecələmə evlərində də yenə mən, mən olacağam. Həmin gecələmə evlərində, yəni orqanizmdə olan hüceyrələr ildə iki dəfə orqanizmdən ayrıldığı kimi, mən də o şəkildə

[258] Bütöv şeir üçün Bxn. "Sikke-i Tasdik-i Gaybi", a.ç.ə, c. II, s.2102-2103.
[259] Hasan Kamil Yılmaz, "Kamil insan, Altınoluk Məcmuəsi", İyul 1996, N: 125, s. 31.

geymimi dəyişdirirəm, köhnəlmiş Saidi atır, yeni Saidi geyinirəm."[260]

"Mən bu anda səksən Saidin əsası kimi ortaya çıxmışam", - sözü mühümdür. Çünki Tövrata görə, Adəm əleyhissəlamdan Yaqub əleyhissəlamın ölümünə qədər 2413 il keçmişdir. Yusuf əleyhissəlam 110 yaşında, Musa əleyhissəlam da 120 yaşında vəfat etmişdi.[261]

Yaqubdan İsa əleyhissəlamın doğumuna qədər cəmi 1600 il keçsə də, bu, təxminən 4000 il edir. Said Nursinin 1960-cı ildə vəfat etdiyini nəzərə alsaq, Tövrata görə, ilk insandan onun ölümünə qədər 5960 il keçir. Bunu səksənə böldükdə onun daxil olduğu iddia edilən hər bədənin orta yaşam müddəti 75 il təşkil edəcək. Bu səbəbdən səksəninci bədən sözü düşünülmüş bir şəkildə deyilmiş sözdür.

Bu, reinkarnasiya inancıdır. Said Nursi ən yüksək nöqtədə olduğunu, qiyamətə qədər də ən yüksək səviyyədə qalacağını iddia edir. Yəni dünyaya gəlmiş böyük peyğəmbərlərlə hər dövrdə gələn mürşid, mücəddid, Mehdi və gözlənən İsa odur. Risalei-Nurların mövzu ilə bağlı ifadələri belədir:

"Ol nurdan ötrü Yunusu hifz etdi ol hut,

---

[260] Said Nursî, İşârât, a.g.e, c. II, s. 2340. İfadələr sadələşdirilmişdir. Əsli belədir: "Ben bu anda, seksen Saidden telhis ile tezahür etmişim. Onlar müselsel şahsî kıyametler ve müteselsil istinsahlar ile çalkalanıp şu zamana beni fırlatmışlar.
Şu Said yetmiş dokuz meyyit, bir hayyı nâtıkın fihristesidir. Eğer zamanın suyu donup dursa, mütemessil olan o Saidler birbirlerini görseler, şiddet-i tehalüften birbirlerini tanımayacaklardır. Ben onların üstünde yuvarlandım; hasenat, lezzat dağıldı kaldı. Seyyiat, âlâm toplandı, yüklendi. Nasıl ki şimdi o merhalelerde daima ben benim. Öyle de, mevtimle gelecek menzillerde de yine ben benim. Lâkin her senede şu menzilhanelerdeki zerrat, iki muhacereti umumî yaptığından, ene dahi libasını değiştirir, yırtılmış Saidi atar, yeni Saidi giyer".
[261] Bakınız, Tövrat, Yaradılış, Bap 646.

Ol nur ilə qəhr etdi həm qövmünü ol Lut."
Bu sətirlər belə sadələşdirilə bilər:
"O nura görə balıq Yunus əleyhissəlamı qorudu.
Lut əleyhissəlam qövmünü o nur ilə yox etdi.
"(…) Çox şəxsi vəli, nur ilə həm etdi qənaət,
Çox sayda şəxsi dəni, nur ilə həm buldu kəramət!"
Bu iki sətri belə sadələşdirmək olar:
"Çox sayda övliya o nurla qane oldu.
Çox sayda alçaq insan o nurla yüksək səviyyəyə çatdı.
"Dərhal açılıb göy üzü, həm parladı ol nurdan gələn
Risalei-Nur Hallaqı Rahim etdi məxluqunu məsrur."
Bu sətirlər belə sadələşdirilə bilər:
"Dərhal açılıb göy üzü və o nurdan gələn Risalei-Nur parladı.
Neməti bol olan yaradan bu şəkildə yaratdıqlarını xoşbəxt etdi.
"O təzə günəş, ölkəyə saçdıqca işıqlar,
Daim şad olacaq, şövq tapacaq qəlbi sınıqlar.
(…) Ey nuru Risalətdən gələn burhanı-Quran!
Ey sirri-Furqandan çıxan hüccəti-iman!"
Son iki sətri belə sadələşdirmək olar:
"Ey Peyğəmbərlik nurundan gələn bir Quran dəlili!
Ey Allahın sirrindən çıxan imanın dəlili!
"Sən idin bizə mətlub, həm də sən idin bizə məvud,
Sayəndə bu gün, hər kəs olur zində və məsud."
Bu iki sətri belə sadələşdirmək olar:
"İstədiyimiz sən, bizə söz verilən də sən idin.
Hər kəs sənin kölgəndə güclü və xoşbəxtdir bu gün.
"Hər an səni gözləyər və sayıqlardı bu dünya,
Haqq özünü göstərdi, bu gün sona çatdı o yuxu.
Min üç yüz ildir torpağa dönmüş milyard
Mömin və tövhid əhli səni gözləyərdi daim ey yar!
Hamısı da sənə görə deyirdi kəlamı.

Hamısı da hər an səni salamlayırdı.

(…) Vallah, əzəldən bunu mən etdim əzbər:

Risalei-Nurdur vallah o son mücəddidi əkbər."

Son iki sətri belə sadələşdirmək olar:

"Vallah, əzəldən bəri yaddaşımda olan budur

Vallah ən böyük mücəddid Risalei-Nurdur."

"Əfv et məni, ey əfvi böyük, lütfü böyük Risalei-Nur!

Bir dəm də həm eyləmə səndən məni ya Rabbənə məhcur!"[262]

Bu iki sətri belə sadələşdirmək olar:

"Bağışla məni ey əfvi böyük, lütfü böyük Nur Elçisi!

Ey Rəbbimiz! Məni bir anlıq da olsa, Özündən məhrum birisi etmə.

"Nur eşqinə, Haqq eşqinə, dost eşqinə ey nur!

Nurunla və sirrinlə bu gün et bizi məsrur (sevincli)".[263]

Aciz, biçarə tələbəniz Həsən Feyzi

**Ən böyük mürşid və mücəddid olması iddiası**

Nurçular Said Nursini belə tanıdırlar:

"Bədiuzzaman Said Nursi hicri XIV və miladi XX əsrin minarəsinin yüksək nöqtəsində dayanaraq, müasirləri olan müsəlmanlara və bəşəriyyətə hayqırır, bu əsrin arxasında düzülmüş və gələck cərgələrində növbədə dayanmış gələcək nəsil ilə ən böyük mürşid və ən böyük mücəddid kimi danışır".[264]

---

[262] Bu sözlər onun İsa əleyhissəlam kimi tanrılaşdırıldığını göstərir.

[263] Emirdağ Lâhikası (1), Sıra No: 72, a.g.e, c. II, s.1725 və s. (Şeir çox uzun olduğu üçün bəzi bölümləri götürülmüşdür.) Said Nursinin Risalei-Nurun həqiqi və mənəvi şəxsiyyəti olması əvvəldə də qeyd edilmişdi. Burada Risalei-Nur kimi təcəssüm olunan məfhumun yerinə Said Nursi qoyulduqda, onun xristianlıqdakı İsa inancına uyğun gəldiyini görürük.

[264] Tarihçe-i Hayat, Barla Hayatı, s.2144. Yazı sadələşdirilmişdir, əsli belədir: "Bediüzzaman Said Nursî, on dördüncü asr-ı Muhammedînin ve yir-

## Mehdi olduğu iddiası

Risalei-Nurun bəzi görkəmli şagirdləri Said Nursidən inadla bunu soruşurlar:

“Axır zamanda Peyğəmbərimizin ailəsindən gələcək o böyük mürşidin sən olduğunu düşünürük. Lakin sən bu fikrimizi inadla qəbul etmir, çəkinirsən. Bu ziddiyyətdir. Ziddiyyəti izah etməyinizi istəyirik".

Said Nursi bu suala belə cavab verir:

“Gələcək Mehdi Rəsulun təmsil etdiyi müqəddəs camaatın mənəvi şəxsiyyətinin üç vəzifəsi vardır. Bunlar imanı xilas etmək, Peyğəmbərin xəlifəsi ünvanı ilə İslamın fərqli tərəflərini canlandırmaq və zamanın təsirindən Quran hökmlərində və şəriət dqanunlarda baş verən bir çox dəyişiklik səbəbindən həmin şəxs bu ən böyük vəzifəni yerinə yetirməyə çalışır.

Nur şagirdləri birinci vəzifəni tam şəkildə Risalei-Nurda gördüklərinə görə, ikinci, üçüncü vəzifələr buna nisbətən ikinci, üçüncü dərəcəli olduğuna görə, Risalei-Nurun mənəvi şəxsiyyətini (Said Nursini) haqlı olaraq bir növ Mehdi kimi qəbul edirlər... Onlar hətta bəzi övliyaların qeyb ilə bağlı kəramətlərində Risalei-Nurun (Nur Elçisi Said Nursinin) həmin axır zamanın hidayət elçisi olduğu, tədqiq və şərhlə başa düşüldüyünü deyirlər.

İki məsələdə qarışıqlıq olduğuna görə şərhə ehtiyac var:

Birincisi: ...Peyğəmbərin xəlifəsi olmaq və İslam birliyi, xalqa, siyasətçilərə, xüsusilə bu əsrdəki düşüncələrə görə birinci vəzifədən min qat artıq əhəmiyyətli hesab olunur. Hər əsrdə

---

minci asr-ı Milâdînin minaresinin tepesinde durup, muasırları olan ehli İslâm ve insaniyete bağırıyor ve bu asrın arkasında dizilmiş ve müstakbel sıralarında saf tutmuş olan nesl-i âti ile bir mürşid-i âzam, bir müceddid-i ekber olarak konuşuyor”.

hidayət edən bir növ Mehdi və mücəddid gəlmişdir, amma hər biri üç vəzifədən birini bir tərəfI ilə etdiyinə görə, **axır zamanın böyük Mehdisi** ünvanını almamışlar.

İkincisi: axır zamanın o böyük şəxsinin Peyğəmbər ailəsindən olmasıdır. Əslində mən Həzrəti Əlinin (r.a.) mənəvi övladı hökmündəyəm. Ondan həqiqət dərsini aldım. Muhəmməd (a.s.m.) ailəsi bir mənada həqiqi Nur şagirdlərini də əhatə etdiyinə görə, mən də o ailədən sayıla bilərəm.[265]

"Qırx gündən bir çörək yeyib başqa günlərdə yeməyən məşhur övliya Osmanı-Xalidi ilə İspartanın tanınmış alimlərin-

---

[265] Şuâlar, On Dördüncü Şuâ, a.g.e, c. II, s.1064. İfadələr sadələşdirilmişdir, əsli belədir: "Nurun ehemmiyetli bir kısım şakirtleri pek musırrâne olarak âhirzamanda gelen Âl-i Beytin büyük bir mürşidi seni zannediyorlar. Sen de onların fikirlerini musırrâne kabul etmiyorsun, çekiniyorsun. Bu bir tezattır. Hallini isteriz" diye sormaları sebebiyle, onlara cevap olmak üzere, bundan sonra gelecek Mehdî-i Resulün temsil ettiği kudsî cemaatin şahs-ı mânevîsinin üç vazifesi olduğu, bunların imanı kurtarmak, hilâfet-i Muhammediye (a.s.m.) ünvanıyla şeâir-i İslâmiyeyi ihyâ etmek ve inkılâbât-ı zamaniye ile çok ahkâmı Kurâniyenin ve şeriatı Muhammediyenin (a.s.m.) kanunlarının bir derece tâdile uğramasıyla o zât bu vazife-i uzmâyı yapmaya çalışır. Nur şakirtleri birinci vazifeyi tamamıyla Risale-i Nurda gördüklerinden, ikinci, üçüncü vazifeleri de, buna nisbeten ikinci, üçüncü derecededir diye, Risale-i Nurun şahsı mânevîsini haklı olarak bir nevi mehdi telâkki ediyorlar. Bir kısmı, o şahsı mânevînin bir mümessili olan bîçare tercümanını zannettiklerinden, bazan o ismi ona da veriyorlar. Hattâ, evliyanın bir kısmı, keramet-i gaybiyelerinde Risale-i Nuru aynı o âhirzamanın hidâyet edicisi olduğu, bu tahkikatla teville anlaşılır diyorlar. İki noktada bir iltibas var; tevil lâzımdır. Birincisi: Âhirde iki vazife, gerçi hakikat noktasında birinci vazife derecesinde değiller. Fakat hilâfet-i Muhammediye (a.s.m.) ve ittihad-ı İslâm avamda ve ehli siyasette, hususan bu asrın efkârında o birinci vazifeden bin derece geniş görünüyor. Gerçi her asırda hidayet edici bir nevi mehdî ve müceddid geliyor ve gelmiş. Fakat her biri üç vazifeden birisini bir cihette yapması itibarıyla, âhirzamanın büyük mehdîsi ünvanını almamışlar.
İkincisi: Âhirzamanın o büyük şahsı, Âl-i Beytten olacak. Gerçi mânen ben Hazret-i Alinin (r.a.) bir veled-i mânevîsi hükmündeyim. Ondan hakikat der sini aldım. Ve Âl-i Muhammed (a.s.m.) bir mânâda hakikî Nur şakirtlerine şâmil olmasından, ben de Âl-i Beytten sayılabilirim."

dən olan Topal Şükrü, bir həqiqəti açıq şəkildə görmüş və xəbər vermişlər. O həqiqət belədir:

"Ümmətin axır zamanda gəlməsini gözlədiyi insanın üç vəzifəsindən ən mühüm olanı və ən böyüyü həqiqi imanı yaymaq və iman əhlini azğınlıqdan xilas etmək olduğuna görə, o vəzifəni tam şəkildə Risalei-Nurda görmüşlər. Bu səbəbdəndir ki, Hz. Əli, Əbdülqadir Geylani və Osmanı-Xalidi kimi şəxslər gələcək şəxsin məqamını Risalei-Nurun mənəvi şəxsiyyətində (Said Nursidə) gözləri ilə görmüş kimi işarələr vermişlər… Bu həqiqət göstərir ki, gələcək o mübarək şəxs, Risalei-Nuru öz proqramı kimi tətbiq edəcəkdir.[266]

**Gözlənən Məsih olması iddiası**

Risalei-Nurlara görə, gəlməsi gözlənən İsa, Said Nursidir. Çünki İsanı gözləyənlər onun Dəccalı öldürəcəyinə inanırlar.[267]

---

[266] Sikke-i Tasdik-i Gaybî, a.g.e, c. II, s. 2061. www.bediuzzaman.net ve www.risaleinur.com.tr Yazı sadələşdirilərək qısaca yazılmışdır. Əsli belədir: "Ev- velâ: Nurun fevkalâde has şâkirdleri, "Sikke-i Gaybiye" müştemilâtiyle, o evliyayı meşhûreden, kırk günde bir defa ekmek yeyip kırk gün yemeyen Osman-ı Hâlidînin sarih ihbarı ve evlâdlarına vasiyeti ile ve Ispartanın meşhur ehl-i kalb âlimlerinden Topal Şükrünün zâhir haber vermesiyle çok ehemmiyetli bir hakikatı dâva edip, fakat iki iltibas içinde bu bîçâre, ehemmiyetsiz kardeşleri Saide bin derece ziyade hisse vermişler. On seneden beri kanaatlarını tâdile çalıştığım halde, o bahadır kardeşler kanaatlarında ileri gidiyorlar. Evet onlar, Onsekizinci Mektuptaki iki ehl-i kalb çobanın macerası gibi, hak bir hakikatı görmüşler, fakat tâbire muhtaçtır. O hakikat da şudur: Ümmetin beklediği, âhir zamanda gelecek zâtın üç vazifesinden en mühimmi ve en büyüğü ve en kıymetdarı olan îman-ı tahkikîy-i neşr ve ehli îmanı dalâletten kurtarmak cihetiyle, o en ehemmiyetli vazifeyi aynen bitemâmiha Risale-i Nurda görmüşler. İmamı Ali ve Gavsı Âzam Osman-ı Hâlidî gibi zatlar, bu nokta içindir ki, o gelecek zâtın makamını Risale-i Nurun şahs-ı mânevîsinde keşfen görmüşler gibi işaret etmişler. Bâzan da o şahs-ı mâne- vîyi bir hâdimine vermişler, o hâdime mültefitane bakmışlar. Bu hakikatdan anlaşılıyor ki; sonra gelecek o mübarek zat, Risale-i Nuru bir programı olarak neşr ve tatbik edecek".

[267] Bxn. Kastamonu Lahikası, iyirmi Yeddinci Mək, a.ç.ə, c. II, s. 1601.

Said Nursinin “çox parlaq qəsidə” kimi mədh etdiyi şeirdə bu cəhət qeyd edilir:

“Hər yanğını sənin nurun söndürür,
Hər bir yeri gülşənə sənin nurun döndərir,
Bir gün gələr Dəccalı da öldürər,
Ey aləmin rəhmət nuru Risalətun-Nur!”[268]

**Said Nursinin xilaskar olması iddiası**

Nurçular onun bu dünyada özlərini xilas edəcəyinə inanırlar. Said Nursinin “çox parlaq qəsidə” kimi mədh etdiyi şeirdə mövzu ilə bağlı bu ifadələr yer almışdır:

“Şəfa tapsın indi bir az yaramız,
Bərəkətli olsun durğun paramız,
Saç nurunu, ağa dönsün qaramız,
Ey aləmlərə rəhmət və ziya Risalətun-Nur!
“(...) Aşiqlərin Ərşə çıxan fəryadı,
Ağladır o pak ruhlu əcdadı,
Allah üçün et bizə sən köməyi,
Ey möhtaclara rəhmət olan Risalətun-Nur!
Göylər saldı bəla, yer verdi bəla,
Sarsıtdı afaqı bir acı fəryad,
Rəhm et aləmə, ey nuru Mövla!
Ey cilveyi-rəhməti-aləm Risalətun-Nur!
Bir yanda sel var, bir yanda qan axar,
Bu bəla atəşi aləmi yandırar,
Ağlayan bu bəşər daim sənə baxar,
Ey nümunə olan aləmlərə rəhmət Risalətun-Nur!
Döndərildi odla bu nəhəng dünya,
Bir cəhənnəm kimi qaynadı dərya.

[268] “Sikke-i Tasdik-i Gaybi”, a.ç.ə, c. II, s. 2102.

Çat kömәyә ey şahı-övliya,

Ey bu zamanda rәhmәti-alәm Risәlәtun-Nur!”[269]

“Çat kömәyә ey şahı-övliya” ifadәsi, “Ey övliyalar padşahı kömәyә çat”, - demәkdir. Said Nursi kimә qarşı kömәyә çağırılır. Dünyanı odla döndәrib dәnizlәri cәhәnnәm kimi qaynadan kimdir? Mәgәr Allaha qarşı kömәyә çağırılan bu şәxs Allahdan daha güclü, daha mәrhәmәtli vә insanları daha yaxşı tanıyan birisi olmamalıdır? Beş vaxt namazda: “Biz yalnız Sәnә qul oluruq vә yalnız Sәndәn kömәk dilәyirik!”, - deyәn müsәlman bu böyük günaha nәcә işlәdә bilәr?!

**k - Said Nursinin şәfaәtçi olacağı iddiası**

Nurçular Said Nursinin şәfaәtinә inanırlar. Mövzu ilә bağlı bәzi sözlәri belәdir:

“O nurun mübarәk tәrcümәçisinin vә mübarәk mәnәvi şәxsiyyәtnin (Said Nursinin) etdiyi “Bizi xilas et, ana-atamızı, Risalei-Nur tәlәbәlәrini vә onların ana-atalarını oddan xilas et” duası vә buna bәnzәr duaların qәbul edilmәsi ilә, şәfaәti ilә vә hörmәti ilә, … onun şagirdlәri, xidmәtçilәri vә risalәlәrini qoruyan mağazalar, azad olub xilas olduqları kimi, siz dә o mübarәk şagirdlәr kimi, o mübarәk müqәddәs çәrçivәyә daxil olduğunuz zaman dünya vә axirәtlә bağlı dәhşәtli odlardan xilas olacaq, övlad vә ailәnizin bir növ çobanı olmağımıza görә o sevimlilәrinizi dә xilas edәcәksiniz. Hәr biriniz maddi vә mәnәvi nicat vә sәadәt tapacaqsınız."[270]

---

[269] Sikke-i Tasdik-i Gaybi, a.ç.ә, c. II, s.2102.

[270] Emirdağ Lâhikası (1 Mektup No: 81), a.g.e, c. II, , s. 1733. Әsli belәdir: “ Ve işte o nurun mübarek tercümanının ve mübarek şahs-ı mânevîsinin... dualarının kabulüyle, şefaatiyle ve hürmetine, benim dehşetli, fakat Cehennem ateşi yanında hiç ehemmiyeti olmayan ateşimden, onun şakirtlerinin, hâdimlerinin ve risalelerinin muhafızı bulunan mağazaları, nasıl âzâd olmuş, kurtulmuşsa, sizler de o mübarek şakirtler gibi, o mübarek dairei

Ey nurçular! …Nurun şəfaəti, Nurun duası, Nurun himməti sizləri xilas edəcəkdir.[271]

**Risalei-Nurların müqəddəsləşdirilməsi**

Risalei-Nurlarda Risalei-Nurları, Said Nursini və tələbələrini müqəddəs hesab edən o qədər çox saylı bölümlər vardır ki, onlar çıxarılsa, kitabların həcmi ciddi şəkildə kiçilər. Bunların bəzisindən bir qədər əvvəldə bəhs edilmişdi. Bəzilərinə nəzər yetirək:

"Bu heyrətli, dəhşətli və misilsiz dövrdə, xüsusilə möminlərin hədsiz sarsıntılar keçirdikləri və çox dəhşətli düşmənlərlə üz-üzə qaldıqları və sırf kafirlik odunun yaşadığımız yeri əhatə etdiyi bir zamanda yalnız və yalnız güvənimizin ən möhkəm, güclü, sarsılmaz təchizatına malik olan Risalei-Nurun nurani sipərlərinə sığınmaqla və onun müqəddəs çərçivəsinə daxil olaraq xilas olacaq və imanınızı xilas edərək, əbədi yoxluq güman etdiyiniz ölümü bir əbədi həyata çevirəcəksiniz."[272] "Onlar ruhumuzun qidası və əbədi səadətimizin açarıdır.[273]

---

kudsiyeye dehalet ettiğinizde, dünyevî ve uhrevî deh- şetli ateşlerden kurtulacak ve evlât ve iyâlinizin bir nevi çobanı olmak hase- biyle, o sevgililerinizi de kurtaracaksınız. Ve her birerleriniz maddî ve manevî felâh ve saadete nail olacaksınız..."

[271] «Emirdağ Lahikası» (1), Məktub N: 81, a.ç.ə, c. II, s.1733.

[272] Emirdağ Lâhikası (1), Mektup No: 81,a.g.e, c. II, s.1733. "Bu acip ve dehşetli ve hiç misli görülmemiş devir- de, hususan ehl-i imanın çok sarsıntılar geçirdiği ve çok dehşetli düşmanlar karşısında bulunduğu ve küfr-ü mutlak ateşinin mahallemizi sardığı bir za- manda, ancak ve ancak, güvenimizin en müstahkem, kavî, yıkılmaz, sarsıl- maz tahkimatı olan Risale-i Nurun nurânî siperlerine iltica etmekle ve onun daire-i kudsiyesine dehalet etmekle kurtulacak ve imanınızı kurtararak, idam- ı ebedî zannettiğiniz ölümü bir hayat-ı bâkiyeye tebdil edeceksiniz".

[273] Şualar, On Dördüncü Şua, a.ç.ə, c. I, s.1111, Ceylan Çalışqanın müdafiəsindən.

İndi bu kitablara aid edilən xüsusiyyətlərdən bəzilərinə nəzər yetirək:

**a) Risalei-Nurun təsdiq edilməsi iddiası**

Nurçuların iddia etdiyi kimi, xilas yalnız Risalei-Nurlarla mümkün olacaqsa, onlar əvvəlki ilahi kitablar tərəfindən xəbər verilməli və təsdiq olunmalıdırlar. Said Nursi bu məsələni də nəzərdən qaçırmamış, "Sikkei Tasdiki Gaybi", yəni "qeyblə bağlı təsdiq möhürü" adını verdiyi bir risalə yazmışdır. Risalədə belə qeyd etmişdir: "Bu risalə əvvəldən axıradək minə yaxın işarələrlə yalnız bir şeyi - Risalei-Nurun münasib görülüb təsdiq edildiyini isbat edir. Bir iddiada bu qədər çoxlu və bir-birindən fərqli minlərlə əlamət və işarələrin olması yalnız qəti bilgi səviyyəsində deyil, bəlkə gözlə görünən və qəti qənaət dərəcəsində o iddianı isbat edir".[274]

Bu isbatın necə olduğunu görmək istəyənlər, bundan sonra qeyd ediləcək "SAİD NURSİ VƏ QURAN" bölümünə baxa bilərlər.

**b) Risalei-Nurun türk dilində olması**

Allah Təala belə buyurur:

وَمَا اَرْسَلْنَا مِنْ رَسُولٍ اِلَّا بِلِسَانِ قَوْمِهِ لِيُبَيِّنَ لَهُمْ

**"Biz hər bir elçini yalnız öz millətinin dili ilə göndərdik ki, onlara yaxşı izah edə bilsin…"** ("İbrahim" surəsi, 14/4).

---

[274] Kastamonu Lahikası, a.g.e, c. II, s. 1651, Yazı sadələşdirilərək qısaca qeyd edilmişdir. Əsli belədir: "Bu risale Sikke-i Gaybiye baştan aşağıya kadar bir tek neticeye bakar. Bine yakın emarelerle, Risale-i Nurun makbûliyetine bir imza basıldığını isbat ediyor. Böyle bir tek dâvaya bu derece kesretli ve ayrı ayrı cihetlerde binler emareler ve îmalar onu göstermesi, ilmelyakîn değil, belki aynelyakîn, belki hakkalyakîn derecesinde o dâvayı isbat eder".

Said Nursi bu ayəni Risalei-Nurların türk dilində olmasının dəlili hesab edir və belə deyir:

"...Elçilik və Peyğəmbərliyinköməkçilərinin və vəkillərinin hər əsrdə olması bir qayda olduğu üçün, bu ayə müəyyən varislik vəzifəsi daşıyan Risalei-Nuru öz fərdləri arasına işarə mənası ilə daxil edir və dilinin ərəb dili olmayıb türk dili olmasının səbəbini bildirir".[275]

**c) Risalei-Nurun günaha kəffarət olması iddiası**

Said Nursiyə görə, "Quran ləməatlarına və Risalei-Nura qarşı çıxmaq deyil, onu tamamilə qəbul edib yayılmasına çalışmaq lazımdır. Bu onun keçmiş dəhşətli günahlara kəffarət olması və gələcək dəhşətli bəlalara və qarışıqlığa mane olması üçün mühüm şərtdir".[276]

**d) Risalei-Nuru oxuyanın alim olması iddiası**

Said Nursinin fikrincə, qədim mədrəsələrdə beş-on ildə öyrənilən məlumatlar Nur mədrəsələrində beş-on həftədə öyrənilir və eyni nəticə əldə edilir.[277]

**e) Risalei-Nurları müqəddəsləşdirməyə nümunə**

Risalei-Nurları müqəddəsləşdirmə ilə bağlı yazılar çıxarılsa, kitabların həcmi olduqca kiçilər. Bunlardan "Ayəti-Kubra"nı nümunə verib buradakı iddiaları addım-addım izləyək:

---

[275] Şualar, Birinci Şua, Dördüncü ayə, a.ç.ə, c. I, s. 847.

[276] "Sikke-i Tasdik-i Gaybi", a.ç.ə, c. II, s. 2061.

[277] "Sikke-i Tasdik-i Gaybi", a.ç.ə, c. II, s. 2061. Yazı sadələşdirilmişdir. Əsli belədir: "Eski medreselerde beş on seneye mukabil, inşaallah Nur Medreseleri beş on haftada aynı neticeyi temin edecek ve yirmi senedir ediyor."

**1) Said Nursiyə yazdırılması iddiası**

Said Nursi "Ayəti-Kubra" adını verdiyi risaləsinin giriş hissəsinin uzun olması haqqında belə deyir:

"Bu risalənin girişinin bu qədər uzun olması istəmədən olmuşdur. Deməк ehtiyac var ki, elə yazdırıldı".[278]

**2) Adını Hz. Əlinin verməsi iddiası**

Said Nursi bu risalə üçün belə deyir:

"Bu risalənin elə bir əhəmiyyəti var ki, İmam Əli (r.a.) qeybdən göstərdiyi kəramətlərlə bu risaləyə "Ayəti-Kubra" və "Asayi-Musa" adlarını vermişdir".[279]

**3) Hz. Əlinin Risalədən şəfaət istəməsi iddiası**

Said Nursi deyir: "İmam Əli (r.a.) Nurun bölümlərindən xəbər verdiyi əsnada "Ayətul-Kubra haqqı üçün məni ani ölümdən qoru", - deyib o Ayətul-Kubranı şəfaətçi etmişdir..."[280]

**4) Risalənin "lə iləhə illəllah"ın dəlili olması iddiası**

Said Nursi deyir ki, "Lə iləhə illəllahın dəlili, nəşr edilən "Ayətul-Kubra" risaləsidir. O misilsiz dəlilin qeyri-adiliyi səbəbi ilə İmam Əli (r.a.) onun şəfaətçi olduğunu bildirmişdir.[281]

---

[278] Şualar, Yeddinci Şua, a.ç.ə, c. I, s. 895.
[279] Şualar, Yeddinci Şua, a.ç.ə, c. I, s. 895.
[280] Şuâlar, On Beşinci Şuâ, a.g.e, c. I, s. 1116. "من أمـ ين الـ كربـ ى وبـ اآلـ ية فجت الـ" ərəb dilində "fəcət" sözü olmadığına görə "fucə" kimi qəbul edilərək mәna verilmişdir.
[281] Şualar, On Beşinci Şua, a.ç.ə, c. I, s. 1116. Bu ifadə qısaldılmışdır. Əsli belədir: " Birinci Kelime ….. tır. Bundaki hüccet ise matbu Âyetül-Kübra Risalesidir. O emsalsiz hüccetin hârikalığı içindir ki; İmam-ı Ali (R.A.), Nurun eczalarından haber verdiği sırada … Ayetül Kübrâ hakkı için beni ani ölümden koru. A. Bayındır) deyip o(... Âyetül-Kübrayı şefaatçı yaparak..."

**5) Risalənin xilaskarlıq etdiyi iddiası**

Said Nursi deyir ki, "...O Risalənin həm Ankara, həm də Dənizli məhkəmələrində qalib gəlməsi və pərdə altından təsirli şəkildə yayılması ilə tələbələrinin bəraət almasına səbəb olduğu…"[282]

**6) Bir mağazanı yanğından qoruması iddiası**

Said Nursi deyir ki, "...(İspartada) hökumət müəssisələrindən birisi… gecənin ən soyuq vaxtında üç saat yandı. Yanğın ona bitişik olan mağazaya sürətlə keçirdi. Mağaza Risalei-Nurun bir tələbəsinə məxsus idi. O, "Biz yanırıq, məhv olduq...", - deyərək yanıma gəldi. Mən də iki gün əvvəl ondan mağazada olan "Ayətul-Kubra"nın bəzi nüsxələrini istəmişdim, lakin gətirməmişdi. Deməli o, yanğını söndürmək üçün orada qalmışdı. Risalei-Nuru və "Ayətul-Kubra"nı şəfaətçi edib: "Ya Rəbbi, xilas et" dedim. Üç saat ərzində dəhşətli yanğın o böyük yeri tamamilə külə döndərmişdi, altında olan və ona bitişik mağazaları tamamilə yandırmışdı. Lakin alov Risalei-Nurun və "Ayətul-Kubra"nın qoruduğu mağazaya keçməmişdi. Altda olan şagirdin dükanı da yanmamışdı..."[283]

**3 - Nur camaatının nicat tapacağı iddiası**

Nurçulara görə, "Risalei-Nur şagirdlərinin nicat tapacaqları və xoşbəxt olacaqları haqqında Quranın qüvvətli işarələri, Hz. Əlinin və Əbdülqadir Geylaninin müjdələri vardır.[284] Bu ayələr bu kimi camaat və təriqətlərin vəziyyətindən bəhs edir:

---

[282] Şualar, On Beşinci Şua, a.ç.ə, c. I, s. 1116.

[283] «Emirdağ Lahikası», iyirmi Yeddinci Məktub, a.ç.ə, c. II, s. 1723. mənanı pozmayan qısa ifadələr işlədilmişdir.

[284] Kastamonu Lahikası, iyirmi Yeddinci Məktub, a.ç.ə, c. II, s. 1608, İfadənin əsli belədir: "Risale-i Nur şakirtleri hakkında necatlarına ve ehl-i saadet

إِنَّ الَّذِينَ فَرَّقُوا دِينَهُمْ وَكَانُوا شِيَعًا لَسْتَ مِنْهُمْ فِي شَيْءٍ إِنَّمَا أَمْرُهُمْ إِلَى اللَّهِ ثُمَّ يُنَبِّئُهُمْ بِمَا كَانُوا يَفْعَلُونَ

**"Dinlərini firqə-firqə ayırıb hər biri ayrı bir camaat olanlarla sənin heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. Sonra onların etdikləri özlərinə bildirəcəkdir!"** ("Ənam" surəsi, 6/159).

وَإِنَّ هَذِهِ أُمَّتُكُمْ أُمَّةً وَاحِدَةً وَأَنَا رَبُّكُمْ فَاتَّقُونِ (52) فَتَقَطَّعُوا أَمْرَهُمْ بَيْنَهُمْ زُبُرًا كُلُّ حِزْبٍ بِمَا لَدَيْهِمْ فَرِحُونَ (53) فَذَرْهُمْ فِي غَمْرَتِهِمْ حَتَّى حِينٍ (54) أَيَحْسَبُونَ أَنَّمَا نُمِدُّهُمْ بِهِ مِنْ مَالٍ وَبَنِينَ (55) نُسَارِعُ لَهُمْ فِي الْخَيْرَاتِ بَلْ لَا يَشْعُرُونَ (56)

**"Bu din tək bir din olaraq sizin dininizdir. Mən də sizin Rəbbinizəm. Məndən çəkinin!"**

**Sonra insanlar bəzi kitabların ətrafında yığışıb din mövzusunda firqə-firqə oldular. Hər firqə öz yanındakına tam güvənir. Sən onları bir müddət öz xəyalları içində burax! Onlara var-dövlət və övladlar verməyimizi necə dəyərləndirirsiniz? Onlara mal qazandırmaq üçün tələsirik? Xeyr, anlamırlar!"** ("Muminun" surəsi, 23/52-56)

Son ayə belədir:

فَتَقَطَّعُوا أَمْرَهُمْ بَيْنَهُمْ زُبُرًا كُلُّ حِزْبٍ بِمَا لَدَيْهِمْ فَرِحُونَ

**"Sonra insanlar bəzi kitabların ətrafında yığışıb din mövzusunda firqə-firqə oldular. Hər firqə öz yanındakına sevinir"** ("Muminun" surəsi, 23/53).

Buradakı "zubur" Zəbur زبر sözünün cəm forması olub "kitab" mənasını verir. Belə ki, "Şuəra" surəsinin 196-cı ayəsində belə buyurulur: وَإِنَّهُ لَفِي زُبُرِ الْأَوَّلِينَ **"O Quran əvvəlkilərin kitablarında da mövcuddur."** Əvvəlkilərin kitabları əvvəlki Pey-

---

olduk- larına dair kuvvetli işaret-i Kuraniyeyi ve beşaret-i Aleviyeyi ve Gavsiyeyi düşündüm..."

ğəmbərlərə nazil edilən kitablar deməkdir. Zəbur həm də Davud əleyhissəlama nazil edilən kitabın da adıdır. Dinlərini parçalayıb firqə-firqə olanların kitablarına da Zəbur deyilməsi, həmin kitablara ilahi kitab xüsusiyyəti verdiklərinə işarə sayıla bilər.

## L - CAMAATI ARTIRMAĞIN ƏSAS MƏQSƏD OLMASI

Dinə tabe olmaq əvəzinə, dini öz mənafelərinə uyğun uyğunlaşdıranlar o dinin əsas inanclarını öz hakimiyyətlərini möhkəmləndirmək üçün bir vasitə kimi istifadə edirlər. Məsələn, xristianlıqda olan Ata, Oğul və Müqəddəs Ruh inancı Kilsənin xristian camaatı üzərində hakimiyyətini möhkəmləndirmək vasitəsi kimi istifadə edilir. Bu, böyük bir dini istismardır. İnsanlar daha çox dindar olmaq istədikləri halda, Allaha deyil, kilsəyə bağlı olurlar. Məsələn, katoliklərin fikrincə, İsanı, Müqəddəs Ruhu, Məryəm ananı və həvariləri kilsə təmsil edir. "Kilsə iyerarxiya orqanlarından və Məsihin mistik bədənindən ibarət bir cəmiyyətdir. Səmavi bəxşişlərlə təchiz edilmişdir. Biri insani, digəri ilahi olan iki fərqli quruluşu vardır.[285] Kilsə insanların Allahla birləşməsinin işarəsi və vasitəçisidir.[286] Məsihə bənzəyən kilsə işçiləri Məsihin qullarıdır, çünki dedikləri sözlər və verdikləri bəxşişlər özlərinin deyil, başqalarına əta edilməklə onlara əmanət edilən Məsihin sözləri və bəxşişləridir.[287]

Missionerlik dinin təbliği deyildir. Dinin təbliği bir dini insanlara başa saldıqdan sonra inanmaq məsələsində onlara azad seçimin verilməsidir. Missionerlik isə Pavelin etdiyi kimi, insanları Kilsənin maraqlarına xidmət etməyə sövq etmək üçün hər

---

[285] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 771.
[286] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 775.
[287] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par. 876.

üsuldan istifadə etmək fəaliyyətidir. Belə ki, Amerika qitəsinin işğalından 200 il keçməmiş orta əsrlər inkvizisiyasından heç də geridə qalmayan üsullarla yerli inanc və mədəniyyətlər yox edilmiş, xalqlar zorla xristianlaşdırılmışlar. Həmin vəziyyət Avstraliya, Yeni Zellandiya və Qərb imperializminin yayıldığı Afrika ölkələrində və dünyanın digər bölgələrində də baş vermişdir.[288]

Missionerlər əziz Pavelin yolu ilə gedirlər. Onun Korinflilərə yazdığı məktubda belə deyilir:

"[19]Mən sərbəstəm, heç kimin qulu deyiləm. Lakin daha çox insanı öz tərəfimə çəkmək üçün hər kəsin qulu oldum. [20] Yəhudiləri tərəfimə çəkmək üçün yəhudilərlə yəhudi kimi davrandım. Özüm Müqəddəs Qanunun nəzarəti altında olmadığım halda, "Qanuna tabe olanları" tərəfimə çəkmək üçün onlara qarşı "Qanuna tabe olan" şəxs kimi hərəkət etdim. [21] Tanrının hökmlərini tanımayan birisi deyiləm, Məsihin hökmlərinə tabeyəm. Buna baxmayaraq, hökmlərə tabe olmayanları tərəfimə çəkmək üçün "Qanuna tabe olmayan" kimi davrandım. [22] Gücsüzləri öz tərəfimə çəkmək üçün onlarla gücsüz oldum. Bəzilərini xilas etmək üçün hər kəslə hər şey oldum. [23] Bütün bunları Müjdədə (İncildə) müəyyən payımın olması üçün Müjdə uğrunda edirəm."[289]

Missionerlik İncili xalqlara və Məsihə inanmayan qruplara bildirməklə başlayır. Bunun ardınca xristian camaatları yaradılır və yerli kilsələr qurulur. Müxtəlif xalqların mədəniyyətlərinə İncilin təsir etməsi üçün müəyyən inkultrasiya mərhələsi başlayır. Xalqları, qrupları, insanları maraqlandıran mövzularda Kilsə on-

[288] Şinasi Gündüz, Mahmud Aydın, "Missionerlik", İstanbul 2002, s. 18.
[289] İncil, Pavelin Korinflilərə Birinci Məktubu, 9/1923.

lara addım-addım çatır və təsir edir. Bu, İncili qəbul etməyənlərlə mədəni dialoqun aparılmasını zəruri edir.[290]

İnkultrasiya İncildə bildirilənlərin xristian olmayan ölkələrin mədəniyyətlərinə daxil etmək deməkdir. Xristianlığın hökmləri və təlqin etdiyi həyat tərzi digər mədəniyyətlərə uyğunlaşdırılır. Burada əsas məqsəd insanları yavaş-yavaş xristianlaşdırmaqdır.

Bir çox müsəlman camaatı və təriqətlərində də buna bənzər işlər görülür. İslamı özlərinin təmsil etdiklərinə inanırlar. Camaatların sayının artmasını İslamın yayılması kimi qəbul edirlər, bunu ən mühüm məqsəd halına gətirirlər. Said Nursinin aşağıdakı fikirləri buna nümunədir:

"Risalei-Nurun İslam aləmində yayılmasına qarşı sosial və siyasi maneələrin olmaması üçün Nur şagirdlərinin insanlarla sülh ilə davranmalarından cavabdehdirlər. Diqqət edin, imamların cümə və camaatlarına ilişməyin. Onlara qoşulmasanız da, qoşulanları tənqid etməyin. İmam Rəbbani: "Bidət olan yerlərə girməyin" demişdir, amma onun məqsədi bunun savabının olmayacağını bildirməkdir, yoxsa namazın batil olacağını demək deyildir."[291]

İddialarını yaymaq məqsədilə nurçular hər kəslə yaxşı əlaqələr qurmağa çalışır və mübahisə etməzlər. "Bidət olan yerlərə girməyin" cümləsi açıq şəkildə məscidlərə aiddir. Müsəlman da-

---

[290] «Katolik Kilisesi Din ve Ahlak İlkeleri», par.854 və 856.

[291] Kastamonu Lahikası, Yirmi Yedinci Mektup, a.g.e, c. II, s. 1667. Yazı sadələşdirilmişdir. Əsli belədir: "Risale-i Nurun Âlem-i Islâmda intisarına karsı, hayat-ı içtimaiye ve siyasiye cihetinde maniler çıkmamak için, Risale-i Nur sakirtleri musalahakârane vaziyeti almaya mükelleftirler. Sakın hocaların Cuma ve cemaatlerine ilismeyiniz. Istirak etmeseniz de, istirak edenleri tenkid etmeyiniz. Gerçi Imamı Rabbanî demiş ki: "Bida olan yerlere girmeyiniz." Maksadı, "sevabı olmaz" demektir; yoksa, namaz battal olur değil."

ha çox savab qazanmaq üçün məscidə gedir. Əgər namazın savabını almayacaqsa, o, heç ora gedər? Said Nursi bu yolla nurçuların öz məscidlərini yaratmalarına işarə edir.

## M - BƏŞƏRİYYƏTƏ QUCAQ AÇMAQ İDDİASI

Nurçular deyirlər: "Kim həqiqət axtarırsa, Risalei-Nurdan dərs almalıdır. Nur yolunda olan hər elm adamı həqiqi xoşbəxtlik əldə edəcək, yer üzünün mahiyyətini dərk edəcəkdir. Əbədi həyat xəzinəsini göstərən Qurani-Hakimin nuru olan Risalei-Nur, şübhəsiz ki, bir zaman dünyanı lərzəyə gətirən nurlu səsini yüksəldəcəkdir."[292]

Said Nursi bir qədər də irəli gedir və belə yazır: "Dinin, şəriətin və Quranın yüzdən artıq tilsimini, müəmmasını açıb ortaya çıxaran və ən inadkar dinsizləri susdurub cavabsız qoyan; Merac, həmçinin axirətdə ruh və cəsədin birlikdə diriləcəyi kimi ağıldan uzaq güman edilən Quran həqiqətlərini ən təəssübkeş və ən inadkar filosoflara və kafirlərə qarşı günəş kimi isbat edən və onların bəzisini imana gətirən Risalei-Nur nüsxələri, şübhəsiz ki, bütün dünyanı və fəzanı özü ilə əlaqələndirəcək, bu əsrin və gələcəyin diqqətini özünə çəkəcək bir Quran həqiqəti və iman əhlinin əlində bir almaz qılıncıdır."[293]

---

[292] Tarihçe-i Hayat, Isparta Hayatı, a.g.e, c. II, s. 2204.

[293] Emirdağ Lâhikası (1), Mektup No: 24, a.g.e, c. II, s.1695. Yazı sadələşdirilmişdir. Əsli belədir: "Evet, dinin, şeriatın ve Kurânın yüzden ziyade tılsımlarını, muammâlarını hal ve keşfeden ve en muannid dinsizleri susturup ilzam eden ve Miraç ve haşr-i cismânî gibi sırf akıldan çok uzak zannedilen Kurân hakikatlerini en mütemerrid ve en muannid filozoflara ve zındıklara karşı güneş gibi ispat eden ve onların bir kısmını imana getiren Risale-i Nur eczaları, elbette küre-i arz ve küre-i havâiyeyi kendi ile alâkadar eder ve bu asrı ve istikbali kendiyle meşgul edecek bir hakikat-i Kurâniyedir ve ehl-i iman elinde bir elmas kılınçtır."

“Şiəlikdə təəssübkeş və Vəhhabilikdə də qatı, filosofların ən inadkarı və ən alimi, təəssübkeş imamların ən təkəbbürlüsü hamısı birlikdə Nur dairəsinə daxil olmağa başladılar və indi qardaş kimidirlər. Hətta bəzi missionerlər İsa dininin, yəni xristianlığın əsl din adamının da (yəni İsa əleyhissəlamın) o çərçivəyə girəcəyinə dair işarələr var. Onlar bir-birinə hücum etmirlər, əksinə müəyyən həmrəylik və sülhün zəruriliyini hiss edib mübahisəli mövzuları ortaya atmırlar. Deməli, İmam Əlinin (r.a.) otuz-qırx işarəsi ilə açıq şəkildə xəbər verdiyi Risalei-Nur bu zamanın dəhşətli yaralarına tam məlhəmdir. O dairə bizə kifayət etdiyinə görə ondan kənara çıxmırıq.”[294]

---

[294] Emirdağ Lâhikası, a.g.e, c. II, s. 1769. Yazı sadələşdirilmişdir. Əsli belədir: “Şîalıkta mutaassıb ve Vehhabîlikte de müfrit, feylesofların en maddîsi ve mütefennini ve mutaassıb hocaların en enaniyetlisi, beraber Nur dairesine girmeğe başlamışlar ve kısmen şimdi de kardeşçe bulunuyorlar. Hattâ bazı misyonerler de, din-i İsanın (A.S.) hakikî ruhanîsi de o daireye gireceklerine emareler var. Birbirine hücum değil; belki bir tesanüd, bir musalaha lüzumunu hissedip medar-ı münakaşa meseleleri ortaya atmıyorlar. Demek İmam-ı Alinin (R.A.) otuz-kırk işaretiyle sarahat derecesinde haber verdiği Risale-i Nur, bu zamanın müthiş yaralarına tam bir ilâçtır. Nur, bu zamanın müthiş yaralarına tam bir ilâçtır. Onun için, o daire bize kâfi gelmiş, harice çıkmıyoruz”.

# DÖRDÜNCÜ FƏSİL
# SAİD NURSİ VƏ QURAN

Said Nursinin Qurana bəzən doğru yanaşdığı müşahidə olunur. Lakin o, Qurana daha çox özünü, kitablarını və şagirdlərini müqəddəsləşdirmək üçün müraciət edir. Ayələrdən bu kimi mənaları çıxarmaq mümkün olmayacağını görüb, çox səhv yollara əl atır. Məsələn, ona görə, Quranın 33 ayəsində onun özünə və Risalei-Nurlara işarələr var.[295] İddiasını sübut etmək məqsədilə o, əbcəd və cifrdən istifadə edir. Bu, əsasən sehrbazların istifadə etdiyi yoldur. Belə ki, bu cür iddiaları heç başqa yolla etmək mümkün deyildir.

### A - ƏBCƏD VƏ CİFR

28 hərfli ərəb əlifbası səkkiz mənasız sözdə birləşdirilmişdir.

Bunlar: “ابجد هوز حطي كلمن سعفص قرشت ثخذ ضظغ”

söz birləşmələridir.

Bu hərflərə 1-dən 1000-ə qədər rəqəm dəyərləri verilərək müəyyən hesab forması yaradılmışdır. Səkkiz sözünün birincisi əbcəd olduğu üçün bu hesaba Əbcəd hesabı deyilmişdir. Bu hərflər və qarşılıqları aşağıda qeyd edilib.

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| ا | ب | ج | د | ه | و | ز | ح | ط | ي | ك | ل | م | ن |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 20 | 30 | 40 | 50 |
| س | ع | ف | ص | ق | ر | ش | ت | ث | خ | ذ | ض | ظ | غ |
| 60 | 70 | 80 | 90 | 100 | 200 | 300 | 400 | 500 | 600 | 700 | 800 | 900 | 1000 |

[295] Şualar, Birinci Şua, a.ç.ə, c. I, 831.

Əbcəd hesabı daha çox bir cümlənin və ya beytin içinə mühüm hadisələrin tarixlərini mənalı sözlərlə yerləşdirmək üçün işlədilmişdir. Buna tarix qoymaq deyilir. Qeyb aləmini bilmək və gizli mənaları anlamaq üçün bu hesabdan istifadə edənlər də olmuşdur. Bunlar Cəfr və ya Cifr adlandırdıqları bir metodla hərəkət edirlər. Daha çox şiələrin və sehrbazların müraciət etdikləri cifrdə hərflərlə saylar arasında əlaqə yaradılaraq onlara bərabər olan işarələr əldə edilməyə çalışılır.[296] Bu, batil yoldur. Çünki əbcəd hesabının Qurana və sünnəyə istinadən heç bir əsası olmadığı kimi, gizli mənaları, yəni qeyb aləmini bilməyin də hər hansı yolu yoxdur. Allah Təala belə buyurur:

قُلْ لَايَعْلَمُ مَنْ فِى السَّمَوَاتِ وَالْاَرْضِ الْغَيْبَ اِلَّا اللَّهُ وَمَا يَشْعُرُونَ اَيَّانَ يُبْعَثُونَ

**“De: “Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz! Onu ancaq Allah bilir!”** (“Nəml” surəsi, 27/65) “...göylərdə və yerdə...” dediyinə görə hətta mələklərin, cinlərin və peyğəmbərlərin də qeybi bilmədikləri məlum olur.

Cifr yoluyla qeyb aləmini bilməyə çalışanlardan biri də Said Nursidir. Aşağıda qeyd olunduğu kimi, o, istədiyi rəqəmləri əldə etməkdə çətinlik çəkmiş, bunun üçün ayələrin cümlə quruluşunu pozmaq, dil qaydalarına və ya əbcəd qaydalarına tabe olmamaq məcburiyyətində qalmışdır. Bunlar da kifayət etmədikdə, istədiyi rəqəmi almaq üçün yaranan fərqə “sirli fərq” deyərək işin içindən sıyrılmışdır.

[296] Bxn., Bkz., Mustafa Uzun, “Ebced”, DİA, c. X, s. 68-70; Metin Yurdagür, “Cefr”, DİA, c. VII, s. 215-218.

## B - RİSALEYİ NURLARLA BAĞLI İŞARƏLƏR

Said Nursi onun özü, risalələri və tələbələri ilə bağlı işarələrin yer aldığını iddia etdiyi Quranın 33 ayəsi arasından ən çox "Nur" surəsinin 35-ci ayəsi üzərində dayanır. Bu ayə ilə bağlı iddialarına baxdıqda digərlərinə ehtiyac qalmayacaq. Ayə belədir:

اَللّٰهُ نُورُ السَّمٰوَاتِ وَالْاَرْضِ مَثَلُ نُورِهِ كَمِشْكٰوةٍ فِيهَا مِصْبَاحٌ اَلْمِصْبَاحُ فِى زُجَاجَةٍ اَلزُّجَاجَةُ كَاَنَّهَا
كَوْكَبٌ دُرِّىٌّ يُوقَدُ مِنْ شَجَرَةٍ مُبَارَكَةٍ زَيْتُونَةٍ لَا شَرْقِيَّةٍ وَلَا غَرْبِيَّةٍ يَكَادُ زَيْتُهَا يُضِىءُ وَلَوْ لَمْ تَمْسَسْهُ نَارٌ نُورٌ
عَلَى نُورٍ يَهْدِى اللّٰهُ لِنُورِهِ مَنْ يَشَاءُ وَيَضْرِبُ اللّٰهُ الْاَمْثَالَ لِلنَّاسِ وَاللّٰهُ بِكُلِّ شَىْءٍ عَلِيمٌ

**"Allah göylərin və yerin nurudur. Onun nuru, içində işıq olan bir taxça yuvası kimidir. O işıq bir şüşənin içindədir, o şüşə (qəndil) isə sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə olan bərəkətli bir zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa da, sanki işıq saçır. O, nur üstündə nurdur. Allah dilədiyini öz nuruna qovuşdurur. Allah insanlar üçün misallar çəkir. Allah hər şeyi biləndir!"** ("Nur" surəsi, 24/35).

Ayənin tərcüməsi tərəfimizdən əlavə edilmişdir. Ümid edirik ki, bu mövzunun yaxşı aydın olmasına kömək edəcəkdir.

Said Nursi qeyd olunan ayənin Risalei-Nurların adına, yazılma tarixinə və oradakı biliklərin dəyərinə işarələr etdiyini iddia edir.

O, kitablarına Risalei-Nur, Rasəilin-Nur, Risələtun-Nur və Risalein-Nur adlarını verir.

Risalein-Nur şəklində ad ola bilməz. Bu nə türk dilinə, nə ərəb dilinə, nə də fars dilinə uyğundur.

Ona görə, ayə dörd-beş cümləsi ilə on baxımdan bu kitabların adına işarə edir.

**Birinci cümlə**

Said Nursiyə görə, ayənin Risalei-Nura işarə edən birinci cümləsi belədir: مَثَلُ نُورِهِ كَمِشْكَوةٍ فِيهَا مِصْبَاحٌ = “Onun nuru, içində işıq olan taxça yuvası kimidir”.

**“Yəni ilahi nuru, Quran nuru və ya Muhəmmədin (a.s.m.) misalı** مِشْكَوةٍ فِيهَا مِصْبَاحٌ **= içində işıq olan bir taxça yuvasıdır.** Bunun məqamı-cifrisi, yəni cifrə görə rəqəm dəyəri 998-dir. Ərəb dilindəki sözün əslindəki şəddəli nunu iki nun hərfi saysaq, Risələtun-Nurun rəqəm dəyəri də eyni olar. Bu səbəbdən ayə tam şəkildə bu ada işarə edir.”

Bu sözü ilə o, “مِشْكَوةٍ فِيهَا مِصْبَاحٌ” ifadəsinin Risələtun-Nur olduğunu deyir. Onun yuxarıda qeyd edilən cümləsini bu dəyişikliklə nizamlasaq, onda belə bir məna alınır: “İlahi nurun və ya Quran nurunun və ya Muhəmməd Nurunun (a.s.m.) nümunəsi Risələtun-Nurdur.”[297] Bunu açıq şəkildə deməsə də, əslində belə olduğunu aşağıdakı başqa cümlələrlə ifadə edəcək.

Said Nursi rəqəmləri bir-birinə uyğunlaşdırmaq üçün ayədən aldığı cümlənin quruluşunu pozmuş, sonra كَمِشْكَوةٍ sözünün əvvəlindəki ك hərfini götürmüşdür. Bu kifayət etmədikdə, Risələtun-Nur sözündəki ال hərf birləşməsini ن qəbul etmişdir. Risələtun-Nur belə yazılır: “ر سالة النور”. Onun dediyi iki nundan ikincisi, ال hərf birləşməsinin, idğamı şəmsiyyə olması səbəbiylə ... - a çevrilməsindən yaranan səsdir. Bunları etməsə, istədiyi rəqəmi əldə edə bilməyəcək.

[297] Ayənin Nuri-Muhəmmədiyyəyə işarə etdiyi, dolayısı ilə Risalətun-Nurun Nuri Muhəmmədi olduğu iddiası da vardır. Bu mövzu haqda daha əvvəl bəhs edilmişdi.

**İkinci cümlə**

Said Nursiyə görə, ayənin Risalei-Nura işarə edən ikinci cümləsi belədir:

اَلزُّجَاجَةُ كَاَنَّهَا كَوْكَبٌ دُرِّىٌّ يُوقَدُ = "o şüşə (qəndil) isə sanki parlaq bir ulduzdur. **Yandırılır**..." Bu cümlənin rəqəm dəyəri 546-dır. Risalei-Nurun dəyəri isə 548-dir. İkisi arasında iki sirli fərqlə uyğunluğun olması bu ada işarə edir."

Said Nursi ayədən əvvəlcə bir ad cümləsi götürmüş, rəqəm düz gəlmədikdə onun arxasınca gələn feili və cümlənin ilk sözünü götürmüş və cümlə quruluşunu pozmuşdur. Ərəb dilini bilməyənlər tərcümədən bunu başa düşə bilərlər. Bu dəfə də istədiyi rəqəmi əldə edə bilmədikdə dil qaydalarını pozaraq kitablarının adını "Risalein-Nur"a çevirmişdir. Bunlara baxmayaraq qalan fərqə "iki sirli fərq" deyərək mövzunu sirr pərdəsilə örtmüşdür.

**Üçüncü cümlə**

Said Nursiyə görə, ayənin Risalei-Nura işarə edən üçüncü cümləsi belədir: "مِنْ شَجَرَةٍ = ağacdan." "Əgər مِنْ شَجَرَةٍ dəki ة dayanılan yerlərdəki kimi ه sayılsa, 598 edərək tam şəkildə Rəsailin-Nur və Risalein-Nurun rəqəm dəyəri olan 598-ə bərabər olmaqla yanaşı, "من فرقان حكيم"-in (Furqanı-hakimdən) rəqəm dəyərinə sirli bir tək fərqlə işarəli uyğunluq yaradaraq, həm Rəsailin-Nuru öz içinə əlavə edir, həm də Risalei-Nurun "Furqanı-Hakimin bərəkətli ağacı" olduğunu göstərir.

Əgər مِنْ شَجَرَةٍ dəki ة , ة kimi qalsa, o zaman məqamı cifrisi 993 edir, uyğunluğa zərər verməyən çox az və sirli beş fərqlə Risələtun-Nurun rəqəm dəyəri olan 998-ə uyğun olur. Mənasına da uyğun gəldiyinə görə ayə bu ada işarə edir."

Açıq şəkildə aydın olur ki, Said Nursinin kitablarına Risalei-Nur, Rəsailun-Nur, Risalətun-Nur və Risaləin-Nur şəklində fərqli adlar verməsi istədiyi rəqəmləri uyğunlaşdırmaq məqsədi daşıyır.

Burada Said Nursi əvvəlcə ayədən bağlayıcı ilə birlikdə tək bir söz götürmüş və ona cümlə adını vermişdir. Sonra rəqəm dəyəri 400 olan ة hərfini, dəyəri 5 olan ه ilə dəyişdirmişdir. Yuxarıda rəqəm dəyərinin 548 olduğunu dediyi Risalein-Nuru bu dəfə 598-ə çatdırmışdır. Bütün bunlara baxmayaraq rəqəmlər uyğun olmadıqda, yenə də “sirli fərq” pərdəsinə sığınmışdır. Son olaraq, ayəyə Quranda olmayan من فرقان حكيم = “Furqanı-hakimdən” şəklində əlavə edərək “Risalei-Nurun Furqanı-Hakimin bərəkətli ağacı” olduğu nəticəsinə gəlmişdir. Bunu ayədəki yerinə qoysaq, belə bir hal ortaya çıxar:

*"Onun nuru, içində işıq olan bir taxça yuvası kimidir. Taxçadakı o işıq bir şüşənin (qəndilin) içindədir. O qəndil isə, sanki parlaq bir ulduzdur. Şərqdə də, qərbdə də olmayan bərəkətli Risalei-Nurdan alışdırılmışdır."*

Onun bu iddiası növbəti ifadələrində də tam olaraq ortaya çıxacaqdır.

**Dördüncü cümlə**

Said Nursiyə görə, ayənin Risalei-Nura işarə edən dördüncü cümləsi belədir: نُورٌ عَلَى نُورٍ يَهْدِى اللَّهُ لِنُورِهِ = **“Nur üstünə nurdur. Allah nuruna yönəldir”.** Bunun rəqəm dəyəri 999 edərək yalnız bir sirli fərqlə Risalətun-Nurun rəqəm dəyəri olan 998-ə uyğun olaraq mənasının qüvvətli əlaqəsi ilə əlamət dərəcəsinə işarə edir.”

Sayını uyğunlaşdırmaq üçün iki cümlə birləşdirilmiş, lakin ikinci cümlənin tamamlığı, yəni “məfulun bihi” seçilmişdir. Rəqəm yenə uyğun olmadıqda, o, “sirli fərqə” sığınılmışdır.[298]

## C - SAİD NURSİ İLƏ BAĞLI İŞARƏLƏR

Said Nursinin fikrincə, ayənin beşinci cümləsi belədir: مَنْ يَشَاءُ = *İstəyəni* “Bu cümlə çox kiçik fərqlə Risələtun-Nur müəllifinin adıyla məşhur ləqəbinə uyğundur. Əgər يَشَاءُ -dəki muqaddər əvəzlik izhar edilərsə, مَنْ يَشَاءه olur. Tam şəkildə uyğunluq yaranır.”[299]

Burada haqqında bəhs edilən ləqəb əl-Kürdi olmalıdır. Çünki rəqəm dəyəri 409-dur. مَنْ يَشَاءه ifadəsinin rəqəm dəyəri isə 407-dir. O kürd olduğu üçün ləqəbi Saidi-Kürdidir. Say uyğun olmadığına görə “əl” şəkilçisini əlavə etmək lazımdır. Onun öz ləqəbindən burada bəhs etməməsi də maraqlıdır.

Said Nursi burada mühüm bir dil səhvi də etmişdir. يَشَاء -dəki "muqaddər əvəzlik ortaya çıxarılarsa" deyir. Ərəb dilində muqaddər olan izhar edilə bilməz. Əgər izhar edilə bilsəydi, ona mahzuf (aradan götürmə) deyilərdi. يَشَاء - dəki muqaddər əvəzlik, onun faili olan هو -dir. مَنْ يَشَاءه -dəki ه isə mahzuf olan məfuldur.

Said Nursi sözünə belə davam edir: “مِنْ شَجَرَةٍ مُبَارَكَةٍ = bərəkətli bir ağacdan” cümləsindəki birinci ة, ت; ikinci ة isə dayanma (vakıf) yeri olduğuna görə ه sayılsa və شَجَرَةٍ -dəki tənvin ن sayılsa, bu 1311 edir. Bu, Rəsailin-Nur müəllifinin Risələtun-Nurun

---

[298] Bu bölümdə qeyd edilən iddialar üçün Bxn., Şualar, Birinci Şua, a.ç.ə, c. I, 832.

[299] Şualar, Birinci Şua, a.ç.ə, c. I, s. 832.

mübarək müqəddəs ağacı, Quranın pilləkənləri olan ərəb dilini oxumağa[300] başladığı tarixə tam şəkildə işarə edir.[301]

Həyatından bəhs edən "Tarihçei Hayat"ına (Həyat tarixçəsinə) əsasən o, hicri tarixi ilə 1290-cı ildə anadan olmuşdur. Deməli, 20 yaşında ərəb dilini oxumağa başlamışdır. Halbuki o, 14 yaşında ikən dövrünün ən böyük alimlərindən olduğunu iddia edir.[302]

Said Nursi deyir ki, يَكَادُ زَيْتُهَا يُضِيءُ وَلَوْ لَمْ تَمْسَسْهُ نَارٌ نُورٌ = Od dəyməsə də, sanki haradasa yağın özü işıq saçacaq kimidir. "Nur" cümləsi işarə edir ki, Rəsailin-Nur müəllifi də odsuz yanır. Elm əldə etmək üçün məsrəfə və dərs çətinliyinə ehtiyac hiss etmədən öz-özünə nurlanır, alim olur."[303]

"Bəli, bu möcüzəli cümlənin üç işarəsi var. İkisi elektrik enerjisinə və Rəsailin-Nura etdiyi işarədir. Bunların hər biri həqiqətdir. Üçüncüsü isə müəllif haqqındadır. O da tam həqiqətdir. Onun həyat tarixçəsini oxuyanlar və həmşəhərliləri bilirlər ki, mədrəsə üsuluna görə "İzhar" kitabından sonra on beş il dərs almaqla oxunan kitabları Rəsailin-Nurun müəllifi yalnız üç ayda oxumuşdur.

Ayənin o cümləsi cifr və əbcəd hesabı uyğunluğu ilə həm elektrik enerjisinin kəşf olunacağını, həm Rəsailin-Nurun ortaya çıxmasını, həm də müəllifinin doğum tarixini işarə ilə xəbər verir. Həmçinin bir möcüzə işığı da göstərir. Belə ki, يَكَادُ زَيْتُهَا يُضِيءُ = "...haradasa yağın özü aydınladacaq kimidir..." cümləsinin məqamı 1279-dur. وَلَوْ لَمْ تَمْسَسْهُ نَارٌ نُورٌ = "Ona od toxunmasa da.

[300] Burada tədris, yəni dərs keçmə ifadəsi işlədilir. Bizim fikrimizcə, o, tədərrus, yəni dərs oxuma kimi olmalıdır. Çünki Said Nursinin ərəb dilini öyrənməsi ilə bağlı məlumat var, lakin dərs keçməsilə bağlı məlumat yoxdur.

[301] Şualar, Birinci Şua, a.ç.ə, c. I, s. 832.

[302] Kastamonu Lahikası, a.ç.ə, c. II, s. 1609.

[303] Şualar, Birinci Şua, a.ç.ə, c. I, s. 833.

Nur” bölümü isə iki tənvin iki "nun" sayılırsa, bu 1284 edir. Bu şəkildə həm elektrik enerjisinin çox yaxında kəşf edilməsinə, həm Rəsailin-Nurun yaxınlığına, həm də on dörd il sonra müəllifinin doğumuna يَكَادُ = demək olar ki, müqəddəs sözü ilə mənavi olaraq işarə edir. Cifr ilə də tamamilə eyni tarixə uyğundur.

Məlum olduğu kimi, zəif və incə iplər birləşdikcə möhkəm olur, bir-birindən ayrılmayan yoğun kəndirə çevrilir. Bu sirrə əsasən, həmin ayənin işarələri bir-birinə güc və dəstək verirlər. Uyğunluq tam olmasa da, tam hökmündə olur və işarəsi dəlalət dərəcəsinə çatır.”[304]

Said Nursi istədiyi rəqəmı əldə etmək üçün cümlələri hissələrə ayırdığı kimi, hərəkələri də hərf sayır. Lakin burada mühüm bir məlumat ortaya çıxır. Said Nursi 1279-dan 14 il sonra dünyaya gəldiyini deyir. Buna görə onun doğum tarixi hicri tarixi ilə 1293-cü ildir. Onun Şeyxülislamlığa verdiyi öz əlyazmasında bu tarix vardır. Bu səbəbdən həyat tarixçəsindən bəhs edən “Tarihçei Hayat”ındakı 1290-cı il tarixi səhvdir.

Risalei-Nurlar əvvəldən axıradək yuxarıda qeyd edilənlərə bənzər mədhlərlə zəngindir. Onlardan biri də belədir: “Said Nursi İstanbulda ikən "Kim nə istəyirsə soruşsun", - deyə qeyri-adi elan vermiş, sonra dövrün məşhur alim və əllamələr heyətlər halında onun otağına axışmış, hər növ elmi və fərqli mövzulara dair ən qarışıq və həlledilməz sualları vermiş, Said Nursi isə bu sualları dayanmadan doğru şəkildə cavablandırmışdır.”[305]

Nə üçünsə, onun yanına qruplar halında gələn məşhur alim və əllamələrin birinin də kim olmasından bəhs etmir və verdiyi cavablardan birinin də nə olduğunu demir.

---

[304] Şualar, Birinci Şua, a.ç.ə, c. I, s. 833.
[305] Said Nursi, «Sözler», Sözlər Nəşriyyatı, İstanbul 1993, s. 726.

## D - RİSALEYİ-NURLARIN YAZILMASINA İŞARƏLƏR

Said Nursi deyir: "Əvvəldəki ayə Risalei-Nurun adına işarə etdiyi kimi, yazılması və təkmilləşməsi tarixinə də bir qayda olaraq işarə edir. كَمِشْكَوةٍ فِيهَا مِصْبَاحٌ اَلْمِصْبَاحُ فِى زُجَاجَةٍ = **İçində işıq olan çıraqdana bənzəyir. O işıq bir şüşənin (qəndilin) içindədir**" cümləsində كَمِشْكَوةٍ dəki tənvin vəqf (dayanma) yeri olmadığına görə "nun" sayılsa və فِى زُجَاجَةٍ vəqf yeri (dayanma) yeri olduğuna görə ة, ه sayılsa, 1349 edir. Bu rəqəm Rəsailin-Nurun ən nurani cüzlərinin yazılması və təkmilləşməsi zamanı olan 1349-cu il tarixinə tam şəkildə işarə edir.

Said Nursi istədiyi rəqəmi əldə edə bilmək üçün burada da ayənin cümlə quruluşunu pozur, sonra ة hərfini bir yerdə hərəkəsiylə birlikdə 450, ikinci yerdə 5 sayır.

Burada diqqəti cəlb edən başqa bir cəhət isə belədir: Birinci bölümün l-ci cümləsində كَمِشْكَوةٍ sözünin əvvəlindəki ك hərfini çıxarmış və yalnız مِشْكَوةٍ فِيهَا مِصْبَاحٌ = içində işıq olan çıraqdandır" üzərindən hesablayaraq ayənin Risələtun-Nura işarə etdiyini bildirmiş, ة hərfinin hərəkəsini nəzərə almamışdır. Yəni burada 450 rəqəm dəyəri verdiyi hərfi orada 400 saymış, 20 rəqəm dəyəri verdiyi ك hərfini nəzərə almamışdır.

Said Nursi sözlərinə belə davam edir: اَلْمِصْبَاحُ فِى زُجَاجَةٍ اَلزُّجَاجَةُ كَاَنَّهَا كَوْكَبٌ دُرِّىٌّ = "O işıq bir şüşə içindərir. O şüşə sanki parlaq ulduzdır" cümləsinin rəqəm dəyəri 1345 edir. Bu rəqəm Rəsailin-Nurun yayılması, məşhurlaşması və parıldaması tarixinə tam şəkildə uyğundur. Çünki şəddəli ر iki ر, şəddəli ن iki ن, şəddəli ز, əsli baxımından bir ل bir ز və birinci زُجَاجَة vəqfə (dayanma) olduğuna, oradakı ة; ه, ikincisi isə vəqfə olmadığına görə ة sayılır. اَلْمِصْبَاحُ فِى زُجَاجَةٍ = *"O işıq bir şüşənin içindədir"* cüm-

ləsini əvvəlki paraqrafda başqa məqsədlə qiymətləndirmişdi. Sonra sözlərinə belə davam edir:

“Əgər şəddəli ز iki ز sayılsa, o zaman 1322 edir. Bu da Risalei-Nur müəllifinin, Nur kitabları ilə bağlı hazırlıq apardığı tarixə tam şəkildə uyğun gəlir.”[306]

Əvvəlki paraqrafda “şəddəli ز, əsli baxımından bir ل bir ز sayılsa", deyərək 37 rəqəm dəyəri verdiyi hərflərə, burada 14 rəqəm dəyəri verərək istədiyi nəticəni əldə etməyə çalışmışdır.

## E - RİSALEYİ-NURLARIN DƏYƏRİNƏ İŞARƏLƏR

Said Nursi deyir ki, Quran ilə bu qədər mənalı və çoxyönlü uyğunluq həmrəyliklə göstərir ki, bunlar yalnız bir işarə deyil, bəlkə də etibarlı bir dəlildir. Bəlkə də Quranın həm elektrik enerjisinə, həm də Rəsailin-Nura olan mənəvi marağını açıq şəkildə göstərir. Bu ayənin mənəvi incəliklərindən biri də belədir: Möcüzəli bir qeyb xəbəri ilə elektrik enerjisini və Risalei-Nuru xəbər verdiyi kimi, bu ikisinin yaranma vaxtlarını və ondan sonra meydana gələcək hadisələri və bu ikisinin qeyri-adi hallarını da çox gözəl göstərir.[307]

Məsələn, “زَيْتُونَةٍ لَا شَرْقِيَّةٍ وَلَا غَرْبِيَّةٍ = şərqdə də, qərbdə də olmayan bir zeytun” cümləsi buna işarə edir: "Elektrik enerjisinin qiymətli xammalı, şərqdən nə də qərbdən idxal edilmişdir. O yuxarıdan, hava boşluğundan, rəhmət xəzinəsindən, göylərdən gəlir və hər yerin malıdır. Onu başqa yerdə axtarmağa ehtiyac yoxdur. Mənəvi elektrik enerjisi olan **Rəsailin-Nur da bu şəkildə nə Şərq mədəniyyətindən və elmlərindən, nə də Qərbin fəlsəfəsi və təbiət elmlərindən qaynaqlanan və onlardan alı-**

[306] Şualar, Birinci Şua, a.ç.ə, c. I, s. 832.
[307] Şualar, Birinci Şua, a.ç.ə, c. I, s. 833.

**nan nurdur. O, səmavi olan Quranın şərq və qərbin üzərində olan Ərşdəki yüksək yerindən götürülmüşdür.”**[308]

Batil yolla ayədən çıxardığı işarələri etibarlı dəlillər adlandırdı. Sonra da möcüzəvi qeyb xəbərini əldə etdiyi iddiası ilə elektrik enerjisinin və öz kitablarının qeyri-adi olduqlarını vurğuladı.

Said Nursi elektrik enerjisinin necə istehsal edildiyini bilmədiyinə görə onun hava boşluğundan gəldiyini, öz kitabının da bu şəkildə göydən gəldiyini iddia edərək, onun Qurandan deyil, Quranın alındığı Ərşdən götürüldüyünü iddia edir. Onun bu iddiası yuxarıda qeyd olunan iddiaları ilə tam bir bütövlük əmələ gətirir. Onun fikrincə, Risalei-Nurlar Quranın götürüldüyü yerdən götürülmüşdür. Oradan daha əvvəl nazil olunan Quran bir qayda olaraq, o yeni kitabı və onu təbliğ edəcək insanı xəbər verdiyinə görə, Said Nursi fantaziyasını bu bünövrə üzərində qurur.

## F - RİSALEYİ-NURLARI OXUYANLARA İŞARƏLƏR

Said Nursi tələbələrini də unutmayaraq, ayədən onlara da pay ayırmışdır. O, belə deyir يَكَادُ زَيْتُهَا يُضِيءُ وَلَوْ لَمْ تَمْسَسْهُ نَارٌ نُورٌ = *“od toxunmasa da, sanki (haradasa) yağın özü işıq saçacaq kimidir. Nur”* cümləsi işarə edir ki: "Hicri XIII və XIV əsrdə tavandan asılan lampalar odsuz yanırlar, odsuz parlayırlar. Onun zamanı yaxındır, yəni 1280-ci il tarixinə yaxındır. Bu cümlə ilə elektrik enerjisinin qeyri-adi vəziyyətinə və gələcəyinə işarə edildiyi kimi, mənəvi elektrik enerjisi olan Rəsailin-Nur da çox yüksək və dərin elm olduğu üçün, təhsil məsrəflərinə, dərs öyrənməyə, başqa müəllimlərdən və onların ağzından dərs öyrənməyə ehtiyac qalmadan hər kəs səviyyəsinə görə o ali

[308] Şualar, Birinci Şua, a.ç.ə, c. I, s. 833.

elmləri, çətinlik oduna ehtiyac olmadan başa düşə bilər, öz-özünə istifadə edə bilər, tədqiqatçı və əsl elm adamı ola bilər.[309]

Said Nursi başqa yerdə belə deyir: “Bir il bu risalələri və bu dərsləri başa düşərək və qəbul edərək oxuyan bu dövrün mühüm və real alimi ola bilər. Hətta başa düşməsə də, Risalei-Nur tələbələrinin müəyyən mənəvi şəxsiyyəti olduğuna görə, şübhəsiz ki, o, artıq bu dövrün bir alimidir.”[310]

Said Nursinin fikrincə, Risalei-Nur Quranın yüzdən çox tilsimlərini, müəmmalarını həll edən və üzə çıxaran ən inadkar dinsizləri susdurub çarəsiz qoyan[311] bir kitabdır. Onun tilsim və müəmma adlandırdığı şeylər, yəqin ki, yuxarıdakı ifadələridir.

Daha çox şiələrin və sehrbazların istifadə etdiyi cifr yolu ilə, hərflərlə saylar arasında əlaqə quraraq bəzi işarələri əldə etməyə çalışmaq və onları ayənin müəyyən hökmü kimi göstərmək, həqiqətən, çox ağır bir məsuliyyətə girməkdir. Allah Təala belə buyurur:

وَاِنَّ مِنْهُمْ لَفَرِيقًا يَلْوُنَ اَلْسِنَتَهُمْ بِالْكِتَابِ لِتَحْسَبُوهُ مِنَ الْكِتَابِ وَمَا هُوَ مِنَ الْكِتَابِ وَيَقُولُونَ هُوَ
مِنْ عِنْدِ اللَّهِ وَمَا هُوَ مِنْ عِنْدِ اللَّهِ وَيَقُولُونَ عَلَى اللَّهِ الْكَذِبَ وَهُمْ يَعْلَمُونَ

**“Onlardan bir qrupu da Kitabı oxuyurmuş kimi dillərini bükürlər ki, siz onların oxuduqlarını Kitaban hesab edəsiniz. Halbuki onların bu oxuduqları Kitabdan deyildir. Onlar isə: “Bunlar Allah tərəfindəndir”, - deyirlər. Halbuki, bunlar Allah tərəfindən deyildir. Onlar bu yalanı bilə-bilə Allaha qarşı söyləyirlər”** (“Ali-İmran” surəsi, 3/78).

Həmçinin Risalei-Nurların ən inadkar filosofları susdurduğu və minlərlə alimi heyran qoyduğu iddia edilir, lakin onlardan

---

[309] Şualar, Birinci Şua, a.ç.ə, c. I, s. 833.
[310] Said Nursî, Lemalar, Yirmi Birinci Lema, a.g.e, c. I, 672.
[311] Emirdağ Lâhikası (1), Mektup No: 24, a.g.e, c. I, s.1695.

heç birinin kim olmasından bəhs edilmir.[312] Kaş onların hərəsindən birinin adını və onları hansı məlumatları ilə susdurub heyran qoyduqlarını yazardılar, bizə də dəyərləndirmək imkanı tapa bilərdik. Əslində, ad da verirlər, lakin bunlar əsrlər əvvəl ölmüş filosofların adlarıdır.

Deyirlər ki, Risalei-Nurun elmi qüdrətini göstərmək mümkün olsaydı, ən məşhur İslam filosoflarından sayılan İbn Sina, Fərabi və İbn Rüşdə diz çöküb Risalei-Nurdan dərs alardılar.[313]

---

[312] Şualar, On Dördüncü Şua, a.ç.ə, c. I, s. 1037.
[313]Sikke-i Tasdik-i Gaybi, a.ç.ə, c. II, s. 2104.

## BİBLİOQRAFİYA


Qurani-Kərim.
Buhârî, el-Câmius-sahîh.
Müslim, Sahîh-u Muslim.
Tirmizî, Sünenut-Tirmizî.
Kutsal Kitap, Eski ve Yeni Ahid (Tevrat ve İncil) Kitabı Mukaddes Şirketi, İstanbul 1981.
İncil (Müjde), İncilin Çağdaş Türkçe Çevirisi, Yaşam Yayınları, İstanbul 2002.
Abdulaziz BAYINDIR, Kuran Işığında Tarikatçılığa Bakış, Süleymaniye Vakfı Yayınları, Dördüncü Baskı, İstanbul 2004.
Abdurrahman KÜÇÜK, Dinler Tarihi, Ocak Yayınları, Ankara 1997.
Ali Ramazan DİNÇ, İki Cihan Serveri Peygamberi Zîşânımız, Yeni Dünya Dergisi, 58-59 sayılar, Ağustos – Eylül 1998.
Bediuzzaman Said Nursî, Risale-i Nur Külliyatı, Yeni Asya Yayınları, İstanbul, 1. cilt 1994, 2. cilt 1995.
Bediuzzaman Said Nursî, Sözler, Sözler Yayınevi, İstanbul 1993.
Elmalılı Muhammed Hamdi YAZIR, Hak Dini Kuran Dili, İstanbul 1936.
Fethullah GÜLEN, Küçük Dünyam 2, Zaman Gazetesi 28 Kasım 1996.
Hasan Kâmil YILMAZ, İnsânı Kâmil, Altınoluk Mecmuası, Temmuz 1996.
Hayreddin KARAMAN, İmamı Rabbani ve İslam Tasavvufu, İstanbul 1992.
Hayrettin KARAMAN, İbrahim Kâfi DÖNMEZ, Mustafa ÇAĞIRICI ve Sadrettin GÜMÜŞ, Kuran Yolu Türkçe Meal ve Tefsir, Ankara 2003.

Hayrettin KARAMAN, Ali ÖZEK, İbrahim Kâfi DÖNMEZ, Mustafa ÇAĞIRICI, Sadrettin GÜMÜŞ, Ali TURGUT, Kuranı Kerim ve Açıklamalı Meâli, TDV Yayınları, Ankara 1997.
Hayrettin KARAMAN, "Ramazanda Türbe Ziyaretleri" 12. 12. 2000 tarihli Yeni Şafak Gazetesi, Fıkıh Köşesi.
İbn Hişam, Siretun-Nebî, Thk: M. Muhyiddin Abdülhamid, Beyrut 1401/1981.
İbn Kemal Paşa, el-Erbeûn, Süleymaniye Kütüphanesi, Esad Efendi, 1694.
İmam Rabbânî, el-Mektûbât, Arapça, tarih ve yer yok.
İsmail b. Muhammed el-Aclûnî, Keşful-hafâ, Beyrut 1988/1408.
İsmail b. Ömer b. Kesir, Tefsîru İbn Kesîr, Beyrut 1401.
İzutsu TOSHİHİKO, Taoculukdaki Anahtar Kavramlar, Çev. Ahmet Yüksel Özemre, Kaknüs Yayınları, İstanbul 2001.
J.C COOPER, Erdemin Işığı (Taoculuk), Çev. İsmet Zeki Eyuboğlu, Say Yayıncılık, İstanbul 1994.
Katolik Kilisesi Din ve Ahlak İlkeleri, Çev. Dominik PAMİR, İstanbul 2000.
Lao Tzu, Bilinmeyen Öğretiler, (Hua Hu King), Çev. İsmail TAŞPINAR, Amine Gülşah COŞKUN, Kaknüs Yayınları, İstanbul 1999.
Mahmut USTAOSMANOĞLU (Mahmut Efendi), Ruhul-Furkan Tefsiri, İstanbul 1992.
Mehmet DEMİRCİ, "Hakikati Muhammediye", Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi.
Muhammed b. Abdullah Hani, Adâb, Çev. Abdulkadir AKÇİÇEK, İstanbul, 1396/1976.
Muhammed b. Cerîr et-Taberî, Câmiul-beyân fî tefsîril- Kuran (Taberi Tefsiri), Beyrut 1412/1992.
Muhammed Rızal-Muzaffer, Akâidül-imâmiyye, Sia nançları, Çev. Abdülbaki GÖLPINARLI, İstanbul 1978.

Sadık ALBAYRAK, Son Devir Osmanlı Uleması, İstanbul. 1996.
Sadık DÂNÂ (Alaaddin Attardan naklen), Altınoluk Sohbetle- ri I, Erkam Yayınları, İstanbul 1991.
Safiyyur-Rahmân el-Mubarekfûrî, er-Rahikul-mahtûm, Bey- rut 1408/1988.
Şinasi GÜNDÜZ, Mahmut AYDIN, Misyonerlik, İstanbul 2002.
Osman YENER, Tao The Ching, Yol ve Erdemin Kitabı, Çeviri, Yorum ve Notlar, Anahtar Yayıncılık, İstanbul 1998.

**Sözlükler**

el-Cevherî, İsmail b. Hammâd, es-Sıhah, Beyrut 1404/1984.
el-Halil b. Ahmed (100-175 h.) el-Ayn, Thk: Mehdî el-Mahzûmî ve İbrahimes-Srâî, İran 1409.
İbn Manzûr, Lisanul-Arab, Beyrut 1410/1990.
Mütercim Asım, Kâmus Tercümesi (Firuzabâdînin), Bahriye Matbaası 1305.
Rağıb el-İsfahânî, el-Müfredât, Thk: Safvân Adnan Davudî Dımaşk ve Beyrut 1412/1992.
Şemseddin SAMİ, Kâmûsi Türkî, Dersaadet 1317.
Zebîdî (Muhammed Murtazâ ez-Zebîdî), Tâcul-arûs, Mısır 1306.

**İnternet saytları**

www.incil.com
http://arsiv.zaman.com.tr/1996/11/28/kose/hocaefendi/index.html; (30/11/2003)
www.bediuzzaman.net
www.risaleinur.com.tr